*Sentyabrın 19–20-də keçirilmiş birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan Qarabağdakı qanunsuz separatçı rejimin mövcudluğuna son qoydu və özünün beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini tam bərpa etdi.*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 201 (30895) 20 sentyabr 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

**Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi**

# Müqəddəs zəfərin suverenlik mükafatı

## *Yaxud 23 saat 43 dəqiqənin qətilik və bütövlük hökmü*



**İki il əvvəlin dünənində başladı, bu günündə başa çatdı. Cəmi 23 saat 43 dəqiqə çəkdi və həmin müddət bizi beş il əvvəlin müqəddəs Zəfərinə apardı. Eyni ruhyüksəkliyini, eyni ovqatı və eyni əzmi yaşadıq. Təkcə yaşamadıq, həm də təmizləndik, pakländıq, sanki dünyaya yenidən gəldik.**

2020-ci ilin Vətən müharibəsinin ilk günlərinə aid və özündə Azərbaycan xalqının vəhdətini əks etdirən çoxsaylı video görüntülərdən biri daha təsirlidir. Yəqin, seyr etmisiniz, həmin görüntüdə əsgərlərlə dolu hərbi maşınlar üzü cəbhəyə yollanır, bir sürücü isə maşınını kənara çəkib, dizüstə çökərək əllərini göyə qaldırır. Yox, o, nəyə görəsə yalvarmırdı, belə bir qürurlu günə görə şükr və dua edirdi. İki il əvvəlin dünənində əllərimizi göyə qaldırıb dua etdik. İki il əvvəlin bu günündə isə uca Tanrıya şükranlarımızı çatdırdıq.

*(ardı 3-cü səhifədə)*

## Qarabağda separatçılığa son qoymuş hərbi rəşadət



Səhifə ➩ 9

## Koçaryan və Sarkisyanın qanlı cinayəti Avropa Məhkəməsində



Səhifə ➩ 5

## Abidələr dahisi özü də abidələşəcək



Səhifə ➩ 10



## “Əsrin müqaviləsi” Azərbaycanın yeni neft strategiyasının təntənəsidir

Səhifə ➩ 7

## Aİ Bakının “qırmızı xətlər”ini nəzərə alır



Səhifə ➩ 4

## Azərbaycanın qitələrarası strateji əməkdaşlığı



Səhifə ➩ 5

## Şerman “düzəlişləri” işə keçmədi



Səhifə ➩ 4

# Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınması sahəsinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınmalarının dayanıqlılığının və davamlılığının, sərnişinlərə göstərilən xidmətlərin keyfiyyətinin və təhlükəsizliyinin təmin olunması, qabaqcıl beynəlxalq tələblər və təcrübə nəzərə alınmaqla bu sahədə fəaliyyət göstərən daşıyıcıların işinin səmərəli təşkili məqsədilə "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası dövlət büdcəsinin tərkibində "İctimai nəqliyyat" Məqsədli Büdcə Fondu (bundan sonra – Fond) yaradılsın.

**2.** Müəyyən edilsin ki:

2.1. Fond aşağıdakı mədaxil mənbələri hesabına formalaşır:

2.1.1. avtomobil benzininin, dizel yanacağının və maye qazın hər litrinə görə yol vergisinin Fonda köçürülən hissəsi;

2.1.2. nəqliyyat vasitələrinin Bakı şəhərinin inzibati ərazisində müəyyən edilmiş ödənişli hərəkət zonalarına daxil olmasına görə ödənilən haqq;

2.2. Fondun vəsaitinin dövlət büdcəsi tərkibində təsdiq olunmuş xərclər dairəsində sərəncamçısı Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyidir;

2.3. Fondun vəsaitindən "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun və dövlət xəzinədarlığı sahəsində digər normativ-hüquqi aktların tələbləri nəzərə alınmaqla Bakı, Sumqayıt, Gəncə, Naxçıvan, Xankəndi şəhərlərinin və Abşeron, Ağdam, Şuşa, Laçın rayonlarının inzibati ərazilərində aşağıdakı tələblərə cavab verən nağdsız ödəniş sisteminə keçirilmiş nəqliyyat vasitələri ilə müntəzəm sərnişin daşınmalarını həyata keçirən hüquqi şəxslərə və ya fərdi sahibkarlara bu Fərmanın 4.2-ci bəndinə uyğun olaraq subsidiya ödənilməsi üçün istifadə edilir:

2.3.1. sıxılmış təbii qazla işləyən mühərriklə təchiz edilmiş avtobuslar;

2.3.2. elektrik mühərriki ilə təchiz edilmiş avtobuslar;

2.3.3. Gəncə şəhərinin inzibati ərazisinə münasibətdə həmçinin, istehsal tarixi 2025-ci il yanvarın 1-dən sonra olan dizel mühərrikli avtobuslar.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Fərmanın 2.1.2-ci yarımbəndinə uyğun olaraq, Bakı şəhərinin inzibati ərazisində ödənişli hərəkət zonaları və nəqliyyat vasitələrinin həmin zonalara daxil olmasına görə haqqın məbləği ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. bir ay müddətində aşağıdakı normativ-hüquqi aktları təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

3.2.1. bu Fərmanın 2.3-cü bəndində göstərilən inzibati ərazilərdə avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınmalarını həyata keçirən daşıyıcılarla bağlanılan avtomobil nəqliyyatı xidməti haqqında müqavilənin şərtlərini;

3.2.2. bu Fərmanın 4.2-ci bəndinə uyğun olaraq, daşıyıcılara ödəniləcək subsidiyanın hesablanması və ödənilməsi qaydasını;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (bundan sonra – Nazirlik):

4.1. 2026-cı il yanvarın 1-dən bu Fərmanın 2.3-cü bəndində göstərilən inzibati ərazilərdə müntəzəm sərnişin daşınmalarına ehtiyacın və əlçatanlığın təmin edilməsi, sərnişin axınının intensivliyi və ya avtomobil nəqliyyatı xidmətinin davamlılığı nəzərə alınmaqla, Nazirliyin tabeliyindəki Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (bundan sonra – Agentlik) müəyyən etdiyi marşrutlar üzrə daşıyıcıların avtomobil nəqliyyatı ilə müntəzəm sərnişindaşıma xidmətləri göstərməsi nəticəsində yaranan xərclərinin kompensasiya olunmasını nəzərdə tutan məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin tətbiqinə başlasın və bu prosesi 2028-ci il yanvarın 1-dək başa çatdırsın;

4.2. Agentlik və avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınmalarını həyata keçirən daşıyıcılar arasında bağlanılan avtomobil nəqliyyatı xidməti haqqında müqaviləyə əsasən daşıyıcılar tərəfindən göstərilən avtomobil nəqliyyatı xidmətinə görə hesablanan dəyərlə həmin xidmət üçün təsdiq edilmiş gediş haqqına uyğun olaraq sərnişinlərin ödənişlərindən toplanan vəsait arasında mənfi fərq yarandığı təqdirdə, həmin fərq məbləğində Fondun vəsaiti hesabına daşıyıcılara subsidiya ödənilməsini təmin etsin;

4.3. bu Fərmanın 4.2-ci bəndi nəzərə alınmaqla, avtomobil nəqliyyatı xidməti haqqında müqavilənin bağlanılması üçün müntəzəm marşrutlar üzrə avtomobil nəqliyyatı xidməti göstərəcək avtomobil nəqliyyatı vasitələrinə dair tələbləri bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.4. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**5.** Bu Fərmanın 2.1.1-ci yarımbəndi 2026-cı il yanvarın 1-dən, 2.1.2-ci yarımbəndi isə 2027-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 sentyabr 2025-ci il**

# Azərbaycanın yəhudi icmasına

**Hörmətli həmvətənlər!**

Sizi yəhudi xalqının yeni il bayramı – Roş ha-Şana münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Tarixən mütərəqqi tolerantlıq ənənələrinin və yüksək birgəyaşayış mədəniyyətinin hökm sürdüyü Azərbaycanda yəhudi icmasının özünəməxsus yeri vardır. Bu gün cəmiyyətimizin ayrılmaz hissəsi olan yəhudilər yüz illərdir ki, digər xalqların və konfessiyaların nümayəndələri ilə birlikdə əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşayırlar.

Müasir dünyamızda Azərbaycan antisemitizmin, ksenofobiya və etnik-dini dözümsüzlüyün mövcud olmadığı nadir məkanlardan biridir. Mədəni müxtəlifliyin qorunub saxlanılması, etnik azlıqların dil və mədəniyyətinin inkişafı, multikultural dəyərlərin təşviqi Azərbaycanda həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Yəhudiəsilli vətəndaşlarımız ictimai-siyasi həyatın bütün sahələrində yaxından iştirak edir, cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin daha da gücləndirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işinə layiqli töhfələr verirlər.

Roş ha-Şana yeniliyin, mənəvi saflığın, xeyirxahlıq və həmrəylik duyğularının rəmzidir. Bu əziz gündə bir daha hər birinizə bayram təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 sentyabr 2025-ci il**

# Ruanda Prezidenti Pol Kaqame Azərbaycana rəsmi səfərə gəlib



**Ruanda Respublikasının Prezidenti Pol Kaqame sentyabrın 19-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Ruanda Respublikasının Prezidentini Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər qarşıladılar.

# Milli Məclis sədrinin Malayziya görüşləri

**Sentyabrın 19-da Milli Məclisin sədri Sahibə Qafarova Malayziyaya səfəri çərçivəsində Malayziya Parlamenti Senatının sədri Avanq Bemi Bin Avanq Ali Basah ilə görüşüb.**



Ölkələrimiz və parlamentlərimiz arasındakı münasibətlərin mövcud səviyyəsindən məmnunluğunu bildirən Senatın sədri Sahibə Qafarovanın bu səfərinin ölkələrimiz arasında əlaqələrin inkişafına töhfə verəcəyinə inandığını qeyd edib.

Söhbət zamanı ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əməkdaşlığın perspektivləri müzakirə olunub, beynəlxalq platformalarda əməkdaşlığın əhəmiyyəti vurğulanıb. Qanunverici orqanlarımızın həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatlarında uğurlu əməkdaşlığından məmnunluq ifadə edilib.

***

**Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova Malayziya Parlamenti Nümayəndələr Palatasının sədri Tan Sri Dato Johari Bin Abdul ilə də görüşüb.**

Nümayəndələr Palatasının sədri Azərbaycan parlament nümayəndə heyətinin AİPA-nın 46-cı Baş Assambleyasında iştirakına görə təşəkkürünü bildirib. Azərbaycan və Malayziyanın qanunvericilik orqanlarının parlamentlərarası təşkilatlar çərçivəsində əməkdaşlığından danışan Sahibə Qafarova, bu baxımdan AİPA-nın 46-cı Baş Assambleyasının əhəmiyyətini qeyd edib.

Görüşdə Azərbaycan və Malayziya parlamentləri arasında əməkdaşlığın perspektivlərindən danışılıb, bu cür görüşlərin və aparılan danışıqların parlamentlərimiz arasında uğurlu əlaqələri təsdiq etdiyi qeyd olunub.

***

**Milli Məclisin sədri Sahibə Qafarova dünən Kuala Lumpur şəhərinin meri, BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) sabiq icraçı direktoru Maimuna Mohd Şərif ilə də görüşüb.**

Milli Məclisin sədri səfər çərçivəsində keçirilən tədbirlər və görüşlər barədə məlumat verərək, belə təmasların ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrin daha da genişləndirilməsi baxımından əhəmiyyətli olduğunu diqqətə çatdırıb. Kuala Lumpur şəhərinin meri Azərbaycana səfərlərini, Prezident İlham Əliyevlə görüşlərini xatırladaraq, ölkəmizin, o cümlədən paytaxt Bakının inkişafı ilə bağlı müsbət təəssüratlarını bölüşüb.

Söhbət zamanı, həmçinin Bakı və Kuala Lumpur arasında əməkdaşlıq perspektivlərinə toxunulub, maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***XQ***

# XİN məlumat verir



**Sentyabrın 19-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Fransanın ölkəmizə yeni təyin olunmuş səfiri Sofi Laqutt ilə görüşüb.**

Səfir etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. C.Bayramov səfiri təyinatı münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə Azərbaycan və Fransa arasında mövcud ikitərəfli və çoxtərəfli münasibətlərin hazırkı vəziyyəti, habelə regional və beynəlxalq məsələlər müzakirə olunub.

***

**Azərbaycan "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramı çərçivəsində ölkəmizdə ali təhsil almaq hüququ qazanmış 14 fələstinli tələbəni Qəzza bölgəsindən təxliyə edib.**

Xarici İşlər Nazirliyi tərəfindən həyata keçirilmiş təxliyə prosesi sentyabrın 17-də başlayıb və artıq həmin tələbələr təyyarə ilə ölkəmizə gətiriliblər. Onlar Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə müvafiq ali təhsil qurumlarının nümayəndələri tərəfindən qarşılanaraq yataqxanalara yerləşdiriliblər.

Qeyd edək ki, Fələstin Dövləti tərəfindən təqdim olunmuş namizədliklər əsasında həmin tələbələrdən 8 nəfəri ötən il, 6 nəfəri isə cari ildə "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramına qəbul olunub.

***XQ***



# Milli Məclisdə Dövlət Suverenliyi Gününə həsr olunmuş konfrans

**Sentyabrın 19-da Milli Məclisdə "Konstitusiya və Suverenlik İli" çərçivəsində Dövlət Suverenliyi Gününə həsr olunmuş konfrans keçirilib.**



Konfransda Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov Prezidentin müvafiq Sərəncamı ilə Azərbaycanda 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edildiyini nəzərə çatdırıb. O, bunun Azərbaycan Konstitusiyasının 30 illiyi və Vətən müharibəsində Qələbəmizin 5 illiyi ilə əlaqədar olduğunu söyləyib.

Z.Əsgərov Azərbaycanın ilk milli Konstitusiyasının 1995-ci ildə, ondan öncə - 1991-ci ildə isə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul edildiyini və orada milli Konstitusiyanın hazırlanması ilə bağlı müddəanın əks olunduğunu bildirib. O qeyd edib ki, 1995-ci ildə ulu öndər Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiya yaradılıb. İlk milli Konstitusiyamızın əsas qayəsini hər bir Azərbaycan vətəndaşının hüquq və azadlıqlarının təsbit olunması və müdafiəsi təşkil edir.

2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsinin rəmzi məna daşıdığını deyən Ziyafət Əsgərov, 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Qələbənin qazanıldığını, lakin tam suverenliyin hələ bərpa edilmədiyini, bəzi ərazilərimizin hələ ki, erməni separatçılarının əlində olduğunu qeyd edib. Nəhayət, 2023-cü il sentyabrın 19-20-də 23 saatlıq lokal xarakterli antiterror tədbirlərinin uğurla başa çatması nəticəsində Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiyini vurğulayıb.

Sonra konfransda Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edib. O, Azərbaycan Konstitusiyasının preambulasında qeyd edildiyi kimi, müstəqillik, suverenlik və ərazi bütövlüyünün Azərbaycan xalqının ülvi niyyətlərindən olduğunu söyləyib. Bildirib ki, Azərbaycan torpaqlarının 30 il ərzində işğal altında olduğuna baxmayaraq, xalqımız öz əzmini itirməyib, öz ərazi bütövlüyü və suverenliyinin bərpası istiqamətdə daim addımlayıb. Ötən əsrin 90-cı illərinin əvvəlində ölkədə müşahidə edilən siyasi tənəzzül, daxili çəkişmələrin, Konstitusiyanın hüquqi cəhətdən işləmədiyi bir zamanda ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışının dövlətimiz üçün dönüş nöqtəsi olduğunu vurğulayıb.

Konfransda çıxış edən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Parlamentinin müstəqilliyin ilk illərindən müasir dövrümüzə qədər bütövlükdə konstitusionalizmin inkişafına töhfə verdiyini bildirib. Dövlət suverenliyinin hüquqi tarixi aspektlərinin hər zaman ulu öndər Heydər Əliyevin diqqət mərkəzində olduğunu vurğulayıb. O, Suverenlik və Konstitusiya anlayışlarının bir-biri ilə sıx bağlı olduğunu deyib. Qeyd edib ki, ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə Azərbaycanın suverenliyinin aktual problemləri dərindən öyrənilməyə başlandı. Suverenliyin əsas əlaməti olan ərazi bütövlüyünün bərpa olunması üçün xüsusi strateji plan çəkildi.

Daha sonra çıxış edən parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev bildirib ki, bu gün Azərbaycan Respublikasının ərazi bütövlüyü tam şəkildə bərpa olunub və ölkə tam suveren şəkildə öz ərazisində idarəetməni təmin edir.

Konfransda Milli Məclisin komitə sədrləri Sadiq Qurbanov, Siyavuş Novruzov, Fazil Mustafa, Zahid Oruc, Hicran Hüseynova, Anar İsgəndərov, Səməd Seyidov, Azər Əmiraslanov, komitə sədrinin müavini Razi Nurullayev, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi Elşad Nəsirov və başqaları çıxış ediblər.

***XQ***

# Müqəddəs zəfərin suverenlik mükafatı

(əvvəli 1-ci səhifədə)



2023-cü ilin bu günündə gözlərimizin önündə böyük tarixin yazıldığı üçün təkcə şükr etmədik, inanılmaz sevinc hissi də keçirdik. Silahlı Qüvvələrimizin yüksək peşəkarlıqla reallaşdırdıqları lokal xarakterli antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasının qürurunu yaşadıq. Tam əminik ki, bu yaşantı nəsillərə miras qalacaq qəhrəmanlıq salnaməmizdir.

Silahlı Qüvvələrimizin qısa müddətdə əldə etdiyi böyük uğur xalqımıza bütöv Vətəndə yaşamaq xoşbəxtliyini daddırdı. Xoşbəxtliyin ilk müjdəçisi isə Prezident, Ali Baş Komandan İlham Əliyev oldu. Dövlətimizin başçısı xalqa 20 sentyabr 2023-cü il tarixli müraciətində fəxrlə bəyan etdi: “Dünən təxminən saat 13:00 radələrində antiterror tədbirlərinin başlanması və uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini bərpa etmişdir”.

Prezident İlham Əliyev xalqa müraciətində bir çox məqamlardan söz açmaqla yanaşı, Silahlı Qüvvələrimizin döyüş meydanında böyük şücaət göstərdiyini də vurğuladı. Eynilə 44 günlük müharibədəki kimi: “Qeyd etməliyəm ki, antiterror tədbirləri nəticəsində bizim hərbçilərimiz böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərmişlər. Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz bir daha qeyd etdiyim kimi, qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır”.

***

44 günlük müharibə başa çatanda insanlarımızı Ağdərənin, Əsgəranın, Xocavəndin, Xankəndinin və nəhayət qan yaddaşımız olan Xocalının aqibəti maraqlandırdı. Savaşın yekunlarını təsdiqləyən 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın imzalanmasından sonra Qarabağa məramı sülhdən uzaq Rusiya hərbçilərinin yerləşmələri, onların özlərini bölgədəki separatçıların hamisi qismində aparmaları, habelə Ermənistanın getdikcə artan, yeni miqyas alan, itirilmişlərin bərpasına yönələn çoxsaylı spekulyasiyaları narahatlığımızı daha da artırdı. Qarabağdakı qondarma rejimin təmsilçilərinin özlərini, sanki, ayrıca respublikanın nümayəndələri olaraq göstərmələri isə səbr kasamızı daşdırdı.

Üstəlik, içimizdəki bəzi ağzıgöyçəklər də var idi ki, onlar “Azərbaycan ərazilərinə rusları buraxdı”, “Qarabağda Rusiyaya bağlı hakimiyyət qurulacaq” və sair bu kimi fikirlərlə cəmiyyətdə çaşqınlıq yaratdılar. Bütün bu sayaq təmayüllərə özünün qətiyyətli cavabını verən isə Prezident İlham Əliyev oldu. Dövlətimizin başçısı Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bildirdi ki, ölkəmiz lazım olan vaxtda lazım olan addımları atır və atacaq: “Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik. Hesab edirəm ki, yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında. Nəyi ediriksə, dəqiqliklə edirik. Son dörd il ərzində üç əməliyyat keçirilmişdir, üç toqquşma olmuşdur. Üçündə də qalib gəldik. Üçündə də bayrağımızı istədiyimiz yerə sancdıq. Üçündə də düşmənə sarsıdıcı zərbələr endirdik”.

***

Bəli, Prezident İlham Əliyev nəyi, nə zaman və necə edəcəyini hamıdan çox yaxşı bilən lider keyfiyyətlərini göstərdi. Ali Baş Komandanın sadiq əsgərlərinin şücaət və rəşadəti nəticəsində 2023-cü il sentyabrın 28-də qondarma “Dağlıq Qarabağ Respublikası”nın rəhbərliyi özünü buraxmaq məcburiyyətində qaldı. Bu, separatizmin, əslində, qurama mahiyyət daşıyan siyasi əsaslarının tamamilə sıradan çıxması kimi müstəsna anlam daşıdı.

İlk siyasi nəticə Qarabağda paralel idarəçiliyin və hərbi birləşmələrin mövcudluğuna son qoyulması idi. İkinci siyasi nəticə o oldu ki, məhz antiterror tədbirlərindən sonra Azərbaycan-Ermənistan sülh prosesi yeni mərhələyə qədəm qoydu. Ölkəmiz öz şərtlərini daha əmin şəkildə diktə etmək imkanı qazandı. Bu isə öz növbəsində həmin vaxtadək gedən vasitəçilərli danışıqlar mərhələsini sona çatdırdı, müxtəlif siyasi manevrlərin qarşısını kəsdi, Cənubi Qafqaz coğrafiyası üçün yeni düzənin başlanğıcını qoydu. Prezident İlham Əliyev sözügedən müraciətində mövcud məqamı bir növ anons kimi vurğuladı. “Mən ümid etmək istəyirəm ki, bizim atdığımız addımlar və antiterror tədbirlərinin nəticələri imkan verəcək ki, nəhayət sülh danışıqları üçün olan, Ermənistan tərəfindən qoyulan, verilən, təklif olunan, necə adlandırırsınız adlandırın, maneə aradan qalxa bilər. Bu, Cənubi Qafqazda yeni reallıq yaradacaq, uzunmüddətli sülh yaradacaq”, – deyən dövlətimizin başçısı vurğulamışdı ki, Azərbaycanın və Ermənistanın öz aralarındakı məsələləri tənzimləyəcəyinə, sülh müqaviləsi imzalayacağına və Cənubi Qafqaz ölkələrinin üçtərəfli formatda gələcək əməkdaşlıq haqqında işləməyə başlayacaqlarına ümidlər var.

Üçüncü siyasi nəticədən söz açaraq bildirək ki, 44 günlük müharibə Ermənistan üçün rüsvayçı sonluqla başa çatanda, bütün dünya Azərbaycanın gücünü və qüdrətini görmüşdü. Həmin vaxt aydın olmuşdu ki, ölkəmiz Ermənistandan qat-qat üstündür. Lokal xarakterli antiterror tədbirləri isə üstünlüyümüzü, bir növ, ehkamlaşdırdı. Azərbaycan regional balansı tamamilə öz xeyrinə dəyişdi və bölgədə əsas güc mərkəzi kimi mövqeyini möhkəmləndirdi.

Daha bir məqama diqqət yetirək. Antiterror tədbirlərinin beynəlxalq siyasi vəziyyətə də təsiri oldu. Əlbəttə, mövcud müstəvidə ölkəmizin mövqeyi əvvəldən də, kifayət qədər, dayanıqlı idi. Çünki Azərbaycan İkinci Qarabağ müharibəsində yalnız Ermənistana yox, eyni zamanda, onun xaricdəki havadarlarına qalib gəlmiş, bütövlükdə dünya erməniliyinə sarsıdıcı zərbə endirmiş, Qarabağ münaqişəsinin, əslində avantüra təmayülünü sübuta yetirmişdi.

İki il əvvəlin bu günündə yaşananlar isə beynəlxalq siyasi mövqeyimizi bir qədər də gücləndirdi. Dövlətimizin başçısı xalqa 2023-cü il sentyabrın 20-də ünvanladığı müraciətində həm bunu dedi, həm də xəbərdarlıq etdi: “Ancaq bununla bərabər, onu da bildirməliyəm ki, bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, “dəmir yumruq” yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!”

Antiterror tədbirlərinin beşinci siyasi nəticəsindən söz açaq. Azərbaycanın iki il əvvəl nümayiş etdirdiyi qətiyyət Cənubi Qafqaz müstəvisində məkrli oyun qurucularının planlarını tamamilə alt-üst etdi. Onlar hazırladıqları “ssenarilərin” heç nəyə yaramadığını gördülər. Dövlətimizin başçısı isə xalqa müraciətində bildirdi: “Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq!”

Antiterror tədbirlərinin altıncı siyasi nəticəsinə, daha doğrusu, Qarabağın, demək olar, tamamilə ermənisizləşdirilməsinə nəzər salaq. Halbuki, Azərbaycan Prezidenti xalqa müraciətində bildirmişdi: “Bunu mən demişəm və bir daha demək istəyirəm, Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır. Sadəcə olaraq, erməni millətçiləri, müharibə cinayətkarları, Ermənistanın və Qarabağın dırnaqarası rəhbərləri o insanları girov götürmüşdü, onların beyinlərini zəhərləmişdi. Azərbaycan haqqında, Azərbaycan xalqı haqqında olmazın yalanlarını uydurub onların beyinlərinə doldurmuşdur, onların beyinlərini zəhərləmişdir. Mən əminəm ki, Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək. Çünki bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur, ədavətimiz də yoxdur”.

Məlum olduğu kimi, qondarma rejimin özünü buraxmasından sonra rəsmi İrəvan Qarabağdakı erməni əhalinin Ermənistanın müxtəlif yerlərinə köçürülməsinə start verdi, dövlətimizin ermənilərin bölgədəki yaşam təminatlarına əhəmiyyətsiz yanaşdı. Sonradan məlum oldu ki, bu, əlahiddə məqsəd daşıyan siyasi gedişdir. Məqsəd isə Qarabağ avantürasını böyük niskil formasına salmaq idi.

Beləliklə, əzilmiş erməni obrazı ilə yaradılan saxta niskil bölgə ilə bağlı yeni ambisiyalar irəli sürmək, həmçinin, Qarabağ ermənilərinə yardım adı altında Ermənistana xaricdən maddi vəsait cəlb etmək məramına söykəndi. Bu məramın daha bir seqmentini Qarabağ ermənilərinin təhlükəsiz geri dönüşü məsələsini sülh danışıqlarının predmetinə çevirmək cəhdi təşkil etdi. Yəni, baş nazir Nikol Paşinyan administrasiyası əvvəllər Qarabağ erməniləri üçün beynəlxalq təminat tələb edirdisə, antiterror tədbirlərindən sonra həmin təminatı bölgəni tərk etmiş hayların geri dönüşü üçün istədi.

Ümumən, rəsmi İrəvan dolayısı ilə Qarabağa ayrıca beynəlxalq status əldə etməyə çalışdı ki, bu məqam real sülh danışıqlarının antiterror tədbirlərindən dərhal sonra yox, 2024-cü ilin əvvəlindən başlamasına səbəb oldu. Yəni, arada gecikmə qeydə alındı. Əlbəttə, Ermənistan hakimiyyəti heç bir istəyinə çata bilmədi və bu gün Bakı-İrəvan sülh sazişi artıq paraflanıb. Ümid edək ki, sənədin imzalanacağı gün də uzaqda deyil.

***

Bəli, iki il əvvəl düşmənə son dərəcə sarsıdıcı zərbə endirdik. Elə bir zərbə ki, o, sanki, ərazilərimizdəki separatçılıq mərəzini süpürüb aparan sel oldu. Hadisənin yuxarıda sadaladığımız siyasi tərəflərinin mövcudluğu kimi, mənəvi anlamı da var. Bu anlamın ən böyük təsvirini verən də, bu təsviri nəsillərə miras əməli yaddaş nümunəsinə çevirən də Prezident İlham Əliyevdir.

Bu gün xalqımız tarixində ilk dəfə olaraq dövlətimizin başçısının 2024-cü il sentyabrın 19-da imzaladığı Sərəncamla təsis olunmuş Dövlət Suverenliyi Gününü qeyd edir. Sərəncamda bu əlamətdar tarix ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində başladığımız azadlıq və müstəqillik uğrunda mübarizənin misilsiz neməti kimi vurğulanır.

Sənəddə keçdiyimiz yolun ağrı və acıları, məşəqqət və məhrumiyyətləri, faciə yaşantıları və uğurlarımız kino lenti kimi canlanır. Çətinliklərə sinə gərmək, ayaqda qalmaq və var olmaq uğrunda mücadiləmizin ayrı-ayrı epizodları da həmçinin. Sərəncamda bildirilir: “Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir”.

Artıq son üç ayını yaşamağa doğru getdiyimiz “Konstitusiya və Suverenlik İli” də 20 Sentyabr tarixinin ruhundan qaynaqlanır ki, bu ruha 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə ehtiram və ehtişam qazandıran Prezident İlham Əliyevdir. Axı lokal xarakterli antiterror tədbirləri nəticə etibarilə ölkəmizin konstitusyon quruluşunu bərpa etmək naminə keçirilmişdi. O quruluşu ki, qərarlaşması mahiyyətində tamlığımızı və bütövlüyümüzü daşıyan, müəllifi ulu öndər Heydər Əliyev olan Azərbaycan Konstitusiyasının qəbulunun 30 illiyinə çox böyük hədiyyədir. O quruluş ki, xalqımızın parlaq gələcək, işıqlı sabahlar, ədalətli cəmiyyət, sülh və əminamanlıq, dinclik, asayiş və rifah arzusunun ecaskar təntənəsidir. Eynilə dövlətimizin başçısının Sərəncamında vurğulandığı kimi: “Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır”.

XX əsrin görkəmli siyasi xadimi və böyük dövlət adamı Uinston Çörçil deyirdi ki, heç vaxt təslim olmayın, hətta ümidlər sönəndə belə, mübarizə insanı zirvəyə aparır. Bu gün tam qətiyyətlə demək olar ki, 20 sentyabr tarixi ilə Azərbaycan insanının, hər bir azərbaycanlının yaddaşında əbədiləşən Dövlət Suverenliyi Günü ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi ideoloji mübarizənin, Prezident İlham Əliyevin həmin mübarizəyə hakim kəsilmiş əzmi, iradəni və prinsipiallığı nəzəriyyədən fundamental idarəçilik xəttinə çevirmənin, ən əsası, dövlətimizin başçısının xalqa aşıladığı barışmazlıq hissinin, xalq-hakimiyyət vəhdətinin müqəddəs mükafatıdır. Əminik ki, bu mükafat ölkəmizi daha böyük zirvələrə daşıyacaq. Həm də ona görə əminik ki, biz yüksək zirvələrə layiq xalqıq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Baş prokurorun Naxçıvanda əməliyyat müşavirəsi




**Sentyabrın 18-də Baş prokuror Kamran Əliyev Naxçıvana səfər edib. Səfər çərçivəsində Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Baş prokurorun rəhbərliyi ilə Muxtar Respublika, Naxçıvan hərbi, Naxçıvan şəhər və digər tabe rayon prokurorluqların əməkdaşlarının iştirakı ilə əməliyyat müşavirəsi keçirilib.**

Baş prokuror Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik ili” elan olunması, birliyimizin, həmrəyliyimizin, müstəqilliyimizin və ərazi bütövlüyümüzün bariz nümunəsi olduğunu bildirərək, Ulu öndər Heydər Əliyevin prokurorluq orqanlarının inkişafına verdiyi töhfə, habelə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə, o cümlədən hüquq sistemində aparılmış islahatlar, işğaldan azad olunmuş ərazilərimizdə birinci vitse-prezident Mehriban xanım Əliyevanın da yaxından iştirakilə bərpa və yenidənqurma prosesləri ilə əlaqədar çoxsaylı infrastruktur layihələrinin həyata keçirilməsi ilə bağlı ətraflı məlumat verib.

Müşavirədə, həmçinin Naxçıvan Muxtar Respublikası prokuroru Sənan Paşayev Muxtar Respublikanın prokurorluq orqanlarında görülən işlər barədə çıxış edərək, Baş prokurorluğun muxtar respublika prokurorluğuna daima diqqət və qayğısı, eləcə də digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə fəaliyyət barədə ətraflı məruzə ilə çıxış edib.

Daha sonra Kamran Əliyev xidmətdə fərqləndiklərinə görə bir qrup prokurorluq əməkdaşını təltif edib.

***XQ***

# Fövqəladə hallar naziri Naftalanda qəbul keçirib



**Fövqəladə hallar naziri Kəmaləddin Heydərov dünən Naftalan şəhərində Heydər Əliyev Mərkəzinin binasında Naftalan şəhəri, Goranboy və Xocalı rayonları sakinlərinin qəbulunu keçirib.**

Əvvəlcə nazir ümummilli lider Heydər Əliyevin Naftalan şəhərindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub, əziz xatirəsini dərin ehtiramla yad edib.

Sonra fövqəladə hallar naziri tərəfindən qəbul edilən Naftalan şəhəri, Goranboy və Xocalı rayonları sakinlərinin müraciətlərinin əksəriyyəti yerindəcə öz həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə nazirliyin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

Fövqəladə hallar naziri ilə yanaşı, nazirliyin müvafiq struktur bölmə və qurumlarının rəhbərləri də vətəndaşları qəbul edib.

***XQ***

# Şerman "düzəlişləri" işə keçmədi

## *ABŞ Konqresi anti-Azərbaycan təxribata "yox!" dedi*

**ABŞ Konqresində hazırda Dövlət Departamentinin yenidən səlahiyyətləndirilməsi prosesi həyata keçirilir. Bu prosedur Dövlət Departamentinin fəaliyyət istiqamətlərini, idarəçilik səlahiyyətlərini və strukturunu qanunvericilik çərçivəsində təsdiqləyən illik mexanizmdir. Yenidən səlahiyyətləndirmə prosesi zamanı Dövlət Departamentinin büdcəsinin müəyyən hissələri, təşkilati dəyişikliklər, diplomatik təşəbbüslər və xarici siyasət kursu ilə bağlı prioritetlər də Konqresdə nəzərdən keçirilir. Hər il təkrarlanan bu proses çərçivəsində konqresmenlər müxtəlif düzəlişlər təklif etmək hüququna malikdirlər. Onlar bu düzəlişlər vasitəsilə ya müəyyən xarici siyasət istiqamətlərinə təsir göstərməyə çalışır, ya da konkret ölkələr və regionlarla bağlı yeni müddəalar əlavə etmək istəyirlər. Sözügedən tənzimləmə konqresmenlərə ölkənin xarici siyasətinə dolayı yolla təsir imkanları yaradır.**

Ötən gün ABŞ Nümayəndələr Palatasının Xarici İşlər Komitəsi Dövlət Departamentinin yenidən səlahiyyətləndirilməsi prosesi çərçivəsində nəzərdən keçirilən qanun layihələrinə iki düzəlişi rədd edib. Hər iki layihənin məzmunu açıq şəkildə anti-Azərbaycan xarakteri daşıyırdı. Düzəlişləri Kaliforniyadan olan demokrat konqresmen, ermənilərə lobbiçilik edən Bred Şerman təqdim etmişdi. Onun təklifinə görə, Türkiyə Ermənistan üzərindəki blokadanı aradan qaldırmayınca və Azərbaycan bütün "erməni hərbi əsirləri" azad etməyincə, bu düzəliş qüvvədə qalmalı idi. Şerman hətta hərbi təxribat qrupunun üzvlərini "girov" adlandıraraq, Azərbaycana yardımı şərtləndirməyə çalışıb. Digər düzəliş isə Dövlət Departamentinin sanksiyalar haqqında qanununa əlavə kimi irəli sürülüb və prezidentin "Azadlığa dəstək Aktı"na 907-ci əlavəni ləğv etmək səlahiyyətini aradan qaldırmağı, ABŞ-ın Azərbaycana hərbi yardımını bloklamağı nəzərdə tuturdu. Amma necə deyərlər, Şermanın arzusu ürəyində qaldı. Hər iki düzəlişin qəbul olunmaması, ABŞ Prezidenti Donald Trampın erməni lobbisinin Ermənistan və Azərbaycan arasında yekun sülhün əldə olunmasına qarşı yönəlmiş Konqresdə daha bir uğursuzluğunu göstərir.

Qeyd edək ki, konqresmen Şermanın irəli sürdüyü təkliflərə nəzər saldıqda bunların hər birinin hüquqi bazadan məhrum olduğu aydın nəzərə çarpır. Təklif edilən düzəlişlərdə həm Türkiyənin Ermənistanı blokadada saxlamasından, həm də separatçıların azad edilməsindən bəhs olunur. Hər iki məsələdə konqresmen Şermanın haqsız mövqedə olduğu aşkar görünür. Birinci məsələyə gəldikdə, Ermənistanın bugünədək blokadada qalması rəsmi İrəvanın işğalçı siyasətinin nəticəsidir. Hazırkı mərhələdə sərhədlərin açılması birbaşa Ermənistandan asılıdır. Əgər Azərbaycan tərəfindən irəli sürülən şərtlər yerinə yetirilsə, Ermənistan blokadadan çıxa bilər. Əks təqdirdə, buna görə Azərbaycana və Türkiyəyə təzyiq göstərmək tamamilə yersiz və faydasızdır. İkinci məsələ isə keçmiş separatçı rejimin üzvləri ilə bağlıdır. Onlar konqresmen Şermanın adlandırdığı kimi "hərbi əsir" deyil, ağır cinayətlərdə təqsirləndirilən şəxslərdir. Onların aqibəti Bakı Hərbi Məhkəməsində keçirilən məhkəmə prosesinin sonunda müəyyən ediləcək. Şerman kimi şəxslərin bu məsələyə müdaxiləsi isə tamamilə yersizdir.



Qeyd edək ki, avqustun 8-də Vaşinqton sammitində ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanmasından sonra revanşist qüvvələr və erməni lobbisinə xidmət göstərənlər daha da fəallaşıb. Onlar heç cür Azərbaycanın Qarabağ üzərindəki suverenliyini və Zəngəzur dəhlizinin (TRIPP) açılması istiqamətində razılaşmanı qəbul edə bilmirlər. Məhz bu səbəbdən Ermənistandakı müxalif qüvvə və xaricdə lobbiçiliklə məşğul olan təşkilatlar hər cür çirkin üsullara əl atırlar. Erməni lobbisinə bağlı konqresmen və senatorlar bu cür təşəbbüslərlə Tramp administrasiyasının sülh və quruculuq fəaliyyətinə kölgə salmağa çalışırlar.

İndiki dövrdə bu cür təşəbbüslərin konqresdə keçməyəcəyi əvvəlcədən bəlli idi. Çünki iqtidar partiyasının – Respublikaçılar Partiyasının təmsilçiləri qanunverici orqanda üstünlük təşkil edirlər. Donald Trampın ikinci dəfə hakimiyyətə gəlməsi ilə ABŞ–Azərbaycan əlaqələri tarixinin ən uğurlu dövrünə qədəm qoyub. Belə bir vaxtda hansısa düzəlişə cəhdin edilməsi, sadəcə, iki ölkə arasında xoşagəlməz ab-hava yaratmaq niyyətinə yönəlib. Sirr deyil ki, amerikalı senator revanşist güclərlə eyni mövqeyi bölüşən erməni lobbisinin təsirinə düşüb. Bundan başqa, konqresmen Şerman Demokratlar Partiyasının nümayəndəsidir və yaxın keçmişin ənənəsinə baxdıqda, demokratların Cənubi Qafqaz məsələsində çox vaxt ermənilərə rəğbətlə yanaşdıqları müşahidə olunub. Bayden administrasiyası dövründə bunun real təzahürlərini görmüşük. Xüsusilə 2020-ci ildən sonrakı mərhələdə Vaşinqtonun bəzi dairələrinin Azərbaycana qarşı qərəzli yanaşması diqqətdən yayınmadı. Məhz buna görə bu şəxsin anti-Azərbaycan mahiyyətli layihə irəli sürməsi heç bir halda sürpriz kimi qarşılanmadı. Çünki Demokrat Partiyası daxilində uzun illər formalaşmış ermənipərəst mövqelər mövcuddur və bu, erməni lobbisinin güclü təsir imkanlarından qaynaqlanır. Onlar müxtəlif vasitələrlə Konqresdə qərar qəbuletmə prosesinə təsir etməyə çalışır, Azərbaycana qarşı qeyri-obyektiv bəyanatların, qanun layihələrinin dündəmə gətirilməsinə zəmin yaratmağa çalışırlar. Bu baxımdan, Bred Şermanın təşəbbüsü də həmin ənənənin davamı sayıla bilər. Onun təqdim etdiyi düzəlişlərin mahiyyəti, əslində, Ermənistanın maraqlarını qorumağa yönəlmişdi. Burada məqsəd həm Azərbaycanın inkişaf layihələrinin qarşısını almaq, həm də Vaşinqtonun Bakı ilə əməkdaşlıq imkanlarını məhdudlaşdırmaq idi.

Sonda bildirək ki, Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsinin ikinci ildönümü ərəfəsində erməni lobbisinin fəallaşması gözlənilən idi. Bu tarixi günlərdə bütün ermənipərəst dairələr öz kampaniyalarını intensivləşdirərək ölkəmizə qarşı təzyiqlərini artırırlar. Son iki il ərzində bəzi xarici dairələr Azərbaycanın fəaliyyətini qaralamaq üçün müxtəlif ittihamlar səsləndiriblər. Onlar gah ölkəmizi etnik təmizləmə həyata keçirməkdə, gah da separatçıları və digər şəxsləri əsir götürməkdə günahlandırırlar. Lakin bu iddiaların heç biri reallıqla üst-üstə düşmür və Azərbaycanın haqqı sübuta ehtiyacı olmayan aksiomdur.

***Musa BAĞIRLI***
***XQ***

*Replika*

# Pitersin hay sevdalı "cəsur ürəyi"

**Miçiqan ştatından ABŞ Senatının üzvü Gari Piters Ermənistana və erməni xalqına "sonsuz məhəbbət" bəslədiyini izhar edib. O, "X" sosial şəbəkəsində özünün haylarla həmrəyliyini böyük ruh yüksəkliyi ilə paylaşıb və Ermənistanın suverenliyinin müdafiəsini təmin edəcək uzunmüddətli sülh müqaviləsinin imzalanmasının vacibliyini qeyd etməyi də unutmayıb.**

Ser Piters paylaşımında daha maraqlı mətləblərdən də bəhs edib: "İki il bundan əvvəl Ermənistanı ziyarət etmişəm. O zaman Azərbaycan ədalətsizcəsinə (?) basqın etmiş və 100 mindən çox etnik ermənini daimi yaşayış yerindən (?) məhrum qoymuşdur. Mən bu gün də öz fəaliyyətimdə dayanıqlı və uzunmüddətli sülh sazişinin üzərində birlikdə işləyərkən (?), eyni zamanda, erməni xalqının hüquqlarını (?) dəstəkləməkdə davam edirəm. Bu saziş Ermənistanın suverenliyinin müdafiəsinə yönəlməli (?) və ona zərər gətirəcək (?) bütün halların aradan qaldırmasına xidmət etməlidir".

Demokrat Partiyasından senator seçilmiş keçmiş hərbçi, 67 yaşlı Gari Pitersin "Ermənistanın suverenliyinin müdafiəsinə yönəldəcəyi" sülh sazişini harada və nə vaxt "istehsal" edəcəyi kimi təxəyyül qarabasmaları ilə işimiz yoxdur. Amma onun ABŞ-dakı erməni lobbisinin bəstələdiyi "etnik ermənilərin Qabağdan zorla çıxarılması" mahnısına kortəbii züy tutmasının üzərindən keçmək mümkün deyil. Erməni diasporasının böyük pulla sifariş verdiyi və "anti-Azərbaycan xoru"nun repertuarından düşməyən mahnıya qol qaldırıb ürəkdən oynayan korrupsioner senator "cəsur ürək" sahibi imiş. Belə olmasaydı, o, "Ermənistanın suverenliyinin müdafiəsinə yönəldəcəyi" sülh müaviləsini ərsəyə gətirəcəyinə bu qədər əmin danışmaz, daha doğrusu, yazmazdı. Deməli, belə məlum olur ki, etnik ermənilərin heç bir zorakılığa məruz qalmadan Azərbaycanın Qarabağ iqtisadi rayonunu könüllü surətdə tərk etmələri və bunun BMT-nin bölgəyə göndərdiyi iki faktaraşdırıcı missiyasının hesabatında soldan-sağa səliqə ilə yazılması faktından "qəhrəman" Pitersin xəbəri yox imiş. Ya da ki, çox yaxşı xəbəri var, amma erməni diasporasının yüksək məbləğdə qonorarı onun gözlərini elə örtüb ki, görmə qabiliyyətində problem "yaranıb".

Bizim üçün maraq doğuran məqam ondan ibarətdir ki, paylaşımında ürəyindəki hay sevgisinin "fontan" vurmasını yazan demokrat senatora erməni "duduk"unun anti–Azərbaycan zəhərli melodiyasına xumar olan və sonda Femida qarşısında yumağa dönən, indi səmaya həbsxananın dəmir barmaqlıqları arxasından baxan menendezlərin aqibəti dərs olmayıb. Hər halda bir xatırlatma tam yerinə düşür.

Azərbaycan Prezidenti avqustun 8-də Vaşinqtona səfəri zamanı jurnalistlərə verdiyi açıqlamasında çirkaba bulaşmış belə haypərəst konqresmen və senatorlar barədə bunları deyib: "Bugünkü hadisə korrupsiyaya görə dəmir barmaqlıqlar arxasında olan Menendez kimiləri tamamilə sıradan çıxarır. Yaxud Adam Şiff. Mən öyrəndim ki, Merilend prokuroru Adam Şiffə qarşı ipoteka saxtakarlığına görə cinayət işi açıb. Bilirsiniz, bu adamlar mütəmadi olaraq Azərbaycana hücum edirdilər – Menendez, Şiff, Peloni, Pelosi, Şerman, Marki, Kristofer Smit və başqaları..."

Bəli, haqqı-ədaləti və vicdanı pula, merkantil maraqlarına qurban vermiş bu tiplər Azərbaycana qarşı apardıqları təxribatçı siyasətə, korrupsiyaya görə layiq olduqları yerə göndəriləcəklər. Belələrini Menendez içəridə intizarla gözləyir...

***İ.HƏSƏNQALA***
***XQ***

# Aİ Bakının "qırmızı xətlər"ini nəzərə alır

## *Qurum Azərbaycanla əməkdaşlığın faydalı iş əmsalını artırır*

**Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz siyasəti çox zaman region reallıqları ilə tam uzlaşmırdı. Amma geosiyasi balansların dəyişməsi və Azərbaycanın artan siyasi-iqtisadi çəkisi bu münasibətlərdə dönüş nöqtəsi yaratdı. İndi Aİ Bakı ilə əməkdaşlığa daha praqmatik yanaşır, Azərbaycanın suverenlik və ərazi bütövlüyünə dair prinsiplərini açıq şəkildə dəstəkləyir. Bu, diplomatik ritorikadan kənara çıxaraq real əməkdaşlıq gündəliyinə çevrilir. Artıq Aİ institutları və üzv dövlətləri Azərbaycanın bölgədə yaratdığı yeni reallıqlarla bağlı qırmızı xətlərini nəzərə alırlar.**

Sentyabrın 18-də Prezident İlham Əliyevin Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kosu qəbul etməsi yeni mərhələnin növbəti əyani göstəricisi oldu. Görüşdə komissarın Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması və Vaşinqtonda paraflanmış sülh sazişi ilə bağlı dövlət başçısına təbriklərini çatdırması Aİ-nin regionda sabitliyə real töhfə vermək niyyətindən qaynaqlanır. Aİ rəsmisinin, həmçinin Ağdama səfəri çərçivəsində Azərbaycanın minatəmizləmə fəaliyyətinə verdiyi dəstəyin davam etdiriləcəyini deməsi humanitar əməkdaşlığın prioritetə çevrildiyini isbatlayır. Ağdamda xanım komissar işğaldan azad olunmuş ərazilərin vəziyyəti ilə tanış olub, eyni zamanda, 30 il ərzində ermənilərin törətdiyi dağıntılar və humanitar fəsadlar barədə məlumat alıb. Bu, həm regionda balanslı siyasətin əhəmiyyətini, həm də Azərbaycanın bərpa və humanitar səylərinin Aİ tərəfindən dəstəklənməsinin zəruriliyini vurğulayır.



Xüsusi olaraq qeyd edilməlidir ki, Aİ–Azərbyacan münasibətlərinin hazırkı dinamikası Tiranada keçirilmiş Avropa Siyasi Birliyi sammitindən sonra daha da sürətlənib. Prezident İlham Əliyevin mayın 16-da Albaniyada Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşləri zamanı əsas diqqət məhz enerji, nəqliyyat və sülh gündəliyinə yönəlmişdi. Bakı həmin görüşlərdə Aİ ilə tərəfdaşlıqda açıq və qarşılıqlı hörmətə əsaslanan model təklif etdi və bu modelin qəbul olunması münasibətlərin yeni çərçivəsini müəyyənləşdirdi.

Marta Kosun işğaldan azad olunmuş ərazilərə səfəri bu münasibətlərin praktiki tərəfini nümayiş etdirir. Qonağın minalardan təmizlənmə prosesi ilə tanış olması və bərpa işlərinin miqyasını yerində görməsi Avropanın artıq postmünaqişə reallığını qəbul etdiyini və bu prosesdə iştirak etməyə hazır olduğunu göstərir.

Bu gün Aİ–Azərbaycan münasibətləri artıq "bəyannamələr diplomatiyası" çərçivəsindən çıxaraq strateji tərəfdaşlıq mərhələsinə daxil olub. Aİ Bakının regional liderlik rolunu qəbul edir, Azərbaycanın təklif etdiyi sülh gündəliyini və nəqliyyat layihələrini dəstəkləyir. Bu, həm də rəsmi Bakının illərlə apardığı ardıcıl və prinsipial siyasətin nəticəsidir: Azərbaycan reallıqlarını qəbul etdirdi və indi əməkdaşlıq bərabərhüquqlu tərəflər arasında aparılır.

* * *

Müsbət mənzərəni kölgələyən yeganə məsələ Aİ-nin Ermənistanda yerləşdirdiyi və formal olaraq "mülki müşahidə missiyası" adlandırılan strukturun fəaliyyəti ilə bağlıdır. Azərbaycan dəfələrlə bəyan edib ki, Ermənistan ərazisindəki bu missiya "təhlükəsizliyi təmin etmək" məqsədindən çox, kəşfiyyat xarakterli fəaliyyət göstərir. Missiyanın Aİ bayrağı altında bölgədə toplanmış hərbi və siyasi məlumatları Brüsselə ötürməsi, bəzən isə üçüncü tərəflərə sızdırması barədə ciddi şübhələr mövcuddur. Bu isə həm regionda balansı pozur, həm də etimad mühitinə xələl gətirir.

İstənilən halda, Aİ Cənubi Qafqazda müsbət və dayanıqlı imic yaratmaq istəyirsə, rəsmi Bakı ilə münasibətlərin inkişafına daha sistemli və prioritet yanaşmalıdır. Aİ rəsmilərinin son aylar Azərbaycana səfərləri – bu il aprelin 25-də Aİ xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın, yanvarın 8-i və avqustun 28-də qurumun Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononun – Bakıdakı görüşləri qarşılıqlı etimadın institusional səviyyədə möhkəmlənməsinə əhəmiyyətli töhfə verir. Bu diplomatik dinamika Azərbaycanın regionda liderliyini təsdiqləyir, tərəflər arasında strateji əməkdaşlıq gündəliyinin sürətlənməsinə imkan yaradır və Cənubi Qafqazda uzunmüddətli sabitliyin təmin olunması üçün möhkəm siyasi baza formalaşdırır.

Beləliklə, cari ilin diplomatik dinamizmi göstərir ki, Azərbaycan–Avropa İttifaqı münasibətləri artıq qarşılıqlı etimad və strateji tərəfdaşlıq müstəvisində inkişaf edir. Rəsmi Bakının regiondakı liderliyi Aİ rəsmilərinin ardıcıl səfərləri və real əməkdaşlıq gündəliyi tərəflər arasında münasibətlərin sürətlənməsinə və Cənubi Qafqazda davamlı sabitliyin formalaşmasına imkan yaradır. Bu proses Azərbaycanın suverenliyinə hörmət və regional prioritetlərin tanınması fonunda davamlı tərəqqinin təminatıdır. Vaşinqonda baş tutmuş Azərbaycanl–Ermənistan sülh anlaşması fonunda özünə yer tapa bilməyən Aİ bundan sonrakı mərhələdə – yekun sülhün imzalanması və sülhdən sonrakı dövrdə – vasitəçi rolunda qalmaqla kifayətlənməyərək regionda dayanıqlı əməkdaşlıq, etimad və tərəfdaşlıq mexanizmlərinin formalaşmasına töhfə verməlidir. Belə yanaşma həm Aİ-nin Cənubi Qafqazdakı mövqeyini möhkəmləndirəcək, həm də Azərbaycanın liderliyini və regional prioritetlərini tanıyan strateji dialoqun inkişafını təmin edəcək.

***Tacir SADIQOV***
***XQ***

### Ekspert rəyi



**Elçin MİRZƏBƏYLİ,**
**Milli Məclisin deputatı, politoloq**

Prezident İlham Əliyevin Tirana səfəri zamanı ortaya qoyduğu prinsipial və aydın mövqe Avropa İttifaqına açıq mesaj verdi və diqqətə çatdırdı ki, Azərbaycan milli maraqlarını və qırmızı xətlərini güzəştə getmədən qoruyur və yalnız qarşılıqlı hörmət əsasında əməkdaşlıq etməyə hazırdır. Bu yanaşma, şübhəsiz ki, Brüsselin mövqeyinə də ciddi təsir göstərir. Əgər əvvəllər Avropa İttifaqının bəzi dairələri uğursuz təzyiq cəhdlərinə üstünlük verirdilərsə, indi praqmatik reallığı qəbul etmək məcburiyyətindədirlər. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü müzakirə mövzusu deyil, regional təşəbbüslərdə isə Bakı aparıcı tərəfdaş kimi qəbul edilir.

Marta Kosun Bakıya səfəri həm də simvolik məna daşıyır. Bu, Avropa İttifaqının Azərbaycanın mövqelərinə hörmətlə yanaşdığını nümayiş etdirməklə yanaşı, tərəflərin bərabərhüquqlu əməkdaşlıq formatını təsdiqləyir. Avropa İttifaqı Azərbaycanın enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya dəhlizləri və yaşıl enerji layihələrində əvəzolunmaz oyunçu olduğunu qəbul edir.

Dövlət başçımızın bu istiqamətində yürütdüyü diplomatiya Azərbaycan–Avropa İttifaqı münasibətlərində milli maraqların qorunması və qarşılıqlı faydalılıq prinsipinə əsaslanır. Bu xəttin davamlılığı həm Brüsseldə, həm də üzv dövlətlərin paytaxtlarında Bakının mövqeyinə hörmətlə yanaşılmasının zəruriliyi ilə bağlı qənaət formalaşdırıb. Aİ anlayır ki, regionda sabitlik və təhlükəsizlik yalnız Azərbaycanın iştirakı ilə mümkündür.

Bütövlükdə Azərbaycan–Aİ münasibətləri yeni mərhələyə qədəm qoyub və bu mərhələni etimadın möhkəmlənməsi, siyasi dialoqun bərabərhüquqlu əsasda inkişafı, Bakının qırmızı xətlərinə hörmətlə yanaşma xüsusiyyətləri səciyyələndirir. Bu yanaşma həm enerji təhlükəsizliyi, həm nəqliyyat və kommunikasiya əməkdaşlığı, həm də regional sabitlik baxımından qarşıdakı illərdə tərəflərin strateji tərəfdaşlığını daha da gücləndirəcək.

# Azərbaycanın qitələrarası strateji əməkdaşlığı

*Bakı və Avropanın ən nüfuzlu "güc"ünün münasibətləri yeni mərhələyə yüksəlir*



**Böyük Britaniyanın Azərbaycanla münasibətləri "strateji tərəfdaşlıq" səviyyəsinə qaldırmaq təşəbbüsü dəyişən beynəlxalq düzəndə həm Qafqaz, həm də daha geniş Avrasiya məkanında güc balansına təsir edəcək fundamental geosiyasi addımdır.**

Brexit Böyük Britaniyanı Avropa İttifaqından kənarda beynəlxalq kimliyini yenidən formalaşdırmaq zərurətini ortaya çıxardı. İttifaqın siyasi və iqtisadi sistemindən uzaqlaşan London özünü qlobal səhnədə müstəqil oyunçu kimi təqdim etmək üçün yeni dayaqlara, yeni ittifaqlara ehtiyac duydu. Məhz bu səbəbdən son illər Britaniya diplomatiyası klassik Avropa orbitindən kənara çıxaraq daha geniş coğrafiyada – Yaxın Şərqdən Hind–Sakit okean məkanına qədər fəallığını artırmağa çalışır.

Məhz bu kontekstdə Azərbaycanın önəmi xüsusi vurğulanmalıdır. Bakı Avrasiyanı birləşdirən mühüm nəqliyyat xətləri və təhlükəsizlik arxitekturasında oynadığı mərkəz rolu ilə London üçün strateji qapıya çevrilir. Böyük Britaniya Cənubi Qafqazda möhkəm siyasi dayaqlar axtararkən, Azərbaycanla münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə qaldırmaqla həm özünün yeni geosiyasi xəritəsini möhkəmləndirir, həm də qlobal maraqlarını bölgənin sabitliyi üzərindən təmin edir. Yaxınlaşma, əslində, Britaniyanın "post-Brexit diplomatiyası"nın real konturlarını göstərir: Avropa hüdudlarından kənarda dayanıqlı tərəfdaşlıqlar quraraq yeni güc balansında müstəqil mövqeyini qorumaq.

***

Azərbaycanın xarici siyasət kursunun mühüm xüsusiyyəti ondan ibarətdir ki, ölkə beynəlxalq münasibətlərdə birtərəfli asılılıqdan qaçaraq özünü çoxqütblü sistemdə tarazlaşdırılmış şəkildə mövqeləndirir. Son illər Bakı paralel istiqamətlərdə genişlənən əməkdaşlıq şəbəkəsi qurmaqla həm siyasi, həm də iqtisadi manevr imkanlarını artırıb. ABŞ-la enerji və təhlükəsizlik sahəsində dialoqu davam etdirən, Çinlə "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində logistika və infrastruktur layihələrinə inteqrasiya olunan, Aİ ilə enerji təhlükəsizliyi və nəqliyyat dəhlizləri istiqamətində tərəfdaşlıq edən Azərbaycan, eyni zamanda, Rusiya ilə tarixi və coğrafi reallıqlardan qaynaqlanan münasibətləri idarə edir. Türkiyə ilə strateji müttəfiqlik isə regional sabitlik və hərbi əməkdaşlıq kontekstində Bakının ən mühüm dayaq sütununa çevrilib. Ərəb ölkələri ilə inkişaf edən iqtisadi və investisiya yönlü əlaqələr də Azərbaycanın diplomatik çevikliyini artırır.

Belə bir mozaikanın üzərinə Böyük Britaniya ilə strateji tərəfdaşlıq əlavə olunduqda mənzərə daha da mürəkkəbləşir, amma eyni zamanda, güclənir. Çünki Londonun Cənubi Qafqaza dönüşü Azərbaycanın qlobal miqyasda artan çəkisini təsdiqləyir. Əgər əvvəllər Bakı regionun enerji təchizatçısı və tranzit mərkəzi kimi qəbul olunurdusa, indi qlobal güc balansının özəyində dayanan aktora çevrilib. Bütün bu amillər Azərbaycanın xarici siyasət fəlsəfəsinin uğurlu nəticəsidir: tərəfdaşlıqların şaxələndirilməsi sayəsində ölkə həm geosiyasi riskləri minimuma endirir, həm də beynəlxalq sistemdə sabit və etibarlı aktor kimi mövqeyini möhkəmləndirir. Burada sual yarana bilər ki, Azərbaycan çoxqütblülük siyasəti ilə özünü böyük güclərin rəqabət meydanına çevirmirmi? Cavab bundan ibarətdir ki, Bakı çoxqütblülüyü rəqabət meydanı deyil, balanslaşdırma aləti kimi istifadə edir. Belə bir yanaşma Azərbaycanın xarici siyasətində "hamı ilə işləmək, amma heç kimə tam tabe olmamaq" prinsipinə əsaslanır.

***

Enerji və nəqliyyat məsələləri Azərbaycan–Britaniya münasibətlərinin mərkəzində duran istiqamətlərdir. Böyük Britaniya Xəzər hövzəsinin neft və qaz ehtiyatlarının Qərb bazarlarına inteqrasiyasında onilliklərdir mühüm rol oynayır. Bu, Bakının enerji siyasətində Londona xüsusi mövqe qazandırıb. Lakin indi regional gündəm təkcə enerji resurslarının ixracı ilə məhdudlaşmır. Yeni geosiyasi reallıqlar, xüsusən də Avropa ilə Asiyanı birləşdirən ticarət yollarının aktuallaşması enerji məsələsini daha geniş geoiqtisadi kontekstə daşıyır. Bu mənada Zəngəzur dəhlizi (TRIPP) xüsusi əhəmiyyət kəsb edir. Dəhliz əslində Avropa–Asiya inteqrasiyasının gələcəyini müəyyənləşdirəcək strateji marşrut rolunu oynayır. Azərbaycan üçün bu yol Bakını beynəlxalq logistika şəbəkələrinin ayrılmaz mərkəzinə çevirir. Belə bir mərhələdə London üçün bu marşrut Avropa ilə Asiya arasında iqtisadi axınların idarəsində pay sahibi olmaq, yeni ticarət arteriyasının formalaşmasında söz sahibi kimi mövqeyini bərpa etmək imkanıdır. Azərbaycan Britaniyanın bu maraqlarını öz strateji üstünlüyünə çevirə bilir. Çünki Böyük Britaniyanın iştirakı layihənin beynəlxalq legitimliyini gücləndirir, Avropa bazarlarını Cənubi Qafqaz vasitəsilə daha etibarlı şəkildə Asiyaya bağlayır və Bakı üçün yeni investisiya mənbələrinin qarşısını açır. Beləliklə, enerji və nəqliyyat məsələləri qlobal güc balansının əsas parametrlərindən birinə çevrilir və Azərbaycan bu balansın mərkəzində öz mövqeyini möhkəmləndirir.

***

Təhlükəsizlik ölçüsü Azərbaycanın Böyük Britaniya ilə strateji tərəfdaşlığının ən həssas və bir o qədər də vacib aspektini təşkil edir. Londonun NATO üzvü olması, Azərbaycan üçün müasir təhlükəsizlik təcrübələrinə çıxış imkanını genişləndirir. Burada söhbət regional və qlobal təhlükələrə qarşı koordinasiya imkanlarının artırılmasından gedir. Azərbaycanın müdafiə qabiliyyətinin güclənməsi təkcə Bakının deyil, bütün regionun təhlükəsizlik arxitekturasına təsir göstərəcək amildir.

Böyük Britaniya üçün isə Cənubi Qafqaz yalnız tranzit və enerji layihələrinin keçid məkanı deyil, həm də strateji əhəmiyyətli təhlükəsizlik zonasıdır. Region Rusiya, İran və Çin kimi qlobal güclərin maraq dairəsinin kəsişdiyi həssas coğrafiyada yerləşir. Yeni reallıq Londona Bakını tərəfdaş seçməklə həm öz maraqlarını qorumaq, həm də beynəlxalq təhlükəsizlik sistemində yeni strateji xətt yaratmaq imkanı verir. Məhz bu baxımdan Azərbaycanla yaxınlaşma, əslində, Britaniyanın qlobal təhlükəsizlik konsepsiyasının mühüm elementi kimi çıxış edir.

Maraqlıdır: Böyük Britaniyanın Zəngəzur dəhlizində (TRIPP) fəallaşması regional və qlobal güclər tərəfindən necə qarşılanacaq? Bir tərəfdən, Azərbaycan və Türkiyə bu gedişi strateji fürsət kimi qiymətləndirirlər. Bakı üçün Britaniyanın iştirakı ölkəyə qlobal güc balansında aktiv oyunçu olmaq imkanı verir. Türkiyə isə Zəngəzur dəhlizini (TRIPP) "Türk dünyasının birləşdirici xətti" kimi təqdim edərək layihəyə əlavə beynəlxalq legitimlik qazandırır.

Digər tərəfdən, Ermənistan və İran fəallaşmanı ehtiyatla, adaptiv diplomatiya prizmasından qiymətləndirirlər. İrəvan sərt müqavimət göstərə bilməz, çünki bu, həm iqtisadi, həm də siyasi riskləri artırar; buna görə İrəvan daha çox diplomatik manevrlərə və adaptasiyaya yönəlir. Tehran üçün də vəziyyət oxşardır: Türkiyə–Azərbaycan inteqrasiyasının güclənməsi və Britaniyanın iştirakının beynəlxalq legitimlik yaratması İranın mövqeyini sarsıda bilər. Burada sərt qarşıdurmadan çox, diplomatik manevrlər və alternativ marşrutların təşviqi prioritetdir. Eyni zamanda, Rusiya üçün bu fəallaşma həm təhlükə, həm də fürsətdir. Moskva bölgədəki təsirini qorumaq istəyir, amma tam bloklama diplomatik və iqtisadi itkilər deməkdir.

Böyük güclərdən ABŞ və Aİ isə vəziyyəti Britaniyanın fəallaşması vasitəsilə öz maraqlarına uyğun qiymətləndirirlər. Vaşinqton Londonu strateji uzantı kimi istifadə edərək Rusiyanın və İranın təsirini neytrallaşdırır, regionda birbaşa qarşıdurmaya girmədən mövqeyini gücləndirir. Avropa isə enerji təhlükəsizliyi və tranzit imkanları baxımından Britaniyanın iştirakını faydalı hesab edir, Rusiyadan asılılığı azaltmaq üçün dəhlizin etibarlılığını artırır.



Bəs Çin bu vəziyyətə necə reaksiya verəcək? Pekin üçün Zəngəzur dəhlizi (TRIPP) həm rəqib, həm də potensial tərəfdaş məkanı yaradır. Britaniyanın fəallaşması Qərb mərkəzli alternativ marşrut yaradaraq Pekinin dominantlığını sarsıda bilər. Lakin Çin sərt bloklama siyasəti aparmayacaq: o, Orta Asiya və Rusiya üzərindən keçən marşrutları gücləndirəcək, eyni zamanda, Bakı ilə əlaqə kanallarını açıq saxlayacaq.

Nəticədə, Böyük Britaniyanın fəallaşması regional aktorlar tərəfindən adaptiv strategiya, balans və diplomatik manevr vasitəsi ilə qarşılanır, böyük güclər isə maraqlarını qlobal güc balansını qorumaq üçün uyğun şəkildə istiqamətləndirir. Bir tərəfdə Azərbaycan və Türkiyə strateji üstünlük qazanır, digər tərəfdə Ermənistan, İran və Rusiya adaptasiya və balans vasitəsilə mövqelərini qoruyur, ABŞ, Avropa və Çin isə qlobal maraqlarını qoruyaraq regional dinamikanı yönləndirir.

Son olaraq qeyd edək ki, Londonun Bakıya etdiyi təklif geosiyasi təminat rolunu oynayır və bu təminat Cənubi Qafqazın gələcək güc balansını müəyyən edəcək əsas amillərdən birinə çevrilərək Azərbaycanın beynəlxalq sistemdəki çəkisini daha da artıracaq.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Koçaryan və Sarkisyanın qanlı cinayəti Avropa Məhkəməsində

*AİHM-in qərarı ədalətin gecikmiş, amma qaçılmaz cəzasıdır*

**Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) 2008-ci il martın 1-2-də İrəvanda keçirilən kütləvi etirazlar zamanı 9 vətəndaşın ölümü ilə bağlı "Farmanyan və başqaları Ermənistana qarşı" işi üzrə qərarını açıqlayıb. "Armenia Today"ın yaydığı məlumata görə, məhkəmənin qərarı AİHM-in rəsmi saytında dərc olunub. Məhkəmə yekdilliklə müəyyən edib ki, Ermənistan hakimiyyəti qurbanların əksəriyyətinin yaşamaq hüququnu pozub. Eyni zamanda, faciə ilə bağlı aparılan istintaqın qeyri-effektivliyi qeyd olunub. AİHM-in məlumatına görə, Ermənistan hakimiyyətinin hərəkətləri Samvel Arutyunyan və Zakar Ovannisyan istisna olmaqla, 9 qurbandan 7-sinin ölümünə birbaşa səbəb olub.**

Məhkəmə doqquz epizodun hamısı üzrə müəyyən edib ki, dövlət obyektiv və hərtərəfli araşdırmanı təmin etməyib, həmçinin Avropa Konvensiyasının 38-ci maddəsini pozaraq Məhkəmə ilə əməkdaşlıq üzrə öhdəliklərini yerinə yetirməyib. Qəbul edilmiş qərar çərçivəsində AİHM Ermənistanı mənəvi ziyana görə ərizəçilərin hər birinə – qurbanların doğmalarına 30 min avro kompensasiya ödəməyə məcbur edib. Bundan əlavə, məhkəmə xərclərini ödəmək üçün əlavə 35 min avro ödənilməlidir.

Ermənistan Baş naziri Nikol Paşinyan qərarı şərh edərkən AİHM-in "yalnız aşkar olanı qeydə aldığını" bildirib. Onun sözlərinə görə, 1 mart işi artıq həll olunub və onun materialları milli məhkəmələrdə müzakirə olunur: "Mən ümid edirəm ki, bu qərar bizim hüquq-mühafizə orqanlarımızın nəhayət, effektiv məhkəmə prosesini təmin etmələri üçün yeni stimul olacaq. Ümid edirəm ki, hüquq-mühafizə orqanları təqsirkarların formal deyil, real məsuliyyətdən yayınmalarının qarşısını almaq üçün bir yol tapacaqlar". O, həmçinin istintaqın ləngidilməsinin qəbuledilməz olduğunu vurğulayıb. "Bu, cinayət işini yenidən nəzərdən keçirmək üçün legitim səbəbdir: bu proses qeyri-müəyyən formullarla nə qədər davam edə bilər?", – deyə Paşinyan vurğulayıb. "Cinayətin üstü açılıb və bütün faktlar cinayət işlərində öz əksini tapıb", – deyə baş nazir fikrini yekunlaşdırıb.

Qeyd edək ki, AİHM-in çıxardığı qərar 2008-ci il martın 1-də İrəvanda baş vermiş qanlı hadisələrlə bağlıdır. Həmin ilin fevralın 19-da keçirilmiş prezident seçkilərinin ilkin nəticələri dərc olunandan dərhal sonra prezidentliyə namizəd, ölkənin birinci prezidenti Levon Ter-Petrosyan tərəfdarlarını paytaxtın mərkəzinə – Azadlıq meydanında toplayaraq seçki prosesi zamanı baş vermiş total qanun pozuntularına etirazlarını bildirməyə çağırıb. Ter-Petrosyan və tərəfdarları seçkilərin azad və ədalətli olmadığını iddia ediblər. Onlar fevralın 20-dən başlayaraq gündəlik seçki pozuntularına qarşı kütləvi etiraz aksiyaları keçirərək Azadlıq meydanına və ona bitişik parkda toplaşıblar.

Hakimiyyət orqanlarının nümayişləri dayandırmaq tələblərinə baxmayaraq, etirazlar martın 1-dək davam edib. Martın 1-də sübh çağı 9 günlük etirazlardan sonra polis dəyənəklərdən və elektroşok avadanlıqlarından istifadə edərək meydanda xüsusi əməliyyat keçirib. Polis ərazini bütün nümayişçilərdən təmizləyərək bağlayıb. Həmin vaxt etirazçıların əksəriyyəti hələ də yuxuda idi. Etirazçılar arasında gecəni meydanda keçirən qadınlar, uşaqlar və qocalar da olub.

Etirazçılarla təhlükəsizlik orqanları əməkdaşları arasında baş verən toqquşmada 10 nəfər həyatını itirib. Onlardan 9-u mitinq iştirakçısı, 1-i polis əməkdaşı olub. Təxminən 230 nəfər yaralanaraq, yaxud müxtəlif xəsarətlər alaraq xəstəxanalara müraciət edib. Ter-Petrosyan özü isə polis tərəfindən zorla evinə aparılıb və faktiki olaraq ev həbsinə məhkum edilib.

Buna baxmayaraq, mitinqçilər martın 1-də günorta saatlarında yenidən paytaxtın mərkəzində toplaşmağa başlayıblar. Günün sonuna yaxın etirazçıların və polisin sayı xeyli artıb. Nümayişçilərin sayının artmasına tab gətirə bilməyən hüquq-mühafizə orqanları saat 16:00-da ərazidən sıxışdırılaraq çıxarılıb. Fəallar maneələr qurmaq üçün trolleybus və avtobusları aşırıblar. Axşam saatlarında Myasnikyan meydanında barrikada quran nümayişçilərlə polis arasında toqquşma baş verib. Təxminən saat 22:00-da prezident Robert Koçaryan Ermənistan parlamentinin təsdiqi ilə nümayişləri qadağan edərək və medianı ciddi şəkildə məhdudlaşdıraraq 20 günlük fövqəladə vəziyyət elan edib. Koçaryan öz qərarını onunla əsaslandırıb ki, etirazçılardan bəziləri, guya, Maştots prospektində yaxınlıqdakı mağazaları qarət edib, bir neçə polis maşını və avtobusunu yandırıb, polis əməkdaşlarına ağır xəsarət yetiriblər. Fövqəladə vəziyyət rejimi martın 2-də gecə saat 01:00-da qüvvəyə minib və Ter-Petrosyan Fransa səfirliyi yaxınlığında etirazçıları evlərinə qayıtmağa çağırmağa məcbur olub. Bununla da etirazlara son qoyulub.

Dinc etiraz aksiyasının amansızlıqla yatırılması, 10 nəfərin həlak olması, 230 nəfərin yaralanması, ölkədə fövqəladə vəziyyət rejiminin elan edilməsi beynəlxalq miqyasda geniş rezonans doğurub. Bir sıra beynəlxalq hüquq-müdafiə təşkilatları Ermənistan hakimiyyətini törətdiyi vəhşiliyə görə qınayıblar. Onlar yaydıqları bəyanatlarda bildiriblər ki, çadırda gecələyən silahsız, mülki şəxslərə qarşı aşırı güc və zorakılıq tətbiq etmək yolverilməzdir. Beynəlxalq hüquq-müdafiə təşkilatları həddindən artıq güc tətbiq edən polis əməkdaşlarının cəzalandırılmasını tələb ediblər. Ancaq Ermənistan hakimiyyəti bütün çağırışları qulaqardına vurub. Bu qanlı proseslərin yekunu olaraq Xocalı cəlladı, əli erməni xalqı ilə yanaşı Azərbaycan xalqının da qanına batmış Serj Sarkisyan prezident kürsüsünə yiyələnib. Onun adına 52,82 faiz səs yazılıb. Bütövlükdə, bu cinayət hadisəsi Koçaryan–Sarkisyan cütlüyünün, necə deyərlər, ayağındadır.

Koçaryanın varis planı həyata keçirərək Sarkisyanı dövlət başçısı postuna gətirməsi, əslində, köhnə sistemin qorunub saxlanması üçün atılmış addım idi. Bu addım Ermənistan siyasətində uzun illər korrupsiya və oliqarxik maraqların dərinləşməsinə şərait yaratdı. Məhz həmin siyasətin nəticəsində ölkə iqtisadi və sosial baxımdan tənəzzül dövrünü yaşadı. Eyni zamanda, Koçaryan Sarkisyanın hakimiyyətə gəlişini təmin etməklə Qarabağ klanının yol vermiş olduğu cinayətlərə görə mafiyanı gözləyən təqibdən canını qurtarmış olub. Ancaq göründüyü kimi, tam qurtara bilməyib. Ötən ay Ermənistan Baş Prokurorluğu R.Koçar-



yandan və digər rəsmi şəxslərdən 1 mart hadisələri nəticəsində qurban getmiş şəxslərə və onların ailə üzvlərinə (zərərçəkənlərə) dəymiş 670 milyon dram məbləğində təzminat ödənilməsini tələb etmişdi. Baş Prokurorluq Korrupsiyaya Qarşı Mübarizə Məhkəməsində həmin hadisələr vaxtı rəhbər vəzifələrdə çalışan şəxslərə qarşı dövlət maraqlarının müdafiəsi ilə bağlı iddia qaldırmışdı.

Bütövlükdə, mart hadisələri Ermənistan tarixində dərin iz buraxmış hadisədir. Bu gün Avropa İnsan Hüquqları Məhkəməsinin çıxardığı qərar təkcə hüquqi akt deyil, həm də həmin qanlı səhifənin kimlərin məsuliyyətsizliyi və zorakı siyasəti nəticəsində yazıldığının təsdiqidir. AİHM-in qənaəti bir daha göstərdi ki, Ermənistan hakimiyyəti – Koçaryan və onun ən yaxın silahdaşı olan Sarkisyan öz hakimiyyətlərini qorumaq üçün güllə açmaqdan belə çəkinməyiblər.

Ən dəhşətlisi isə odur ki, illər keçsə də bu cinayətin sifarişçiləri və icraçıları hələ də məsuliyyət daşımırlar. Koçaryan və Sarkisyan bu gün özlərini "xalqın xilaskarı" kimi qələmə verməyə çalışırlar. Halbuki hər ikisi Ermənistanın müstəqillik tarixində ən qanlı hadisənin ideya müəllifləridir. Onların hakimiyyəti dövründə dövlət institutları xalqın deyil, hakimiyyətin şəxsi mühafizə dəstəsinə çevrilmişdi. Polis və ordu etirazçıların üstünə göndərildi, insanlara qarşı odlu silahdan istifadə olundu. Bu, vətəndaşla dövlət arasındakı etimadın tam şəkildə məhv edilməsi idi.

**Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq Zaur Məmmədov** mövzu ilə bağlı XQ-yə bildirdi ki, AİHM-in məlum qərarı təkcə Ermənistan dövlətinə deyil, həm də bu faciənin müəlliflərinə birbaşa zərbədir. Onun sözlərinə görə, məhkəmə faktiki olaraq təsdiqləyib ki, hakimiyyətin zorakı siyasəti nəticəsində dinc etirazçılar həyatını itirib, istintaq isə bilərəkdən qeyri-effektiv aparılıb: "Əslində, AİHM-in qərarı Koçaryan–Sarkisyan cütlüyünün siyasi irsini məhv edən sənəddir. Çünki Avropa məhkəməsi açıq şəkildə göstərir ki, dövlət xalqı qorumaq əvəzinə, xalqın üstünə silahlı qüvvə yeridib. Koçaryan və Sarkisyanın məsuliyyətini gizlətmək cəhdləri də indi nəticəsizdir. Qurbanların ailələrinə təyin olunan kompensasiya bu şəxslərin qanlı qərarlarının maddi ifadəsidir".

Politoloq onu da qeyd etdi ki, bu qərar Ermənistanda revanşist dairələrin Koçaryanı və Sarkisyanı yenidən siyasi səhnəyə qaytarmaq planlarına ağır zərbə vurur: "Çünki Avropa Məhkəməsinin mövqeyi onların adını yalnız qanlı repressiya və insan hüquqlarının pozulması ilə bağlayır. Ermənistan cəmiyyəti üçün bu, bir siqnaldır ki, keçmişin köhnəlmiş, zorakı liderləri ölkəni gələcəyə apara bilməz".

***Səxavət HƏMİD***
***XQ***

*Xankəndi, Xocalı, Xocavənd və Ağdərənin şəhər günü*

# Bayramlarınız mübarək, Qarabağ şəhərləri!



**20 sentyabr ölkəmizdə həm də Xankəndi, Xocalı, Xocavənd və Ağdərənin şəhər günüdür. 2023-cü il sentyabrın 20-də qələbə ilə başa çatmış və Qarabağ münaqişəsinə son qoymuş antiterror əməliyyatında qazanılmış tarixi qələbə ötən ildən ölkəmizdə Suverenlik Günü olaraq təntənə ilə qeyd edilir. Həmin gün Ordumuzun Xankəndi, Xocalı, Xocavənd və Ağdərəni erməni işğalından azad etməsi, haqlı olaraq, bu şəhərlərin yenidən doğulma gününə çevrilib.**



2023-cü il sentyabrın 19-20-də zəfər tariximizin şanlı səhifələrindən olan antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz yerləşən Ermənistan ordusu tam şəkildə tərksilah edilərək ölkəni tərk etdi. Havadarlarına arxalanaraq, dünyanın kor olmuş "ədalət carçıları"nın donuq baxışları altında Qarabağda illər boyu at oynadan qeyri-qanuni xunta rejimi ləğv edildi, hüquq-mühafizə orqanlarımızın yüksək peşəkarlıqla həyata keçirdikləri əməliyyatlar nəticəsində separatçıların əsas rəhbərləri həbs olundular və bu gün törətdikləri cinayətlərə görə məhkəmə qarşısında hesab verirlər.

Beləliklə, Azərbaycan təkbaşına ilahi ədaləti bərpa etdi, bütün ərazilərində dövlət suverenliyi və Konstitusiya quruluşu bərpa olundu. Şanlı qələbələrimizin müdrik memarı, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərinə, Xocavənd, Şuşa, Xocalı, Ağdərə rayonlarına səfər edərək orada müqəddəs bayrağımızı ucaltmaqla zəfər yürüşünün torpaqlarımıza göz dikən, Qarabağ üzərindən oyunlar qurmağa çalışan mənfur niyyətliləri susduran final möhürünü vurdu.

Bu gün üçrəngli bayrağımız ölkəmizin hər yerində olduğu kimi, Qarabağın və Şərqi Zəngəzurun bütün guşələrində qürurla dalğalanır. Yollar çəkilir, evlər tikilir, bərpa edilir, qəsəbələr, şəhərlər salınır, düşmənin vəhşicəsinə dağıtdığı, yerlə bir etdiyi yurd yerlərimiz yenidən qurulur. Ən əsası isə, Vətən həsrəti sona çatan keçmiş məcburi köçkünlərin köç karvanları bir-birinin ardınca işğaldan azad edilmiş torpaqlarımıza istiqamət götürür, yeni tikilmiş rahat, yarlı-yaraşıqlı evlər insan nəfəsi ilə hərarətlənir, körpə gülüşünə bürünür.



Azərbaycan Prezidentinin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası sürətlə davam etdirilir. Artıq ikinci ildir füsunkar Xankəndimiz, yaraları qaysaq bağlayan Xocalımız, qədim Ağdərəmiz, gözəl Xocavəndimiz yenidən əsl sahiblərinin qayıdışını bayram edir. Kəndlər, şəhərlər abadlaşdırılır, Qarabağın qara günlərini yeni dirçəliş, inkişaf dövrü əvəzləyib.

İkinci ildir azadlığını, şəhər günlərini bayram etdiyimiz Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə Böyük Qayıdış çərçivəsində görülən işlərin miqyası göz oxşayır, Vətənini sevən hər bir azərbaycanlının ürəyini qürurla doldurur. Rəqəmlər də qısa vaxtda nə qədər böyük layihələrin reallaşdırıldığını sübut edir.

Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, ilkin mərhələdə Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində, Xocalı rayonunun 11 kəndində (Ballıca, Xanyurdu, Təzəbinə, Daşbulaq, Badara, Seyidbəyli, Xanabad, Şuşakənd, Almalı, Çanaqçı, Mehdibəyli) və Ağdərə rayonunun 7 kəndində (Həsənriz, Vəngli, Kolatağ, Çıldıran, Heyvalı, Aşağı Oratağ və Çapar) təmir-bərpa işlərinin aparılması məqsədilə müvafiq sayda qismən yararlı evlər müəyyən edilib.



Ölkə başçısının qayğısı və diqqəti sayəsində Xocalı rayonunun Ballıca kəndində təmir işləri başa çatdırılıb və ümumilikdə 912 nəfər olmaqla 200 keçmiş məcburi köçkün ailəsinin burada daimi məskunlaşdırılması təmin olunub. Eyni zamanda, rayonun Xanyurdu kəndinə 69 (237 nəfər), Təzəbinə kəndinə 28 (125 nəfər), Badaraya 14 (56 nəfər), Daşbulağa 13 (67 nəfər), Seyidbəyliyə 9 (30 nəfər), Şuşakənd kəndinə isə 15 ailə (59 nəfər) köçürülüb. Ağdərə rayonunda da Böyük Qayıdış start verilib, Həsənriz kəndinə 159 (566 nəfər), Vəngliyə 51 (188 nəfər) və Kolatağa 26 ailənin (89 nəfər) köçü baş tutub.

Qeyd olunan kəndlərdə fərdi evlərin bərpası ilə yanaşı, yaşıllıq zonalarının, o cümlədən əhalinin istirahəti üçün nəzərdə tutulmuş parkların salınması, dekorativ bitkilərin əkilməsi, küçələrin abadlaşdırılması və işıqlandırılması, kənddaxili yolların təmiri, asfalt örtüyünün yenilənməsi, eləcə də müvafiq infrastrukturun yaradılması ilə bağlı aidiyyəti dövlət qurumlarının fəaliyyəti əlaqələndirilir və davamlı tədbirlər həyata keçirilir. 2025-ci ilin mart-aprel aylarında Ağdərə rayonunun Suqovuşan kəndində inşası başa çatdırılmış 5 ədəd beşmərtəbəli yaşayış binasında 180 ailə (592 nəfər), Xocalı şəhərində isə ümumilikdə 86 ailə (346 nəfər) məskunlaşdırılıb. Məlum olduğu kimi, daha öncədən Ağdərənin Talış kəndində 90 nəfərdən ibarət 20 ailənin qayıdışı baş tutub.

Qarabağda əhalinin sayının artımı təkcə keçmiş məcburi köçkünlərin öz ata-baba yurdlarına köçürülməsi ilə məhdudlaşmır. Bölgədə işləməyə, oxumağa gələnlər də inkişafa, tərəqqiyə, bərpa-quruculuq işlərinə öz layiqli töhfələrini verirlər. Bu günə qədər ərazidə ümumilikdə 18.7 minə yaxın şəxsin məskunlaşması təmin edilib. Hazırda Xankəndi şəhərində 14740 nəfər yaşayır ki, onlardan 11030-u dövlət və özəl qurumlarda çalışanlar və ailə üzvləridir. Şəhərdə orta məktəb şagirdlərinin sayı 1036, Qarabağ Universitetində təhsil alan tələbələrin sayı 2210 nəfərdir. Ailə üzvləri ilə birlikdə yaşayan hərbiçilərin sayı da kifayət qədər çoxdur.

Ağdərə rayonunda daimi yaşayan 1773 nəfərdən 1525-i məskunlaşmış keçmiş məcburi köçkün, 248-i isə dövlət və özəl qurumlarda çalışanlar və onların ailə üzvləridir. Xocalı rayonunda isə bu göstərici ümumilikdə 2170 nəfərdir. Artıq Xocavənd də sakinlərini qarşılamağa başlayıb. 2025-ci il sentyabrın 11-də rayonun Qırmızıbazar kəndinə 39 nəfərdən ibarət 10, Sos kəndinə 45 nəfərdən ibarət 10, sentyabrın 12-də isə Hadrut qəsəbəsinə 41 nəfərdən ibarət 10 ailənin köçü baş tutub. Qarabağın və Şərqi Zəngəzurun bütün rayonlarına Böyük Qayıdış mərhələli şəkildə davam etdirilir.

Əhali artır, əzəli sakinlər öz ata-baba yurdlarına dönür və Xankəndi, Xocalı, Ağdərə, Xocavənd bayram ab-havalı günlər yaşayır. Bu gün Qarabağ həm separatçılar üzərində qələbənin ikinci ildönümünü, həm də şəhərlərinin gününü bayram edir. Əlbəttə ki, bu bayramlar təkcə həmin bölgələrdə yaşayanların, bu bölgənin sakinlərinin deyil, bütün xalqımızın, dünyanın dörd bir yanındakı soydaşlarımızın sevinci, fərəhidir. Bu axşam isə şəhər günü ilə bağlı Xankəndidə böyük konsert proqramı keçiriləcək.

Azadlığın əbədi, şəhərlərin abad olsun, Qarabağ. Bayramlarınız mübarək, Xankəndi, Xocalı, Xocavənd və Ağdərə!

***Mahir RƏSULOĞLU,***
***"Xalq qəzeti"nin Qarabağ müxbiri***
***Xankəndi***

*Sosial gündəm*

**Sosial siyasətin tətbiq olunduğu sahələrdən biri və başlıca prioriteti məşğulluğun səmərəli və düzgün təminidir. Tarixi dövrlərə nəzər salanda görünür ki, bu amil təhlükəsizliyin həyata keçirilməsində vacib nüanslardandır. İnsan kapitalının inkişafının, məşğulluq sahəsində keyfiyyət göstəricilərinin yüksəldilməsi, layiqli iş yerlərinin yaradılması, inklüzivliyin təmin olunması və sosial cəhətdən həssas əhali qruplarının əmək bazarında iştirakının artırılması istiqamətində görülən işlər ölkəmizdə dinamik sosial-iqtisadi inkişafın davamlılığının təmin edilməsində mühüm faktor olaraq qiymətləndirilir.**

# Məşğulluq tərəqqi və rifah qaynağıdır

Bu sahədə daha böyük nailiyyətlərin əldə olunması istiqamətində ciddi addımlar atılır, mühüm tədbirlər görülür. Prezident İlham Əliyevin 2018-ci il 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilən "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" bunun əyani sübutudur. Dövlət hər kəsin əmək hüquqlarının təmin edilməsini özünün pozitiv öhdəliyi kimi bəyan edir.

Məşğulluq siyasətinin mühüm istiqamətlərindən biri yeni iş yerlərinin yaradılmasını məhdudlaşdıran amillərin aradan qaldırılması və məşğulluq səviyyəsinin artırılmasını stimullaşdıran şəraitin təmin edilməsidir. Bu baxımdan sahibkarlığın, əsasən də kiçik və orta sahibkarlığın inkişafına yönəlmiş tədbirlər mikro biznes qurmaq məqsədilə müvafiq avadanlıqlarla təmin olunması nəzərdə tutulub. Eləcə də Bakı və bölgələrdə gənclər üçün vebinarlar, konfranslar, karyera sərgiləri və yarmarkalar təşkil edilir, "Alo karyera" dəstək xidməti fəaliyyət göstərir.

Ölkəmizdə müasir mərhələdə dövlət məşğulluq siyasətinin gücləndirilməsi bu sahədə mövcud olan problemlərin həllinə və əhalinin səmərəli məşğulluğu¬nun təmin edilməsinə istiqamətlənib. "Böyük Qayıdış" proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərə qayıdan vətəndaşların sosial rifahının təmin olunması prioritet məsələlərdən biridir. Bu istiqamətdə əsas məqsəd "Məşğulluqdan məskunlaşmaya" yanaşması ilə qayıdan



xüsusi əhəmiyyət kəsb edir. Ötən illərdə məşğulluq siyasətində əsas məqsəd əmək ehtiyatlarından daha dolğun istifadə etməklə əhalinin səmərəli məşğulluğunun təminatından ibarət olub.

Dövlət Məşğulluq Agentliyinin (DMA) məlumatına görə, 2025-ci ilin 8 ayında 109 min şəxs münasib işlə təmin olunub. Bu dövrdə 300 minə yaxın şəxs agentliyin aktiv məşğulluq tədbirləri ilə əhatə edilib. 14,6 min şəxs özünüməşğulluq proqramına cəlb edilib, 11 min işsiz şəxs üçün peşə hazırlığı kursları təşkil olunub, 164,2 min şəxsə peşəyönümü xidmətlər göstərilib. Cari ilin 8 ayında müharibə iştirakçıları olan 832 nəfər, ümumilikdə isə 10,6 min müharibə iştirakçısı əmək bazarında təmin olunub və onlar üçün kiçik bizneslər yaradılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən özünüməşğulluq proqramı çərçivəsində müharibə iştirakçılarına seçdikləri biznes istiqamətləri üzrə avadanlıqlar təqdim edilib.

Ölkəmizdə həyata keçirilən dövlət məşğulluq siyasətinin prioritetlərindən biri də qadınların məşğulluq səviyyəsinin artırılmasıdır. Aparılan işlər qadınların əmək bazarında iştirak səviyyəsinin getdikcə yüksəlməsinə imkan verib. Bu istiqamətdə tədbirlərin davamı olaraq ötən il 55 mindən çox qadın münasib işlə təmin olunub. Özünüməşğulluq proqramı işsiz və işaxtaran qadınların da kiçik sahibkarlığa çıxışında önəmli rola malikdir. Bu proqram üzrə həmin dövrdə daha 7,4 min qadına aktivlər verilməklə onlar üçün kiçik biznes sahələri yaradılıb. Dövlət Statistika Komitəsindən verilən göstəricilərə görə, qadınların məşğul əhalinin ümumi sayındakı xüsusi çəkisi ilkin məlumatlara əsasən 48 faizdir.

Gənclərin də məşğulluğu əsas istiqamətlərdən biri kimi diqqət mərkəzində saxlanılır və bununla bağlı xüsusi layihələr həyata keçirilir. Belə ki, peşə təhsili mərkəzlərində təhsil alan gənclərin biznes bacarıqlarının inkişaf etdirilməsi, sahibkarlıq fəaliyyətinə təşviq olunması, onların özünüməşğulluğunun təmin edilməsi, mikro və kiçik sahibkarlar arasında peşə təhsili almış gənclərin sayının artırılması, yeni biznes təşəbbüslərinin dəstəklənməsi və peşə təhsilinə marağın artırılması məqsədilə DMA, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və Peşə Təhsili üzrə Dövlət Agentliyinin birgə tərəfdaşlığı ilə "Gənclərin biznes emalatxanası" layihəsi icra olunur. Layihə çərçivəsində müxtəlif sahələr üzrə peşə təhsili alan gənclərin biznes təlimlərinə cəlb edilməsi, istehsalat müəssisələrinə səfərlərin təşkili və onların özünüməşğulluq proqramı çərçivəsində insanların yaşayışlarının davamlılığının və rifahının dəstəklənməsidir. Məskunlaşmanın tələblərinə uyğun olaraq məşğulluğun müxtəlif aspektləri, o cümlədən özünüməşğulluq, kvota üzrə iş yerlərinin yaradılması, ərazidə fəaliyyət göstərən şirkətlərə münasibətdə yerli işçi qüvvəsinin işlərə cəlb edilməsi və digər bu tipli layihələrin icrasına hazırlıq görülür.

Cari ilin iyul ayına qədər sözügedən ərazilərdə məskunlaşmış iqtisadi fəal əhalidən məşğulluğu təmin edilmiş şəxslərin sayı ümumilikdə 4 min 809 nəfər təşkil edib. Bunlardan 3 min 677 nəfər müvafiq qaydada işlə təmin olunub, 339 nəfər isə özünüməşğulluq proqramına cəlb edilib. Fərdi qaydada özünüməşğul olanların sayı isə 793 nəfər olub. Bu şəxslər əsasən xırda ticarət, yük və sərnişindaşıma sahələrində çalışırlar. Bunlardan əlavə, işğaldan azad edilmiş ərazilərdə 222 nəfər peşə hazırlığına cəlb olunub, daha 641 nəfərin məşğulluğunun təmin edilməsi ilə bağlı işlər aparılır.

"Azərbaycan Respublikasının 2019-2030-cu illər üçün Məşğulluq Strategiyası" çərçivəsində həyata keçirilən tədbirlər planının davamı olaraq, artıq 2025-2027-ci illər üçün yeni Strateji Plan hazırlanaraq təsdiqlənib. Bu sənəd əmək bazarındakı çağırışlara daha çevik və sistemli yanaşmanı təmin etmək məqsədi daşıyır. Onu da qeyd edək ki, rəqəmsal texnologiyalar hazırkı dövrdə müasir əmək bazarında dönüş nöqtəsi rolunu oynayır. Bugünkü reallıq onu deməyə əsas verir ki, texnologiyanın inkişafı təkcə əmək bazarına deyil, bütövlükdə məşğulluq siyasətinin təşkili və idarə edilməsinə fundamental təsir göstərir. Bu texnologiyalar əmək bazarının strukturunu dəyişdirir, işsiz, işaxtaran şəxslər və işəgötürənlər arasında əlaqəni daha sürətli və effektiv edir. Onların sayəsində məşğulluq xidmətləri daha əlçatan, şəffaf və çevik olur.

Mütəxəssislərin təxminlərinə görə, avtomatlaşdırma və süni intellekt səbəbindən əmək bazarının təxminən 27 faizi risk zonasında olsa da, həmçinin robotlaşma və optimallaşma artsa da, onlarla əməkdaşlıq edə bilən yüksəkixtisaslı işçi qüvvəsinə daim ehtiyac olacaq. Bu, o deməkdir ki, rəqəmsal texnologiyaların tətbiqi və rəqəmsal bacarıqların inkişafı əmək bazarında rəqabət qabiliyyətini artırır, yeni peşə sahələrinin yaranmasına, mövcud peşələrin məzmununun dəyişməsinə səbəb olur. Bu da təbii olaraq bacarıqların inkişafına, xüsusən də gənclərin və peşəkarların özlərini daha yaxşı inkişaf etdirmələrinə şərait yaradır.

***Mustafa KAMAL***
***XQ***

*Bu gün ölkə neftçilərinin peşə bayramıdır*

# "Əsrin müqaviləsi" Azərbaycanın yeni neft strategiyasının təntənəsidir

**Xalqımızın ümummilli lideri, müstəqil Azərbaycanın iqtisadi inkişaf strategiyasının banisi Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi olan "Əsrin müqaviləsi"nin imzalanmasının 31-ci ili tamam olur. Xəzərin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünü əhatə edən bu tarixi sazişin uğurla icra olunması istiqamətində həyata keçirilən tədbirlər ölkəmizi iqtisadi tənəzzüldən sürətli inkişaf yoluna çıxarıb.**



Azərbaycanın iqtisadi müstəqilliyi üçün möhkəm təməl, etibarlı baza rolunu oynayan "Əsrin müqaviləsi" çərçivəsində bir sıra irimiqyaslı layihələr həyata keçirilib, neftin hasilatı və nəqli üçün nəhəng infrastruktur yaradılıb. Xəzər regionunu beynəlxalq əməkdaşlıq məkanına çevirən "Əsrin müqaviləsi" gənc Azərbaycan Respublikasını qlobal enerji layihələrinin təşəbbüskarı və əsas iştirakçısı kimi bütün dünyaya tanıdıb, ölkəmizə beynəlxalq nüfuz qazandırıb. Beləliklə, Azərbaycan dünyanın neft ixrac edən ölkələrinin sırasında



öz mövqeyini xeyli gücləndirib.

"Əsrin müqaviləsi" ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti və qətiyyəti sayəsində həyata vəsiqə qazanıb. Məlum olduğu kimi, ötən əsrin əvvəllərində tarixi müstəqilliyini yenicə əldə etmiş gənc Azərbaycan Respublikası səriştəsiz idarəçilik nəticəsində dərin böhranla üzləşmişdi. Belə bir şəraitdə xalqın təkidli xahişi ilə hakimiyyət sükanı arxasına keçən Heydər Əliyev müstəqilliyini itirmək təhlükəsi ilə üzləşən ölkəni xilas etmək üçün siyasi sahədə sabitliyi, iqtisadi sahədə isə neft sənayesinin bərpası və inkişafını prioritet vəzifə kimi qarşıya qoydu. Sovet dönəmində Azərbaycana rəhbərlik etmiş ümummilli lider respublika iqtisadiyyatına, onun yeraltı və yerüstü sərvətlərinə yaxından bələd idi. O, başa düşürdü ki, müstəqil Azərbaycanın dirçəldilməsinin optimal yolu neft sənayesindən keçir və bu sektorun tezliklə inkişafı təkcə iqtisadiyyatın deyil, ümumilikdə, ölkənin dünya birliyi ilə əlaqələrinin qurulması deməkdir.

Azərbaycanın iqtisadi müstəqilliyə nail olmasının bu zənginlikdən asılı olduğunu yaxşı bilən ulu öndər Heydər Əliyev qısa müddətdə mükəmməl, bitkin inkişaf konsepsiyası işləyib hazırladı. Bu konsepsiyanın əsasını isə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən neft-qaz ehtiyatlarının işlənməsi təşkil edirdi. Bununla belə, gənc dövlətin məhdud maliyyə imkanları, eləcə də dənizin dərinliklərində işləyə biləcək qabaqcıl texnika və texnologiyaların olmaması buna imkan vermirdi. Belə bir şəraitdə Heydər Əliyev dünyaca məşhur transmilli neft şirkətlərini Azərbaycana dəvət etməyi qərara aldı.

Beləliklə, 1994-cü il sentyabrın 20-də Bakıda, Gülüstan sarayında "Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı, birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" saziş imzalandı. Bütün dünyanı heyrətləndirən belə bir sazişin imzalanması ölkəmiz, xalqımız üçün son dərəcə mühüm bir tarixi hadisə idi. Çünki gənc Azərbaycan dövləti ilk dəfə idi ki, müstəqil siyasət yürüdür, özünün yeraltı sərvətlərinə sahib çıxmasını bütün dünyaya bəyan edə bilirdi.

Təsadüfi deyil ki, təntənəli imzalanma mərasimində çıxış edən ümummilli lider Heydər Əliyev demişdir: "Biz bu müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq, digər sahələrdə çalışan şirkətlərin də Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradırıq, müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi dünyaya bir daha nümayiş etdiririk. Müqavilənin imzalanması Azərbaycan Respublikasının həyatında, iqtisadiyyatında və xüsusən neft sənayesində yeni bir mərhələ açır".

Bu fikirlər Azərbaycanın gələcək sosial-iqtisadi inkişafı üçün yeni perspektivlər açan, ölkənin maliyyə imkanlarını xeyli dərəcədə artıran tarixi sazişə verilən əsl qiymət idi. Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi olan "Əsrin müqaviləsi" Xəzər regionunu beynəlxalq əməkdaşlıq məkanına çevirdi. Çox keçmədi ki, gənc Azərbaycan Respublikası bütün dünyada qlobal enerji layihələrinin təşəbbüskarı və əsas iştirakçısı kimi tanındı.

"Əsrin müqaviləsi" Azərbaycanın qapılarını xarici sərmayədarların üzünə taybatay açdı, ölkəmizə güclü investisiya axını başladı. Bunun nəticəsidir ki, ötən müddətdə ölkəmizin neft-qaz sektoruna, təqribən, 100 milyard ABŞ dollarından artıq xarici sərmayə qoyulub. Həmin vəsait hesabına Xəzərin dərin qatlarında gizlənmiş neft və qaz ehtiyatlarının işlənməyə cəlb edilməsi üçün Azərbaycana ən müasir, mütərəqqi texnologiyalar gətirilib.

"Əsrin müqaviləsi"nin uğurla reallaşdırılması üçün yaradılmış Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin Rəhbər Komitəsi "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun mürəkkəbliyini və buradakı ehtiyatların zənginliyini nəzərə alaraq sazişin bir neçə mərhələdə həyata keçirilməsi ilə bağlı yekdil qərar qəbul etdi. Müqavilənin "İlkin neft layihəsi" çərçivəsində dənizdə mövcud "Çıraq" platformasında və "Dədə Qorqud" üzən yarımdalma qurğusunda əsaslı yenidənqurma işləri aparıldı. Bundan əlavə, Bakı Dərin Dəniz Özülləri Zavodu tamamilə yenidən quruldu, xam nefti qəbul edib ixrac sisteminə vurulması üçün Səngəçal terminalı inşa olundu, dənizdən bura sualtı boru kəməri çəkildi.

Nəhayət, 1997-ci il noyabrın 7-də "Çıraq" platformasından ilkin neftin hasilatına başlanıldı. Ayın 12-də isə ölkəmizin rəsmi dövlət və hökumət üzvlərinin, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin nümayəndələrinin, eləcə də xarici ölkələrdən gəlmiş qonaqların iştirakı ilə "Çıraq" platformasında təntənəli mərasim keçirildi. Tədbirdə bu möhtəşəm tarixin yaradıcısı Heydər Əliyevin şəxsən iştirak etməsi isə olduqca qürurverici idi.

İlkin neft layihəsinin həyata keçirilməsi sahəsində qazanılmış zəngin təcrübə sonralar "Azəri" və "Dərinsulu Günəşli" yataqlarının da mərhələli şəkildə işlənməsinə imkan yaratdı. 2001-ci il avqustun 30-da "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun tammiqyaslı işlənməsinin "Faza-1" layihəsinin icrası ilə bağlı qərar qəbul olundu. Azərbaycan hökuməti və beynəlxalq konsorsium iştirakçılarının bu qərarı, həm də "Əsrin müqaviləsi" çərçivəsində nəzərdə tutulmuş böyük neft hasilatına başlananadək zəruri ixrac sisteminin yaradılması ilə bağlı idi.

"Azəri-Çıraq-Günəşli" yataqlar blokunun tammiqyaslı işlənmə layihəsinin birinci mərhələsi çərçivəsində tikinti-quraşdırma işləri 2004-cü ilin sonlarında başa çatdırılıb. 2005-ci il fevralın 14-də isə "Mərkəzi Azəri" platforması istismara verilib. Bununla da, "Əsrin müqaviləsi" çərçivəsində böyük neft hasilatına başlanılıb. Yeri gəlmişkən, "Azəri" yatağının mərkəzi hissəsinin istismara daxil edilməsi il ərzində əlavə 18-19 milyon ton neft hasilatına imkan yaradıb və bununla da, "Əsrin müqaviləsi" çərçivəsində illik neft hasilatının səviyyəsi 24-25 milyon tona çatdırılıb.

"Azəri" yatağının qərb və şərq hissələrinin işlənməyə cəlb edilməsi isə "Əsrin müqaviləsi"nin tammiqyaslı işlənmə layihəsinin ikinci mərhələsi ("Faza-2") çərçivəsində həyata keçirilib. Bu məqsədlə 2002-ci il sentyabrın 18-də "Faza-2" layihəsi üzrə tikinti-quraşdırma işlərinə başlamağa dair qərar qəbul olunub. 5,2 milyard dollar dəyərində qiymətləndirilən bu layihə "Əsrin müqaviləsi"nin icrası çərçivəsində "İlkin neft layihəsi"ndən sonra AÇG yataqlarının tammiqyaslı işlənilməsinin növbəti mühüm mərhələsidir.

Uğurlu tikinti-quraşdırma işlərindən sonra 2005-ci ilin dekabr ayında "Azəri" yatağının qərb hissəsi istismara daxil edilib. "Faza-2" layihəsinin digər nəhəng qurğusu sayılan "Şərqi Azəri" platforması isə 2006-cı ilin noyabr ayında istismara verilib. Bununla da, "Azəri" yatağının istismara daxil edilməsi tamamlanıb. Bütövlükdə isə "Azəri" yatağının qərb və şərq hissələrinin istismara daxil edilməsi ölkədə illik neft hasilatının səviyyəsini 40 milyon tonadək artırmağa imkan yaradıb.

"Günəşli" yatağının dərinlikdə yerləşən hissəsindən neft və qaz hasilatını həyata keçirməyi nəzərdə tutan "Faza-3" layihəsi ilə bağlı qərar isə 2004-cü ilin sentyabr ayında – "Əsrin müqaviləsi"nin 10-cu ildönümünə həsr olunmuş yubiley tədbirində qəbul edilib. Layihənin reallaşdırılması üçün 4,7 milyard dollar vəsait ayrılıb ki, bunun da 3,2 milyard dolları tikinti-quraşdırma işlərinə sərf olunub. "Dərinsulu Günəşli" platformasında hasilat 2008-ci il aprelin sonlarında başlanıb. Bununla da, "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun tammiqyaslı işlənməsi təmin edilib. 2010-cu ildə ölkə üzrə neft hasilatı 50 milyon tonu ötüb. Hasilata başlanıldığı 1997-ci il noyabrın 7-dən 2025-ci il sentyabrın 1-dək "Əsrin müqaviləsi" çərçivəsində 612,2 milyon ton neft və 238,7 milyard kubmetr səmt qaz çıxarılıb.

Ulu öndər Heydər Əliyevin işləyib hazırladığı mükəmməl neft strategiyası Azərbaycana özünün zəngin neft ehtiyatlarını dünya bazarlarına müstəqil şəkildə çıxarmaq imkanı yaratdı. Ümummilli liderin uzaqgörən siyasəti nəticəsində Azərbaycan şaxələndirilmiş boru kəməri marşrutlarına sahib oldu. 1997-ci ilin sonlarından etibarən Azərbaycan nefti Bakı-Novorossiysk boru kəməri ilə Şimal istiqamətinə axmağa başladı. 1999-cu ilin aprel ayında isə xam nefti Qərb istiqamətinə daşımaq məqsədilə Bakı-Supsa boru kəməri istifadəyə verildi.

Bununla belə, Azərbaycanın artan neft həcmlərini dünya bazarına çıxarmaq üçün daha geniş imkanlara malik boru kəmərinə ehtiyac duyulurdu. Bu, Bakı-Tbilisi-Ceyhan marşrutu idi. Bütün siyasi təzyiqlərə baxmayaraq, bu ideya da gerçəkliyə çevrildi. Bu, həm də Azərbaycanın enerji dəhlizinə çevrilməsi istiqamətində atılan mühüm addım idi. "Üç dənizin əfsanəsi" adlandırılan nəhəng infrastruktur layihəsi, həm də etibarlı enerji və dostluq körpüsü kimi uzun illərdir ki, ölkələrin inkişafına, xalqların rifahına xidmət edir. 2006-cı ilin iyun ayından bu ilin II rübünün sonunadək, ümumilikdə, 605 milyon ton xam neft nəql edib. Həmin neft həcmləri Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan limanında 6007 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

1999-cu ilin dekabr ayının son günlərində Azərbaycanın mənfəət nefti yüklənmiş ilk tanker Qara dənizdən dünya bazarına yola salındı. Bununla da, ölkəmiz tarixində ilk dəfə olaraq neftdən müstəqil şəkildə gəlir götürməyə başladı. Həmin gəlirlərdən səmərəli istifadə olunması, onun müəyyən hissəsinin gələcək nəsillərə çatmasını təmin etmək məqsədilə ümummilli lider Heydər Əliyevin 1999-cu il 29 dekabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının Dövlət Neft Fondu yaradıldı. Ötən müddətdə fond "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun və "Şahdəniz" qaz yatağı layihələrinin işlənməsindən və digər daxilolmalardan, təqribən, 210 milyard dollar məbləğində gəlir əldə edib.

Yeri gəlmişkən, "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun dərin qatlarında olan neft və qaz ehtiyatları 30 ilə nəzərdə tutulmuş sazişin müddətinin daha 25 il uzadılmasına səbəb olub. 2017-ci il sentyabrın 14-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilib və yenidən tərtib olunmuş sazişin imzalanması mərasimi keçirilib. Beləliklə, "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənilməsində yeni dövr başladı. Sazişə əsasən, "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənilməsi 2050-ci ilədək uzadılıb. 2024-cü il aprelin 16-da isə "Azəri Mərkəzi Şərqi" platformasında ilkin neftin hasilatına başlanıb. Bununla da, "Azəri-Çıraq-Günəşli" yataqlar bloku yeni istismar mərhələsinə qədəm qoyub.

* * *

Ölkəmizin iqtisadi müstəqilliyinin təməl daşına, davamlı inkişaf və tərəqqi konsepsiyasına çevrilmiş "Əsrin müqaviləsi"nin imzalanmasından 31 il ötür. Müasir Azərbaycan dövlətçiliyinin memarı, ümummilli lider Heydər Əliyevin siyasi uzaqgörənliyinin nəticəsi olan qalibiyyətli enerji strategiyası Azərbaycanın neft sənayesinin şöhrətini bütün dünyaya yaydı, ölkəmizdə neftçi peşəsinə hörmət və peşənin nüfuzu bir qədər də artırdı. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev 2001-ci il avqustun 16-da imzaladığı fərmanla XX əsrin nəhəng neft sazişinin ərsəyə gəldiyi 20 sentyabr tarixini Azərbaycanda "Neftçilər Günü" peşə bayramı kimi təsis etmişdir. Fərmanda qeyd olunur: "Azərbaycanın neft və qaz sənayesinin inkişafında Azərbaycan xalqının dəyərli insanları – böyük alimləri, mühəndisləri, geoloqları, neftçiləri və başqa mütəxəssisləri zəngin neft və qaz sərvətlərinin vətən, xalq naminə istifadə edilməsi üçün böyük işlər görmüş, fədakarcasına çalışmış və xalqımızın tarixinə şanlı səhifələr yazmışlar".

Artıq qəhrəman neftçilərimiz 31-ci dəfədir ki, yeni neft strategiyasının təntənəsi olan "Əsrin müqaviləsi"nin imzalandığı 20 sentyabr tarixini, həm də peşə bayramları kimi qeyd edirlər. Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu və hazırda dövlətimizin başçısı İlham Əliyevin uğurla həyata keçirdiyi neft strategiyası isə hələ uzun illər ölkəmizin iqtisadi qüdrətinin daha da artmasına, dövlətçiliyimizin möhkəmlənməsinə xidmət edəcək.

***Səhifəni hazırladılar:***
***Mirbağır YAQUBZADƏ,***
***Nurlan ABDALOV***
***XQ***

## "Əsrin müqaviləsi"nin uğur salnaməsi

- 20 sentyabr 1994-cü il. "Azəri-Çıraq-Günəşli" yataqlar bloku üzrə hasilatın pay bölgüsü sazişi imzalanıb.
- 7 noyabr 1997-ci il. "Çıraq" platformasından neft hasilatına start verilib.
- 12 noyabr 1997-ci il. Səngəçal terminalının təntənəli açılışı keçirilib.
- 12 yanvar 1998-ci il. "Çıraq" yatağından hasil edilən neftin Bakı–Novorossiysk boru kəmərinə vurulmasına başlanılıb.
- 24 mart 1998-ci il. AÇG-nin ilk ixrac tankeri Novorossiysk terminalından dünya bazarına yola salınıb.
- 10 dekabr 1998-ci il. Bakı–Supsa kəmərinin neftlə doldurulmasına başlanılıb.
- 8 aprel 1999-cu il. Supsa terminalında ilk tanker yüklənib.
- 18 aprel 1999-cu il. Qərb ixrac neft kəmərinin tikintisinin başa çatması və Supsa terminalının istifadəyə verilməsi mərasimi keçirilib.
- 30 avqust 2001-ci il. AÇG-nin tammiqyaslı işlənilməsi layihəsinin 1-ci mərhələsi ("Faza-1") ilə bağlı hökumətlə icazə sazişi imzalanıb.
- 18 sentyabr 2002-ci il. Azərbaycan hökuməti AÇG-nin tammiqyaslı işlənilməsi layihəsinin 2-ci mərhələsinə ("Faza-2") razılıq verilib və BTC-nin təməli qoyulub.
- 30 iyul 2003-cü il. Azərbaycanda BTC boru kəmərinin çəkilişinə start verilib.
- 20 sentyabr 2004-cü il. AÇG-nin tammiqyaslı işlənilməsi layihəsinin 3-cü mərhələsi ("Faza-3") üzrə saziş imzalanıb.
- 13 fevral 2005-ci il. "Mərkəzi Azəri" platformasında ilk neftin hasilatına başlanılıb.
- 25 may 2005-ci il. Səngəçal terminalında BTC-nin Azərbaycan hissəsinin açılış mərasimi keçirilib.
- 12 oktyabr 2005-ci il. BTC-nin Gürcüstan hissəsinin açılış mərasimi keçirilib.
- 30 dekabr 2005-ci il. "Qərbi Azəri" platformasından ilk neftin hasilatı başlanıb.
- 4 iyun 2006-cı il. BTC boru kəməri ilə ixrac edilən ilk neft partiyası Ceyhan terminalından Böyük Britaniyanın "Hawthorne" tankerinə yüklənib.
- 13 iyul 2006-cı il. Ceyhanda BTC layihəsinin tam istismara verilməsi mərasimi keçirilib.
- 22 oktyabr 2006-cı il. "Şərqi Azəri" platformasından ilk neft hasil edilib.
- 22 aprel 2008-ci il. "Dərinsulu Günəşli" platformasından neft hasilatına start verilib.
- 28 yanvar 2014-cü il. "Qərbi Çıraq" platformasından hasilat başlayıb.
- 14 sentyabr 2017-ci il. Bakıda AÇG üzrə yenilənmiş hasilatın pay bölgüsü sazişi ("Yeni əsrin müqaviləsi") imzalanıb. Bununla da, "Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilədək uzadılıb.
- 16 aprel 2024-cü il. "Azəri Mərkəzi Şərqi" platformasında ilkin neftin hasilatına başlanıb.

# Müstəqillik və suverenlik xalqın tarixi varlığını təcəssüm etdirir

**Hər bir xalq üçün öz taleyinə sahib çıxmaq, müstəqil dövlətini yaratmaq və inkişaf etdirmək ən böyük nailiyyətdir. Azərbaycanın dövlətçilik tarixi əsrlər boyu çətin sınaqlardan keçib, işğallar, müharibələr xalqımızın milli iradəsini sınayıb. Lakin bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan xalqının müstəqillik, azadlıq və dövlətçilik arzusu heç vaxt sarsılmayıb, daim yeni güc və enerji ilə nəsildən-nəslə ötürülüb. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilmədi.**



XX əsrin sonlarında Azərbaycan xalqı da öz azadlığı və dövlət suverenliyi uğrunda mübarizəyə qalxdı. Bu hərəkatın nəticəsi olaraq, 1989-cu ilin sentyabrında qəbul edilən "Azərbaycan Respublikasının Dövlət Suverenliyi haqqında" Qanun Azərbaycan dövlətçiliyinin bərpası yolunda atılan həlledici addımlardan biri oldu. Azərbaycan 1991-ci ilin oktyabrında dövlət müstəqilliyini rəsmən elan etsə də, Ermənistanın hərbi təcavüzü ilə üzləşən ölkəmiz beynəlxalq birlik tərəfindən tanınmış və suveren Azərbaycan hakimiyyətinin coğrafi sərhədləri daxilində yerləşən ərazilərinin 20 faizinin işğal edilməsi ilə üzləşdi.

Bu işğal faktı dövlət müstəqilliyimizi və suverenliyimizi yarımçıq hala saldı. Lakin bu işğal Azərbaycanın beynəlxalq hüquqi suverenliyinə heç bir təsir göstərmədi. Nəticə etibarilə, Azərbaycanın işğal altında olan Qarabağ bölgəsi bütün işğal dövründə beynəlxalq birlik tərəfindən Azərbaycanın suveren ərazisi olaraq tanındı. Azərbaycan xalqı suverenlik prinsipindən heç vaxt geri çəkilmədi, xalqımız əsrlər boyu qarşılaşdığı hərbi, siyasi, iqtisadi çətinliklərə, işğal və təzyiqlərə rəğmən, müstəqillik əzmini heç vaxt itirmədi, dövlətçilik arzusu ilə mübarizəsini davam etdirdi.

Nəhayət, 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsində Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandanın rəhbərliyi ilə Ermənistan ordusunu darmadağın etdi və tarixi Zəfər qazandı. Bununla da torpaqlarını 30 illik işğaldan azad edən Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini özü yerinə yetirmiş oldu. 2023-cü il sentyabrın 19-da isə Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatlarına başlanıldı. Cəmi 23 saat davam edən antiterror tədbirləri nəticəsində müzəffər Azərbaycan Ordusu qarşısındakı bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirdi. Bununla da Azərbaycan bütün əraziləri üzərində suverenliyini tam bərpa etdi. Hakimiyyətin aliliyi və nəzarət funksiyası tam şəkildə bərpa olundu.

Müstəqillik və suverenlik yalnız hüquqi və siyasi kateqoriyalar deyil, həm də xalqın milli kimliyini, onun mədəni və tarixi varlığını təsdiqləyən dəyərlərdir. Bu baxımdan, 2024-cü il sentyabrın 19-da Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsis edilmiş Dövlət Suverenliyi Günü müasir Azərbaycan tarixinin ən mühüm dönüş nöqtələrindən biridir. Ölkəmiz bu günü ilk dəfə rəsmi olaraq qeyd edir. Bu gün təkcə keçmişin qələbəsini deyil, həm də gələcəyin güclü və müstəqil Azərbaycanını simvolizə edir. 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan olunması da dövlətçiliyimizin möhkəmlənməsinə verilən xüsusi önəmin bariz göstəricisidir. Bu, bir tərəfdən milli kimliyimizi və hüquqi-siyasi əsaslarımızı təsdiqləyir, digər tərəfdən isə Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırır.



Azərbaycan dövlət suverenliyinin təşəkkülündə mühüm bir mərhələ yaşayır. Müstəqilliyini əldə etdikdən sonra daim təcavüzə və işğala, eləcə də beynəlxalq qurumların təzyiqlərinə məruz qalan Azərbaycan dövlət müstəqilliyinin bütün atributlarını təmin etməyə nail oldu. Xalqımızın həyatında müstəsna əhəmiyyət kəsb edən bu möhtəşəm Zəfər sayəsində Azərbaycanın şanlı Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

***Fəzail İBRAHİMLİ,***
***Milli Məclisin deputatı***

**Prezident İlham Əliyevin 28 dekabr 2024-cü il Sərəncamına əsasən, bu ilin “Konstitusiya və Suverenlik İli” elan olunması dövlətçilik tariximizdə xüsusi əhəmiyyət daşıyır. Dövlət Suverenliyi Gününün rəsmi təsis edilməsi 1991-ci ildə müstəqilliyimizin bərpasının, 2020-ci ildə Vətən müharibəsində qazanılmış Zəfərin və 2023-cü il antiterror tədbirlərinin məntiqi yekunudur. Konstitusiya dövlətin hüquqi əsasını, suverenlik isə onun siyasi və milli kimliyini ifadə edir. Birlikdə isə bu anlayışlar müasir Azərbaycanın beynəlxalq aləmdə özünəməxsus statusunu təmin edir, daxildə isə sabitlik və inkişaf üçün möhkəm zəmin yaradır.**

# Milli kimliyimizin təsdiqi

Müstəqillik və suverenlik sadəcə hüquqi termin və ya siyasi status deyil, həm də milli kimlik və milli mövcudluq məsələsidir. Hər bir toplum üçün müstəqillik əldə etmək, suveren dövlət qurmaq və onu inkişaf etdirmək bəşəri miqyasda ən böyük milli nailiyyət sayılır. Azərbaycan xalqı tarix boyu saysız-hesabsız sınaqlardan və məhrumiyyətlərdən keçsə də, hər zaman dövlətçilik və bağımsızlıq ideyasına sadiq qalmış, öz milli iradəsini əslər boyu qoruyub saxlamışdır. Bu iradənin nəticəsi olaraq Azərbaycan bu gün özünün ərazi bütövlüyünü təmin etmiş tam müstəqil və suveren dövlət kimi beynəlxalq aləmdə layiqli yerini tutur.

Beynəlxalq hüquqa görə suverenlik dövlətin daxili və xarici siyasətdə müstəqilliyini, heç bir başqa hakimiyyətə tabe olmamasını təsdiq edir. Bu mənada, dövlət suverenliyi anlayışı xalqın öz taleyinə sahib çıxmaq əzminin təcəssümüdür. Azərbaycanın tarixi təcrübəsi göstərir ki, suverenliyin qorunması üçün təkcə hüquqi tanınma kifayət deyil, həm də güclü ordu, milli həmrəylik və uzaqgörən siyasi liderlik tələb olunur. Dövlət suverenliyinin qazanılmasına gətirən yol ulu öndər Heydər Əliyevin uzun illərin təcrübəsinə əsaslanan əvəzsiz xidmətləri, Prezident İlham Əliyevin qətiyyətli siyasi və ideoloji mücadiləsi ilə ərsəyə gəlmişdir.

30 ildən artıq davam edən işğal dövründə ölkəmizin 20 faizdən artıq ərazisi işğal edilmiş, yüz minlərlə azərbaycanlı etnik təmizləməyə məruz qalmış, tarixi-mədəni irsimiz dağıdılmışdı. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri Azərbaycanın ərazi bütövlüyünü təsdiq etsə də, onların icra olunmaması beynəlxalq hüquq sistemində ikili standartların olduğunu göstərirdi. Bütün bunlar Azərbaycan xalqının iradəsini sarsıtmadı, əksinə dövlət-xalq birliyindən doğan milli dövlətçilik əzmini daha da gücləndirdi. 2020-ci ilin sentyabrında Ermənistanın yeni hərbi təxribatına cavab olaraq Azərbaycan Ordusu 44 gün ərzində misilsiz qəhrəmanlıq göstərdi, torpaqlarımızın böyük hissəsi azad edildi. Azərbaycan yalnız ərazi bütövlüyünü təmin etmədi, həm də beynəlxalq hüququn pozulmuş ədalətini bərpa etdi. 2023-cü ilin aprelində Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin qurulması və həmin ilin 19-20 sentyabrında həyata keçirilən antiterror tədbirləri ilə Azərbaycan öz əraziləri üzərində suveren hakimiyyətini tam şəkildə bərpa etdi. Dövlət başçımızın da qeyd etdiyi kimi: “Azərbaycanın dövlət suverenliyi yalnız hüquqi sənədlərlə deyil, real siyasi və hərbi güclə təmin olundu. Beynəlxalq hüquq zəfər çaldı və Azərbaycan öz gücünü bütün dünyaya göstərdi”.

Dövlət başçımızın qətiyyəti, yüksək diplomatik səriştəsi, həmçinin bütün məsələlərdə beynəlxalq hüquqa və ədalətə istinad edən prinsipial mövqeyi Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmiş və beynəlxalq siyasi-iqtisadi sistemə inteqrasiyanı dərinləşdirmişdir. Azərbaycan Prezidentinin sülh və humanizm, hərtərəfli birgə əməkdaşlığı təşviq və təmin edən xeyirxah missiyası qlobal məkanda birliyin, tolerantlığın, sivilizasiyalararası dialoqun, multikulturalizmin dərinləşməsinə töhfə verir, dövlətlərarası səmimi münasibətlərin trayektoriyasını müəyyən edir.

Bu gün Azərbaycan tam müstəqil, suveren dövlət kimi istər siyasi arenada, istərsə də beynəlxalq aləmdə söz sahibidir. Dövlət suverenliyimizin qazanılması müasir Azərbaycan dövlətçiliyinin siyasi fəlsəfəsini və hüquqi legitimliyini təcəssüm etdirən mühüm mərhələdir və bu, 200 ildən sonra xalqımızın əldə etdiyi ən böyük siyasi nailiyyətdir. Dövlət suverenliyinin təmin olunması ilə Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoymuş, bölgədə sülhün, təhlükəsizliyin və əməkdaşlığın aparıcı aktoruna çevrilmişdir.

Dövlət Suverenliyi Günü xalqımızın müstəqillik əzmini, dövlətimizin siyasi iradəsini və beynəlxalq arenada qazandığı mövqeyi təsdiq edir. Suverenlik Azərbaycan xalqının milli sərvətidir və onun qorunması gələcək nəsillərin ən ali vəzifəsidir.

***Cavanşir FEYZİYEV,***
***Milli Məclisin deputatı***

# Şəhidlərin qəhrəmanlıq uvertürası

**Dövlət Suverenlik Günü ərəfəsində növbəti dəfə şəhidlərimizi ziyarət etmək üçün evdən çıxıram. Yaşadığım Sumqayıt şəhərindəki Şəhidlər xiyabanı mikrorayonumuzdan çox da uzaqda deyil. Bəlkə də 1990–94, 2020 və ya 2023 addım olar, yəni Birinci və İkinci Qarabağ müharibələrinin, eləcə də lokal antiterror əməliyyatlarının tarixini göstərən rəqəmlər qədər. Doğrusu, saymamışam, amma hər dəfə bu qısa yolu gedə-gedə xiyabanda uyuyan bütün şəhidlərimizin ruhuna dönə-dönə dualar oxuyuram...**



Ramil Şirinov



Asim Camalzadə



Cavid Mirzəyev



Zamin Abbasov

Xiyabanda son dəfn olunanlar 4 nəfərdir: antiterror əməliyyatlarının Sumqayıtdan olan şəhidləri Ramil Şirinov, Asim Camalzadə, Cavid Mirzəyev və Zamin Abbasov. Artıq 2 ildir buranı özlərinə son və əbədi ünvan seçiblər. Onların da cənnət qoxusu məzarları bəzəyən güllərin və xiyabanın ətrafında biçilmiş otların ətrinə qarışıb. Ümumi sayı 205 olan digər taledaşları kimi, onlar da sağ-salamat çıxdıqları 44 günlük Vətən müharibəsində möhtəşəm Zəfərimizin 3-cü ildönümünə hazırlaşırdılar. Amma 2023-ün 19–20 sentyabr günlərində dördü də eyni bir coğrafiyada – Xocavənddə həyata əlvida deyərək, şəhidlərin əbədiyyət karvanına qoşuldu...

Müqəddəs məkanda yanaşı uyuyan igid oğulların məzarları tər gül dəstələrinə qərq olub. Bu, o deməkdir ki, qəhrəman soydaşlarımız bir gün də yaddan çıxmır, daim ehtiramla xatırlanırlar. Onların hər biri Qarabağda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və torpaqlarımızın Ermənistan silahlı qüvvələrinin qalıqlarından təmizlənməsi naminə “uf” demədən cavan canından keçib. Ölməz şəhidlər ömürlərinin son 23 saatını həmin amal naminə oda qalayıblar. Suverenliyimizin tam təmin edildiyi bütün ərazilərdə olduğu kimi, onların məzarları üzərində də gözümüzün işığı bildiyimiz üçrəngli bayrağımız dalğalanır.

...**Ramil Şirinov** Sumqayıtdakı 12 nömrəli tam orta məktəbi bitirib, Gəncə Texnologiya Universitetində ali təhsil alıb. Azərbaycan Silahlı Qüvvələrində hərbi xidmətini başa vurduqdan sonra bir müddət mülki işlərdə çalışıb. Sonra Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Əlahiddə Çevik Polis Alayında xidmətə başlayıb. Cəsur serjant olaraq Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən inişilin sentyabrında həyata keçirilmiş uğurlu lokal antiterror tədbirlərinə qatılıb. O və silahdaşları tərkinə atıldıqları “Kamaz” markalı nəqliyyat vasitəsilə Əhmədbəyli–Füzuli–Şuşa yolunun Xocavənd rayonundan keçən 58-ci kilometrliyində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi əməkdaşlarının öldürülməsi ilə nəticələnmiş terror hadisəsinin baş verdiyi istiqamətə hərəkət edərkən erməni təxribat-diversiya qrupunun basdırdığı minanın partlaması nəticəsində şəhid olub. Prezident sərəncamı ilə Ramil Şirinov “Vətən uğrunda” medalı ilə təltif edilib. O, ailəli idi, Arif və Şəms adlı 2 övladı yadigar qalıb.

...Sumqayıtda dünyaya göz açmış **Asim Camalzadə** də Xocavənd ərazisində – daha dəqiq desək, Tağaverd kəndi tərəfdə Ramil Şirinovla, həmçinin Seymur Mahmudov və Xəzər Zamanovla birlikdə eyni mina terrorunun qurbanı olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında hərbi qulluq keçən Asim əsgəri xidmətini başa vurunca, Əlahiddə Çevik Polis Alayında xidmət edib. Şəhadətə qovuşandan sonra onun döyüş hünəri “Vətən uğrunda” medalı ilə rəğbətləndirilib. Atası Knyaz kişi, anası Xədicə xanım və bacısı Aytən Şəhidlər xiyabanına, müxtəlif yerlərdə keçirilən vətənpəvərlik tədbirlərinə, anım mərasimlərinə daim başlarını dik tutaraq gəlir, mərd, cəsur Asimin adı ilə fəxr edirlər.

...**Şəhid Cavid Mirzəyev** poqonlarında baş leytenant ulduzları gəzdirirdi. O, Sumqayıtdakı 1 nömrəli tam orta məktəbin məzunu idi. Bakı Slavyan Universitetində ali təhsil almışdı. Sonra Milli Orduya həqiqi hərbi xidmətə çağırılmış, Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində “zabit hazırlığı” kurslarını bitirmiş, “leytenant” hərbi rütbəsi ilə Vətən qulluğunda dayanmışdı. Hələ məktəb illərində “Qaydasız döyüş” idman növü ilə məşğul olan Cavid bilirdi ki, müharibə də elə bir növ “qaydasız döyüş”dür, ona görə də hər an hər şeyə hazır idi. 44 günlük Zəfər yürüşündə – Füzulidən Şuşayadək şərəfli döyüş yolu keçmiş, döyüşlərdə fərqlənmişdi. Müharibədən sonra toyu da olmuşdu, amma... Təcrübəsi və cəsurluğu nəzərə alınaraq antiterror əməliyyatına cəlb edilmiş və elə o zaman şəhadətə qovuşmuşdu. Əməliyyat zamanı şəxsi igidlik və şücaət göstərdiyinə görə igid zabit Füzulinin və Xocavəndin azad olunmasına görə, eləcə də “Hərbi xidmətdə fərqlənməyə görə” və “Vətən uğrunda” medalları ilə təltif edilib. Ondan Cavidan adlı bir oğlu yadigar qalıb.

...Əslən Qubadlıdan olan, 5 aylığında ikən məcburi köçkün ailəsi ilə Sumqayıta gələn **Zamin Abbasov** da baş leytenant idi. Birinci Qarabağ müharibəsinin veteranı olan atası Xəqani kişinin döyüş yolunu davam etdirmək üçün əvvəlcə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (hazırkı Milli Müdafiə Universitetinin tabeliyindəki Hərbi İnstitutda) ali təhsil almışdı. Milli Qəhrəman Şükür Həmidovun komandir olduğu hərbi hissənin zabiti kimi Qarabağ və Şərqi Zəngəzurun mənfur düşməndən təmizlənməsində şücaətlər göstərmiş, həmməslәkləri ilə “Dəmir yumruq”da birləşərək işğalçılara sarsıdıcı zərbələr vurmuşdu. 2021–2022-ci illərdə qısamüddətli əməliyyatlar zamanı tabeçiliyində olan hərbi qulluqçularla birgə əsl qorxmazlıq nümunəsi kimi tanınmışdı. Vətənin bütövlüyünə zamin duran Zamin 2023-cü ildə – tarixi antiterror tədbirləri keçirilərkən Xocavənd rayonunda düşmən snayperindən açılan atəşlə yaralanaraq şəhid olub. Ölümündən sonra fərqlənmə təltiflərinə layiq görülüb.

Qısamüddətli lokal antiterror əməliyyatları şəhidlərinin xiyabandakı izdihamlı dəfn mərasimlərini də xatırlayıram. Ətrafa çökmüş sükutu havaya açılan yaylım atəşləri pozdu – bu, hərbçilərimizin şəhid ruhlarına ehtiram proseduru idi. Ali komandirlər şəhidlərin nəşləri bükülmüş bayraqları yadigar olaraq onların valideynlərinə təqdim etdilər. Şəhər rəhbərliyi, Milli Məclisin deputatları, hüquq-mühafizə orqanlarının nümayəndələri, qazilər, veteranlar, şəhər ictimaiyyəti daim şəhid ailələrinin yanında olduqlarını bir daha göstərdilər. Kədərli anlar idi, amma eyni zamanda hər kəs dövlət suverenliyimizin tam bərpa edilməsinə görə qürur hissi keçirirdi.

…Sumqayıt Şəhidlər xiyabanı şəhərin dənizkənarı park ərazisində – Səməd Vurğun küçəsində yerləşir. Yadıma dahi şairin misraları düşür:

***Ölüm sevinməsin qoy, ömrünü vermir bada***
***El qədrini canından daha əziz bilənlər.***
***Şirin bir xatirətək qalacaqdır dünyada,***
***Sevərək yaşayanlar, sevilərək ölənlər...***

Bu misralar dahi bəstəkarımız Üzeyir Hacıbəyliyə həsr olunsa da, Vətən, dövlət və millət üçün canını fəda edən hər kəsə aiddir. Şəhidlərimizin döyüşlərə atılarkən Üzeyir bəyin “Koroğlu” operasından bütövlük himnimiz kimi səslənən “Qəhrəmanlıq uvertürası”nın ruhi sədaları ilə qanadlandıqları da şəksizdir.

***Ə.DOSTƏLİ***
***XQ***

*Antiterror tədbirlərindən 2 il keçir*

# Qarabağda separatçılığa son qoymuş hərbi rəşadət

## *Silahlı Qüvvələrimiz Xankəndi xuntasını süpürüb atmaqla Qarabağda suverenliyimizi tam bərpa etdi*

**2020-ci ilin payızında Azərbaycanın 30 il Ermənistanın işğalında qalmış Qarabağı möhtəşəm Zəfər yürüşü ilə azad etməsi çoxəsrlik dövlətçilik tariximizin ən böyük hərbi-siyasi qələbəsi oldu. Ermənistan ordusunun darmadağın edilib ölkəmizdən qovulmasından sonra bölgənin dinc erməni icmasına qalıb yaşamaq imkanları təmin edilsə də, bölgədə sülh yaratmalı olan Rusiya sülhməramlılarının açıq-gizli dəstəyi ilə Azərbaycanın suverenliyinin bərpası üçün ciddi maneələr yaradıldı.**



Xankəndi–Xocalı–Xocavənd–Ağdərə çevrəsində cəmlənmiş Ermənistan ordusunun qalıqları və yerli silahlı dəstələr xunta formatında dirçəldilərək, gizli yollarla silahlandırılaraq təslimolma şərtlərini yerinə yetirmədilər. Erməni icmasının yaşadığı ölkənin qanunlarına tabe olmaması, Qarabağın sərvətlərinin talan edilməsi, ən başlıcası isə qanlı terror əməllərinin genişlənməsi bölgənin taleyini lokal antiterror əməliyyatı keçirmək zərurəti ilə üzləşdirdi.

Azərbaycan dövlətinin 2023-cü il sentyabrın 19–20-də keçirdiyi 1 sutkalıq sürətli antiterror əməliyyatı bölgənin dinc əhalisindən yan ötməklə Xankəndi xuntasının bədnam varlığına son qoydu. Bununla Azərbaycanın konstitusiyalı quruluşu, dövlət suverenliyi, Qarabağı da bütünlüklə əhatə etməklə, ölkə ərazisində də tam bərpa edildi. Bu tarixi hadisənin dövlətçilik təqvimində layiqli yer tutması, əbədiləşməsi üçün hərbi-siyasi qələbənin 1-ci ildönümündə Prezident İlham Əliyevin Sərəncamı ilə hər il sentyabrın 20-sinin Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edilməsi qərara alındı.

Sərəncamda bildirilirdi ki, 2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır: “Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir”.

***Bu il ikinci dəfədir ki, Suverenlik Gününün ölkəmiz ümumxalq təntənələri ilə qeyd edir. Tanınmış hərb tarixçisi, XQ-nin hərbi eksperti, Milli Müdafiə Universiteti Hərbi Elmi-Tədqiqat İnstitutunun professoru, tarix elmləri doktoru Mehman Süleymanov xalqımıza daha bir şanlı tarix bəxş etmiş Silahlı Qüvvələrimizin möhtəşəm rəşadətindən söz açaraq bildirdi:***

– Ermənistanın hərbi-siyasi rəhbərliyi, onun Qarabağda yaratdığı oyuncaq xunta rejimi təslimolma aktı sayılan 2020-ci ilin 10 noyabr tarixli üçtərəfli Bəyanatından sonra yuxudan və xülyalardan ayılmadılar. Onlar bir tərəfdən, Qarabağın dağlıq hissəsində mövcud olan təbii sərvətləri talan edib Ermənistana daşıyır, digər tərəfdən Rusiya sülhməramlı kontingentinin müvəqqəti nəzarəti altında olan ərazilərə silah-sursat daşıyırdılar. Ermənistanın hərbi-siyasi dairələri reallıq hissini o dərəcədə itirmişdilər ki, hətta Azərbaycan rəhbərliyinin ciddi etiraz səslərini də qulaqardına vururdular.

Erməni separatçı quldur dəstələri Rusiyanın müvəqqəti şəkildə bölgədə yerləşdirilmiş sülhyaratma kontingentinin gözü qarşısında yeni səngərlər və mühəndis-istehkam xətləri qurur, bölgəyə yeni hərbi qüvvələr və hərbi təchizat daşınmasını davam etdirirdilər. Yəni açıq şəkildə Azərbaycana qarşı yeni bir hərbi təcavüzə ciddi hazırlıqlar aparılırdı və müşahidəçilər də bunun belə olduğunu inkar etmirdilər.

Bu açıq müharibə hazırlıqlarının və erməni revanşizminin qarşısını almaq üçün Azərbaycan Ordusunun bölmələri 2022-ci il mart ayının 24-25-də Fərrux dağını tam nəzarətə götürdü. Bununla Azərbaycan Ordusunun bölmələri bölgədə strateji mövqe üstünlüyünü daha da möhkəmləndirdi. Lakin erməni hərbi qüvvələri yenə də öz müharibə hazırlıqlarını və hərbi təxribatlarını dayandırmadılar.

Üçtərəfli Bəyanatın imzalanmasından sonra atəşkəs rejimini davamlı şəkildə pozan erməni hərbi qüvvələri 2022-ci il avqust ayının 3-də daha qanlı bir təxribata əl atdılar.

***Azərbaycan Ordusu bölmələrinin bu təxribata cavab olaraq keçirdikləri “Qisas” əməliyyatını xatırladan müsahibimiz qeyd etdi ki, ordu bölmələrimiz dərhal hərəkətə keçib Qırxqız yüksəkliyini, strateji əhəmiyyət kəsb edən Sarıbaba yüksəkliyi və bir sıra digər hakim yüksəkliklər nəzarət altına aldı:***

– Prezident İlham Əliyev Fərrux dağı və Qırxqız–Sarıbaba yüksəklikləri ətrafında aparılmış döyüşlərin əməliyyat-taktiki əhəmiyyətini yüksək qiymətləndirib: “Fərrux əməliyyatı, Sarıbaba–Qırxqız əməliyyatı və digər hərbi əməliyyatlar həm bizim strateji mövqelərimizi böyük dərəcədə yaxşılaşdırmışdır. Eyni zamanda, Ermənistana göndərilmiş bir mesaj idi ki, bizi heç kim və heç nə dayandıra bilməz, Qarabağ Azərbaycan torpağıdır və burada vəziyyəti biz diktə edirik və siz dərhal silahlı qüvvələrinizi bizim torpaqlarımızdan çıxarmalısınız”.

Baş verənlərdən nəticə çıxarmayan erməni hərbi qüvvələri 2022-ci il sentyabr ayının 12-də daha geniş hərbi təxribata əl atmaqla Azərbaycan Ordusunun Daşkəsən, Kəlbəcər və Laçın rayonları ərazisindəki bəzi mövqeləri, sığınacaqları və dayaq məntəqələri müxtəlif çaplı silahlar, o cümlədən minaatanlardan intensiv atəşə tutdular. Nəticədə Azərbaycan bölmələrinin şəxsi heyəti arasında itkilər baş verdi, hərbi infrastruktura ziyan dəydi.

Azərbaycan tərəfi bu təxribatı cavabsız buraxmadı. Həyata keçirilən qətiyyətli tədbirlər nəticəsində 2022-ci il sentyabr ayının 12–14-də Azərbaycan–Ermənistan sərhəd xəttində baş verən erməni hərbi təxribatlarının qarşısı uğurla alındı. Ali Baş Komandan İlham Əliyevin dediyi kimi: “Qarabağ bölgəsində bütün vacib olan məntəqələrə yerləşdik. Eyni zamanda, uzun illər ərzində işğal altında qalmış Azərbaycan–Ermənistan sərhədini nəzarətə götürdük. Sərhəddə mövqelərimizi tədricən yaxşılaşdırdıq və müxtəlif tədbirlər nəticəsində Azərbaycan–Ermənistan sərhədinin böyük hissəsində ən əlverişli mövqelərə malik olduq”.

Azərbaycanın dövlət rəhbərliyi kimi, Azərbaycan xalqı da ermənilərin bu oyunlarına qarşı öz etiraz səsini qaldırdı, Ermənistandan Qarabağ ərazisində yerləşən erməni hərbi qüvvələrinə silah və sursat gətirilməsinə və Qarabağdakı təbii sərvətlərin talanaraq Ermənistana daşınmasına etiraz əlaməti olaraq 2022-ci il dekabrın 12-də Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri, ekologiya fəalları və gənc könüllüləri Şuşa–Laçın yolunda etiraz aksiyasına başladılar.



2023-cü il aprel ayının 23-də isə Azərbaycanla Ermənistanı quru yolla birləşdirən Laçın yolu üzərində dövlət sərhəd-nəzarət postu qoyuldu. Bununla Azərbaycanın bütün sərhəd xətti respublikanın nəzarəti altına alındı və Azərbaycan öz ərazi bütövlüyünü tam təmin etmiş oldu. Lakin erməni millətçi dairələri bundan sonra da öz təxribatçı əməllərindən əl çəkmədilər.

Sakitləşmək bilməyən erməni millətçi-təcavüzkar dairələrinin qanunsuz fəaliyyətin təhlükəli hal almasının nəticəsi idi ki, 2023-cü il sentyabrın 18-də ermənilərin yol üzərində yerləşdirdiyi minalardan 6 Azərbaycan vətəndaşı öz həyatını itirdi. Əvvəlcə Avtomobil Nəqliyyatı Agentliyində çalışan iki nəfər Azərbaycan vətəndaşı Xocavənd rayonunda, sonra isə Daxili İşlər Nazirliyinin dörd əməkdaşı həmin rayon ərazisində mina qurbanı oldular.

Sentyabr ayının 19-da isə saat 11:45 radələrində Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində yerləşən mövqeləri Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutuldu. Bu atəş nəticəsində Azərbaycan Ordusunun 2 hərbi qulluqçusu yaralandı.

Bütün bu baş verənlər göstərdi ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycana qarşı öz iddialarından əl çəkmədiyi kimi, qondarma qurumun qondarma rəhbərliyi də Qarabağın dağlıq hissəsində yaşayan erməni sakinlərin Azərbaycana inteqrasiya edilməsi təkliflərini qəbul etmək istəmir.

***– Elə buna görə də Azərbaycan tərəfinin dözüm limiti tükəndi, zərurətə çevrilən antiterror əməliyyatı keçirildi.***

– Bəli, Vətən müharibəsindən sonra bölgədə cərəyan edən təhlükəli revanşizm Azərbaycanın öz ərazilərində suverenliyini bütünlüklə təmin etmək üçün başqa seçim yolu qoymadı və dövlət rəhbərinin əmri ilə Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində lokal xarakterli antiterror əməliyyatının (tədbirinin) keçirilməsi qaçılmaz zərurət oldu.

Bu antiterror əməliyyatı 2023-cü il sentyabr ayının 19-da, təxminən saat 13:00-da başladı. Bununla bağlı məlumat yayan Müdafiə Nazirliyi bildirdi ki, həyata keçirilən tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır. O da vurğulanırdı ki, Azərbaycan Ordusu tərəfindən bu əməliyyatın gedişində mülki əhali və infrastruktur obyektləri hədəfə alınmır, yalnız legitim hərbi hədəflər sıradan çıxarılır.

Şanlı antiterror əməliyyatı xüsusi olaraq planlaşdırılmış bir əməliyyat idi. Məqsəd də mülki əhaliyə və infrastruktura ziyan yetirmədən qarşıya qoyulan hədəflərə nail olmaq idi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev də bu antiterror əməliyyatının mülki əhaliyə ziyan vurmadan aparılmasını zəruri sayırdı: “Əməliyyat başlamazdan əvvəl mənim tərəfimdən bütün hərbi birləşmələrimizə bir daha ciddi tapşırıq verilmişdir ki, aparılan antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yaşayan erməni əhalisi zərbə altına düşməməlidir və mülki əhali qorunmalıdır. Göstəriş verilmişdir ki, mülki infrastruktura da heç bir zərbə dəyməməlidir, ancaq hərbi infrastruktur sıradan çıxarılmalıdır”.

Bəlli idi ki, antiterror əməliyyatının başlanması ərəfəsində erməni hərbi qüvvələrinin 300-ə yaxın artilleriya və 50-dən artıq minaatan mövqeləri var idi. Bunlardan başqa erməni hərbi qüvvələrinin ixtiyarında ondan artıq yer-hava raket sistemi, 6 radiolokasiya stansiyası, 20-dən artıq radioelektron mübarizə vasitəsi və təxminən 30 mobil operator baza stansiyası var idi.

Ali Baş Komandan İlham Əliyev müəyyənləşdirdiyi döyüş tapşırıqlarının düzgün və vaxtında icra edilməsi üçün dərhal zəruri olan tədbirlərin icrasına başlandı.

Sentyabrın 19-da aparılan əməliyyat nəticəsində Ermənistan silahlı qüvvələrinin 60-dan çox döyüş mövqeyi Azərbaycan bölmələrinin nəzarətinə keçdi, Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus 20-dən artıq hərbi təyinatlı avtomobil, 40-dan artıq artilleriya qurğusu, 30-dan artıq minaatan, 2 ədəd zenit-raket qurğusu, 6-dan artıq "Martira" radioelektron mübarizə stansiyası və digər hərbi təyinatlı vasitələri zərərsizləşdirildi. Xeyli sayda erməni hərbi texnikası və canlı qüvvəsi məhv edildi.

Əsas döyüşlər isə Papravənd-Sərsəng, Qalayçılar–Heyvalı, Canyataq–Sırxavənd, Gülyataq–Mehmana, Abdal–Harov, Abdal–Yemişcan, Yuxarı Veysəlli–Qarakənd, Qacar–Sos, Qarabulaq–Xaçmas, Sıqnax–Dağdağan, Əliağalı–Kolataq, Abdal–Xocalı istiqamətlərində aparıldı. Bu döyüşlərin gedişində Ermənistan silahlı qüvvələrinin Qarabağın dağlıq hissəsində yerləşən hərbi qüvvələrinə ağır zərbə vuruldu, onların döyüş potensialı məhv edildi.

Sentyabrın 20-də günorta saatlarına qədər Ermənistan silahlı qüvvələri birləşmələrinin tərtibləndiyi 90-dan artıq döyüş mövqeyi, eləcə də bir neçə strateji əhəmiyyətli yüksəklik Silahlı qüvvələrimizin nəzarətinə keçirildi. Günorta 13:00 radələrində Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış olan xunta rejiminin rəhbərliyi Azərbaycanın şərtlərini qəbul etməyə və silahı yerə qoymağa hazır olduğunu bildirdi.

***Müsahibimiz sonda bildirdi ki, beləliklə, dünya hərb tarixində Azərbaycan Ordusu daha bir nadir əməliyyat həyata keçirdi:***

– Bir sutkadan da az davam edən bu əməliyyat nəticəsində bölgədəki mülki əhaliyə və obyektlərə ziyan vurulmadan erməni hərbi qüvvələri məhv edildi və Azərbaycanın bütün ərazilərində respublikanın suverenliyi təmin edildi. Prezident, Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun yeni bir tarixi uğuru ilə sona çatan lokal xarakterli antiterror əməliyyatının nəticələrini belə dəyərləndirdi: “Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı cəmi bir gün, ondan da az çəkdi. Azərbaycan Ordusu peşəkarlıq və qəhrəmanlıq göstərərək, bütün strateji yerlərə çıxaraq, qısa müddət ərzində o əməliyyatın taleyini həll etdi və düşmən ordusu təslim olmağa məcbur oldu. Nəinki təslim oldu, hətta 30 il bundan əvvəl bizim torpağımızda yaratdıqları qondarma rejimə də xitam verildi, o rejim də süqut etdi, halbuki bu, qanunsuz rejim idi. Beləliklə, biz tarixi ədaləti bərpa etdik. 20 sentyabr 2023-cü il bizim tariximizdə qalacaq, necə ki, 8 Noyabr”.

***Hazırladı: Tahir AYDINOĞLU***
***XQ***

# Bölgələrdə Dövlət Suverenliyi Günü təntənə ilə qeyd edilib

**20 Sentyabr – Dövlət Suverenliyi Günü münasibətilə Mingəçevir Şəhər İcra Hakimiyyəti və YAP şəhər təşkilatı birgə elmi-nəzəri konfrans keçirib.**

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov məclisdə məruzə ilə çıxış edib. Şəhər rəhbəri qeyd edib ki, xalqımız ikinci ildir ki, Qarabağ münaqişəsinə son qoyan 2023-cü ilin antiterror əməliyyatının tarixi önəmini ifadə edən Dövlət Suverenliyi Gününü şanlı qələbə bayramı kimi qeyd edir. Bu tarixi əməliyyat yalnız hərbi nailiyyət deyil, həm də uzun illər boyu davam edən işğalın, separatizmin və qeyri-qanuni rejimlərin yaratdığı təhlükənin aradan qaldırılması demək idi. Əməliyyatın ən önəmli siyasi nəticələrindən biri isə qondarma Dağlıq Qarabağ rejiminin özünü buraxdığını rəsmi şəkildə elan etməsi oldu.





Konfransda YAP şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev “Suveren Azərbaycan – Heydər Əliyev ideyalarının zəfəridir”, MDU Təhsil fakültəsinin dekan müavini, tarix üzrə fəlsəfə doktoru Aygün Qədirova, “Dövlət Suverenliyi Günü dövlətimizin gələcək inkişaf yolunun simvoludur”, Mingəçevir şəhər 9 saylı tam orta məktəbin direktoru Seymur Məhərrəmov “Suverenliyimizin tam bərpası ölkəmizin qarşısında yeni imkanlar açır”, İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyanın Gənclərin çağırışaqədərki hazırlıq rəhbəri, Vətən müharibəsi və Antiterror əməliyyatı iştirakçısı Elçin Teymurov “Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz tarixin ən şanlı mərhələsini yaşayır” mövzularında məruzələrlə çıxış ediblər.

***

**Balakən Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə 20 Sentyabr – Dövlət Suverenliyi Gününə həsr edilmiş təntənəli mərasim keçirilib.**

Toplantıda əvvəlcə ölkəmizdə suverenliyi tam bərpa etmiş 2023-cü ilin antiterror əməliyyatında ordumuzun qəhrəmanlığının əks etdirən videoçarx nümayiş etdirilib. Sonra Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev Dövlət Suverenliyi Gününün təqvimimizdə şərəfli yer almasından söz açaraq qeyd edib ki, 2023-cü il sentyabrın 19-20-də cəmi 23 saat davam edən lokal xarakterli antiterror tədbirləri zamanı Ordumuzun qarşısına qoyulmuş vəzifələri yüksək peşəkarlıqla yerinə yetirməsi nəticəsində Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyi tam bərpa edilib. Şanlı bayrağımız suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanır.

Mərasimdə bildirilib ki, rayon rəhbəri bildirib ki 1 il əvvəl 20 Sentyabr – Dövlət Suverenliyi Gününün təsis edilməsi 1991-ci ildə müstəqilliyin bərpası ilə başlayan tarixi yolun məntiqi nəticəsi, ərazi bütövlüyü və dövlət suverenliyi uğrunda uzun illər aparılan mübarizənin zirvəsidir. Dövlət Suverenliyi Günü müstəqilliyimizin dönməzliyini, ərazi bütövlüyümüzün bərpasını və xalqımızın sarsılmaz iradəsini təcəssüm etdirən tarixi gündür.

Toplantı rayon mədəniyyət işçilərinin ifasında ədəbi-bədii kompozisiya ilə davam edib.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

*Əcəmi Naxçıvani – 900*

# Abidələr dahisi özü də abidələşəcək

*"Biz gedirik, ancaq qalır ruzigar, biz ölürük, əsər qalır yadigar"*

**Prezident İlham Əliyev sentyabrın 18-də görkəmli memar Əcəmi Naxçıvaninin abidəsinin ucaldılması ilə bağlı Sərəncam imzalayıb. Orta əsrlər Azərbaycan memarlıq tarixində xüsusi mövqeyi olan qüdrətli sənətkarın xatirəsinin əbədiləşdirilməsi məqsədilə Naxçıvan şəhərində onun adına abidə inşa ediləcək.**



UNESCO-nun Baş konfransının 2023-cü il 7–22 noyabr tarixlərində keçirilən 42-ci sessiyasında Əcəmi Naxçıvaninin 900 illik yubileyi 2024–2025-ci illər ərzində beynəlxalq miqyasda qeyd olunacaq yubileylər siyahısına salınıb.

Əcəmi Əbubəkr oğlu Naxçıvani orta əsr Azərbaycan memarlığının ən güclü istiqamətlərindən biri sayılan Naxçıvan memarlıq məktəbinin parlaq nümayəndələrindəndir. Təəssüf ki, dövrümüzə qədər gəlib çatan yazılı mənbələrdə onun həyatı haqqında geniş məlumat yoxdur. Memarın şəxsiyyətinə dair bilgiləri əsasən yaratdığı möhtəşəm abidələr və onların üzərindəki kitabələrdən öyrənirik.

XI–XII əsrlər Azərbaycan mədəniyyətinin çiçəklənmə dövrü hesab olunur. Qüdrətli Atabəylər dövlətinin təşəkkülü sənətkarlığın, ticarətin, elmin, ədəbiyyatın sürətli inkişafına səbəb olmuşdu. Həmin dövrdə tikililərin memarlıq-estetik görünüşünə xüsusi əhəmiyyət verilirdi.

Əcəmi Naxçıvani Atabəylər dövlətinin paytaxtı olan Naxçıvanda fəaliyyət göstərmişdir. Şəmsəddin Eldəniz paytaxtının gözəlliyinə və abadlığına xüsusi diqqət yetirdiyindən şəhərdə möhtəşəm binalar inşa olunurdu. Əcəminin memarlıq əsərləri də qədim Naxçıvanın mərkəzi hissələrinə xüsusi yaraşıq qatır, şəhərin görkəmini daha da əzəmətli edirdi. Onun memarlıq irsinin ən parlaq nümunələri sırasında Yusif ibn Küseyir türbəsi (1162), Möminə xatun türbəsi, Cümə məscidi və Qoşa minarə xüsusi yer tutur. Möminə xatun türbəsinin tikintisi 1186-cı ildə tamamlanmış və bu möhtəşəm abidə günümüzə qədər gəlib çatmışdır. Hazırda onun qorunub qalmış hissəsi 26 metr hündürlüyündədir. Türbənin ucalığı qüdrət və gücün rəmzi kimi qəbul olunur. Abidə yeraltı və yerüstü hissələrdən ibarətdir. Yeraltı hissə sərdabədən təşkil olunmuşdur, öz quruluşu ilə bənzərsizdir.

Əcəmi Naxçıvaninin yaratdığı bir sıra abidələrin – Yusif ibn Kuseyr türbəsi, Möminə xatun türbəsi və qoşa minarəli baştağın üzərindəki kitabələr XIX əsrin ortalarından etibarən tədqiq olunmağa başlanmışdır. Həmin araşdırmalar nəticəsində bu abidələrin təyinatı, sifarişçiləri, inşa tarixi və memarın kimliyi barədə mühüm elmi faktlar üzə çıxarılmışdır. Məhz həmin kitabələr vasitəsilə Əcəmi Əbubəkr oğlu Naxçıvaninin adı geniş elmi ictimaiyyətə məlum olmuşdur.

XIX əsrə qədər Naxçıvan şəhərində bir sıra memarlıq nümunələrinin qalıqları qorunub saxlanılmışdı. Onların arasında Atabəylər memarlıq kompleksinin tərkibinə daxil olan Qoşa minarəli baştağ və Cümə məscidi də xüsusi yer tutur, Əcəminin zəngin yaradıcılıq irsinin nümunələri kimi qiymətləndirilir. XII əsrdə Naxçıvanda formalaşdırılmış Atabəylər memarlıq kompleksinə Eldənizlər sarayı (Dar ül-Mülk), Xanəgah və digər inzibati - mülki binalar da daxil idi. Bu tikililərin də Əcəmi Naxçıvani tərəfindən inşa edildiyi məlumdur. Alimlər arasında 1979-cu ildə Ordubad rayonunun Orta əsr Xaraba Gilan yaşayış yerində təsadüfən aşkarlanan türbənin də memar Əcəminin əsəri ola biləcəyi və onun XII əsrin 80-ci illərində tikildiyi barədə ehtimallar irəli sürülmüşdür.

Əcəminin tikdiyi Cümə məscidi haqqında fransız səyyahlar Tavernye və Delafruanın qeydlərində şəkillər yer almışdır. XIX əsrin ortalarında V.Engelqart "Qafqaz" qəzetində bu məscid haqda yazırdı: "Bu - yonulmuş daşlardan tikilmiş və tağları olan nəhəng bir binadır. İçəridə hələ də gözəl relyefli oymaların izləri qalmaqdadır. Məscidin bir hissəsi artıq dağılıb, o biri hissəsi isə dağılmaq üzrədir. Məsciddən 50 sajen aralıda hündürlüyü 20 sajenə



çatan qoşa minarəli darvaza yerləşir. Darvaza da həmin kompleksə daxildir. Əvvəllər məscidlə darvazanın arasındakı yerdə müxtəlif tikililər olub, ancaq indi bunlar yoxdur və adama elə gəlir ki, darvaza bir qədər yaxındakı tənha qalaya aiddir".

Əcəmi Əbubəkr oğlu Naxçıvani yaratdığı Yusif ibn Küseyir türbəsində imzası olaraq "Bənna Əcəmi Əbubəkr oğlu Nəşəvinin əməlidir", Möminə xatun türbəsində isə "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməlidir" sözləri yazılmışdır. Kitabələrin verdiyi məlumata görə, memar ilk yaradıcılıq nümunəsi olan Yusif ibn Küseyir türbəsində "Nəşəvi" nisbəsi ilə tanınmışdır ki, bu da onun doğulduğu və ya yaşadığı məkanı göstərən addır.

Əcəmi Naxçıvaninin vəfatından sonrakı mərhələlərdə onun yaradıcılıq irsi və memarlıq məktəbi regionun geniş coğrafi məkanına dərin təsir göstərmişdir. Nəticədə XII–XIV əsrlər ərzində Azərbaycan və ətraf ərazilərdə möhtəşəm memarlıq nümunələri inşa edilmişdir. Naxçıvan memarlıq məktəbinin estetik və texniki prinsiplərinin davamlılığı həmin dövrdə meydana gəlmişdir. Bu ənənənin izləri Naxçıvan bölgəsində günümüzədək qorunub saxlanılmış Gülüstan türbəsində (XII–XIII əsrlər), Qarabağlar memarlıq kompleksində (XII–XIV əsrlər), həmçinin Naxçıvan memarlıq məktəbinin görkəmli nümayəndəsi Əhməd Əyyub oğlu əl-Hafiz Naxçıvani tərəfindən inşa olunmuş Bərdə türbəsində (1322-ci il) özünü göstərir. Bununla yanaşı, Cənubi Azərbaycanın Marağa şəhərindəki Göy günbəz (1196-cı il), Səlmas türbəsi (XIV əsr) və digər memarlıq nümunələri də Əcəmi yaradıcılığının təsir dairəsini nümayiş etdirən faktlar sırasında mühüm yer tutur.

Türk alimləri də bir çox əsərlərində qeyd edirlər ki, türk Memar Sinanın İstanbulda inşa etdiyi Xosrov paşa türbəsi də Memar Əcəmi yaradıcılığından bəhrələnir, "burada Atabəylərdən qalma günbəzlərdən bir nəfəs gəlir".

***Ləman TƏHMƏZ***
***XQ***

*Üzeyir Hacıbəyli – 140*

**Azərbaycan milli musiqisinin banisi, Şərqdə ilk operanın müəllifi və Azərbaycanın Dövlət Himninin bəstəkarı, akademik Üzeyir Hacıbəylinin 140 illik yubileyi UNESCO-nun mənzil-qərargahında qeyd olunub.**

# Korifey bəstəkarın irsi UNESCO zirvəsində

Mərasim Azərbaycanın UNESCO yanındakı daimi nümayəndəliyinin və Fransa–Azərbaycan Dialoqu Assosiasiyasının birgə təşəbbüsü ilə təşkil edilib.

Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev çıxışında bildirib ki, Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi bəstəkarın həyat və yaradıcılığına ehtiramını nümayiş etdirir. Bu, eyni zamanda musiqinin birləşdirici gücünü, mədəniyyətlər arasında dialoqun qurulmasına və ümumbəşəri dəyərlərə verilən qiyməti göstərir. Daimi nümayəndə Üzeyir Hacıbəylinin Azərbaycanın milli musiqi kimliyinin formalaşmasında müstəsna rol oynamasından danışıb.




Səfir daha sonra bildirib: "1908-ci ildə Şərqdə ilk opera olan "Leyli və Məcnun" təkcə musiqi əsəri deyildi. Bu, əsl mədəni inqilab idi. Hacıbəyli Azərbaycan muğamının əsrlərlə formalaşmış ənənəsini Qərb musiqisinin klassik formaları ilə birləşdirərək, Şərq və Qərb arasında musiqi körpüsü saldı.

Onun əsərlərinin gücü də bu sintezə dayanır – milli irsə dərin bağlılıq, eyni zamanda bəşəriyyətə açıq mesaj. Hacıbəylinin musiqisi Azərbaycan xalqının ruhunu, ədəbiyyatını və tarixini əks etdirir və bütün bəşəriyyətə xitab edir. Onun irsi UNESCO-nun missiyası ilə tam uyğun gəlir".

Sonra Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək akademik Üzeyir Hacıbəylinin həyat və yaradıcılığından ətraflı bəhs edib. Akademik bildirib ki, Üzeyir Hacıbəylinin əsərləri Azərbaycan sərhədlərini aşaraq, dünya səhnələrində uğurla nümayiş olunub və xalqlar arasında mədəni körpüyə çevrilibdir. O, yalnız bəstəkar deyil, həm də görkəmli alim, maarifçi, pedaqoq və ictimai xadim idi. Onun təşəbbüsü ilə əsası qoyulan Azərbaycan Dövlət Konservatoriyası – Bakı Musiqi Akademiyası bir çox musiqiçi yetişdirib. O, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının ilk təsisçilərindən biri olub.

Qeyd edilib ki, UNESCO kimi beynəlxalq mədəniyyət platformasında Üzeyir Hacıbəylinin 140 illik yubileyinin keçirilməsi onun irsinin yalnız Azərbaycan üçün deyil, bütün bəşəriyyət üçün əhəmiyyət daşıdığını sübut edir.

Akademik İsa Həbibbəyli Elman Abdullayevə akademik Zemfira Səfərovanın bu yaxınlarda AMEA-nın "Elm" nəşriyyatında ingilis dilində nəşr olunmuş "Üzeyir Hacıbəyli: həyat və yaradıcılıq karyerası" kitabını hədiyyə edib.

Tədbir konsert proqramı ilə müşayiət olunub.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Orta ixtisas təhsili və əmək bazarı

**Gənclərin peşəkar həyata hazırlığı ölkənin təhsil strategiyasının prioritetlərindən biri kimi cəmiyyətin dayanıqlı inkişafına xidmət edir. Müasir dövrdə əmək bazarının tələblərini ödəməkdə ixtisaslaşmış kolleclərin rolu artıb. 2025/2026-cı tədris ili üzrə orta ixtisas təhsili müəssisələrinə 15 min 662 nəfər tələbə qəbul olunub. Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunun nəticələrinə əsasən, plan yerlərinin 98,66 faizi dolub. Cəmi 212 yer boş qalıb.**



Maliyyə-İqtisad Kolleci bu baxımdan fəaliyyətini müasir və innovativ yanaşmalar üzərində qurur. Vaxtilə Hacı Zeynalabdin Tağıyevin idarəsi kimi fəaliyyət göstərən bina bu gün maliyyə sahəsində bilik və bacarıqların formalaşdığı təhsil ocağıdır. Kollecin direktoru Davud Davudov XQ-yə müsahibəsində bildirdi ki, müasir kolleclər, sadəcə diplom verməklə kifayətlənmir, gənclərin peşəkar həyata hazırlığında, gələcək karyerasına istiqamət verməkdə önəmli rol oynayır.

**– Kollecdə tədris metodları günün tələblərinə necə uyğunlaşdırılır?**

– Maliyyə-İqtisad Kollecinin 90 illik zəngin təcrübəsi var. Adından da göründüyü kimi, əsas istiqaməti iqtisadiyyat sahəsində maliyyə ixtisaslarının tədrisidir. Bununla yanaşı, sosial iş ixtisası da dövlətin həmin sahəyə artan diqqətinin nəticəsi olaraq proqrama daxil edilib. Bank işi, maliyyə, mühasibat uçotu və vergi işi ixtisaslarının tədrisində peşəkar kadr potensialımız var. Dərslərin keyfiyyətini artırmaq üçün təcrübəli mütəxəssisləri cəlb etmişik. Tədris proqramımız Azərbaycan Dövlət İqtisad Universitetinin proqramına tam şəkildə uyğunlaşdırılıb.

Kollecin əsas missiyası kiçik maliyyə mütəxəssisləri hazırlamaqdır. Hər il 450-500 məzun əmək bazarına göndərilir. Onların 60-65 faizi subbakalavr pilləsindən təhsillərini davam etdirirlər. Qanunvericilik imkan verir ki, bu mərhələni uğurla başa vuran tələbələr bakalavr təhsilinə keçə bilsinlər. Proses imtahan vermədən, müvəffəqiyyət göstəricisinə əsasən reallaşır. Əgər tələbənin yekun ortalama balı 75-dən yuxarıdırsa, o, müvafiq universitetlərə imtahansız qəbul olmaq hüququ qazanır. Bu il 243 tələbəmiz ölkənin 17 ali təhsil müəssisəsinə imtahansız qəbul olunub.

**– Tələbələrinizin əmək bazarına çıxışı barədə nə deyə bilərsiniz?**

– Məzunların işlə təmin olunması ilə bağlı vəziyyət çox da ürəkaçan deyil. Bu məsələdə işəgötürənlər daha fəal olmalı və məzunların potensialına önəm verməlidirlər. Məsələn, banklar çox vaxt operator vəzifələrinə ixtisasca uyğun olmayan, tamamilə başqa sahələr üzrə təhsil alan bakalavr məzunlarını cəlb edirlər. Təklifim odur ki, işəgötürənlər kiçik mütəxəssislərin işə cəlb edilməsində daha maraqlı olsunlar. Çünki bu gənclər ixtisas üzrə baza bilikləri ilə bank üçün daha səmərəlidirlər. Sözsüz ki, belə yanaşma həm də işəgötürən üçün sərfəlidir, çünki daha aşağı əməkhaqqı ilə ixtisaslı işçi qazanır və onu öz tələblərinə uyğun yetişdirir. Əlbəttə, ixtisası uyğun olmayan şəxsin birbaşa kredit mütəxəssisi işləməsi mümkün deyil. Amma operator vəzifəsində çalışmaq üçün yüksək səviyyəli ali təhsil tələb olunmur. Bizim bir çox məzunumuz hazırda təhsil aldıqları kollecdə işləyirlər. Onlarla tələbəni nümunə göstərmək olar ki, həm qiyabi oxuyur, həm də əmək fəaliyyətini davam etdirir. Bu praktika daha geniş yayılmalı, təhsil müəssisələri məzunlarını işə cəlb etməyi ənənəyə çevirməlidirlər. Əmək bazarında hələ də istədiyimiz göstəricilər yoxdur. Lakin gəlin qəbul edək ki, bu, təkcə kolleclərin problemi deyil, ali təhsil müəssisələri də eyni çətinliklə üzləşirlər.

Biz tələbələri əmək prosesinə hazırlayırıq, bazarın tələbləri isə bəzən məzunların hazırlıq səviyyəsindən fərqli olur. Bu uyğunsuzluq həm təhsil müəssisələrində, həm də tələbələrdə əlavə məsuliyyət yaradır. Təhsil müəssisələri məzunları daha yüksək səviyyədə hazırlamalı, tələbələr isə bacarıqlarını bazarın tələblərinə uyğun daim inkişaf etdirməlidirlər. Bu proses əmək bazarı ilə təhsil müəssisələri arasında davamlı dialoq və əməkdaşlığın vacibliyini göstərir.

Bank olmayan kredit təşkilatları – BOKT-lar ilə kollecin əməkdaşlıq müqaviləsi var. Bu, tələbələr üçün həm təcrübə proqramlarını, həm də iş imkanlarını əhatə edir. Tələbələr burada iş həyatı ilə tanış olur, eyni zamanda ixtisas üzrə bacarıqlarını sınayırlar. Bu təşkilatlar həm yüksək, həm də aşağı əmək dərəcəsi ilə işçiləri təmin edirlər. Orta ixtisas təhsili gənclərin əmək bazarına inteqrasiyasını müəyyən dərəcədə dəstəkləyir, lakin bu, hələ kifayət deyil. Orta ixtisas təhsili alan tələbələr üçün bu, daha çox ali təhsilə keçid və əmək bazarında ilkin təcrübə platforması rolu oynayır. Yəni onlar akademik biliklər və praktiki bacarıqlar qazanaraq bazara çıxırlar.

**– Orta ixtisas təhsili sonrakı mərhələdə necə davam etdirilməlidir?**

– Sadəcə, ali təhsil almaq kifayət deyil, magistratura səviyyəsi və ya elmi dərəcə əldə etmək də məqsədəuyğundur. Maliyyə-İqtisad Kolleci tələbələrə ali təhsilə keçid və onların ixtisas üzrə biliklərini artıraraq gələcəkdə uğurlu karyera qurmaları üçün şərait yaradır. Biz müəyyən ixtisaslarda əlavə təhsil imkanlarını təqdim edərək tələbələrin bilik və bacarıqlarını daha da genişləndiririk. Proqram kolleci bitirmiş şəxslərə şamil olunur. Müsahibə elan edildiyi zaman ilkin hədəfimiz 100 tələbə idi. Lakin müraciətlərin sayı 500-ə çatdı. Biz 218 nəfər qəbul etmişik. Bu uğurun əsasında kollecin uzun illərdir ki, formalaşdırdığı təcrübə, əmək bazarında tanınmış nüfuzu və universitetlərə keçid imkanları dayanır.



Məqsədimiz orta ixtisas səviyyəsində liderliyi qorumaq və tələbələrə keyfiyyətli tədris təqdim etməkdir.

Beynəlxalq təhsil məsələsinə gəldikdə isə uzunmüddətli planlarımız var. Biz digər ölkələrlə ikili diplom proqramları və əməkdaşlıq imkanlarını nəzərdən keçiririk. Artıq bir çox nailiyyətlər qazanmışıq. İndi isə növbəti hədəfimiz mərkəzi sistemin tam elektronlaşdırılmasıdır. Tezliklə bu sistemi tələbələrin istifadəsinə verəcəyik.

**– Pedaqoji kollektivin elmi potensialı hansı səviyyədədir?**

– Müəllim kontingenti məsələsində balans yaratmağa çalışırıq. Burada uzun illər təcrübəsi olan, əvvəllər kollecdə təhsil alan və sonradan İqtisad Universitetində elmi dərəcə əldə edən müəllimlər fəaliyyət göstərirlər. Məqsədimiz gənc müəllimlərin potensialını dəyərləndirmək, təcrübəli pedaqoqları tədris prosesinə cəlb etməkdir. Elmi dərəcəsi olan müəllimlər tələbələr üçün stimul yaradır və gənc müəllimləri elmi fəaliyyətə həvəsləndirir. Eyni zamanda əmək bazarında təcrübəsi olan müəllimlər praktik bilikləri tələbələrə ötürür, bu isə onların gələcəkdə iş həyatına daha hazırlıqlı olmalarına imkan verir.

**– Kollecdə təhsil haqqı hansı kriteriyalar əsasında müəyyən edilir?**

– Bu gün Bakı şəhərində bir tələbəni hazırlamaq aylıq minimum 500 manata başa gəlir. Bu məbləğ 10 ayda təxminən 5 min, 2 ildə isə 10 min manata çatır. Bizim kollecdə isə təhsil haqqı 1000 manatdır. Tələbənin göstəriciləri yaxşıdırsa o, dövlət hesabına da oxuyur. Hazırda 1800-dək tələbəmiz var. Eləcə də kollecdə 52 inzibati işçi və 88 müəllim fəaliyyət göstərir. Maliyyə İqtisad Kolleci cəmiyyət üçün faydalı, hazırlıqlı və məsuliyyətli vətəndaşlar yetişdirmək missiyasını uğurla həyata keçirir.

***Söhbəti hazırladı:***
***Fidan ƏLİYEVA***
***XQ***




## Görkəmli şərqşünas-alim Aida İmanquliyevanın xatirəsi anılıb



**Sentyabrın 19-da AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun kollektivi İkinci Fəxri xiyabanda görkəmli şərqşünas-alim, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın məzarını ziyarət edib.**



AMEA-nın vitse-prezidenti, Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva 33 il öncə dünyasını dəyişmiş böyük alimin keçdiyi həyat yolundan danışıb, Aida xanımın həm bir alim kimi dünya şərqşünaslıq elminə böyük töhfələr verdiyini, həm də bir qadın, ana, həyat yoldaşı kimi Azərbaycan qadınına örnək bir ömür yaşadığını qeyd edib.

Aida xanımın elmi fəaliyyətinin hər bir dövrünü xatırladan Gövhər xanım onun müasir ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə açdığını, silinməz iz qoyduğunu, Şərq-Qərb qarşılıqlı ədəbi əlaqə və təsiri problemini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alim olduğunu söyləyib. Böyük alimin qoyduğu zəngin elmi irslə yanaşı, elmi kadrların hazırlanmasında göstərdiyi xidmətlərdən söz açan G.Baxşəliyeva, onun Şərqşünaslıq İnstitutuna rəhbərlik etdiyi dövrdə bacarıqlı bir təşkilatçı kimi özünü göstərdiyini vurğulayıb.

Daha sonra Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Vüqar Məmmədov çıxış edərək Aida İmanquliyevanın ərəbşünaslıq elminə böyük töhfələr verdiyini söyləyib, xarici ölkələrin görkəmli alimlərinin Aida xanımın dünya elmində xidmətlərini çox yüksək qiymətləndirdiklərini xatırladıb.

## AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI
## QƏRAR
**№ 3-27/3-7-10/2025**

**Bakı şəhəri** **5 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Kollegiyasının 2018-ci il 12 dekabr tarixli 004 nömrəli qərarı ilə təsdiq edilmiş "Sabit telefon (məftilli) telekommunikasiya şəbəkəsinə qoşulma və xidmətlərdən ödənişli istifadə Qaydası"nda dəyişiklik edilməsi haqqında**

"Rəqəmsal inkişaf və nəqliyyat sahəsində tariflərin və xidmət haqlarının tənzimlənməsinin təkmilləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 sentyabr tarixli 2315 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 12 sentyabr tarixli 767s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.7-ci yarımbəndini və 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

**1** Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Kollegiyasının 2018-ci il 12 dekabr tarixli 004 nömrəli qərarı ilə təsdiq edilmiş "Sabit telefon (məftilli) telekommunikasiya şəbəkəsinə qoşulma və xidmətlərdən ödənişli istifadə Qaydası"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

**2** Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**3** Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri**
**Rəşad Nəbiyev**

**Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2025-ci il 5 sentyabr tarixli 3-27/3-7-10/2025 nömrəli qərarı ilə təsdiq edilmişdir.**

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Kollegiyasının 2018-ci il 12 dekabr tarixli 004 nömrəli qərarı ilə təsdiq edilmiş "Sabit telefon (məftilli) telekommunikasiya şəbəkəsinə qoşulma və xidmətlərdən ödənişli istifadə Qaydası"nda edilmiş dəyişikliklər:

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Kollegiyasının 2018-ci il 12 dekabr tarixli 004 nömrəli qərarı ilə təsdiq edilmiş "Sabit telefon (məftilli) telekommunikasiya şəbəkəsinə qoşulma və xidmətlərdən ödənişli istifadə Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1** 1.2.17-ci və 3.1.6-cı yarımbəndlər ləğv edilsin;

**2** 3.1-ci bənddə "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası" sözləri "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

# ADNSU-nun layihəsi beynəlxalq müsabiqə siyahısında

**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Healwith" innovativ layihəsi "QS Təhsili yenidən təsəvvür et 2025" beynəlxalq müsabiqəsində 800-dən çox ekspertdən ibarət beynəlxalq münsiflər heyətinin qiymətləndirməsi nəticəsində "Dayanıqlı Təhsil üzrə Fəaliyyət" nominasiyası üzrə qısa siyahıya salınıb.**

Qlobal miqyasda ilk 20 faizlik uğurlu layihələr sırasında yer alan "Healwith"in əsas məqsədi kənd təsərrüfatının dayanıqlılığını gücləndirmək, fermerlərin rifahını artırmaq və Azərbaycanın ərzaq təhlükəsizliyinə töhfə verməkdir. Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədi 15 – Quru ekosistemlərinin qorunması istiqamətində əhəmiyyətli addım hesab olunan "Healwith" fermerlər və bitki yetişdiriciləri üçün nəzərdə tutulmuş




mobil tətbiqdir. İstifadəçilər sadəcə bir şəkil çəkərək 100-dək geniş yayılmış bitki xəstəliyini erkən mərhələdə aşkarlaya və müalicə üzrə tövsiyələr ala bilirlər. Bu texnologiya pestisid istifadəsini azaldır, müalicə xərclərini hər hektar üzrə 60 AZN-dən 15 AZN-ə qədər endirir və məhsuldarlığı artırır.

Qeyd edək ki, "Təhsili yenidən təsəvvür et" müsabiqəsi dünyanın tanınmış ali təhsil reytinq agentliklərindən biri və universitetlərin beynəlxalq reytinqlərinin hazırlanması ilə yanaşı, təhsil innovasiyalarını dəyərləndirən qlobal layihələri ilə də məşhur olan nüfuzlu QS (Quacquarelli Symonds) təşkilatı tərəfindən keçirilir. Bu il müsabiqəyə dünyanın müxtəlif ölkələrindən 1 600-dən çox layihə təqdim olunub.

***Mehparə ƏLİYEVA***
***XQ***

## AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI
## QƏRAR
**№ 3-27/3-7-8/2025**

**Bakı şəhəri** **31 iyul 2025-ci il**

**Azərbaycan Respublikasının ümumistifadəli telekommunikasiya şəbəkəsində fəaliyyət göstərən telekommunikasiya operatorları arasında qarşılıqlı arabağlantı münasibətləri ilə bağlı tariflərin tənzimlənməsi haqqında**

"Rəqəmsal inkişaf və nəqliyyat sahəsində tariflərin və xidmət haqlarının tənzimlənməsinin təkmilləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 sentyabr tarixli 2315 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 12 sentyabr tarixli 767s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.7-ci yarımbəndini və 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

**1.** "Qarşılıqlı arabağlantıda trafikin ötürülməsi zamanı telekommunikasiya operatorları üçün sonlandırma qiymətləri" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən beynəlxalq telefon danışıqları ilə bağlı təsdiq olunmuş tariflərin 50%-dən az olmayan hissəsi çıxış zənglərinə münasibətdə beynəlxalq telekommunikasiya kanallarını təşkil edən telekommunikasiya operatoruna ödənilir.

**3.** Beynəlxalq telefon danışıqları ilə bağlı giriş zənglərinə (yekunlaşan) münasibətdə beynəlxalq telekommunikasiya kanallarını təşkil edən telekommunikasiya operatoru tərəfindən ƏDV daxil olmaqla 1 dəqiqə üçün sellülar (mobil) telefon telekommunikasiya operatoruna 0,04 manat, sabit telefon telekommunikasiya operatoruna isə 0,03 manat ödənilməklə, qarşılıqlı hesablaşma nisbətləri tətbiq edilir.

**4.** Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**5.** Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri**
**Rəşad Nəbiyev**

***Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2025-ci il 31 iyul tarixli 3-27/3-7-8/2025 nömrəli qərarı ilə təsdiq edilmişdir.***

Qarşılıqlı arabağlantıda trafikin ötürülməsi zamanı telekommunikasiya operatorları üçün sonlandırma qiymətləri

| Sıra sayı | Xidmət | Ölçü vahidi | Tarif (manat) (ƏDV daxil olmaqla) |
|---|---|---|---|
| I | II | III | IV |
| 1. | "sabit-sabit" şəbəkələrarası (şəhərlərarası, rayonlararası) zənglər | dəqiqə | 0,01 |
| 2. | "sabit-mobil" və "mobil-sabit" şəbəkələrarası (şəhərlərarası, rayonlararası) zənglər | dəqiqə | 0,03 |
| 3. | "mobil-mobil" şəbəkələrarası qısa mesaj (SMS) | ədəd | 0,01 |

**Qeyd:** Qarşılıqlı arabağlantıda trafikin ötürülməsinin üçüncü telekommunikasiya operatorunun telekommunikasiya şəbəkəsi üzərindən həyata keçirilməsi ilə bağlı həmin operatorun xeyrinə bu Cədvəlin 1-2-ci hissələrində qeyd edilən tariflərə ƏDV daxil olmaqla əlavə 0,01 manat tarif tətbiq edilir.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 201 (30895) 20 sentyabr 2025-ci il, şənbə

# Azərbaycan Qran-Prisi: sürət, strategiya və məharətin vəhdəti






**Formula 1 Qatar Airways Azərbaycan Qran Prisinin ilk günü maraqlı anlarla yadda qaldı. Günün əsas diqqətçəkən məqamı birinci sərbəst yürüşün nəticələri oldu. Öncə Formula 2 sürücüləri trası sınaqdan keçirdilər. Sərbəst yürüşdə gənc pilotlar sazlanmalar üzərində işlədilər və yarış üçün strategiyalarını yoxladılar. Mövsümün sonuna cəmi üç mərhələ qaldığı üçün çempionluğa iddialı yeddi sürücü arasında mübarizə xüsusilə maraqla gözlənilirdi. Sonra Bakı trasına Formula 1 pilotları çıxdılar, nəticələr yarışların düşünüldüyündən də çətin keçəcəyindən xəbər verdi.**





Formula 1 sürücüləri bir saatlıq ilk sərbəst yürüşdə Bakının çətin trasında, xüsusilə də dar 90 dərəcəlik döngələrdə və yeni asfalt örtüklü hissələrdə "Pirelli" təkərlərinin davranışını sınaqdan keçirdilər. "Maklaren" komandası sessiyada üstünlüyünü açıq şəkildə nümayiş etdirdi. Gərgin mübarizə şəraitində baş tutan yürüşdə komandanın pilotu Lando Norris bütün rəqiblərini üstələyərək ən yaxşı nəticəyə imza atdı. Onun ardınca komanda yoldaşı, gənc və istedadlı sürücü Oskar Piastri ikinci yeri tutaraq "Maklaren" üçün möhtəşəm başlanğıc təmin etdi. Bununla da komanda Bakıda güclü hazırlığını və bolidlərinin yüksək sürətini ortaya qoydu. Üçüncü yeri isə "Ferrari"nin əsas pilotlarından biri olan Şarl Lekler qazanaraq komandasının mübarizəyə hazır olduğunu göstərdi. Lakin "Maklaren"in sürət üstünlüyü diqqətdən yayınmadı.

İkinci sərbəst yürüşdə isə ən yaxşı nəticəni "Ferrari" pilotu Lyuis Hamilton göstərdi. Onun komanda yoldaşı Şarl Lekler 2-ci, "Mercedes"dən Corc Russell isə 3-cü oldu.

Yarış həftəsinin ən çox gözlənilən tədbirlərindən biri – Fan Forum Dənizkənarı Bulvar ərazisində yerləşən Fan Zonada keçirildi. Səhnədə təşkil olunan sessiyada dünyaşöhrətli Formula 1 pilotları azarkeşlərlə görüşərək onların suallarını cavablandırdılar, avtoqraf verdilər və foto çəkdirdilər. Komandalar üçün ayrılmış vaxt ərzində fanatlar sevimli F1 ulduzlarını yaxından görmək və yarış həyəcanını birgə bölüşmək imkanı əldə etdilər. Cümə günü keçirilən Fan Forumda Racing Bulls, Williams, McLaren, Kick Sauber və Aston Martin komandalarının üzvləri iştirak etdilər. Şənbə günü isə digər komandaların pilotlarının fanatlarla görüşü nəzərdə tutulur. Fan Forum həm pilotlar, həm də azarkeşlər üçün yarış həftəsinin ən yaddaqalan anlarından birinə çevrildi.

Paddock ərazisində yerləşən Chill Zone-da da maraqlı və rəngarəng anlar yaşandı. Dünyanın ən sürətli pilotları bu dəfə sükan arxasında yox, mətbəxdə bacarıqlarını sınadılar. Alpine komandasının sürücüləri Franko Kolapinto və Pyer Qasli, eləcə də Red Bull-un pilotu Yuki Tsunoda Azərbaycan mətbəxinin sevilən təamlarından olan qutab hazırladılar. Xüsusi məkanda təşkil olunan tədbirdə qonaqlar pilotların yeməyi necə bişirdiklərini izləmək və onların hazırladıqları qutabları dadmaq imkanı əldə etdilər. Yuki Tsunoda Azərbaycan mətbəxinin bu təamına böyük maraq göstərərək "İlk dəfə belə dadlı yeməyi özüm hazırlayıram" sözləri ilə təəssüratını bölüşdü.

Sonda pilotlar həmkarlarını və tədbirdə iştirak edən qonaqları hazırladıqları qutablarla qonaq etdilər. Bu tədbir yalnız əyləncəli anlarla yadda qalmadı, həm də Azərbaycanın zəngin mətbəxinin və mədəniyyətinin tanıdılması üçün gözəl bir fürsətə çevrildi. Dünyaca məşhur idmançıların qutab bişirməsi ölkəmizin kulinariya ənənələrinin təqdimatında xüsusi rol oynadı. Həm yerli azarkeşlər, həm də Bakıya dünyanın dörd bir yanından gələn turistlər Azərbaycan mədəniyyətinin bir parçasını yaxından görmək və dadmaq imkanı əldə etdilər.

Bir sözlə, Azərbaycan Qran-Prisinin böyük maraqla izlənən sərbəst yürüşləri əsas yarış öncəsi mühüm əhəmiyyət daşıyır. Bu yürüşlər komandaların bolidlərini sınaqdan keçirməsi, trasda uyğunlaşması və strategiyalarını müəyyənləşdirməsi üçün vacibdir. Bakı şəhər trasının mürəkkəb və sürətli konfiqurasiyası sürücülərdən həm texniki dəqiqlik, həm də maksimum cəsarət tələb edir. İlk sərbəst yürüşdə əldə edilən nəticələr azarkeşlər arasında da böyük həyəcan doğurdu. Xüsusilə, "Maklaren"in güclü performansı komandanın bu həftəsonu podium uğrunda ciddi rəqabət aparacağına işarə etdi. İdmansevərlər isə artıq böyük maraqla növbəti yürüşləri və əsas yarışı gözləyirlər.

*Səbuhi MƏMMƏDOV*
*Cavid QAÇAYEV (foto)*
*XQ*

# Dövlət Mükafatları Komissiyası 2026-cı il üçün Dövlət Mükafatlarına əsərlərin (işlərin) qəbulunu elan edir

**Azərbaycan Respublikasının Elm, texnologiya, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyası 2026-cı il üçün Dövlət Mükafatlarına əsərlərin, işlərin, layihələrin qəbulunu elan edir.**

Komissiyadan verilən məlumata görə, müvafiq sənəd və materiallar Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 8 fevral tarixli 212 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Elm, texnologiya, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının Əsasnaməsi"ndə göstərilən qaydaya uyğun hazırlanmalı və 2026-cı il fevralın 1-dək Komissiyaya təqdim edilməlidir.

Dövlət Mükafatı Azərbaycan Respublikasının vətəndaşı olan müəlliflərə elmin, texnologiyanın, memarlığın, mədəniyyətin və ədəbiyyatın inkişafına mühüm töhfələr verən əsərlərə, fundamental və tətbiqi elmi araşdırmalara, dövlətçilik, iqtisadi inkişaf və digər sahələrdəki elmi kəşflərə və ixtiralara, qabaqcıl sənaye-texniki təcrübənin tətbiqinə və nəzəri tədqiqatlara, habelə yeni material və mexanizmlərin yaradılmasına görə verilir.

Əsərlər dövlət orqanları (qurumları), ali təhsil müəssisələri, elmi müəssisə və təşkilatlar, ictimai birliklər, yaradıcılıq ittifaqları və birlikləri tərəfindən Dövlət Mükafatlarına təqdim olunur.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsis edilən digər mükafatlara, eləcə də digər ölkələrin dövlət mükafatlarına layiq görülmüş əsərlər Dövlət Mükafatına təqdim edilə bilməz.

Bir müəllifə, eyni zamanda bir neçə əsərə görə Dövlət Mükafatı verilmir. Bir qurum tərəfindən Dövlət Mükafatına yalnız bir əsər təqdim edilə bilər. Eyni əsər iki dəfədən artıq Mükafata təqdim edilə bilməz.

Dövlət Mükafatına irəli sürülmüş əsərlər və namizədlər barədə Komissiya qarşısında vəsatət qaldırılarkən, vəsatətlə birlikdə hər bir namizədin əmək fəaliyyəti haqqında qısa məlumat, əsərin müəllif (müəlliflər) tərəfindən imzalanmış qısa annotasiyası, elmi-texniki işlər üçün texniki və iqtisadi göstəricilər, tətbiqetmənin nəticələri, yayılma miqyası haqqında məlumat, əsər və əsərin müəllifləri barədə mətbuatda dərc olunmuş rəy və tədqiqatlar, o cümlədən müvafiq Əsasnamədə nəzərdə tutulmuş digər materiallar təqdim edilməlidir.

Dövlət Mükafatları Komissiyasının ünvanı: AZ1066, Bakı şəhəri, Lermontov küçəsi, 68, Azərbaycan Respublikasının Nazirlər Kabineti.

**Əlaqə telefonu:** 492-83-77. E-mail: nk@nk.gov.az

İDMAN

## "Qarabağ" "Liverpool"dan irəlidədir




**UEFA Çempionlar Liqasında əsas mərhələnin ilk turuna yekun vurulub.**

Turnir cədvəlinə son oyun günündə Almaniyada "Qalatasaray"ı darmadağın edən "Ayntraxt" başçılıq edir. Fransanın PSJ klubu 2-ci, Portuqaliyanın "Sportinq"i 3-cü sırada qərarlaşıb. Səfərdə "Benfika"nı 3:2 hesabı ilə məğlub edən "Qarabağ" 10-cu pillədə yer alıb. İngiltərənin "Liverpul" komandası 11-ci, İspaniyanın "Barselona" klubu 12-ci, "Real" Madrid klubu isə 13-cü sıradadır.

Qeyd edək ki, Çempionlar Liqasında II turun oyunları sentyabrın 30-da start götürəcək. 36 komandanın iştirak etdiyi Liqa mərhələsində ilk 8 yeri tutan komandalar birbaşa 1/8 finala yüksələcək. Bu raundu 9-24-cü pillələrdə başa vuran kollektivlər isə play-off matçları oynayacaqlar.

## Premyer Liqada V tur




**Dünən Misli Premyer Liqasında V tura start verilib.**

İlk olaraq "İmişli" "Karvan-Yevlax"ın qonağı olub. Şamaxı şəhər stadionunda baş tutan oyunda İmişli futbolçuları rəqibin qapısından 3 cavabsız top keçirib.

Günün ikinci matçında turnir cədvəlində 8 xalla dördüncü sırada olan "Zirə" 5 xalla 5-ci pillədə olan "Şamaxı"nı qəbul edib. Zirə İdman Kompleksinin stadionunda keçirilən oyun bakılıların xeyrinə başa çatıb–2:1.

Qeyd edək ki, turun digər matçları bu gün və sabah keçiriləcək.

## Minifutbolçularımız 1/4 finala yüksəlib




**Azərbaycanın minifutbol klubları Bolqarıstanın paytaxtı Sofiyada təşkil olunan Çempionlar Liqasının 1/8 final mərhələsinin oyunlarına çıxıblar.**

Bakı təmsilçisi "Zirə" Monteneqronun "MFK Hram" kollektivi ilə qarşılaşmada 2:0 hesablı qələbə qazanıb.

"Birbaşa Bakı" isə Yunanıstanın "Flaminqos" komandasını 3:1 hesabı ilə məğlub edib. Hər iki komandamız 1/4 finala adlayıb.

Digər təmsilçimiz "Aznur" isə Çexiyanın "Brno" klubuna məğlub olaraq (2:2, penalti seriyasında 2:3) mübarizəni dayandırıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Hu a*

# Bu il yay tez sovuşdu...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir. Ayın 19-dan 20-nə keçən gecə və səhər yarımadanın ayrı-ayrı yerlərində leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 16-18, gündüz 19-21 dərəcə isti olacaq. Atmosfer təzyiqi 753 millimetr civə sütunundan 760 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə yağıntının intensiv və güclü olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 14-17, gündüz 20-25, dağlarda gecə 1-5, gündüz 5-9 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3540
SİFARİŞ 1900
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00

2025 – Konstitusiya və Suverenlik İli

Xalqın qəzeti!

# Xalq qəzeti

20 sentyabr 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

*(Xüsusi buraxılış)*

# 20 Sentyabr 2023-cü il – Prezident qətiyyəti, Xalq iradəsi



**Suverenlik xalqın iradəsindən doğur, başqasının lütfündən yox. Bu fikir ümumiləşdirilmiş müasir siyasi hüququn prinsipidir. O prinsipin ki, mənşəyini Avropanın klassik fəlsəfə sistemindəki xalq suverenliyi nəzəriyyəsinin mahiyyətindən götürür. O prinsip ki, fundamental təzahürünü daha çox böyük mütəfəkkir Jan Jak Russonun baxışlarında tapır. Russo özünün "İctimai müqavilə" əsərində yazırdı ki, yeganə mənbəyi xalq olan suverenlik heç kimə verilmir, kimsənin "hədiyyəsi" ola bilməz.**

Əslində, əvvəldə diqqətə çatdırdığımız fikir də dahi fransızın ideyalarının parafrazı və ya şərhidir. Müasir siyasi hüquq isə məhz Russonun dünyagörüşünə əsaslanaraq bəyan edir ki, suverenlik ümumi iradənin ifadəsi olduğundan, heç vaxt başqasına verilmir. Yaxud xalq suveren olduğu üçün yalnız özünü təmsil edə bilər.

Azərbaycan xalqı Dövlət Suverenliyi Gününü qeyd edir. Prezident İlham Əliyevin 19 sentyabr 2024-cü il tarixli sərəncamı ilə rəsmiləşmiş bu təqvim gününü hər birimiz üçün doğmalaşdıran amillər çoxdur. Otuz ilə yaxın müddətdə səbrlə dözdük, işğalla barışmadıq, gücləndik, qüdrətli dövlətə çevrildik və inandıq. Yekunda suverenliyi onun klassik təsvirlərindəki kimi qazandıq. Yəni mübarizə apararaq, qan tökərək, şəhidlər verərək.

Xalqımız başda Prezident İlham Əliyev olmaqla, əsl xarakter nümayiş etdirdi ki, suverenlik nemətini daddıq. Dövlətimizin başçısının sözügedən sərəncamında vurğulanan da elə budur: "Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir".

Ulu öndər Heydər Əliyev isə demişdi ki, Azərbaycan xalqı əsrlər boyu azadlıq və müstəqillik arzusu ilə yaşamışdır və bizim ən böyük nailiyyətimiz suveren, müstəqil Azərbaycan dövlətinin mövcudluğudur. Dahi şəxsiyyət də öz növbəsində, müstəqilliyimizi əbədi və dönməz etməyin əsas vəzifəmiz olduğunu vurğulamışdı. Ulu öndər, həmçinin, onu da bildirmişdi ki, dövlət suverenliyimiz hər bir vətəndaşın taleyi, gələcək rifahıdır və onu qorumaq naminə hər kəs əlindən gələni etməlidir: "Suverenliyi qorumaq yalnız dövlətin deyil, bütövlükdə xalqın borcudur".

Tam qətiyyətlə demək olar ki, 20 Sentyabr Azərbaycan xalqının üzərinə düşən borcu yerinə yetirmək əzmindən nəşət alan tarixdir. Prezident İlham Əliyevin qətiyyəti və iradəsi, müdrik siyasəti, Vətən övladlarımızın şücaəti hesabına yazılmış müqəddəs tarix. 20 Sentyabr 1991-ci ildən 2023-cü ilədək gəldiyimiz müstəqil dövlətçilik yolunun şərəf təntənəsidir. Nəsillərə miras qalacaq irsin təntənəsi. Ona görə də Prezident sərəncamındakı bu fikirləri təkrar-təkrar oxumaq hər birimizə böyük fəxarət hissi yaşadır: "2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır".

Bəli, 20 Sentyabr əzəmət tariximizdir. Həmin gün 44 günlük müharibədəki müqəddəs Zəfərimizin doğurduğu qürur, sanki, yeni çalarlar qazandı. 20 Sentyabr tarixi Zəfərimizə, bir növ, tamlıq qazandırdı. Bu məqamı Prezident İlham Əliyev 2024-cü il sentyabrın 20-də Xankəndidə Qarabağ Universitetinin müəllim və tələbə heyəti ilə görüşdə də vurğuladı. "Düz bir il bundan əvvəl qəhrəman Azərbaycan Ordusu dövlət suverenliyini tam bərpa etmişdir. Bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində separatçıların kökü kəsildi, Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi, beynəlxalq hüquq zəfər çaldı və Azərbaycan öz gücünü bir daha göstərdi", - deyən dövlətimizin başçısı 20 Sentyabr şöləninin ölkəmizdə bundan sonra geniş qeyd ediləcəyinə əminliyini bildirdi.

Ayrıca onu da vurğulayaq ki, 20 Sentyabr özünədəyər tariximizdir. 1813 və 1828-ci illərin Rusiya-İran müharibələri nəticəsində ikiyə bölünmüş Vətənin övladları olduq. Fəqət, bizi bu aqibətə düçar edənlər sakitləşməyib, daha qorxunc niyyətlərini gerçəkləşdirməyə girişdilər. Onlar onilliklərlə, qərinələrlə əzmimizi sındırmaq, Cənubi Qafqaz coğrafiyasından türk-müsəlman izini silmək planları qurdular. Erməni avantürası da məhz bu "planların" icrası məqsədini daşıdı. Onlar avantüranı cilalayıb regiona yerləşdirdikləri hay varlığı üçün saxta qəhrəmanlıq hekayələri uydurdular, bu varlıqda xalqımıza və millətimizə nifrət immuniteti yaratdılar, mənbəyi və mənşəyi olmayan düşmənçilik aşıladılar. Aşıladılar ki, həmin varlıq bizi silmək, heçə saymaq üçün gözünü belə qırpmasın, bütün əmrlərini dinməz-söyləməz, hətta müqəddəs ideya olaraq yerinə yetirsin.

Nəticədə qırğınlarla, soyqırımıları ilə və bu fəlakətlərin gətirdiyi saysız-hesabsız insan faciələri ilə baş-başa qaldıq. Bir yandan faciələr, bir yandan isə ədalətsizliklər fonunda 1918-ci il müstəqilliyimiz möhkəm təməllərdən məhrum duruma düşdü. Sonradan sovet işğalı və miqyası qanlı olaylara bərabər torpaq itkilərinin acısını yaşadıq. İrəvandan, Zəngəzurdan və digər əzəli yurd yerlərimizdən, məskənlərimizdən qovulduq. Fəqət, bizi el-obamızdan perik salanlar mənfur əməllərinə ara vermədilər. Nəhayət, Qarabağ itkisinin timsalında torpaqlarımızın 20 faizinin işğalı ilə baş-başa qaldıq. Sanki, işğal XX əsrdəki ikinci dövlət müstəqilliyimizin cəzası oldu.

Erməni işğalı ağır bir daşa çevrilib müstəqilliyimizin çiyinlərinə yükləndi, suverenliyi həsrətə, doğma el-oba niskilinə çevirdi. Bizə bu daşı yükləyənlər qəddimizin, qamətimizin əyiləcəyinə inandılar. Özlərini XX əsr boyunca yaşadığımız torpaq itkilərinin davamlılığı ilə barışacağımıza da inandırdılar. Amma bütün "hesablamaları" boşa çıxdı. Ona görə boşa çıxdı ki, qətiyyətimizi toplayıb onlara "dur" dedik. Bu gün tam əminliklə deyə bilərik ki, xalqımıza qarşı bütün məkrli oyun qurucularının istəklərini alt-üst edən, onlara "dur" deyən iki tarixi şəxsiyyətimiz var – Ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyev.

Ulu öndər 20 Sentyabr suverenliyimiz üçün baza formalaşdırdı, İlham Əliyev isə bu bazanı həm cilaladı, həm də onun məfkurəvi strukturuna real mübarizə potensialı qazandırdı. Dövlətimizin başçısının Azərbaycanı heçə sayan qüvvələrə "dur" xitabı xalqımızda Qarabağ davamızın ideoloji direniş motivini dərinləşdirdi. Elə dərinləşdirdi ki, böyükdən-kiçiyədək hamımız 2020-ci ilin 44 günlük müharibəsini ərazi bütövlüyümüzün tam bərpasına, suverenlik anlayışını kağız üzərindəki təsəvvür məntiqindən çıxararaq reallığa çevirmək əzminə kökləndik. Bu kökləniş ədalətsizliklərə, haqsızlıqlara üsyanımız idi. Elə bir üsyan ki, haqqında söz açdığımız özünədəyəri mükafata çevirdi, özünədəyərimiz tarixi hadisə məntiqi və qanunauyğunluğu libasını geydi. Nəticədə tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmiş xalqımız son nöqtəni qoymağı da bacardı. 20 Sentyabr qoyulan məhz o son nöqtənin misilsiz salnaməsidir. Bunu xalqımızı yaşadan isə odur – Müzəffər Ali Baş Komandan İlham Əliyev.

Bəli, tam əminliklə deyə bilərik ki, 20 Sentyabr tarixi Prezident İlham Əliyev şəxsiyyətinin siyasi məharətinin şah əsəridir. "Biz bu şanlı tarixi qəlbimizdə əbədi yaşadacağıq. Azərbaycan xalqı, bütün gələcək nəsillər bu şanlı Qələbə ilə haqlı olaraq fəxr edəcəklər. Ancaq ölkə qarşısında duran vəzifələr icra edilməlidir ki, biz daim inkişafda olaq, öz gücümüzü artıraq və Azərbaycan xalqının bundan sonra da təhlükəsiz həyatını təmin edək", - deyən dövlətimizin başçısının son üç ayına qədəm qoyduğumuz 2025-ci ili 24 dekabr 2024-cü il tarixli sərəncamı ilə "Konstitusiya və Suverenlik İli" elan etməyində isə böyük məntiq var. Nəzərə alaq ki, Prezident İlham Əliyev bu mühüm dövlət sənədini Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbulunun 30-cu, Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq imzalayıb. Axı ərazi bütövlüyümüzə qəsd və torpaqlarımızdakı separatçılıq həm də konstitusion quruluşumuzu şübhələndirmək, ona saymazyana yanaşmaq idi. 20 Sentyabr bütün bu yanaşmalara, xalqımıza yuxarıdan aşağı baxanlara mətanətlə sinə gərmək tariximizdir.

Siyasi nəzəriyyədə suverenlik anlayışını ilk sistemləşdirənlərdən biri, XVI əsrin fransız filosofu və siyasi xadimi Jan Boden yazırdı ki, suverenlik qanunlar yaratmaq və onları məhdudiyyətsiz tətbiq etmək gücüdür. Onun dövlətin müstəqil iradəsinin hüquqi əsasını ifadə edən bu fikrinə bəzən dünya klassikləri fərqli prizmadan yanaşsalar da, gəldikləri yekun qənaət budur ki, suverenlik və müstəqillik xalqların azad iradəsinin təcəssümü, ədalətin təminatı və gələcəyin quruculuğudur. Yəni, azadlıq və suverenlik olmadan nə ədalət, nə də davamlı inkişaf mümkündür.

Müstəqil və suveren Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında davamlı inkişaf yolundadır. Bu gün Qarabağımız, işğaldan azad olunmuş torpaqlarımız tariximizin heç bir dövründə olmayan quruculuq mərhələsini yaşamaqdadır. Elə bir mərhələ ki, onun xalqımızı daha yüksək rifaha, daha təminatlı yaşayışa və əmin-amanlığa daşıyacağı şübhəsizdir. Deməli, 20 Sentyabr həm də gələcəyimizin, müstəqil ölkəmizin əbədiyyat tarixidir. Yaşasın suveren Azərbaycan, var olsun azad Vətənimiz!

***Əflatun AMAŞOV,***
***baş redaktor***

## Suverenlik zirvəsi



Səhifə ⇨ 4

## Müstəqil, suveren və xoşbəxt Azərbaycan



Səhifə ⇨ 10

## Əsas Qanunumuz 30 yaşın astanasında



Səhifə ⇨ 7

## Naxçıvandan başlanan suverenlik marafonu



**Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq Azərbaycan xalqının əsrlər boyu arzusu və ali məqsədi olmuşdur. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqil dövlətçilik əzmini və suverenlik istəyini sarsıda bilməyib. Bu baxımdan hələ 1918-ci ildə Şərqin ilk demokratik respublikası olan Azərbaycan Demokratik Respublikasının yaradılması xalqımızın çoxəsirlik ictimai-siyasi fikrindən irəli gələn milli oyanışa və dirçəlişə əsaslanmışdı.**

Azərbaycan Xalq Cümhuriyyəti müstəqil və suveren dövlətə xas olan təsisatlar yaratmış, müstəqil daxili və xarici siyasət yeritmişdi. Ona görə də ADR 1920-ci ildə bir çox xarici dövlət tərəfindən tanınmış və onlarla diplomatik münasibətlər yaratmışdı. Bütün bunlara baxmayaraq Sovet Rusiyası 1920-ci ilin aprelində beynəlxalq hüquq normalarını pozaraq suveren respublikamızın ərazisini işğal etdi.

***(ardı 6-cı səhifədə)***

# Azərbaycan Respublikasının Konstitusiyası və Suverenliyi

**2025-ci il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan 28 dekabr 2024-cü il tarixli sərəncam ilə Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilib. Məhz bu il 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının Əsas Qanunu olan ilk Konstitusiyasının qəbul edilməsinin 30 illiyi və 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi Zəfərin 5-ci ildönümüdür.**

Bu sərəncam dövlətçilik tariximizin daha da dərindən öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Dövlət başçısı cənab İlham Əliyev tərəfindən imzalanan sərəncam ölkəmizin keçmişi, bu günü və gələcəyi üçün xüsusi məna ifadə edərək, hüquqi dövlətçilik və suverenlik dəyərlərinin yeni qlobal çağırışlar əsasında formalaşdırılması üçün bir fürsət kimi dəyərləndirilə bilər.

"Konstitusiya və Suverenlik İli" dövlətin hüquqi əsaslarının möhkəmləndirilməsi, dövlət suverenliyinin daha da gücləndirilməsi məqsədi daşıyır.

İstənilən xalq üçün müstəqil, suveren dövlətini yaratmaq və onu inkişaf etdirmək ən böyük nailiyyətdir. Ərazi, əhali və siyasi hakimiyyət kimi əsas atributları özündə ehtiva edən hər hansı siyasi varlığın dövlət olması üçün suverenlik, müstəqillik xüsusiyyətinə malik olması vacib şərtdir. Suverenlik istənilən dövlətin mövcudluğunun və davamlı inkişafının ilkin və əsas şərti qismində çıxış edir.

Dövlətin suverenliyi üçün ilk növbədə hüquqi-siyasi, sosial-iqtisadi fundament formalaşdırılmalıdır. Azərbaycana münasibətdə qeyd edilməlidir ki, 1969-cu ildə Ümummilli lider Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə ölkənin intibah dövrünə qədəm qoyması belə fundament rolunu oynadı. Belə ki, tarixi inkişafın sonrakı gedişatı bir daha sübut etdi ki, Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə müstəqil dövlətimizi qurmağa başlamışdı. Ötən əsrin 60-cı illərinin sonunda Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ölkənin gələcək müstəqilliyinə etibarlı bünövrə formalaşdırmağa başladı. Məhz həmin dövrdə yaradılmış iqtisadi potensial müstəqillik illərində Azərbaycan üçün çox mühüm rol oynadı. Dahi şəxsiyyət Heydər Əliyevin həyata keçirdiyi düşünülmüş daxili siyasət sayəsində ölkəmizdə milli özünüdərk, vətənpərvərliyin gücləndirilməsi istiqamətində də vacib addımlar atıldı. O dövrdə müxtəlif sahələrdə yerli kadrların yetişdirilməsi, həmçinin milli şüurun inkişaf etdirilməsi, milli ruhun yüksəldilməsi sahəsində bir çox mühüm işlər həyata keçirildi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" 29 sentyabr 2022-ci il tarixli sərəncamında bununla bağlı qeyd edilmişdir: "Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir".

Məlum olduğu kimi, 1990-cı illərin əvvəllərindən hərbi təcavüz ilə üzləşən ölkəmiz beynəlxalq ictimaiyyət tərəfindən tanınan ərazilərinin iyirmi faizinin işğal edilməsi ilə qarşı-qarşıya qaldı. Ermənistanda və işğal olunmuş torpaqlarımızda azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, insanlıq əleyhinə və hərbi cinayətlər törədilmiş, təbii resurslar talan edilmiş, şəhər və kəndlərimiz viran edilmişdir. Lakin bu ərazilər otuz ilə yaxın müddət ərzində işğal altında qalsa da, hər zaman suveren Azərbaycan əraziləri olaraq tanınırdı.

Bu dövrdə Azərbaycanın daxilində cərəyan edən mürəkkəb proseslər, vətəndaş qarşıdurmasının güclənməsi, anarxiya mühitinin dərinləşməsi, ən əsası isə ölkənin müstəqilliyi üçün təhdidlərin meydana çıxması onu göstərdi ki, ölkəni yaranmış ağır vəziyyətdən yalnız Ulu öndər Heydər Əliyev kimi güclü, prinsipial və iradəli lider xilas edə bilər. Xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli lider Heydər Əliyev Azərbaycanın fəlakətlərlə üz-üzə qaldığı bir dövrdə xalqımızın tarixinə milli dövlətçiliyin xilaskarı kimi daxil oldu.

Xalqımız və dövlətimiz üçün belə bir ağır zamanda Ulu öndər Heydər Əliyev doğma Azərbaycanı xilas etmək naminə misilsiz fədakarlıq göstərmiş, ölkəmizi ictimai-siyasi pərakəndəlik və anarxiyadan xilas etmişdir. Bununla da, ictimai və siyasi həyatın bir çox sahələrində müşahidə olunan dərin tənəzzülün qarşısı alınmış, dövlətin dayanıqlı və davamlı inkişaf yolu müəyyən edilmişdir.

Ulu öndər Heydər Əliyev tərəfindən həyata keçirilən müdrik və uzaqgörən siyasət nəticəsində milli dövlətçilik ideyası realizə olundu, müasir müstəqil Azərbaycan dövləti möhkəmləndi. Dövlətimiz dahi liderinin rəhbərliyi altında tamamilə yeni inkişaf mərhələsinə qədəm qoydu. Dövlət və cəmiyyət həyatının bir çox sahələrini əhatə edən irimiqyaslı islahatların həyata keçirilməsinə başlandı. Ümummilli lider Heydər Əliyev ölkə daxilində siyasi sabitliyin təmin edilməsi, sosial-iqtisadi quruculuq sahəsində prioritetlərin müəyyən edilməsi, kompleks xarakterli islahatların həyata keçirilməsinə əsas yaradan qanunvericilik bazasının yenidən hazırlanması və digər bir sıra mühüm vəzifələrin öhdəsindən məharətlə gəldi.

Qeyd edilməlidir ki, istənilən dövlətin mövcudluğu və inkişafı dövlət hakimiyyətinin təşkilinə dair əsas konstitusiya prinsiplərinin mövcudluğu ilə şərtlənir. Belə ki, hər bir hüquqi dövlətin Konstitusiyası bu təməl prinsipləri müəyyən edərək, insan hüquqları və azadlıqlarının müdafiəsi, hakimiyyətlərin bölgüsü və digər bir sıra mühüm hüquqi başlanğıcları özündə ehtiva edir.



1990-cı illərin əvvəllərində SSRİ-dən miras qalmış hüquq sistemi və qanunvericilik bazası hüquqi dövlət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının səmərəli şəkildə müdafiəsinə lazımi təminat vermirdi. Bu nöqteyi-nəzərdən Azərbaycanda dövlət müstəqilliyi bərpa edildikdən sonra hüquqi dövlət quruculuğu ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi və ilk növbədə ölkənin yeni Konstitusiyasının qəbul edilməsi artıq mütləq idi. 1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991–1993-cü illərdə mövcud olan xaos və ziddiyyətli proseslər, siyasi qeyri-sabitlik, eyni zamanda, vahid siyasi iradənin olmaması, dövlət müstəqilliyi üçün təhdidlərin mövcud olması bu mühüm vəzifənin həyata keçirilməsini qeyri-mümkün etmişdir. Yalnız Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Konstitusiyanın qəbulu mümkün oldu.

Beləliklə, Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 2 may tarixli 1048 saylı qərarı və Ulu öndər Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın 34 nəfər üzvdən ibarət tərkibi təsdiq olundu. Bu Konstitusiya Komissiyasının tərkibinə qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının nümayəndələri ilə yanaşı, tanınmış ictimai-siyasi və elm xadimləri, görkəmli hüquqşünaslar, tarixçilər, dilçilər daxil edilmişdi. Ümummilli lider Heydər Əliyev Konstitusiya Komissiyasının fəaliyyəti zamanı Əsas Qanunun layihəsinə dair öz dəyərli tövsiyələrini vermiş, Konstitusiyanın müddəalarını şəxsən nəzərdən keçirmiş, bu ali sənədin layihəsinin açıq müzakirələrini təşkil etməklə onun ən yetkin formada qəbul edilməsini təmin etmək üçün gərgin əmək sərf etmişdir.

1995-ci il iyunun 5-də yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın ilk iclası keçirilmişdir. Həmin iclasda geniş nitq ilə çıxış edən Ulu öndər Heydər Əliyev dövlətimizin konstitusiya quruculuğu tarixinə geniş şəkildə toxunmuş və qeyd etmişdir ki, müstəqil dövlətimizin ilk Konstitusiya layihəsinin hazırlanması tarixi nöqteyi-nəzərdən olduqca böyük və mühüm bir hadisədir. Həmin çıxışında Ümummilli lider qeyd etmişdir: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun. Ona görə də mən dedim ki, üzərimizə düşən vəzifə həm şərəflidir, həm də çox məsuliyyətlidir".

Eyni zamanda, həmin çıxışında Ulu öndər Heydər Əliyev qəbul ediləcək yeni Konstitusiyanın məqsədləri, qaynaqları və mahiyyətinə aydınlıq gətirərək ölkə Konstitusiyası barədə belə söyləmişdir: "Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, ali icra, qanunvericilik, məhkəmə hakimiyyətləri - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır".

Konstitusiya layihəsini hazırlayan Komissiyanın 1995-ci il oktyabrın 3-də keçirilən iclasında Komissiyanın sədri Heydər Əliyev qeyd etmişdir: "Bizim yeni konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir".

Ulu öndər Heydər Əliyevin çıxışlarında qeyd edilən bu vacib konseptual məqamlar mahiyyət etibarilə hüquqi dövlət quruculuğu prosesində ilkin təməl rolunu oynadı.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası preambula, 5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarət olmaqla 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi - referendum yolu ilə qəbul edilmiş, 1995-ci il noyabrın 27-də isə qüvvəyə minmişdir.

Konstitusiyanın qəbul edilməsinin milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, Ulu öndər Heydər Əliyev tərəfindən imzalanan 1996-cı il 1 noyabr tarixli fərmana əsasən hər il noyabrın 12-si ölkəmizdə Konstitusiya Günü kimi qeyd edilməyə başlandı.

1995-ci ildə ölkənin Əsas Qanununun qəbul edilməsi müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olaraq, milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsi baxımından çox mühüm ictimai-siyasi hadisə idi. Yeni Konstitusiyanın qəbulu eyni zamanda, ölkəmizin inkişafının tamamilə yeni mərhələyə qədəm qoymasının göstəricisi olmaqla, müstəqillik illərində əldə olunan nailiyyətlərin hüquqi əsası qismində çıxış edir.

12 noyabr - Konstitusiya Günü münasibətilə Azərbaycan xalqına təbrikində Ümummilli lider Heydər Əliyev qeyd etmişdir: "Bu Konstitusiya Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsidir. Konstitusiya ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil dövlətçiliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və demokratik dəyişikliklərin həyata keçirilməsi üçün hərtərəfli zəmin və şərait yaradır. Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək inkişaf perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir".

Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan Konstitusiya qanunvericilik sisteminin əsasında durur, eyni zamanda ölkədə hüquqi və siyasi sabitliyin təminatı qismində çıxış edir. Həmçinin dövlət suverenliyinin əsas təminatçısı olmaqla, Konstitusiya normaları ictimai münasibətlərin inkişafında müəyyənlik amili qismində çıxış edir. Ölkə Konstitusiyası dövlət quruluşunun əsaslarını, hakimiyyətlərin bölünməsi prinsipini, hakimiyyət orqanlarının təşkili, səlahiyyətləri və fəaliyyət qaydalarını, şəxsiyyət, cəmiyyət və dövlət arasındakı münasibətlərin hüquqi çərçivələrini müəyyən edir, insan hüquqları və azadlıqlarının müdafiəsi və təminatı ilə bağlı mexanizmləri tənzim edir.

Əsas Qanunun preambulasında Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək kimi ülvi niyyətlər bəyan edilmişdir. Bu ülvi niyyətlər ümumilikdə Konstitusiyanın mütərəqqi dəyərlərini əks etdirir.

1995-ci il Konstitusiyası bir sıra təməl başlanğıcları özündə ehtiva edir: dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması; insan şəxsiyyətinə və ləyaqətinə hörmət; insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu; sosial ədalətə nail olmaq; ümumbəşəri dəyərlərə sadiqlik və digərləri.

Əsas Qanun Konstitusiya quruluşunun ən mühüm başlanğıcı kimi xalq hakimiyyətini bəyan edir, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi kimi Azərbaycan xalqını elan edir, sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etməyi Azərbaycan xalqının suveren hüququ kimi təsbit edir. Həmçinin Əsas Qanun Azərbaycan dövlətini demokratik, hüquqi, dünyəvi, unitar respublika elan edir, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşdığını bəyan edir.

Əsas Qanun sosial-iqtisadi, ictimai-siyasi sistemlərin əsasını təşkil edir, insan və vətəndaş hüquq və azadlıqlarına əsaslı təminat yaradır. Konstitusiyada insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi olaraq müəyyən edilməsi, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumağın qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının vəzifəsi olmasının nəzərdə tutulması vacib əhəmiyyət kəsb edir. Bu, insana, onun hüquqları və azadlıqlarına dövlət tərəfindən verilən dəyərin bariz göstəricisidir.

Xüsusilə vurğulanmalıdır ki, Əsas Qanunda insan və vətəndaş hüquq və azadlıqları, onların reallaşdırılmasının ümumi mexanizmləri olduqca geniş şəkildə öz əksini tapıb. Konstitusiyada bu hüquq və azadlıqlar xüsusi imtiyaz olaraq deyil, məhz hər kəsin doğulduğu andan malik olduğu toxunulmaz, pozulmaz və ayrılmaz ali dəyərlər kimi ifadə edilir.

İnsan hüquqlarına etibarlı və davamlı təminat yaradan Konstitusiyanın ən böyük fəslində hüquqi dövlətdə təmin edilməsi zəruri olan hüquq və azadlıqlar, onların həyata keçirilməsi mexanizmləri, habelə ayrı-ayrı hüquqların beynəlxalq standartlara müvafiq olaraq, qanuni məhdudlaşdırılmasının yol verilən hədləri nəzərdə tutulmuşdur.

Məlum olduğu kimi, konstitusiyaların hüquqi əlamətlərindən biri onların stabilliyidir. Konstitusiyanın stabilliyi ölkədə qanunçuluğun, dövlət hakimiyyətinin təşkili və həyata keçirilməsinin, şəxs, dövlət və cəmiyyət arasındakı münasibətlərin əsas şərtlərindən biridir. Konstitusiya uzunmüddətli fəaliyyət üçün nəzərdə tutulan normativ hüquqi aktdır. Bununla belə, konstitusiyaların qəbulu zamanı onların tənzimetmə predmetini təşkil edən ictimai münasibətlər və bu münasibətlərin tərkib hissəsi olan hüquqi, siyasi, sosial və iqtisadi vəziyyət dəyişir, cəmiyyət elmin və texnologiyaların inkişafı baxımından keyfiyyətcə yeni dövrə qədəm qoyur.

Bu cür zərurətdən irəli gələrək 2002-ci il 24 avqust, 2009-cu il 18 mart və 2016-cı il 26 sentyabr tarixlərində keçirilmiş referendumlar nəticəsində ölkə Konstitusiyasına bir sıra mühüm əlavələr və dəyişikliklər edilmişdir. Dövrün çağırışlarını özündə ehtiva edən bu islahatlar hüquqi dövlət dəyərlərinin daha da möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı və səmərəli müdafiəsi məqsədlərinə xidmət edib.

İlk dəfə 2002-ci ildə konstitusiya dəyişikliklərinə yaranan ehtiyac bir çox sahələrdə nəzərə çarpan sürətli inkişafdan irəli gəlirdi. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə keçirilən referendumun nəticəsi kimi Konstitusiyaya dövrün obyektiv reallıqlarından irəli gələn bir sıra mütərəqqi əlavə və dəyişikliklər edilib. Əsas Qanunun mətninə 2002-ci il 24 avqust tarixli referendumla edilmiş əlavə və dəyişikliklər ölkənin hüquq sisteminin təkmilləşdirilməsinə xidmət etmiş, eyni zamanda bu ali sənədin mühüm əhəmiyyətə malik yeni müddəalarla zənginləşməsi ilə nəticələnmişdir.

2002-ci ildən keçən yeddi il ərzində cəmiyyət həyatının bir çox sahələrində əldə edilən yeni nailiyyətlər, sosial-iqtisadi islahatların dərinləşməsi, vətəndaş cəmiyyəti institutlarının inkişafı, beynəlxalq inteqrasiyanın genişlənməsi və digər bir sıra mühüm yeniliklər Konstitusiyada da bir sıra əlavə və dəyişikliklərin edilməsi məsələsini gündəmə gətirdi. 2009-cu il martın 18-də keçirilən ümumxalq səsverməsi nəticəsində edilən əlavə və dəyişikliklər mahiyyətcə Əsas Qanunun daha da təkmilləşməsinə, xüsusilə insan hüquq və azadlıqları ilə bağlı əhəmiyyətli müddəaların Əsas Qanunda daha dolğun şəkildə ehtiva edilməsinə xidmət edib.

2009-cu il 18 mart referendumundan ötən illər ərzində ölkə iqtisadiyyatının dinamik inkişafı və digər bir sıra vacib amillər ölkənin siyasi idarəetmə sisteminin daha da müasirləşdirilməsini, həmçinin vətəndaşların hüquqlarının və azadlıqlarının daha səmərəli şəkildə müdafiə olunmasını, bunlar isə öz növbəsində konstitusiya islahatlarının həyata keçirilməsini şərtləndirmişdir. Bununla da, 2016-cı il sentyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə keçirilmiş ümumxalq səsverməsi - referendum yolu ilə Əsas Qanuna mühüm əlavələr və dəyişikliklər edilmişdir.

Əminliklə bildirmək olar ki, ölkə Konstitusiyasına edilmiş bu əlavə və dəyişikliklər hüquqi dövlət prinsip və dəyərlərinin bərqərar olmasının, insan hüquq və azadlıqlarının müdafiəsi və təminatına ən yüksək səviyyədə göstərilən diqqətin bariz təzahürüdür.

Məlum olduğu kimi, 1995-ci ildə qəbul olunan Konstitusiyanın "Keçid müddəaları"nın 11-ci bəndində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin yaradılmalı olması nəzərdə tutulmuşdur. Bu müddəaya əsasən ilk dəfə 1997-ci il oktyabrın 21-də "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və 1998-ci il iyulun 14-də Azərbaycan Respublikasında konstitusiya nəzarətini həyata keçirən orqan kimi Konstitusiya Məhkəməsi rəsmi fəaliyyətə başlamışdır.

Ölkəmizdə Konstitusiya Məhkəməsi simasında ali konstitusiya ədalət mühakiməsi orqanının fəaliyyətə başlaması və ümumilikdə konstitusionalizm ideyalarının inkişaf etdirilməsi Ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Konstitusiya ədalət mühakiməsi hüququn aliliyinin təmin olunmasının mühüm və səmərəli mexanizmlərindən biri olmaqla, eyni zamanda hüquqi dövlətin ayrılmaz atributlarından biri olaraq qəbul edilir.

Konstitusiya Məhkəməsinin əsas məqsədləri Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etmək, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etməkdir. Fəaliyyətə başladığı ilk gündən Azərbaycan Respublikasının Konstitusiyası və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu Konstitusiya Məhkəməsinin fəaliyyəti üçün davamlı normativ fundament yaradaraq, konstitusiya ədalət mühakiməsinin səmərəli şəkildə həyata keçirilməsi üçün etibarlı təməl olmuşlar.

Dövlət başçısı cənab İlham Əliyevin Konstitusiya Məhkəməsinin 25 illiyinə həsr olunmuş beynəlxalq konfransın iştirakçılarına, həmçinin Konstitusiya Məhkəməsinin hakimləri və əməkdaşlarına müraciətində qeyd edilmişdir: "Ötən illər ərzində Konstitusiya Məhkəməsi səmərəli fəaliyyəti ilə və qəbul etdiyi qərarlarla Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsinə, insan hüquq və azadlıqlarının müdafiəsinə, milli qanunvericiliyin, dinamik dəyişən ictimai münasibətlərə uyğun olaraq, Konstitusiyanın müddəaları nəzərə alınmaqla təkmilləşdirilməsinə, cəmiyyətdə hüquq mədəniyyətinin və müxtəlif sahələrdə hüququn tətbiqi təcrübəsinin daha da inkişaf etməsinə dəyərli töhfə vermişdir.

**(ardı 3-cü səhifədə)**

# Azərbaycan Respublikasının Konstitusiyası və Suverenliyi



**Fərhad ABDULLAYEV,**
**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri**

**(əvvəli 2-ci səhifədə)**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Konstitusiya Məhkəməsinin fəaliyyətinə bu cür yüksək qiymət verilməsi və etimadın göstərilməsi olduqca əhəmiyyətli və qürurverici olmaqla yanaşı, həmçinin böyük məsuliyyət deməkdir.

Fəaliyyət göstərdiyi ötən illər ərzində Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən ümumilikdə 588 qərar və 170 qərardad qəbul edilib. Bu qərar və qərardadlarda formalaşdırılmış hüquqi mövqelər ilk növbədə Əsas Qanunun aliliyinin təmin olunmasına, əsas insan və vətəndaş hüquq və azadlıqlarının müdafiə edilməsinə xidmət edir.

Qeyd edilməlidir ki, Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən sorğu, müraciət və şikayətlər əsasında qəbul edilən qərar və qərardadlarda formalaşdırılan hüquqi mövqelərdə ilk öncə Konstitusiyanın müvafiq müddəalarına istinad edilir. Konstitusiya Məhkəməsi Plenumunun bir sıra qərarlarında məhz Konstitusiyanın aliliyi və birbaşa hüquqi qüvvəsi əsas götürülərək müvafiq hüquq normalarına hüquqi qiymət verilib.

Konstitusiya Məhkəməsi Plenumunun bu cür mühüm əhəmiyyət kəsb edən qərarlarından biri Azərbaycan Respublikası Ali Məhkəməsinin sorğusu əsasında qəbul edilən "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246 və 1273-1-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin VII hissəsinə uyğunluğunun yoxlanılmasına dair" 2023-cü il 26 dekabr tarixli Qərarında ilk olaraq qeyd edilib ki, Konstitusiyanın preambulasında xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq niyyəti ifadə edilmiş, həmçinin 7-ci maddəsinin I hissəsi ilə Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublika elan edilmişdir.

Hüquqi dövlətin əsas vəzifəsi insan hüquqlarına əsaslanmaq, bu hüquq və azadlıqları qorumaq və möhkəmləndirmək, hərəkət və davranışların qanuna uyğun olmasını, hər bir sahədə ədalətli hüquq qaydasının qurulmasını və inkişaf etdirilməsini təmin etməkdir.

Eyni zamanda, Konstitusiya Məhkəməsinin Plenumu Konstitusiyanın 13-cü maddəsinin I hissəsi, 29-cu maddəsinin I və II hissələrinə istinad edərək qeyd edib ki, Konstitusiya vərəsəlik hüququnu mülkiyyət hüququnun davamı olaraq, onun xüsusi forması kimi gördüyündən mülkiyyət və vərəsəlik hüquqlarını eyni maddədə konstitusiya təminatı altına almışdır. İstər mülkiyyət hüququ, istərsə də onun davamı olan vərəsəlik hüququ cəmiyyətin inkişafında əsas elementlərdən biridir.

Qeyd edilib ki, Mülki Məcəllədə vərəsəlik hüququnun xüsusi qəbul müddətinə bağlı tutulması mülkiyyət hüququna müdaxilənin qanuni əsasını təşkil etsə də, bu müdaxilə fərdi azadlığın və bazar iqtisadiyyatının ən əsas elementlərindən olan mülkiyyət hüququnun konstitusiya təminatına, mülki dövriyyə iştirakçılarının maraqlarına zidd olmaqla, hər hansı ictimai maraqlara cavab verməməklə yanaşı, mirasın açılması ilə mülkiyyət hüququna malik olan vərəsənin bu hüququnu qeyri-mütənasib şəkildə, hər hansı qanuni məqsədə xidmət etmədən məhdudlaşdırır.

Konstitusiya Məhkəməsinin Plenumu, həmçinin vurğulayıb ki, hüququn əsas prinsiplərindən biri də mülkiyyət hüququnun "zamansız" olması, başqa sözlə desək, mülkiyyət hüququnun müddətə bağlı olmamasıdır. Vərəsələrin davam edən mülkiyyət hüququ daşınmaz əşyadan faktiki istifadə etmək hüququnu nəzərdə tutduğu kimi, ondan istifadə etməmək hüququnu da ehtiva edir. Mülkiyyət hüququnun mütləqliyi və reyestr qeydiyyatının aşkarlığı (həqiqiliyi) şəraitində vərəsələrin mülkiyyət hüquqlarını tanımamaqla birtərəfli qaydada aradan qaldırılmasına icazə verilməsi mülkiyyət hüququnu ləğv etməklə yanaşı, həm də əldə edilmiş hüquq və hüquqi təminat prinsiplərini pozur.

Bu Qərarda göstərilənləri və Konstitusiyanın birbaşa hüquqi qüvvəyə malik olması barədə 147-ci maddəsinin II hissəsinin tələbini rəhbər tutaraq, Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlib ki, Mülki Məcəllənin vərəsəlik hüququ üçün xüsusi qəbul şərtini və müddətini müəyyən edən 1246 və 1273-1-ci maddələri mütənasiblik konstitusiya prinsipinə və Konstitusiyanın 29-cu maddəsinin VII hissəsində təsbit olunmuş vərəsəlik hüququnun təminatına və bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olmadığından qüvvədən düşmüş hesab edilməlidir.

Artıq qeyd edildiyi kimi, Konstitusiya qanunvericilik sisteminin əsasında durmaqla, digər normativ hüquqi aktlara nisbətən ən yüksək hüquqi qüvvəyə malikdir. Ali konstitusiya ədalət mühakiməsi orqanı olan Konstitusiya Məhkəməsi də öz növbəsində dövlətin Əsas Qanununun öyrənilməsinə, eyni zamanda, burada əks olunan müddəaların, prinsip və dəyərlərin cəmiyyətdə geniş şəkildə təbliğ edilməsinə daim xüsusi diqqət yetirir. Belə ki, hüquqi maarifləndirilmə hüquqi dövlətin və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsinin mühüm amillərindən biridir. Bununla da, gənclər arasında hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, hüquqi maarifləndirmə işinin həyata keçirilməsi Konstitusiya Məhkəməsinin fəaliyyətində mühüm yerlərdən birini tutur. Bu məqsədlə ənənəvi olaraq hər il ölkəmizin müxtəlif bölgələrində ali təhsil müəssisələrinin tələbələri və orta məktəb şagirdləri arasında hüquq olimpiadaları keçirilir.

Xüsusilə vurğulanmalıdır ki, 2024-cü ildə keçirilən hüquq olimpiadası Məhkəməmiz üçün xüsusi məna daşıdı. Belə ki, hüquq olimpiadası 2024-cü ilin oktyabr ayında Xankəndi şəhərində yerləşən Qarabağ Universitetinin tələbələri, habelə Xankəndi və Şuşa şəhərləri, Füzuli, Laçın, Zəngilan və Xocalı rayonlarının orta təhsil müəssisələrinin yuxarı sinif şagirdləri arasında "Zəfər çalmış dövlətin Əsas Qanunu" mövzusunda keçirilmişdir. İşğaldan azad edilmiş şəhər və rayonlarda tamamilə yenidən bərpa edilmiş təhsil müəssisələrində bu cür hüquq olimpiadasının keçirilməsi Konstitusiya Məhkəməsinin bütün kollektivi üçün unudulmaz və əlamətdar oldu.

Əminliklə deyə bilərik ki, hazırda dövlətimiz müstəqillik tarixinin ən qüdrətli, yüksək inkişaf mərhələsini yaşayır. Müstəqil dövlətçilik tariximizin ən mühüm hadisəsi şübhəsiz ki, tarixi Azərbaycan torpaqlarının işğaldan azad edilməsi oldu. 2020-ci il sentyabrın 27-də başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsi müasir tariximizin ən parlaq səhifəsi olmaqla, Azərbaycan xalqının qürur mənbəyidir. Bununla bağlı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev 2021-ci il sentyabrın 27-də Anım Günü ilə əlaqədar xalqa müraciətində qeyd etmişdir: "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi... Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq".

Xüsusi qürur hissi ilə qeyd edilməlidir ki, Vətən müharibəsində dövlətimizin qazandığı şanlı Qələbədən ilhamlanaraq 2022-ci ilin iyul ayında Konstitusiya Məhkəməsinin hakimləri və məsul əməkdaşlarından ibarət nümayəndə heyəti Məhkəmənin Plenumunda baxılmış üç qərarın elan olunması üçün Şuşa şəhərinə səfər ediblər. Dövlət başçısı, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müdrik daxili və xarici siyasəti və Azərbaycan Silahlı Qüvvələrinin gücü, rəşadəti sayəsində işğaldan azad edilmiş doğma torpaqlarımıza səfər etmək Konstitusiya Məhkəməsi üçün xüsusilə əlamətdar hadisə oldu.

44 günlük Vətən müharibəsindən sonrakı dövrdə də dövlətimiz siyasi-diplomatik müstəvidə ardıcıl olaraq yeni qələbələr əldə etməkdə davam etdi. Belə ki, 2023-cü il aprelin 23-də Laçın–Xankəndi yolunun başlanğıcında, Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi yaradıldı. Bu nəzarət-buraxılış məntəqəsinin yaradılması dövlətimizin Vətən müharibəsindən sonra əldə etdiyi növbəti tarixi nailiyyət olmaqla, Azərbaycanın bütün sərhədləri boyunca suveren hakimiyyətinin və nəzarətinin təmin edilməsi demək idi.

Dövlətimizin İkinci Qarabağ müharibəsində inamlı Qələbə qazanmasına baxmayaraq, Ermənistan tərəfindən hərbi təxribatlar müharibədən sonrakı dövrdə də davam etdirildi. Belə ki, Azərbaycan Ordusunun mövqeləri sistemli şəkildə atəşə tutulmuş, ərazilərimizin minalanması davam etdirilmişdir. 2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlandı. 24 saatdan az müddətdə davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində Rəşadətli Azərbaycan Ordusu qarşıya qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirdi.

Bununla da, Azərbaycan dövləti daha bir möhtəşəm qələbəyə imza atdı və bu, milli dövlətçilik tariximizə növbəti şanlı səhifə olaraq daxil oldu. Həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi, Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi işğaldan azad edilmiş bütün ərazilərdə bərqərar oldu. Dövlətimizin və xalqımızın həyatında müstəsna əhəmiyyət kəsb edən bu möhtəşəm Qələbə sayəsində Dövlət Bayrağımız suverenliyimizin bərpa olunduğu bütün ərazilərdə əzəmətlə dalğalanır.

44 günlük Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirləri nəticəsində parlaq Qələbənin əldə edilməsi Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı, dövlət başçısı cənab İlham Əliyevin yenilməz siyasi, hərbi iradə və qətiyyəti, Ordumuzun qəhrəmanlığı sayəsində mümkün oldu.

2024-cü ilin may ayında daha bir olduqca mühüm əhəmiyyət kəsb edən, əlamətdar və tarixi hadisə baş verdi. Belə ki, məlum olduğu kimi, 2024-cü il mayın 24-də Qazax rayonunun 4 kəndinin Azərbaycana geri qaytarılması prosesi uğurla başa çatdırıldı. Dörd kəndin dinc yolla geri qaytarılması istisnasız olaraq dövlət başçısı cənab İlham Əliyevin qətiyyətli siyasətinin məntiqi nəticəsidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyəti, tarixi ədalətə və beynəlxalq hüquqa söykənən siyasəti dövlətimizin zəfərlərinin davamlılığını təmin edir. Otuz ilə yaxın işğal altında qalan əzəli Azərbaycan torpaqlarını addım-addım geri qaytaran Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin zəfər müjdələri hər bir azərbaycanlını qürurlandırır, xalqımızın yenilməzliyini bir daha bütün dünyaya nümayiş etdirirdi.

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli sərəncamı ilə Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü təsis edildi. Sərəncama əsasən, 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyi nəzərə alınaraq hər il sentyabrın 20-sinin Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edilməsi qərara alındı. Sərəncamda qeyd edilmişdir: "Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir".

Torpaqlarımızın işğaldan azad edilməsi və suverenliyimizin tam təmin olunması nəticəsində Əsas Qanunda ehtiva edilən Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq niyyəti də tam reallaşıb. Belə ki, Konstitusiyanın 11-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Dövlət başçısı cənab İlham Əliyevin uzaqgörən və uğurlu siyasəti nəticəsində bu müddətdə təsbit edilən prinsiplər tam şəkildə təmin olunub.

Məlum olduğu kimi, cari il yanvarın 17-də tarixi məhkəmə prosesi başlanıldı. Qarabağdakı qanunsuz rejimin keçmiş "rəhbərləri" ilk dəfə hakim qarşısına çıxarıldı. Belə ki, Ermənistan dövləti və onun silahlı qüvvələri, o cümlədən Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma "Dağlıq Qarabağ respublikası" və onun qanunsuz silahlı birləşmələri tərəfindən dövlətimizə və Azərbaycan xalqına qarşı bir sıra – sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibə aparma, soyqırımı, əhalini məcburi köçürmə, təqib, işgəncə, hərbi soyğunçuluq və digər qanunsuz əməllərə dair cinayət işi üzrə açıq məhkəmə prosesi başlandı.

Dünya ictimaiyyətinin diqqət mərkəzində olan bu məhkəmə prosesi yalnız hüquqi bir hadisə deyil. Keçirilən məhkəmə prosesi bir daha qanunun aliliyini və tarixi ədalətin bərqərar edilməsini sübut edir.

Qeyd olunduğu kimi, dövlət başçısının 28 dekabr 2024-cü il tarixli sərəncamı ilə Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilib.

Əminliklə bildirmək olar ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı bu sərəncam xüsusi əhəmiyyət kəsb edir. Respublikamızda "Konstitusiya və Suverenlik İli"nin elan edilməsi Azərbaycan dövləti üçün yeni inkişaf mərhələsinin başlaması istiqamətində önəmli addım olmaqla, ölkəmizin hərtərəfli inkişafında mühüm mərhələ olacaq. Sərəncam dövlətimizin gələcək inkişafı və eyni zamanda, dövlətçilik ənənələrinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Dövlətimiz ildən-ilə güclənərək, inkişafının yüksək tərəqqi ilə xarakterizə olunan, keyfiyyətcə yeni dövrünü yaşayır. Dövlət başçısı cənab İlham Əliyev tərəfindən həyata keçirilən effektiv dövlət idarəçiliyi, həmçinin təhlükəsizlik və sabitliyin gücləndirilməsi istiqamətində görülən tədbirlər ümumilikdə müstəqilliyimizin daha da möhkəmləndirilməsini təmin edib.

Azərbaycan yaranmış yeni reallıqlar şəraitində qürurla öz inkişafının növbəti mərhələsinə qədəm qoyub. Regionun lider dövləti olan və bölgədəki iqtisadi-siyasi proseslərin əsas iştirakçısı olan dövlətimizin sosial-iqtisadi potensialı 44 günlük Vətən müharibəsindən sonra daha da artdı. Ölkəmizin bilavasitə təşəbbüsü və iştirakı ilə uğurla realizə edilən bir sıra irimiqyaslı layihələr nəinki təkcə Azərbaycanın, eyni zamanda, ümumilikdə regionun təhlükəsizliyinə və iqtisadi inkişafına öz mühüm və əvəzsiz töhfəsini verir.

Hazırda işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi qarşıda duran ən mühüm və prioritet vəzifələrdəndir. Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq proqramı həyata keçirilir, bərpa və yenidənqurma işləri sürətlə və planlı şəkildə davam etdirilir, müasir standartlara cavab verən infrastruktur formalaşdırılır. Mühüm məqam odur ki, burada dayanıqlı məskunlaşma və davamlı iqtisadi reinteqrasiya üçün bütün zəruri şərait yaradılır. İşğal illərində tamamilə viran qoyulmuş kənd, qəsəbə və şəhərlər tamamilə yenidən qurulur, doğma torpaqlarımıza həyat qayıdır.

İkinci Qarabağ müharibəsindən ötən müddət ərzində Qarabağ və Şərqi Zəngəzurda sürətlə davam edən bərpa-quruculuq işləri çərçivəsində nəhəng infrastruktur layihələri həyata keçirilib, qısa zaman ərzində geniş yol şəbəkəsi qurulub, tunellər çəkilib, beynəlxalq əhəmiyyətli dəhlizlər salınıb, hava limanları inşa edilib, yüksəkkeyfiyyətli, müasir texnologiyalarla təchiz edilmiş evlər, ictimai iaşə obyektləri tikilib.

Bu bölgədə aparılan bütün bərpa və yenidənqurma işləri dövlət başçısı cənab İlham Əliyevin bilavasitə nəzarətindədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə mütəmadi səfərlər etməsi bu proseslərin qarşıda duran ən mühüm və həssas məsələlərdən biri olmaqla, hər zaman diqqət mərkəzində olduğunun təsdiqidir.

Qarabağ və Şərqi Zəngəzurda tarixi və dini abidələrimizin, məscidlərimizin bərpası istiqamətində də işlər uğurla həyata keçirilir. Belə ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü və dəstəyi ilə işğal dövründə dağıdılan dini, mədəniyyət və tarixi abidələrin bərpasına və inşasına olduqca böyük diqqət yetirilir.

Həyata keçirilən bütün bərpa və yenidənqurma işləri Azərbaycan Respublikası ərazisinin vahidliyi, toxunulmazlığı və bölünməzliyi ilə bağlı konstitusiya prinsipinin təmin edilməsinin daha bir əyani göstəricisidir.

Vətən müharibəsindən sonra işğaldan azad edilən bütün ərazilərə yenidən həyat verilir, yurdlarından didərgin düşmüş sakinlər öz doğma el-obalarına qayıdırlar. İşğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin aparılması ilə yanaşı, bu torpaqlara yerli əhalinin qayıtması Qarabağ və Şərqi Zəngəzurun gələcək inkişafı ilə bağlı qarşıda duran ən vacib istiqamətlərdən biridir.

Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq əhalinin qısa zamanda öz doğma torpaqlarına qayıtmaları istiqamətində dövlət tərəfindən bütün imkanlar səfərbər edilib. "Böyük Qayıdış" proqramı çərçivəsində artıq minlərlə keçmiş məcburi köçkün öz doğma yurdlarına qayıdıb. Bu ərazilərdə konstitusiya hüquqlarının tətbiq və təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Əhalinin hüquq və azadlıqlarının müdafiəsi onların sosial və digər vacib xidmətlərlə təmin olunması, eyni zamanda, bütövlükdə iqtisadi inkişaf üçün zəruri hüquqi şərait yaradır.

İşğaldan azad edilmiş ərazilərdə suveren hüquqların və azadlıqların təmin edilməsi məhz Konstitusiyanın aliliyinə əsaslanır. Bu ərazilərdə dövlət idarəetmə strukturlarının, həmçinin hüquq-mühafizə orqanlarının və məhkəmələrin fəaliyyətinin təmin edilməsi insanların hüquqlarının və azadlıqlarının müdafiəsi üçün əsaslı və olduqca mühüm addımlardır.

Qeyd edilməlidir ki, həm regional, həm də qlobal səviyyədə etibarlı tərəfdaş kimi tanınan Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində faydalı əməkdaşlıq əlaqələrini də uğurla davam etdirir. Dövlətimizin xarici siyasətinin özünəməxsus xüsusiyyətlərindən biri bu siyasətin müstəqillik və suverenlik prinsiplərinə əsaslanmasıdır. Azərbaycan tam müstəqil siyasət həyata keçirir və bunun nəticəsidir ki, ölkəmizə rəğbət, maraq daim artır, eyni zamanda, ölkəmizə yüksək hörmət və etimad göstərilir.

Azərbaycan özünü dünya birliyində ən mötəbər kürsülərdən öz haqlı mövqeyini nümayiş etdirən və bu mövqeyini qoruyan, zəngin iqtisadi potensiala malik bir dövlət kimi tanıdıb. Eyni zamanda, müasir beynəlxalq münasibətlər sisteminin tam və bərabərhüquqlu üzvü olan ölkəmiz hər il mötəbər, beynəlxalq miqyaslı konfranslara, qlobal forumlara, zirvə görüşlərinə və digər mühüm tədbirlərə, ikitərəfli və çoxtərəfli görüşlərə, idman yarışlarına, musiqi və incəsənət festivallarına layiqincə ev sahibliyi edir.

Əminik ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə suveren və bütöv Azərbaycanı yeni dövrdə inkişafının mühüm mərhələsi gözləyir. Dövlətimiz və xalqımız tarixi nailiyyətlərə imza atmaqda davam edəcək. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi də öz növbəsində, müəllifi Ulu öndər Heydər Əliyev olan Əsas Qanunun aliliyinin təmin edilməsi, hüquqi dövlət quruculuğu və müstəqil dövlətimizin möhkəmlənməsi istiqamətində dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi mütərəqqi fəaliyyətinə dəstək olaraq, üzərinə düşən məsuliyyətli vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə daim çalışacaq.



# Suverenlik zirvəsi

**Azərbaycanda Konstitutsiya quruculuğunun özünəməxsus ənənəsi və təcrübəsi vardır. XX əsrin birinci yarısında, sovet hakimiyyəti illərində qəbul edilmiş Azərbaycan SSR-in konstitusiyalarında Sovetlər İttifaqı quruluşu şəraitində ölkəmizin siyasi sisteminin əsasları öz əksini tapmışdır. Sırf ideoloji xarakter daşımasına baxmayaraq, ilk konstitusiyalar Azərbaycanın respublika subyekti olmasının qəbul edilməsi cəhətdən əhəmiyyətlidir. Lakin bu konstitusiyalarda Azərbaycan vətəndaşlarının hüquqları və vəzifələrinə dair müddəalar formal xarakter daşımışdır.**



*İsa HƏBİBBƏYLİ,*
*AMEA-nın prezidenti, akademik*

Bundan başqa, Azərbaycan Sovet Respublikasının beynəlxalq birliyin subyekti olması məsələsi demək olar ki, konstitusiyanın müddəası olmaq "hüququnu" itirmişdir. Bunlar isə öz növbəsində SSRİ adlanan bolşevik imperiyasının zorla işğal edib öz tərkibinə daxil etdiyi müttəfiq respublikaları, o cümlədən Azərbaycanı tədricən əridib itirmək siyasətinin siyasi-ideoloji ifadəsi demək idi.

Sovet dövləti bu siyasi xətti özünün inkişafının bütün mərhələlərində davam etdirmişdir. Hətta XX əsrin 70-80-ci illərində inkişaf etmiş sosializm cəmiyyəti mərhələsində Sovetlər İttifaqının SSRİ-yə daxil olan bütün xalqların vahid vətəni olması ideyası dövlət səviyyəsində həyata keçirilmişdir. Nikita Xruşşov tərəfindən hakimiyyətdən uzaqlaşdırılması gündəmdə olan Mərkəzi Komitə katibi Mixail Suslov Leonid Brejnevin Baş katib seçilməsindəki rolundan istifadə edərək, Sovetlər İttifaqının tərkibində olan xalqların əridilib itirilməsi siyasətini qanuniləşdirmək vəzifəsini həyata keçirməyə çalışmışdır. Həmin illərdə meydana çıxmış "Mənim ünvanım nə ev, nə küçədir. Ünvanım Sovetlər İttifaqıdır" mahnısının populyarlaşdırılması həmin siyasətin üzvi tərkib hissəsi idi.

XX əsrin 70-ci illərində sovet dövlətinin apardığı millətlərin əridilib itirilməsi və xalqların eyniləşdirilməsi siyasətinin genişləndirildiyi dövrdə Azərbaycanda siyasi hakimiyyətə gələn Heydər Əliyevin apardığı düşünülmüş siyasət nəticəsində bu məkrli planlar respublikamızda həyata keçirilə bilməmişdir. Sovet dövlətinin görünən-görünməyən cəhətlərinə dərindən bələd olan görkəmli dövlət xadimi Heydər Əliyev mövcud siyasi sistemi tənqid etmədən Azərbaycan Sovet Respublikasında Azərbaycan dilini, milli mədəniyyəti, elm və ədəbiyyatı geniş miqyasda inkişaf etdirməklə xalqımızın milli varlığını, milli-mənəvi dəyərlərimizi qoruyub saxlamış və möhkəmləndirmişdir. Ümumi xarakter daşıyan sovet vətənpərvərliyi tərbiyəsini azərbaycançılıq hərəkatı miqyasında həyata keçirməklə Heydər Əliyev xalqımızın milli-mənəvi özünüdərk proseslərini daha da dərinləşdirməyə nail ola bilmişdir. Uzaqgörən rəhbərin respublikamızda yaşayan digər xalqların da hüquqları və vəzifələrinin təmin edilməsi sahəsində həyata keçirdiyi real və faydalı siyasət zahirdə həm də sovet hakimiyyətinin təməl prinsiplərindən biri olan beynəlmiləlçilik tərbiyəsi təəssüratı yaratdığı üçün heç cür siyasi ayrı-seçkilik siyasəti adlandırıla bilməmişdir.

Sovet dövlətinin beynəlmiləlçilik adı ilə xalqları əridib sıradan çıxarmaq siyasəti həyata keçirdiyi şəraitdə Heydər Əliyevin həmin siyasətin "bayrağı" altında Azərbaycanda yaşayan azsaylı xalqların mədəniyyətini qoruyub saxlamaq və yaşatmaq sahəsində tədbirləri genişləndirməsi əsl böyük dövlət xadimi olmağın nümunəsi idi.

Eyni zamanda, Azərbaycan neftinin ümumittifaq kvotası hesabına ölkəmizdə neft-maşınqayırma sənayesinin yaradılıb inkişaf etdirilməsi, yaxud SSRİ bazarlarına kənd təsərrüfatı məhsullarının ixrac edilməsinin artırılması respublikamızda neft sərvətlərinin milliləşdirilməsi sahəsində aparılan mübarizənin düşünülmüş şəkildə həll edilməsi demək idi. Vaxtilə Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun həyata keçirmək istədiyi neft sərvətlərinin milliləşdirilməsi siyasətinin faciəli aqibəti ondan sonra respublikamıza rəhbərlik etmiş birinci katiblərin bu mövzunu təhlükəli məsələ kimi gündəmdən çıxarmaları ilə nəticələnmişdir.

Uzaqgörən görkəmli dövlət xadimi Heydər Əliyev isə Azərbaycan Respublikasının suverenliyinin atributlarından biri olan neft siyasətinin ən münasib həll yolunu tapmış, yüksək siyasi eşelonda xüsusi bir narahatlıq doğurmayacaq şəkildə uğurla başa çatdırmışdır. Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin açılması və milli Zabitlər Korpusunun formalaşdırılması da xalqımızın suverenliyinin təməl prinsiplərindən biri idi.

SSRİ-də inkişaf etmiş sosializm cəmiyyəti quruculuğu tərkibində 1978-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasında ilk dəfə olaraq Azərbaycan dilinin dövlət dili kimi xüsusi bir maddə kimi yer alması ölkəmizin və sovet hakimiyyəti dövründə xalqımızın siyasi suverenliyinin təmin edilməsi yolunda əldə edilmiş ən mühüm nailiyyət idi. Bu, görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi iradəsi və nüfuzu sayəsində baş tutmuş qeyri-adi, möhtəşəm nailiyyətdir.

Azərbaycan dilinin dövlət dili statusunda Konstitusiya səviyyəsində təsdiq olunması bu məsələnin hər hansı bir səviyyədə müzakirə obyektindən çıxarılması, hüquqi qiymət alması demək idi. Azərbaycan dilinin dövlət dili statusu qazanması məntiqi mənada müstəqil dövlətçilik ideyasının təməllərinin yaradılması baxımından da əhəmiyyətli hadisə idi. Diqqət edilərsə, Azərbaycan ədəbi-ictimai fikrində milli istiqlalçılıq ideyaları məhz bu dövrdən etibarən genişlənmiş və güclənmişdir.

Ziya Bünyadov, Bəxtiyar Vahabzadə, Abbas Zamanov, Xəlil Rza, Xudu Məmmədov və başqaları kimi elm və ədəbiyyat xadimlərinin milli istiqlalçılıq, milli-mənəvi özünüdərk istiqamətində apardığı mübarizəyə müəyyən düşünülmüş vasitələrlə şərait yaradılmışdır. Milli ziyalılığın görkəmli nümayəndələrinin deputat seçilmələrinə dəstək verilməsi, Dövlət mükafatı ilə təltif olunmaları, fəxri adlar almaları onların toxunulmazlığının təmin edilməsi üçün həyata keçirilən dövlət siyasətinin tərkib hissəsi idi. Son nəticədə bütün bunlar hələ sovet hakimiyyəti illərində çətin şəraitdə Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizin və xalqımızın suverenliyi üçün qazanılmış tarixi nailiyyətlərdir.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev milli istiqlal uğrunda mübarizə illərində və müstəqillik dövründə də xalqımızın suveren hüquqlarının, dövlətimizin siyasi suverenliyinin təmin edilməsi naminə mühüm qərarların qəbul edilməsinə, tarixi hadisələrin həyata keçirilməsinə imza atmışdır. Naxçıvan Muxtar Respublikası Ali Sovetinin iclasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Azərbaycan Respublikasının dövlət rəmzi kimi qəbul edilməsi mühüm tarixi əhəmiyyətə malik olan suverenlik hadisəsidir. Milli ordu yaratmaq istiqamətində atılmış qətiyyətli addımlar da mühüm müstəqil dövlətçilik aktıdır.

Nəhayət, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 12 noyabr 1995-ci il tarixində Azərbaycan Respublikasının Konstitusiyasının ümumxalq referendumu yolu ilə qəbul edilməsinə nail olması Heydər Əliyevin adı ilə üzvi surətdə bağlı olan mühüm tarixi hadisədir. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan Respublikası Konstitusiyasının yaradıcısı və banisidir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Konstitusiyası tarixə Heydər Əliyev Konstitusiyası kimi daxil olmuşdur.

Bütün bunlarla bərabər, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi olmadan tam suverenliyə nail olmaq mümkün deyildir. Müstəqil dövlətimizin inkişafı tarixinin ən şərəfli hadisəsi olan ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi kimi böyük tarixi vəzifəni Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandanımız İlham Əliyev həyata keçirmişdir. Otuz illik işğaldan sonra 2020-ci ildə 44 gün ərzində Azərbaycanın qədim ərazisi olan Qarabağın erməni işğalından azad edilməsi dövlət suverenliyinin əsas müddəası olan ərazi bütövlüyümüzün təmin edilməsinin əsasını təşkil etmişdir. Qarabağ savaşında Vətən müharibəsində qazanılmış tarixi Zəfər tam qələbə, 2023-cü ilin sentyabr ayında həyata keçirilmiş bir günlük antiterror hadisəsi isə qəti qələbədir.

Beləliklə, Qarabağ müharibəsində Azərbaycan Respublikasının tam və qəti qələbəsi Ali Baş Komandan İlham Əliyevin Dəmir Yumruğu ilə qazanılmış nadir tarixi hadisədir. Dəmir Yumruq bu gün dövlət suverenliyimizin rəmzinə çevrilmişdir. Prezident İlham Əliyev Vətən müharibəsinin Ali Baş Komandanı, ölkəmizin Suverenliyinin qarantıdır. Hazırda Azərbaycan Respublikası özünün müstəqil dövlətinin suveren hüquqlarına malik olan qüdrətli dövlətdir.

Ali Baş Komandan İlham Əliyev Qarabağ Zəfərinin banisi, hərəkətverici qüvvəsi və rəhbəridir. Müzəffər Ali Baş Komandan Qarabağ Zəfərinin əsas ilhamçısı və lideridir. İlham Əliyevin liderlik missiyası Azərbaycan xalqına qalib xalq, müstəqil ölkəmizə qalib ölkə, dövlət başçımıza qalib Prezident statusu qazandırmışdır. Qalib Prezidentlik özündə qalib liderliyi birləşdirir. Azərbaycan Respublikasının Prezidenti Qalib ölkənin, Qalib xalqın Qalib lideridir. Qalib liderin 2020-ci ildə Qarabağda qazandığı tarixi Zəfər işğalçılar üzərində qələbə, 2023-cü ildəki bir günlük hərbi əməliyyat nəticəsində əldə olunan ərazi bütövlüyü isə Qalibiyyətdir. Bu, Azərbaycan tarixində ilk dəfə müstəqil dövlətimizin özünün ərazi bütövlüyünə sahib olması hadisəsidir. Bu, Azərbaycan Respublikasının suveren dövlət statusu qazanması kimi böyük tarixi hadisədir. Müzəffər Ali Baş Komandan Azərbaycan Respublikasının suverenlik zirvəsini fəth etmiş Qalib liderdir.

Prezident İlham Əliyev eyni zamanda Suverenliyin əbədi olmasını təmin etmək üçün də genişmiqyaslı kompleks tədbirlər həyata keçirir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması və Böyük Qayıdış hərəkatının sürətlə həyata keçirilməsi, Azərbaycanın bütün ərazilərində həyatın bərqərar olması ərazi bütövlüyü ilə Suverenlik arasında bərabərlik işarəsi qoymağa tam əsas verir.

Bu baxımdan artıq Qarabağ və Şərqi Zəngəzurun əksər yaşayış məntəqələrində insanların məskunlaşdırılması, burada böyük quruculuq proqramlarının həyata keçirilməsi Azərbaycanın tarixi ərazilərinin bərpası və ərazi bütövlüyünün əbədi olaraq təmin edilməsi yolunda atılan qətiyyətli addımlardır. Bu mənada Böyük Qayıdış Suverenliyin möhtəşəm təməlidir. Böyük Qayıdış – Böyük və Əbədi Quruculuqdur.

Ölkəmizin tam ərazi bütövlüyünü təmin etmək üçün Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin bərpa edilməsi də zəruri şərtlərdən biridir. Vaxtilə ölkəmizin rayonlarının və paytaxtımız Bakı şəhərinin Naxçıvanla əlaqələndirilməsi üçün bir neçə istiqamətdə magistral yollar fəaliyyət göstərmişdir. Bakı-Noraşen və Bakı-İrəvan qatarları Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın digər əraziləri arasında polad magistrallar kimi fəaliyyət göstərmişdir.

Bu marşrutlar üzrə qatarların hərəkəti o qədər dəqiq tənzimlənmişdir ki, adamlar həmin qatarların ayrı-ayrı dayanacaqlara çatması vaxtına baxıb saatlarındakı vaxtı düzəltmişlər. Bundan başqa, Bakı-Yevlax-Gorus-Biçənək aşırımı və Bakı-Gəncə-Qazax-Dilican-İrəvan-Naxçıvan avtomobil yolları da muxtar respublikanı Azərbaycanın digər əraziləri ilə üzvi surətdə əlaqələndirmişdir. Birinci Qarabağ müharibəsi nəticəsində bu yolların hamısı bağlanmış, Naxçıvan Muxtar Respublikası ağır blokada vəziyyətinə salınmışdır. Qarabağ Zəfərindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Zəngəzur dəhlizinin açılması istiqamətində apardığı mübarizə həm Naxçıvan Muxtar Respublikasının blokada vəziyyətindən çıxarılaraq respublikamızın digər əraziləri ilə ahəngdar və daimi əlaqələrinin qurulmasına və həm də Suverenlik Aktının bütün mahiyyəti ilə təmin olunmasına xidmət edən tarixi addımlardır. Zəngəzur dəhlizinin Avropa ilə Asiyanı birləşdirən ən əlverişli beynəlxalq magistral olması və eyni zamanda həmin marşrutun açılmasında dünyanın bir çox dövlətlərinin maraqlı tərəflər kimi çıxış etmələri bu nəqliyyat dəhlizinin açılacağına böyük ümidlər yaradır. Xüsusən, 8 avqust 2025-ci il tarixdə Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin paraflanması prosesində həm də Zəngəzur dəhlizinə dair mühüm tarixi qərarların qəbul edilməsi və bu magistralın "Tramp yolu" adlandırılması Zəngəzur dəhlizi məsələsinin müsbət həllini reallığa çevirmişdir.

Artıq Amerika Birləşmiş Ştatlarında – Vaşinqtonda imzalanmış sənədlər Zəngəzur dəhlizinin açılmasını qaçılmaz etmişdir. Həm bütün region ölkələri, xüsusən İran və İrəvan üçün daha çox faydalı olacaq Zəngəzur dəhlizi məsələsini beynəlxalq birliyin gündəmində olan bir mövzuya çevirmişdir. Xalqımız inanır ki, Prezident İlham Əliyevin dəmir iradəsi və ağıllı siyasəti ilə Zəngəzur dəhlizinin açılması problemi tam həllini tapacaqdır.

Azərbaycanın dövlət Suverenliyi məsələsi Azərbaycanla Ermənistan arasında Sülh Sazişinin imzalanmasının həyata keçirilməsini də tələb edir. Amerika Birləşmiş Ştatlarında – Vaşinqtonda ABŞ-ın Prezidenti Donald Trampın iştirakı və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin möhkəm siyasi iradəsi ilə 8 avqust 2025-ci il tarixdə Sülh Sazişinin maddələrinin paraflanması bu tarixi məqamın çox da uzaqda olmadığını göstərir. Sülh Sazişi təkcə iki ölkəyə - Azərbaycana və Ermənistana deyil, Cənubi Qafqaza və geniş mənada regiona, Avrasiya məkanına sülh, əmin-amanlıq və qarşılıqlı əməkdaşlıq gətirən layihə kimi ölkəmizin suveren hüquqlarından beynəlxalq müstəvidə istifadə edilməsinə meydan açacaq.

Beləliklə, Suverenlik – Ərazi Bütövlüyü Azərbaycan Respublikasının misilsiz tarixi nailiyyətidir. Suverenlik – Ərazi Bütövlüyü və Böyük Qayıdış Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycan xalqının çoxəsrlik tarixi salnaməsinə qızıl hərflərlə həkk etdiyi parlaq səhifələrdir.

Nəhayət, Suverenlik hər bir Azərbaycan vətəndaşının milli qüruru, şərəfi və iftixarıdır. Qədirbilən Azərbaycan xalqı dövlət müstəqilliyimizin böyük və möhkəm təməllərini yaratmış Ümummilli liderimiz Heydər Əliyevə əbədi minnətdardır. Ölkəmiz və xalqımız, bütövlükdə dünya azərbaycanlıları XXI əsrin qüdrətli liderlərindən biri olan Prezident İlham Əliyevin Qarabağın Fatehi və Dövlət Suverenliyinin rəmzi kimi bütün istiqamətlər üzrə çoxcəhətli və yorulmaz fəaliyyətini ürəkdən dəstəkləyir və müdafiə edir.

Azərbaycan tarixində ilk dəfə olaraq Suverenlik Zirvəsində Azərbaycan bayrağını dalğalandıran Prezident İlham Əliyevin həm də dövlət Suverenliyimizin sarsılmaz qarantı olduğuna xalqımız əmindir. Bu gün Azərbaycan Respublikasının üçrəngli dövlət bayrağı Suverenlik Zirvəsində əbədiyyət rəmzi kimi əzəmətlə dalğalanmaqda davam edir.



# Konstitusiya və suverenlik yeni reallıqlar işığında

**Suverenlik və dövlət müstəqilliyi ideyası Azərbaycan tarixi boyunca xalqın milli kimliyinin ayrılmaz hissəsi olmuşdur. Müstəqil Azərbaycan Konstitusiyasının 30 illiyi ərəfəsində Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması rəmzi məna daşımaqla yanaşı, həm də yüzilliklərin dövlətçilik ənənələrinin məntiqi davamı, tarixi yaddaşın müasir dövlətçiliklə sintezinin ifadəsidir. Konstitusiya dövlətin əsas qanunu olmaqla, xalqın iradəsini, siyasi sistemin quruluşunu, hüquq və azadlıqların təminatını müəyyənləşdirən sənəddir. Suverenlik isə müstəqil dövlətin daxili və xarici siyasətdə tam sərbəstliyi, xalqın öz taleyinə sahib çıxmaq hüququ deməkdir.**

Azərbaycanın müasir konstitusional dövlətçilik ənənələri, bir tərəfdən, 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyətindən, digər tərəfdən isə yeni müstəqillik dövründə Ulu öndər Heydər Əliyevin dövlətçilik xəttindən qaynaqlanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə isə bu ənənələr gücləndirilərək daha üstün mərhələyə yüksəldilmişdir.

Azərbaycan konstitusionalizmininin və suverenliyinin mahiyyətini və paradiqmasını daha dolğun şəkildə dərk edilməsi üçün onların formalaşma və inkişaf tarixinə qısaca da olsa, nəzər salmağa ehtiyac vardır.

## Konstitusiya və suverenliyin bünövrəsi

1917-ci ildə Rusiyada baş vermiş siyasi təlatümlər və inqilablar nəticəsində onun təsir dairəsində olan ərazilərdə, o cümlədən Cənubi Qafqazda milli azadlıq hərəkatları baş qaldırmış və xalqların müstəqillik ideyalarının gerçəkləşməsi üçün münbit şərait yaranmışdı. Nəticədə 1918-ci ilin 28 mayında Şərqdə və müsəlman dünyasında ilk parlamentli respublika kimi adı tarixə yazılmış Azərbaycan Xalq Cümhuriyyəti (AXC) – Azərbaycan Demokratik Respublikası (ADR) elan olunmuşdur. Bu fakt təkcə Azərbaycan xalqı üçün deyil, həm də region xalqları üçün tarixi hadisə idi. Mövcud olduğu 23 ay ərzində AXC-nin qəbul etdiyi hüquqi-siyasi qərarlar, qəbul etdiyi qanunvericilik aktları və tətbiq etdiyi idarəçilik modeli Milli suverenlik prinsipi əsasında gələcək müstəqil Azərbaycan dövlətçiliyi üçün möhkəm təməl yaratdı. AXC-nin qəbul etdiyi İstiqlal Bəyannaməsi dövlət suverenliyinin açıq və birmənalı ifadəsi idi. Burada Azərbaycan xalqının öz müqəddəratını təyinetmə hüququ təsbit olunur, milli ərazi üzərində suveren hakimiyyət elan edilirdi. Nəticə etibarı ilə bu sənəd sonrakı bütün konstitusion inkişafların ilkin qaynağı rolunu oynadı.

AXC dövründə formalaşdırılmış parlament çoxpartiyalı sistem əsasında fəaliyyət göstərirdi. Bu, suverenliyin ən mühüm göstəricisi – xalqın iradəsinin dövlət idarəçiliyində ifadəsi idi. Azərbaycan parlamentində müxtəlif siyasi qüvvələr təmsil olunurdu, qanunvericilik təşəbbüsləri milli maraqlar və demokratik dəyərlər üzərində qurulmuşdu.

AXC tam şəkildə Konstitusiya qəbul etməyə imkan tapmasa da onun layihəsi hazırlanmışdı. Bu layihədə dövlət quruluşu, vətəndaş hüquqları, seçki sistemi və hakimiyyət bölgüsü kimi prinsiplər əks olunurdu. Bu, gələcək Azərbaycan konstitusionalizmi üçün zəngin hüquqi baza yaratdı.

AXC-nin ömrünün çox qısa olmasına baxmayaraq, onun irsi müstəqillik ideyasını xalqın yaddaşında yaşatdı. O, müsəlman Şərqinə respublika məfkurəsini gətirdi, bununla eyni zamanda müsəlman xalqlarına müstəmləkəçilikdən qurtulmağın örnəyini göstərdi, onların azadlıq yoluna işıq tutdu. 1920-ci ildə beynəlxalq hüquq normalarına məhəl qoymayan Rusiya bolşeviklərinin işğalı bu prosesləri yarımçıq qoysa da Azərbaycan xalqının azadlıq və suverenlik arzusu heç vaxt sönmədi.

## Sovet dövrünün təzadları və Heydər Əliyevin siyasi irsi

1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə ölkə sovet hakimiyyətinin tərkibinə qatıldı. Formal olaraq Azərbaycan Sovet Sosialist Respublikası (Azərbaycan SSR) yaradılmışdı, lakin suverenlik prinsipi yalnız nominal xarakter daşıyırdı. Əsas qərarlar Moskvanın diktəsi ilə qəbul edilir, konstitusion hüquqlar kağız üzərində qalırdı. Ötən əsrin 20, 30 və 40-cı illəri sovet dövlət quruculuğu adı altında müstəqil dövlətçilik atributlarının zəifləməsi, Azərbaycanın mərkəzə daha çox bağlanması, milli ədəbiyyatın, milli ruhlu ziyalıların təqib və repressiyalara məruz qalması ilə müşayiət olundu.

Bununla belə, sovet dövründə Azərbaycan iqtisadi və mədəni inkişaf baxımından müəyyən nailiyyətlər əldə etdi. Neft sənayesi, kənd təsərrüfatı, təhsil və səhiyyə sahələrində aparılan islahatlar əhalinin həyat səviyyəsini qismən yüksəltdi. Lakin milli azadlıq və suverenlik arzusu daim xalqın yaddaşında yaşamaqda davam edirdi.

1969-cu ildə Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildi. Bu dövr Azərbaycan tarixinin dönüş nöqtəsi oldu. Heydər Əliyev sovet sisteminin məhdudiyyətlərinə baxmayaraq, respublikanın inkişafını milli maraqlar əsasında qurmağa başladı. Nəticədə onun rəhbərliyi ilə Azərbaycanda sənayeləşmə sürətləndi, yeni zavod və fabriklər açıldı, kənd təsərrüfatında struktur islahatları aparıldı, milli kadr siyasətinə üstünlük verildi, gənc azərbaycanlı mütəxəssislərin yetişdirilməsinə şərait yaradıldı, təhsil və mədəniyyət sahəsində milli identikliyin qorunması üçün mühüm addımlar atıldı. 1978-ci ildə qəbul edilmiş respublikanın yeni Konstitusiyasına milli maraqları əks etdirən və dövlət müstəqilliyi elementlərinin yer aldığı müddəalar əlavə edildi.

1969-cu ilə qədər SSRİ-nin aqrar əyaləti kimi tanınan Azərbaycan məhz Heydər Əliyevin fədakarlığı sayəsində həmin tarixdən sonra elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan diyara çevrildi. Həmin dövr, eyni zamanda milli özünüdərkin möhkəmlənməsi mərhələsi kimi dəyərləndirilir. Təsadüfi deyil ki, o zaman İttifaq miqyasında iqtisadi cəhətdən özünü tam təmin edə bilən iki respublikadan biri məhz Azərbaycan olmuşdur ki, bu da mərkəzdən asılı olmadan müstəqil yaşamaq imkanı deməkdir. Sonralar həmin dövrdə həyata keçirilmiş tədbirlərdən danışan Ulu öndər demişdir: "Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun. Hər şeydən əvvəl, iqtisadi cəhətdən. Çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur".

Bir sözlə, Heydər Əliyevin sovet dövründə respublikanın başında durduğu 13 il ərzində yaratdığı fundamental dəyərlər Azərbaycanın iqtisadi, sosial və mədəni inkişafına böyük töhfə verdi. Bu fəaliyyət həm də gələcək müstəqillik üçün sosial-iqtisadi və intellektual baza formalaşdırdı.

1982-ci ildə Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosuna üzv seçilərək SSRİ rəhbərliyində yüksək mövqeyə yüksəldi. Bu, yalnız şəxsi nailiyyət deyil, həm də Azərbaycanın nüfuzunun artması demək idi. O, Kremldə fəaliyyət göstərdiyi illərdə də ittifaq səviyyəsində qəbul edilən qərarlarda Azərbaycanın maraqlarını müdafiə etməyə nail olurdu. Heydər Əliyevin siyasi uzaqgörənliyi həmin dövrdə Azərbaycanın gələcək dövlətçilik ənənələrinin formalaşmasına xidmətin bariz nümunəsidir. Lakin ondan sonra respublikaya rəhbərlik etmiş şəxslərin kölə psixologiyası, prinsipsizliyi, qətiyyətsizliyi və düşünülməmiş kor-koranə addımları Azərbaycanı getdikcə tənəzzülə doğru aparmışdı. Xüsusilə Kremlin əlaltısına çevrilmiş Əbdürrəhman Vəzirovun rəhbərliyi dövründə respublika dərin iqtisadi və siyasi böhrana yuvarlanmışdı.

## Dövlət müstəqilliyinin və suverenliyinin bərpasına gedən yolda

1980-ci illərin sonlarında SSRİ-də baş qaldıran siyasi böhran, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və Qarabağ münaqişəsi xalqın müstəqillik arzusunu daha da gücləndirdi. 1990-cı ilin qanlı Yanvar hadisəsi sovet rejiminin Azərbaycan xalqına qarşı törətdiyi ən böyük cinayətlərdən biri kimi tarixə yazıldı. Məhz bu məqamda artıq Kremldən uzaqlaşdırılmış Heydər Əliyev bütün risklərə baxmayaraq, Moskvada Azərbaycanın müdafiəsinə qalxdı, xalqın hüquqlarını açıq şəkildə müdafiə etdi. Bu addım onun xalqla birliyinin və dövlətçilik iradəsinin bariz nümunəsi idi.

1991-ci ildə SSRİ-nin süqutu ilə Azərbaycan öz müstəqilliyini formal olaraq bərpa etdi. 18 oktyabr 1991-ci ildə qəbul olunmuş "Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" Azərbaycanın suveren dövlət kimi beynəlxalq hüquqi statusunu təsdiqlədi. Lakin Azərbaycanın müasir konstitusionalizminin ilkin mərhələsi ciddi siyasi böhranlar və ziddiyyətli məqamlarla müşayiət olunurdu. Əsl tarixi həqiqət isə ondan ibarətdir ki, Azərbaycanın müstəqilliyini və suverenliyini hələ 90-cı ildə Naxçıvanda bərpa etmiş Heydər Əliyevin mövqeyini Bakıda müdafiə etsəydilər, əlbəttə ki, ölkə hüquqi siyasi baxımdan o dövrdə acınacaqlı vəziyyətə düşməzdi. Dövlət quruculuğunun əsaslarını hamıdan yaxşı bilən Heydər Əliyev Ali Sovetin deputatı kimi 30 avqust 1991-ci il "Dövlət müstəqilliyinin bərpası haqqında" Bəyannamə müzakirə olunarkən cəsarətlə tarixi həqiqətləri söyləmişdi: "Dövlət müstəqilliyinin bərpası məsələsi çox tarixi məsələdir. Xalqın iradəsi olmadan belə bir qərarın, yaxud bəyanatın qəbul olunması qanunu pozmaq deməkdir. Bəyanatın qəbul olunmasının əleyhinə deyiləm, ancaq xalqa müraciət etmək lazımdır, qısa müddət ərzində referendum keçirmək lazımdır və referendumun nəticəsinə görə qərar qəbul edilməlidir. Bu birinci, ikincisi mən mart ayında da demişdim. İkiüzlü siyasət aparmaq olmaz. Biz gecikmişik".

Təəssüf ki, avqust ayında Heydər Əliyevin bu təklifi nəzərə alınmadı. Mart ayında Azərbaycanın İttifaq müqaviləsinin ləğvi haqqında referendum keçirilib qərar qəbul olunmasına baxmayaraq yalnız yeddi aydan sonra dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Əgər o zaman Heydər Əliyevi eşitsəydilər və siyasi iradə olsaydı, Azərbaycan öz müstəqilliyini ilk elan edən dövlətlər siyahısında olardı və bununla qürur duyardı.

Beləliklə, Azərbaycan konstitusionalizmi ilk mərhələdə tarixi və siyasi hüquqi baxımdan acınacaqlı bir mərhələni yaşamış oldu. Prezident İlham Əliyev Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası ilə bağlı tarixə real, obyektiv yanaşmasını ifadə edərək bu hadisələrin düzgün qiymətini vermişdir: "18 oktyabr gününü böyük təmtəraqla qeyd etmək, yaxud da kiməsə buna görə minnətdar olmaq tamamilə yersizdir. Sovet İttifaqı dağılırdı, Rusiya Federasiyası özü dövlət suverenliyi haqqında Konstitusiya Aktını bizdən qabaq qəbul etmişdi".



*Əli HÜSEYNLİ,*
*Milli Məclisin deputatı, Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri*

1991-ci ildə Konstitusiya Aktının Ali Sovetdə müzakirəsi zamanı öz əqidələrini itirmiş "kommunistlər" və qaragüruh "cəbhəçilər" birləşərək Heydər Əliyevə qarşı çıxışlar edirdilər. Çünki onları narahat edən Azərbaycan dövlətinin və xalqının taleyi yox, xalqın yeganə rəğbət bəslədiyi lider Heydər Əliyevin nüfuzu idi. Əslində, o dövrdə müstəqillik uğrunda mübarizə adı altında Heydər Əliyevə qarşı kampaniya aparırdılar. Bu kampaniyanın başında Qorbaçov və erməni lobbisi, icraçıları isə Azərbaycanın o vaxtkı hakimiyyəti və hakimiyyətə gəlmək arzusunda olan "cəbhəçilər" idi.

Konstitusiya Aktı ilə dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan təəssüf ki, bundan sonra daha da faciəvi günlərini yaşamağa başladı. Cəmi bir neçə ay sonra müstəqilliyə səs verməklə guya qürurlanan cəbhəçilər müstəqil Azərbaycanı antikonstitusion dövlət çevrilişi yolu ilə zəbt etdilər. Tarixi paralellər aparsaq görərik ki, əgər 1920-ci ildə Azərbaycan bolşeviklər tərəfindən işğal olunmuşdusa, 1992-ci ilin mayında milli xəyanətkarlar tərəfindən yenidən zəbt edildi.

## 1995-ci il Konstitusiyası – müasir dövlətçiliyin hüquqi təməli

1991-ci ilin oktyabrında formal olaraq müstəqillik aktına imza atmış Azərbaycan bu tarixi nailiyyəti itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Belə ki, o dövrdə ölkə daxilindəki vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurmalar nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə almışdı.

Bu azmış kimi, təcavüzkar Ermənistanın ölkəmizə qarşı torpaq iddiaları ilə müşayiət olunan Dağlıq Qarabağ problemi ağır yük kimi Azərbaycanın başı üzərində dururdu. Azərbaycanın o dövrdəki iqtidarının dişsizliyi, qorxaqlığı, siyasi səbatsızlığı bir tərəfdən, AXC-Müsavat cütlüyündə birləşmiş xəyanətkar ünsürlərin antimilli mövqeyi isə digər tərəfdən ölkəni sonu görünməyən faciələrə sürükləyirdi. Və məhz ona görə yeni Konstitusiyanın hazırlanması müddəası heç kimin yadına da düşmürdü, heç belə bir niyyət mövcud da deyildi. O dövrdə məqsəd ancaq 70-80-ci illərdə Heydər Əliyevin rəhbərliyi ilə Sovet Azərbaycanında əldə olunmuş sosial-iqtisadi mədəni nailiyyətləri dağıtmaqdan ibarət idi və təəssüf ki, buna da nail oldular.

Məhz Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə Azərbaycanın formal bəyan olunmuş müstəqilliyi real müstəqilliyə çevrildi. Heydər Əliyev bütün xarici və daxili təhdidlərə baxmayaraq 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyasının qəbuluna nail oldu. Prezident İlham Əliyevin 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması ilə bağlı Sərəncamında o dövrlə bağlı mühüm məqamlar öz əksini tapmışdır: "…Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır". Bu baxımdan dövlətçilik tariximizin ən böyük nailiyyətlərindən biri olan 1995-ci il Konstitusiyasının qəbulu Azərbaycan xalqının əsrlər boyu müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq arzusunun ifadəsi kimi dəyərləndirilməlidir.

Beləliklə, Heydər Əliyevin ən böyük tarixi xidmətlərindən biri müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsidir. Dövlətimizin bu Ali sənədində təsbit olunmuş Azərbaycan Respublikasının suverenliyi və müstəqilliyi, hakimiyyət bölgüsü prinsipi – qanunverici, icra və məhkəmə hakimiyyətlərinin müstəqilliyi, insan və vətəndaş hüquq və azadlıqları, dövlətin demokratik, hüquqi və dünyəvi xarakteri ilə bağlı müddəalar Azərbaycanın müasir dövlət quruluşunun əsas qanuni dayağıdır.

## Mütərəqqi islahatlar və yeni, güclü Azərbaycan

Heydər Əliyevin qurduğu siyasi sistem, hüquqi baza və iqtisadi inkişaf modeli müstəqilliyin davamlılığını təmin etdi. Onun yaratdığı sabitlik müasir Azərbaycanın inkişafı üçün möhkəm zəmin oldu. 2003-cü ildə ümumxalq seçkilərində İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkə dövlətçilik tarixində yeni mərhələyə qədəm qoydu. O, Heydər Əliyevin siyasi irsini uğurla inkişaf etdirərək, yeni dövrün çağırışlarına uyğun Azərbaycanın tərəqqi strategiyasını müəyyənləşdirdi. İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz həm daxili, həm də xarici siyasətdə güclü və müstəqil dövlətə çevrildi.

Prezident İlham Əliyevin əsas fəaliyyət prinsipi ölkəyə rəhbərlik etdiyi illər boyunca Ulu öndərin müəyyənləşdirdiyi dövlətçilik xəttini müasir şəraitə uyğunlaşdırmaq, iqtisadi müstəqilliyi möhkəmləndirmək, hərbi gücü artırmaq və beynəlxalq aləmdə Azərbaycanın mövqelərini gücləndirmək olmuşdur. Eyni zamanda onun siyasi iradəsi ilə həyata keçirilmiş konstitusiya islahatları ölkənin sabitliyinin etibarlı şəkildə təmin edilməsi, müasir tələblərə cavab verən idarəçilik sisteminin yaradılması və təkmilləşdirilməsi daha mütərəqqi inkişaf mərhələsinə keçid baxımından mühüm addımlar sırasındadır. Belə ki, 2009-cu il referendumunda vətəndaşların bir çox hüquqları genişləndirildi, dövlət idarəçiliyində çeviklik artırıldı, 2016-cı il referendumunda isə idarəetmə mexanizmləri yeniləndi, vitse-prezidentlik institutu təsis edildi, dövlət idarəçiliyində daha çevik və müasir mexanizmlərin tətbiqi təmin olundu.

İlham Əliyev dövründə həyata keçirilmiş tarixi islahatlar nəticəsində iqtisadiyyat sürətlə inkişaf etdi və Azərbaycan beynəlxalq iqtisadi layihələrin əsas iştirakçısına çevrildi. Xüsusilə, Bakı–Tbilisi–Ceyhan (BTC) və Bakı–Tbilisi–Ərzurum kəmərləri istifadəyə verildi, "Cənub Qaz Dəhlizi" kimi strateji layihələr reallaşdırıldı, qeyri-neft sektoru inkişaf etdirildi, iqtisadiyyat şaxələndirildi, regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramları qəbul edildi. Bütün bunlar Azərbaycanın iqtisadi suverenliyini möhkəmləndirdi, bütövlükdə Avrasiya məkanında ölkəni regional iqtisadi liderlərdən birinə çevirdi.

Xarici siyasətdə milli maraqlara əsaslanan çoxşaxəli praqmatik yanaşmalar Azərbaycanın Qoşulmama Hərəkatında fəal mövqeyə sahib olmasını, təşkilata böyük uğurla sədrlik etməsini, beynəlxalq təşkilatlar və digər strateji tərəfdaşlarla əməkdaşlığı gücləndirməsini, enerji təhlükəsizliyi layihələri ilə Avropa və Asiyanın əsas tərəfdaşına çevrilməsini təmin edən əsas meyarlardandır.

İlham Əliyevin rəhbərliyi ilə humanitar sahədə nailiyyətlərin əldə olunması - Bakının nüfuzlu beynəlxalq humanitar forumlara ev sahibliyi etməsi, mədəniyyətlərarası dialoqun təşviq edilməsi, Azərbaycan dünyada tolerantlıq və multikulturalizm nümunəsi kimi təqdim olunması həm də dövlətin konstitusion prinsipləri olan dünyəvilik və insan hüquqlarının qorunmasının beynəlxalq müstəvidə təbliğidir.

## Ərazi bütövlüyünün, konstitusiya quruluşunun və suverenliyin bərpasına qoyulan son nida işarəsi

Xalqın etimadına arxalanan və ordumuzun qüdrətinə güvənən Prezident, Ali Baş Komandan İlham Əliyevin bənzərsiz sərkərdəliyi sayəsində 2020-ci ilin 27 sentyabrında başlanmış və 30 illik erməni işğalına son qoyan 44 günlük Vətən müharibəsindəki tarixi Zəfərlə respublikanın ərazi bütövlüyü bərpa edildi, daha sonra isə 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində bütün ölkə ərazisində konstitusiya quruluşu və dövlət suverenliyi bərqərar oldu. Başqa sözlə, Prezident İlham Əliyev Konstitusiyanın ərazi bütövlüyü və suverenlik müddəalarını Ali Baş Komandan kimi Qarabağ zəfəri ilə təmin etdi.

Bununla da Azərbaycan öz tarixinin ən möhtəşəm təqvimini yazmış oldu. Bu hadisə milli dövlətçilik tariximizin ən qürurlu şərəf səhifəsinə çevrildi. Nəhayət, Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli sərəncamına əsasən 20 sentyabrın Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilməsi bu əlamətdar günü milli dövlətçilik tariximizdə əbədiləşdirən qürur dolu rəmzə çevirdi.

Beləliklə, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması yalnız simvolik deyil, həm də strateji məna daşıyır – bu, gələcək nəsillərə müstəqilliyi qorumaq, hüquqi dövlətə sadiq qalmaq çağırışıdır. Sərəncamın tarixi Qələbənin 5-ci ildönümünə təsadüf etməsi bu addımın əhəmiyyətini daha da artırır. Belə ki, ərazi bütövlüyünün, suverenliyinin bərpasından sonra bölgədə yeni reallıqlar yaratmağa nail olan Azərbaycan sülh gündəliyi ilə yeni strateji dövrə qədəm qoyub. Bu baxımdan Prezident sərəncamını gələcəyə baxış kimi də qiymətləndirmək olar. Hazırda Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, bu reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə, tarixi zəfərdən uğurlu gələcəyə aparan yolda inamla irəliləyir. "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar Milli Məclisin 2025-ci il mayın 8-də keçirilən xüsusi iclasında qəbul edilmiş bəyanatda deyildiyi kimi: "İnamla söyləmək olar ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkənin dinamik iqtisadi inkişafının təmin edilməsinə, dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə, milli maraqların qorunmasına, milli təhlükəsizliyin, müdafiə qabiliyyətinin artırılmasına yönələn strategiyası sayəsində Azərbaycan dövləti qarşıdakı illərdə yeni böyük uğurlara imza atacaqdır".

# Naxçıvandan başlanan suverenlik marafonu

(əvvəli 1-ci səhifədə)



Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Əl-Ərəbiyyə" telekanalına verdiyi müsahibədə demişdir: "1917-ci ildə Rusiya imperiyası süqut etdikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Bu, 1918-ci ilin mayında qurulan, müsəlman dünyasında ilk demokratik respublika idi. Lakin o, yalnız 1920-ci ilin aprel ayınadək mövcud oldu - həmin vaxt Rusiyanın ordusu Azərbaycana daxil olaraq onu işğal etdi".

Nəticədə, Xalq Cümhuriyyəti hökuməti nə Konstitusiyanın qəbuluna, nə də tam suverenliyin təmin edilməsinə nail ola bilmədi. Azərbaycan xalqı sonrakı dövrlərdə də müstəqil və suverenlik arzusu ilə yaşamış, öz azadlığı uğrunda əsasən gizli olaraq, bir çox hallarda açıq formada mübarizə aparmışdır. Məhz bu mübarizə əzmi XX əsrin 80-90-cı illərində özünü açıq formada göstərmişdir. 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Ali Sovetin növbədənkənar sessiyasında qəbul etdiyi məlum sənədin ərsəyə gəlməsi o qədər də asan olmamışdı. "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə" adlı tarixi sənəddə Azərbaycan Respublikasının 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu vurğulanırdı.

Bununla yanaşı, parlament Azərbaycanın dövlət müstəqilliyinin konstitusion əsaslarını yaratmaq üçün ayrıca qanunun – Konstitusiya Aktının hazırlanması barədə qərar qəbul etdi. Həmin il oktyabrın 18-də isə Ali Sovet "Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etdi. 1991-ci il dekabrın 25-də 70 ilə yaxın mövcud olmuş SSRİ tarix səhnəsindən silindi.

Ötən əsrin 90-cı illərinin əvvəllərində hərbi təcavüz ilə üzləşən ölkəmiz beynəlxalq ictimaiyyət tərəfindən tanınan ərazilərinin 20 faizinin işğal edilməsi ilə qarşı-qarşıya qaldı. Ərazilərimiz 30 ilə yaxın işğal altında qalsa da, hər zaman suveren Azərbaycan əraziləri olaraq tanınırdı.

1990-cı il iyulun 22-də xalqımızın dahi oğlu, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana qayıdışı və buradan başlanan milli dirçəliş prosesinin bütün Azərbaycan siyasi mühitində aparıcı hadisəyə çevrilməsi, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılması ilə müşayiət olunmağa başlamışdı. Çünki Heydər Əliyevi milli dövlətçiliyimizin taleyi çox ciddi narahat edirdi. O, artıq öz siyasi seçimini etmiş və Azərbaycanın müstəqilliyi uğrunda qətiyyətli mübarizəyə başlamışdı. Heydər Əliyev SSRİ-nin ən güclü vaxtında ittifaqdan çıxmaq hüququmuzu təsbit etmişdi.

Bakıda qaldırılmalı olan üçrəngli bayrağı, Ulu öndər cəsarət edib Naxçıvanda qaldırdı, muxtar respublikanın adından "sovet" və "sosialist" sözləri çıxarıldı,




20 Yanvar hadisələrinə siyasi qiymət verildi. Dövlət müstəqilliyinin bərpasının təməllərini Ümummilli lider Heydər Əliyev Naxçıvanda yaratdı. Müstəqilliyin qorunması istiqamətində ən mühüm işlər məhz Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə başlandı. Milli inkişaf strategiyasının təməli bu diyarda qoyulmuşdur. Müstəqil Azərbaycanın xarici siyasət konsepsiyasının başlıca prinsipi və istiqamətləri Naxçıvanda Heydər Əliyev tərəfindən işlənib hazırlanmışdır.

Keçmiş iqtidarın Naxçıvanda gedən demokratik proseslərə göstərdiyi siyasi biganəliyə baxmayaraq, muxtar respublikada xilaskarlıq missiyasını üzərinə götürmüş Heydər Əliyev ətrafında sıx birləşən əhalinin iradəsinə söykənən Ali Məclis respublikanın müstəqilliyini möhkəmləndirmək yolunda məqsədyönlü fəaliyyətini davam etdirirdi. Bunlar isə o dövr hakimiyyətinin istəyinin əksinə olaraq Heydər Əliyevin bir lider kimi nüfuzunu daha da artırdı.

Ulu öndər o vaxt haqlı olaraq deyirdi: "Mən bir azərbaycanlı kimi, xalqımızın azadlığını istəyən vətəndaş kimi hesab edirəm ki, əgər Azərbaycanın rəhbərliyi respublikada demokratik qüvvələrin müstəqillik uğrunda mübarizəyə başladığı bir vaxtda xalqın rəyinə hörmətlə yanaşsaydı və xalqla bir olsaydı, Azərbaycan öz müstəqilliyinə çoxdan nail olmuşdu". Heydər Əliyevin təşəbbüsü ilə başlanan müstəqillik uğrunda mübarizənin tərəfdarları sürətlə artırdı. Nəticədə, 1991-ci il dekabrın 29-da keçirilən ümumxalq referendumunda xalqımız müstəqillik haqqında Konstitusiya Aktını yekdilliklə dəstəklədi.

Ulu öndər Heydər Əliyevin Naxçıvanda yaşayıb siyasi fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə sədrlik etdiyi dövrdə (1991-1993) həyata keçirdi tədbirlər, qəbul edilən qərarlar dövlət müstəqilliyi üçün çox mühüm əhəmiyyətə malik olmuşdur. Bu missiyanı yüksək qiymətləndirən Prezident İlham Əliyev demişdir: "1990-cı illərdə Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında qəbul edilmiş tarixi qərarlar Azərbaycanın dövlət müstəqilliyini şərtləndirirdi.

Məhz həmin sessiyada Azərbaycanın üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edildi. O vaxt Azərbaycanda hələ Sovet Azərbaycanının bayrağı dalğalanırdı. O vaxt Sovet İttifaqının dağılması haqqında heç kim düşünmürdü. O ağır, o çətin anlarda bu qətiyyətli qərarlar həm Naxçıvanı qorudu, həm də Azərbaycanın gələcək müstəqilliyini şərtləndirdi".

Heydər Əliyev 1993-cü il iyunun 9-da xalqın təkidli tələbi ilə Bakıya döndü. Bu dönüş tarixin sosial sifarişi idi. Bu dönüş xalqın istəyi ilə baş tutdu. O böyük şəxsiyyət gəlişi ilə Azərbaycanın qarşılaşdığı bir çox təhlükələri dəf etdi, insanların nigarançılığına son qoydu. Ölkənin həqiqi müstəqilliyinin tarixi bu dövrdən başlayır.

Həmin illərdə üzünü Azərbaycan dövlətçiliyini dağıtmaq istəyənlərə tutan Ulu öndər Heydər Əliyev deyirdi: "Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etməsinə sərf edəcəyəm".

Qüdrətli dövlət xadimi və təcrübəli, uzaqgörən lider olan Heydər Əliyev ölkədə yaranmış vəziyyəti dəqiq qiymətləndirərək, bütün Azərbaycan cəmiyyətini dövlətin mövcudluğu baxımından həyati əhəmiyyət daşıyan məsələlərin həll edilməsinə səfərbər etdi. Onun prezidentliyi dövründə ölkə həyatı kökündən dəyişildi, daxili və xarici siyasətin bir çox istiqamətlərində əhəmiyyətli uğurlar qazanıldı. 1993-cü ilin ortalarından başlayaraq, Azərbaycan strateji seçimini müəyyənləşdirdi – müasir, dünyəvi, beynəlxalq birliyə inteqrasiya edən, demokratik əsaslara sadiq olan ölkə kimi inkişaf etməyə başladı. Milli və dövlət müstəqilliyinin qorunması istiqamətində uğurlu tədbirlər həyata keçirildi.

Hər bir dövlətin mövcudluğu konstitusiya prinsiplərinin varlığı ilə şərtləndirilir. Əsas qanun hər bir dövlətin normal, funksional fəaliyyət göstərməsi üçün vacib olan sənəddir. Çünki burada dövlətin quruluşu, idarəçilik sistemi, vətəndaş-dövlət münasibətləri, vətəndaşların hüquqları, azadlıqları, cəmiyyətin siyasi sisteminin quruluşu, idarə olunması, daxili və xarici siyasətinin əsas prinsipləri və s. əks olunur.

Azərbaycan Respublikasında dövlətin hüquqi əsaslarını, idarəetmə formasını və vətəndaşların hüquq və azadlıqlarını müəyyən edən əsas sənəd konstitusiyadır. Konstitusiya qanunvericilik sisteminin əsası olub ən yüksək hüquqi qüvvəyə malikdir. Azərbaycan Respublikasının Konstitusiya quruluşunun tarixi SSRİ dövrünə təsadüf edir. Azərbaycanın ilk Konstitusiyası 1921-ci il mayın 19-da, SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası isə 1925-ci il martın 14-də qəbul olunub. İttifaq dövründə, 1937-ci il martın 14-də qəbul olunmuş üçüncü, 1978-ci il aprelin 21-də qəbul edilmiş Əsas Qanun da əvvəlkilər kimi SSRİ Konstitusiyasına uyğunlaşdırılmışdı.

1921-ci, 1925-ci və 1937-ci illər konstitusiyalarında hakimiyyətin prinsipləri dəyişməz qalırdı. Keçid dövründə hakimiyyətin proletariata məxsusluğu təsbit edilir və bu, proletariat diktaturası kimi icra olunurdu. 1978-ci il Konstitusiyasında isə dövlətin ümumxalq dövlətinə çevrilməsi göstərilsə də, bu da gözdən pərdə asmaq idi. Bununla belə, uzaqgörən siyasətçi Heydər Əliyevin təşəbbüsü və təkidi ilə Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili olması Konstitusiyaya salındı. Bu böyük qələbə, xalqın mənəvi sərvəti olan ana dilinin qorunması tarixində xüsusi əhəmiyyətə malik idi.

Azərbaycan ərazi bütövlüyünü, suverenliyini qorumaq üçün həmişə ciddi sınaqlardan keçib. 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi. Konstitusiya Aktı ilə ölkəmiz rəsmən müstəqil dövlət statusunu bərpa etsə də, suverenliyin əsas elementlərindən olan yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, həmin dövrdə hakimiyyətin suveren məfkurəyə sahib olmaması, müstəqilliyin ilk illərində ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər, siyasi qeyri-sabitlik, eyni zamanda, təhdidlərin mövcud olması suverenliyin təmin edilməsini çətinləşdirdi.

Yalnız 1993-cü ildə yenidən hakimiyyətə qayıtmış qüdrətli və qətiyyətli dövlət xadimi Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı. Cəmiyyətdə sabitlik bərpa olundu, dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Hüquqi dövlət quruculuğuna başlayan Prezident Heydər Əliyevin bu istiqamətdə həyata keçirdiyi ilk tədbirlərdən biri yeni Konstitusiyanın hazırlanması oldu.

Bunun üçün Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 2 iyun tarixli qərarına əsasən, yeni Konstitusiya layihəsini hazırlanmaq üçün Prezident Heydər Əliyevin sədrliyi ilə 33 nəfərdən ibarət Konstitusiya Komissiyası təşkil edildi. Komissiya Azərbaycan xalqının milli xüsusiyyətlərini nəzərə almaqla, qabaqcıl demokratik ölkələrin təcrübəsi əsasında "Azərbaycan Respublikasının Konstitusiyası" layihəsini hazırladı və 1995-ci il oktyabrın 15-də ümumxalq müzakirəsinə çıxardı. Azərbaycan Respublikasının Konstitusiyası – müstəqil Azərbaycan dövlətinin ilk Əsas Qanunu 1995-ci il noyabr ayının 12-də referendumla qəbul olundu. Referendumda 4 milyona yaxın seçici korpusunun 86 faizi iştirak etdi. Onların 94,8 faizi Konstitusiya layihəsini bəyəndiyini bildirdi.

Azərbaycan Respublikasının yeni Konstitusiyası preambula, 5 bölmə, 12 fəsil və 158 maddə və keçid müddəalarından ibarət idi.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsi müasir tariximizin ən mühüm hadisələrindən biridir və bu, Ulu öndərin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən sayılır. Müstəqil dövlətin Əsas Qanunu ən yeni tariximizə Heydər Əliyev Konstitusiyası kimi daxil oldu.

Bu Konstitusiya, ümumilikdə, ölkəmizin tarixində dördüncü Əsas Qanundur. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, siyasi, sosial, mədəni, iqtisadi sahələrdə əsaslı dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi sənəddir. Keçmiş sovet konstitusiyalarından fərqli olaraq, müstəqil Azərbaycanın Əsas Qanunu insan və vətəndaş hüquqlarının, azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan etdi.

Müstəqil Azərbaycan dövlətinin əsasları tarixdə ilk dəfə olaraq öz Konstitusiyası vasitəsilə müəyyənləşdirilmişdir. Yeni Konstitusiyaya əsasən, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Dövlət hakimiyyəti demokratik əsaslarla təşkil edilir. O, üç sütun üzərində qurulub. Yeddinci maddədə deyilir ki, dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir. Bu üçlük: Qanunverici hakimiyyətdən – Milli Məclisdən; İcra hakimiyyətindən – Prezident hakimiyyətindən; Məhkəmə hakimiyyətindən – Azərbaycan məhkəmələrindən ibarətdir.

Prezident Heydər Əliyev Konstitusiyanın qəbul edilməsi münasibətilə 24 noyabr 1995-ci ildə keçirilən tədbirdə demişdir: "Yeni qəbul olunmuş Konstitusiya Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü təmin edən Konstitusiyadır və əminəm ki, bu, daimi olacaqdır. Xalqımız bu Konstitusiyanın müddəalarından istifadə edərək, Azərbaycanın dövlət müstəqilliyini əbədi edəcəkdir.

Yeni Konstitusiya Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün əsaslar yaratmış, bütün təminatları vermişdir. Bizim borcumuz bu təminatlardan, Konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir".

(ardı 7-ci səhifədə)



# Əsas Qanunumuz 30 yaşın astanasında

## *Suverenliyimizin tam bərpası Konstitusiyamıza mötəbərlik gətirdi*

**Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.**

***Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Prezident sərəncamından***
**Bakı, 28 dekabr 2024-cü il**

İndi xatırladacağım fakt sübut edir ki, biz – bugünkü Azərbaycan sakinləri Tanrının böyük şans verdiyi insanlardanıq. Nə üçün? Çünki ötən il noyabrın 12-də "Xalq qəzeti"ndə getmiş bir yazıya belə sərlövhə vermişdim: "Azərbaycanın Əsas Qanunu bu gün 30 yaşına qədəm qoyur". Orada fəxrlə qeyd etdiyim tarixi faktlar belə idi : Biz Əsas Qanunumuzun keçənilki ad gününü də müstəqil Azərbaycanın bütün ərazilərində qeyd etmişdik. Yəni sentyabrın 20-dəki 23 saatlıq antiterror əməliyyatları ölkəmizin hər yerində suverenliyimizi bərpa etmişdi. Ancaq həmin tarixi gündən cəmi ay yarımdan bir az çox vaxt keçdiyinə görə, Konstitusiya Gününü ölkənin hər yerində istədiyimiz kimi qeyd edə bilməmişdik. Bu gün isə noyabrın 12-ni ən yüksək səviyyədə qeyd etməyə həm imkanımız var, həm də bayramların bir-birinə qarışdığına görə yüksək əhval-ruhiyyəmiz".

İndi isə Allahın bizə, bu məqamda şəxsən mənə verdiyi şansın nədən ibarət olduğunu xatırladım.

**Birinci:** Ötənilki Konstitusiya Günündən sonra Azərbaycan dövləti sayı əlli milyondan çox olan soydaşlarımızın hamısının ən ümdə arzularından olan Naxçıvanla Bakı arasındakı nəqliyyat əlaqəmizin bərpasını təmin edəcək sənədlərin imzalanmasına nail oldu. "Bu il avqustun 8-də Vaşinqtonda imzalanan üçtərəfli sənədlər bizim xarici siyasətdəki ən böyük siyasi uğurumuzdur" – desək, qətiyyən yanılmarıq.

**İkinci:** İki əsrdən də çox müddətdə ölkəmizə, dövlətimizə və xalqımıza qarşı təxribatlar, soyqırımları törədən Ermənistan dövləti ən ali səviyyədə bəyan etdi və sənəd imzaladı ki, biz Azərbaycana qarşı ərazi iddialarından əl çəkirik və münaqişənin tam başa çatması üçün sülh sazişinin imzalanmasına hazırıq.

**Üçüncü:** Biz son bir ildə gənc müstəqil Azərbaycan dövlətinin ayaq üstdə durmasını istəməyən siyasi qüvvələrin 1988-1993-cü illərdə yaranmış status-kvonun (yəni Azərbaycan ərazilərinin 20 faizinin düşmən əsarətində qalmasının) əbədiləşdirilməsi məqsədiylə yaratdıqları "ATƏT-in Minsk Qrupu" adlı saxta bir siyasi alətin ləğv olunmasına nail olduq.

**Dördüncü:** Biz son bir ildə Amerika Birləşmiş Ştatlarında əsrlər boyu fəaliyyət göstərən erməni diasporunun və Ermənistana lobbiçilik edən ABŞ siyasətçilərinin fitnə-fəsadı ilə ərsəyə gətirillmiş "Azadlıq aktına 907-ci düzəliş" adlı absurd və ədalətsiz qətnamənin ləğv edilməsinə nail olduq.

**Beşinci:** Azərbaycan Prezidentinin son bir ildə Amerika Birləşmiş Ştatları, Çin Xalq Respublikası, Pakistan İslam Respublikası və Türkdilli dövlətlərə səfərləri, eləcə də, İran İslam Respublikasının Prezidenti başda olmaqla, bir sıra dövlət başçılarının ölkəmizə gəlməsi sübut etdi ki, rəsmi Bakının beynəlxalq aləmdəki nüfuzu aydan-aya deyil, gündən-günə artır və dostlarımızın sayı çoxalır.

**Altıncı:** Rusiya mətbuatı son bir ayda dəfələrlə yazdı ki, İlham Əliyevin Vaşinqton səfəri Rəcəb Tayyib Ərdoğanın TURAN ideyasının lokomotivinə çevrildi.

Bu qəbildən olan faktların sayı onlarcadır. Məhz elə ona görə xatırladıram ki, mən də yaşın bu çağında cənab Prezidentin həmin uğurlarına, Heydər Əliyev siyasi kursunun təntənəsinə şahidlik edə bildiyimə görə xoşbəxtəm.

Dövlət başçımız tarixi çıxışlarından birində qeyd etmişdi ki, 1995-ci ildə referendum yolu ilə qəbul edilmiş Konstitusiya Azərbaycan xalqının inkişafı naminə müasir, demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu mərhələsinə keçidi təsbit etmişdir. Bu tarixi sənədin müəllifi xalqımızın ümummilli lideri Heydər Əliyev olmuşdur. Konstitusiyanın qüvvədə olduğu... dövr ərzində onun müddəalarının həyata keçirilməsində böyük təcrübə toplanmış, bu sənəddə əks olunmuş konsepsiyalar inkişaf etdirilərək güclü sosial dövlətin, yüksəkrəqabətli iqtisadiyyatın qurulmasına, insan hüquqlarının effektiv müdafiəsi mexanizmlərinin tətbiqinə təkan verən çoxsaylı normativ hüquqi aktlar qəbul edilmişdir.

Geridə qalan otuz ilin ən əlamətdar faktlarına gəlincə isə xatırladaq ki, biz 2023-cü ildə Əsas Qanunumuzun Şanlı Zəfərdən sonrakı ad günlərindən heç olmazsa, birini Azərbaycanın bütün ərazilərində qeyd etmək istəyirdik. Builki Konstitusiya Günümüzdə isə müstəqillik dövrümüzdə ilk dəfə Əsas Qanununun üz ağlığına şahidlik edirik.

Məlum olduğu kimi bugünkü Azərbaycan Konstitusiyasının müəllifi ulu öndər Heydər Əliyevdir. Ona görə də bir çox siyasətçi və hüquqşünaslar bizim Əsas Qanunumuzu "Heydər Əliyev Konstitusiyası" adlandırırlar. Xatırladaq ki, ötən əsrin 70-ci illərində qəbul edilmiş anoloji sənədimizə də "Heydər Əliyev Konstitusiyası" deyirdilər.

... İlk bəndi "Dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır" müddəası ilə başlanan 1995-ci il Konstitusiyamız barədə danışarkən isə xüsusilə qeyd edilməli məqamlar ondan ibarətdir ki, bu Əsas Qanunumuz parlamentin qərarı ilə deyil, xalqın referendumda verdiyi səslə qəbul edilmişdi. Daha bir önəmli məqam isə odur ki, Əsas Qanunda Azərbaycanın dövlət quruculuğunun əsasları müəyyən edilmiş, respublikamız demokratik, hüquqi, dünyəvi bir dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritet olduğu və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir.

Bu sətirləri Prezident İlham Əliyevin "İkinci Dünya müharibəsindən sonra Azərbaycan qədər birmənalı və tam qələbə heç kim tərəfindən qazanılmayıb" arqumenti ilə yekunlaşdırmaq istəyirik. Cənab Prezident bu il martın 15-də Ağdərənin Suqovuşan kəndində inşa olunan yaşayış kompleksinin istifadəyə verilməsi mərasimində çıxışı zamanı demişdir:

"Görürük ki, heç də hər bir ölkə öz maraqlarını, ədalətli maraqlarını özü təmin edə bilmir, ya da öz ərazi bütövlüyü uğrunda mübarizə aparır, amma nəticəyə çata bilmir, ya da ki, hər hansı bir kiçikhəcmli hərbi uğura nail olur, amma tam qələbə əldə edə bilmir. Yəni, sadəcə olaraq, bu gün dünyada gedən toqquşmalara, münaqişələrə, müharibələrə nəzər salsaq, son tarixin müharibələrinə nəzər salsaq, hətta deyə bilərəm ki, İkinci Dünya müharibəsindən sonra Azərbaycan qədər birmənalı və tam qələbə heç kim tərəfindən qazanılmayıb".

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# Naxçıvandan başlanan suverenlik marafonu

*(əvvəli 6-cı səhifədə)*



***İsmayıl HACIYEV,***
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

Konstitusiyanın qəbul edilməsinin milli dövlətçilik tarixində müstəsna əhəmiyyətini nəzərə alaraq, Prezident Heydər Əliyevin 1996-cı il noyabrın 1-də imzaladığı fərmana əsasən, hər il noyabrın 12-si ölkəmizdə Konstitusiya Günü kimi qeyd edilir.

Təcrübəli dövlət xadimi Heydər Əliyevin siyasi hakimiyyətinin ikinci dövründən bəhs edən Prezident İlham Əliyev demişdir ki, 1993-2003-cü illər ölkəmizdə sabitlik və inkişaf illəri kimi tarixdə qalacaqdır. Çünki məhz o illərdə həm dövlətçiliyin əsasları qoyuldu, Azərbaycan dövləti quruldu, 1995-ci ildə müstəqil dövlətin Konstitusiyası qəbul edildi, dövlətçiliyin ideoloji əsasları qoyuldu və bu gün də ölkəmizin əsas ideoloji şüarı Azərbaycançılıq məfkurəsidir.

Azərbaycan Respublikasının Konstitusiyasının preambulasında bəyan edilən niyyətlərdən biri dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasıdır. Konstitusiyaya görə, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Ermənistan dövləti yarandığı 1918-ci ildən Azərbaycan ərazilərinə qarşı torpaq iddiaları ilə çıxış etmiş və ərazisini 10 min kvadrat kilometrdən 29,8 min kvadrat kilometrə qədər artırmışdır. Bu ölkənin millətçi rəhbərliyi özlərinə dövlət qurduqları Qərbi Azərbaycan ərazisindən soydaşlarımızı deportasiya etmiş, qaçqın-köçkün vəziyyətinə salmış və soyqırıma məruz qoymuşdur.

Xəyanətkar mövqeyi və torpaq-ərazi iddiaları ilə çıxış edən məkrli qonşu 1988-1992-ci illərdə isə Azərbaycana qarşı hərbi təcavüz etmiş, torpaqlarımızın 20 faizini işğal etmişdir. Yaşayış məskənləri viran edilmiş, xalqımızın suveren və konstitusion hüquqları kobud şəkildə pozulmuşdur. Dünya ictimaiyyəti və beynəlxalq aləm Qarabağı Azərbaycan ərazisi kimi qəbul etsə də, ATƏT-in Minsk qrupu vasitəçilik missiyasını yerinə yetirməmiş, BMT qətnamələrinin yerinə yetirilməsinə cəhd göstərməmiş, ikili siyasət aparmışdır. Həmsədr dövlətlər erməni mövqeyini bir çox hallarda açıq-aşkar müdafiə etmiş, problemi uzatmaqla güman etmişlər ki, Azərbaycan xalqı, nəhayət, yorulub torpaqlarının geri qaytarılmasından əl çəkəcəkdir. Lakin xalqımızın və dövlətimizin yekdil fikri ondan ibarət idi ki, işğala son qoyulmalı, torpaqlarımız azad olunmalıdır.

Prezident İlham Əliyev ilk çıxışlarının birində bəyan etmişdi ki, "Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Ümummilli lider Heydər Əliyev və onun siyasi davamçısı, dünya liderləri arasında yüksək nüfuzu ilə seçilən İlham Əliyevin qəti mövqeləri və apardıqları danışıqlar Ermənistanın işğalçılıq siyasətinə son qoymağa yönəlmiş, ölkəmizin iqtisadi potensialını artırmış, hərbi gücümüzü qüvvətləndirmişdir.

Prezident seçilmiş İlham Əliyevin çoxşaxəli və uğurlu fəaliyyətinin əsasında duran əsas məqsəd işğalda olan torpaqlarımızın geri qaytarılması idi. Bunun üçün Azərbaycan Prezidenti tərəfindən dövlətin fəaliyyətinin bütün sahələri qələbə naminə səfərbər edilmişdir. Güclü iqtisadiyyatın yaradılması, qüdrətli ordunun qurulması, milli maraqlar əsasında aparılan xarici siyasət, dövlətin və cəmiyyətin müxtəlif sahələrində həyata keçirilən islahatların başlıca hədəfi məhz düşmən üzərində zəfərə, tarixi ədalətin və suverenliyin bərpası amallarına xidmət edirdi.

Ermənistanın təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinin böyük Zəfərlə başa çatması nəticəsində Azərbaycan ərazilərinin otuz ilə yaxın davam edən işğalına son qoyuldu. Ali Baş Komandanın rəhbərliyi, Azərbaycan xalqının, dövlətinin və ordusunun dəmir yumruğa çevrilmiş birliyi nəticəsində Ermənistanın işğalçı ordusu məhv edildi. Düşmənin canlı qüvvəsinə və texniki təchizatına ağır zərbə vuruldu, işğalçıya və onun himayədarlarına layiq olduqları yer göstərildi. Üçtərəfli Bəyanat imzalandı, həmin bəyanatla Ermənistan öz üzərinə bir sıra öhdəliklər götürmüş oldu.

Lakin Ermənistanın hərbi-siyasi rəhbərliyi üzərinə götürdüyü öhdəliklərdən bir qismini yerinə yetirmədi. Keçmiş Dağlıq Qarabağ ərazisində qalmış erməni hərbi qüvvələrinin tərksilah və ləğv edilməsini həyata keçirmədi. Bununla bərabər onlar həm də Qarabağın dağlıq hissəsində mövcud olan təbii sərvətləri talan edib Ermənistana daşıyır, ərazilərə silah-sursat göndərirdi. Bu işlərdə onlara Rusiyanın burada olan sülhməramlı qüvvələri və Qırmızı Xaçın Ermənistandakı nümayəndəliyi kömək göstərirdi.

Bu cinayətin qarşısını almaq üçün 2023-cü il aprel ayının 23-də Azərbaycanla Ermənistanı quru yolla birləşdirən Laçın yolu üzərində dövlət sərhəd-nəzarət postu qoyuldu. Bununla Azərbaycanın bütün sərhəd xətti nəzarətə alındı və Azərbaycan öz ərazi bütövlüyünü təmin etdi. Qarabağ Zəfərinin davamı olaraq 2023-cü il sentyabrın 19-20-də cəmi bir gün ərzində ordumuzun apardığı lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmiz həm ərazi bütövlüyünü, həm də suverenliyini tam bərpa etdi.

Dövlətin suverenliyi və ərazi bütövlüyü hər bir dövlətin ayrılmaz atributları hesab edilir. Suverenlik hər şeydən əvvəl, dövlətin müstəqilliyini səciyyələndirən, hüquqi sistemliliyini və normativliyini vurğulayan bir anlayışdır. Suverenlik dövlətin "daxili işlərində və xarici münasibətlərində, xarici müdaxiləyə yol verməyən tam siyasi istiqlaliyyəti və müstəqilliyini" həyata keçirmək hüququnu nəzərdə tutur. Başqa sözlə, suverenlik ölkənin daxili həyatının bütün məsələlərinin həllində və digər dövlətlər ilə münasibətlərdə hakimiyyətin sərbəstliyi, dövlətin istiqlaliyyəti və müstəqil qərarlar qəbul etməsidir. Suverenliyə xalqın suverenliyi və dövlətin suverenliyi daxildir.

Müstəqil dövlətimizin Konstitusiyasının "Xalqın suverenliyi" adlanan 2-ci maddəsində deyilir: "Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi – referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir".

Dövlət suverenliyi isə dövlət hakimiyyətinin vahidliyində və aliliyində, habelə onun orqanlarının hüquqi aktlarının bütün hüquqi və fiziki şəxslər üçün məcburi xarakter daşımasında ifadə olunur. Dövlət suverenliyi dövlət hakimiyyətinin ölkə daxilində aliliyi və dövlətlərarası münasibətdə müstəqil olması deməkdir. Dövlət müstəqilliyində onun iqtisadi müstəqilliyi mühüm rol oynayır.

Konstitusiya məhz dövlətin suverenliyini qorumaq, onu inkişaf etdirmək üçün zəruri hüquqi çərçivəni təmin edir. Konstitusiyada göstərilən prinsiplər dövlət hakimiyyətinin hər üç qolunun – qanunverici, icra və məhkəmə orqanlarının fəaliyyətini tənzimləyir və onların müstəqilliyini təmin edir.

Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra işğaldan azad edilmiş ərazilərdə suveren hüquqlardan istifadə aktuallaşıb. Bunun üçün hüquqi baza məhz Konstitusiyadır. Konstitusiya həmin ərazilərdə qanunların tətbiqində, hüquqi sistemin yaradılmasında, dövlət qurumlarının fəaliyyətinin bərpa olunmasında əsas rol oynayır. Suveren hüquqların təmin olunması ilə bağlı proseslər məhz Konstitusiyanın aliliyinə əsaslanır və işğaldan azad edilmiş ərazilərdə hüquqa əsaslanan inkişafı təmin edir

8 Noyabr 2020-ci ildə Azərbaycan ikinci Qarabağ müharibəsində hərbi Zəfər qazandı. 8 Avqust 2025-ci ildə isə Azərbaycan diplomatik qələbəni təmin etdi. Prezident Donald Trampın şahidliyi ilə ABŞ-da Azərbaycanın mühüm rolu olan sülh sazişi ilə bağlı Birgə Bəyannamənin imzalanması təkcə diplomatiyanın və dövlətçiliyin təntənəsi deyil, həm də təfəkkürün bölücülük üzərində qələbə çalmasının sübutudur. Bu, Cənubi Qafqaz regionunda davamlı sülhün təmin edilməsi istiqamətində həlledici addımdır və bölgənin bütün xalqları üçün sabitliyin, firavanlığın təmin olunmasında, əməkdaşlığın inkişafında tarixi hadisə kimi yadda qalacaqdır. 44 günlük Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl sülh siyasəti öz bəhrəsini verməkdədir.

Azərbaycan Ermənistan arasındakı Dağlıq Qarabağ probleminin həlli üçün 1992-ci ildə ATƏT-in Minsk qrupu yaradıldı, həmsədrlik təsis edildi. 30 ilə yaxın fəaliyyət göstərən Minsk qrupu problemi həll etmək iqtidarında deyildi, daha doğrusu həll etmək istəmirdi. Azərbaycana aşılamaq istəyirdilər ki, problemin həllinin hərbi variantı yoxdur. Azərbaycan Respublikası danışıqlarda iştirak etməklə yanaşı, hərbi potensialını da artırırdı. Vətən müharibəsində Azərbaycan problemi hərbi yolla həll etdi və bundan sonra Minsk qrupunun fəaliyyətinə ehtiyac qalmadı.

Nəhayət, ATƏT-in Minsk qrupunun ləğv olunması Azərbaycan dövlətinin çox mühüm diplomatik qələbəsi oldu. Ermənistan-Azərbaycan münaqişəsinin davam etdiyi müddətdə heç bir səmərəli fəaliyyəti olmayan bu təşkilatın ləğvi tamamilə məntiqli və qanunauyğun addımdır. Sentyabrın 1-də ATƏT Nazirlər Şurası tərəfindən ATƏT-in Minsk Prosesi və əlaqəli strukturlarının bağlanmasına dair qərar qəbul olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü il 19 sentyabr tarixli sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir. Ölkə Prezidentinin 2024-cü il 28 dekabr sərəncamı ilə 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq Azərbaycan Respublikasında 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edilmişdir.

Zəfərdən az müddət sonra Böyük Qayıdış başlanmış, şəhər və kəndlər yenidən tikilməyə, infrastruktur layihələr reallaşmağa, istehsal müəssisələri yaradılmağa, məcburi köçkünlər mərhələli şəkildə doğma yurdlarında məskunlaşmağa başladı. 50 minə yaxın insan artıq azad Qarabağ və Şərqi Zəngəzurun sakininə çevrilib. 2026-cı ilin sonuna kimi 140 mindən çox insanın Qarabağa və Şərqi Zəngəzura qaytarılması nəzərdə tutulub.

"Konstitusiya və Suverenlik İli"ndə Böyük Qayıdışla yanaşı, ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında böyük uğurların davam etdirilməsi bir daha göstərir ki, Prezident İlham Əliyevin apardığı uğurlu siyasət Azərbaycanı yeni zirvələrə çatdıracaq.

"Konstitusiya və Suverenlik İli"nin elan edilməsi barədə Prezident sərəncamında qeyd olunduğu kimi, "Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir".

# Konstitusiya və suverenlik

## Müasir müstəqil Azərbaycan dövlətçiliyi kontekstində

**Konstitusiya dövlətin əsas qanunudur. Bu sənəd dövlətin əsaslarını müəyyən edir. Həmin əsaslar siyasi, iqtisadi və hüquqi sistemlərdən ibarətdir. Eyni zamanda, Konstitusiya dövlətin və insanın hüquq və öhdəliklərini müəyyənləşdirir. Konstitusiya ali hüquqi gücə malikdir. Adətən Konstitusiya ümumxalq referendumu vasitəsi ilə qəbul edilir. Hakimiyyətin ali orqanlarının formalaşması və funksionallığı qaydasını, kompetensiyalarını və qarşılıqlı münasibətlərini müəyyən edir.**

Nəzəri baxımdan belə aydın olur ki, Konstitusiya hər bir müasir dövlətin fəaliyyətinin anatomiyasıdır. O həm də fərdi və kollektiv miqyaslarda dövlət üçün vacib olan qayda-qanunları, fəaliyyət düzənini müəyyən edir. Məsələn, şəxsiyyətin statusunu müəyyənləşdirir. Bunu iki aspektdə edir. Birinci aspekt insan haqları və azadlığıdır. İkinci aspekt vətəndaşın dövlət qarşısında öhdəlikləridir.

Konstitusiya həm də kollektiv birgəyaşam səviyyəsində ictimai münasibətləri tənzimləyir. Yəni vətəndaşla dövlət arasında qarşılıqlı münasibətləri tənzimləməklə ictimai həyatı nizamlayır. Bundan başqa, Konstitusiya insanın cəmiyyətdə yerini müəyyən edir.

Konstitusiyanın bizim baxdığımız prizmada mühüm özəlliklərindən biri təsisedici xarakterli olmasıdır. Konkret ifadə etsək, Konstitusiya dövlət yaradılanda və ya yeni formaya keçəndə dövlətçiliyin əsasını möhkəmlədən təsisedici sənəddir. Məhz bu aspektdə Konstitusiya ali hüquqi faktor kimi ölkənin bütün digər normativ-hüquqi aktlarından yüksəkdədir.

Əgər vurğulanan əsas əlamətləri ümumiləşdirsək, Konstitusiyanın fəlsəfi baxımdan bir sıra əhəmiyyətli substantiv (yəni predmetə aid konkret məzmunu) və funksional özəlliklərini aydınlaşdıra bilərik.

### Dövlətçiliyin əsası və Konstitusiya

Keçən əsrin 90-cı illərində müstəqilliyini əldə etmiş hər bir keçmiş sovet respublikası üçün uyğun Konstitusiyanın hazırlanması dövlətçilik və müstəqillik baxımından həyati əhəmiyyətli məsələ idi. Çünki aydın, dəqiq və müasir beynəlxalq hüquqa tam uyğun Konstitusiya olmadan real olaraq müstəqil dövlət qurmaq mümkün deyildir. Təcrübə də bunu sübut etdi. Məsələn, Ermənistan konstitusiyası reallığa əsaslanmadığından (başqa torpaqlara iddia üstüörtülü yer almışdır, dövlətçilik tarixi təhrif olunmuşdur və s.) gerçək müstəqil dövlət qurmaq tam reallaşmamışdır. XXI əsrin üçüncü onilliyində N.Paşinyan etiraf edir ki, başqalarının hesabına mövcud olmayan, müstəqil və daxili reallığa əsaslanan dövlət qurmalıyıq. Bunun üçün ilk şərt Ermənistan konstitusiyasını dəyişməkdən ibarətdir. Deməli, sözdə müstəqilliyini keçən əsrin 90-cı illərinin əvvəllərində elan etmiş bir Cənubi Qafqaz dövləti hələ də gerçəkçi müstəqil dövlət kimi formalaşa bilməmişdir.

Yeri gəlmişkən, bu barədə erməni əsilli amerikan tarixçisi Ronald Qriqor Süni 1997-ci ildə İrəvanda keçirilən beynəlxalq konfransda "Ermənistanda müstəqil dövlət formalaşmamışdır" tezisini irəli sürmüşdür. Bunun fonunda "regionda müstəqil dövlət yalnız Azərbaycanda Heydər Əliyevin sayəsində formalaşmışdır" fikrini bəyan etmişdir. Bu mövqeyinə görə, polis alimi radikal erməni sürüsünün əlindən güclə xilas etmişdi. Onu da vurğulayaq ki, R.Q.Süni Miçiqan Universitetinin siyasi və sosial tarix professorudur. Eyni zamanda, Çikaqo Universitetinin siyasi elmlər doktoru və "Kembric Rus Tarixi"nin 3-cü cildinin baş redaktorudur. Tarixçi–alim zəngəzurlu (ermənilər ora "Sünik" deyirlər) erməni bəstəkar Qriqor Mirzayan Süninin nəvəsidir. Yəni alim erməni cəmiyyətinə yad deyildir, lakin görünür, Amerika mühiti onun alim kimi vicdanına ciddi təsir etmişdir.

Dünya üzrə digər ölkələrin təcrübəsi də göstərir ki, əsl müstəqil dövlət qurmaq üçün ölkənin dövlətçilik ənənəsi ilə müasir tələblərin harmoniyasının təmini sayəsində dövlətçiliyin əsasını möhkəmləndirən Konstitusiya real müsbət rol oynaya bilər. Heydər Əliyev Avrasiya məkanında buna ən uğurlu səviyyədə nail olan Ümummilli Liderdir. Bu tezisin fəlsəfi detalları üzərində dayanaq.

Hər şeydən öncə nəzərə almaq lazımdır ki, Heydər Əliyev eyni zamanda xilaskarlıqla dövlət quruculuğu strategiyasını aparmalı idi. Çox çətin vəziyyətə salınmış Azərbaycan Respublikasını xilas etmək olduqca mürəkkəb vəzifə idi. Burada daxili və xarici qaynaqlı problemləri hüquqi, qanuni və ədalətli yanaşma əsasında aradan qaldırmaq gərəkdi. Ancaq bu möhtəşəm vəzifə ilə məhdudlaşmaq da olmazdı. Çünki real müstəqil dövlət quruculuğu kursu müəyyən edilməli idi. Bu istiqamətdə proseslər həm daxili məntiqinə, həm də məzmun və məqsədinə görə sintezdə həyata keçirilməli idi. Həmin şərtin ödənməsi üçün isə ali hüquqi əsas yaradılmalı idi ki, digər aspektlərlə yanaşı, hüquqi olaraq dövlətin fəaliyyəti legitimlik əldə etsin. Ulu öndər Heydər Əliyevin 1995-ci ildə yeni Konstitusiya qəbul etməsi bu baxımdan müstəqil dövlətçilik üçün siyasi, tarixi, geosiyasi və hüquqi baxımdan dönüş nöqtəsi idi. Bu fikrin təsdiqi üçün bir faktı vurğulayaq.

### Azərbaycan Konstitusiyasında prezident idarəetməsinin təsbiti

Hər bir ölkənin dövlətçilik kimliyində ümumi olaraq "dövlət forması" və onun tərkib hissəsi kimi "dövlət idarəetmə forması", "dövlət quruluşu forması" və "siyasi rejim" mühüm rol oynayır. Dövlət forması onun ( yəni dövlətin) xarici əlamətlərinin məcmusunu ehtiva edir. Bu keyfiyyətdə o, "hakimiyyətin təşkilinin necəliyini, hakimiyyətin necə, hansı orqan və metodlarla həyata keçirildiyini göstərir". Dövlət formasının adətən üç tərkib hissəsini ayırırlar – "dövləti idarəetmə forması", "dövlət quruluşu forması" və "siyasi rejim", yaxud "dövlət rejimi". Dövlət idarəetmə forması yüksək dövlət hakimiyyəti orqanlarının təşkili sistemini və onların formalaşma qaydasını ehtiva edir. Bura fəaliyyət şərtləri və səlahiyyətləri də daxildir. Bununla yanaşı, dövlət orqanlarının "bir-biri ilə və əhali ilə qarşılıqlı əlaqəsi qaydası və əhalinin onların formalaşmasında



iştirak dərəcəsi" dövlət idarəetmə formasında əksini tapmalıdır.

Dövlət quruluşunun forması dövlətin ərazi təşkili metodu ilə bağlıdır. O, "dövlətin daxili quruluşunu, onun tərkib hissələrinə (ərazilərinə) bölünməsini və onların bir-biri ilə münasibətləri prinsiplərini müəyyənləşdirir".

"Siyasi rejim – bir dövlət idarəolunmasında suverenliyin kim tərəfindən və nə şəkildə istifadə ediləcəyini təyin edən formal və informal qayda və vasitələri ifadə edir. Siyasi rejimin digər adı "hökumət sistemi"dir.

İndi bu anlayışların məzmunu işığında müstəqil Azərbaycan Respublikasında prezident idarəetməsinin özəlliklərinə nəzər salaq.

Azərbaycan Prezidenti vəzifəsi 18 may 1990-cı ildə təsis edilmişdir. Səlahiyyət baxımından prezident Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsini əvəz etməli idi. Ancaq ölkədə ilk prezident seçkisi bundan bir il 3 ay sonra - 1991-ci il sentyabrın 8-də keçirilmişdir. İkinci prezident seçkisi 1992-ci ildə olmuşdur. Üçüncü prezident seçkisi isə 1993-cü ilin oktyabrında baş tutmuşdur.

Xronologiyaya baxsaq, 1991-1993-cü illərin hər birində prezident seçkisi olmuşdur. Bunun, əlbəttə, müxtəlif səbəbləri mövcuddur. Ölkədəki böhranı, əvvəlki iki prezidentin səriştəsiz idarəetməsini, xarici təcavüzü, bütövlükdə Cənubi Qafqazda geosiyasi vəziyyətin qeyri-müəyyənliyini və s. göstərmək olar. Lakin bütün bunlarla yanaşı, dövlətçilik baxımından daha fundamental olanı Konstitusiyada hüquqi cəhətdən prezident idarəetməsinin təsbit olunmaması idi. Hüquqi təsbit həm prezident idarəetməsinin əsas hüquqi tərəflərini və şərtlərini müəyyən edir, həm də seçkinin keçirilmə vaxtı və şərtlərini dəqiq ifadə edir.

Belə alınır ki, Azərbaycanda prezident idarəetməsinin real hüquqi təsbiti zəruri idi. Heydər Əliyev bu işi də uğurla həyata keçirən dövlət başçısı oldu. 1995-ci il noyabrın 12-də Azərbaycanda Heydər Əliyevin təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul edildi. Həmin Konstitusiya müstəqillik dövründə Azərbaycanda dövlət idarəetmə formasını hüquqi təsbit edən ilk təsisedici ali sənəddir. Bununla müstəqil Azərbaycan tarixində çox mühüm mərhələnin başladığı nəticəsini çıxara bilərik.

### Xalqın suverenliyindən dövlət suverenliyinə

Konstitusiya hər şeydən öncə Azərbaycanda dövlətçilik ənənəsinin çox vacib bir aspektini hüquqi müstəvidə ifadə edir. Konstitusiyanın birinci maddəsində göstərilir ki, "Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır". Yəni qədim dövlətçiliyimizdə daim fundamental yer almış dövlət quruculuğunun ana şərti Azərbaycanda xalqın dövlətin qaynağında dayanan əsas müəyyənedici, təkanverici, qurucu və inkişafetdirici güc olmasından ibarətdir. Bu mənada xalqın suverenliyi fəlsəfəsi və hüququ dövlətin suverenliyi və legitimliyinin təməlini təşkil edir.

Həmin kontekstdə ikinci əhəmiyyətli məqam Konstitusiyada "Azərbaycan xalqı" anlayışının izahı ilə bağlıdır. Ali təsisedici sənəddə yazılmışdır: "Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir; bu isə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaları istisna etmir".

Konstitusiyamıza görə, Azərbaycan xalqı Azərbaycan Respublikası dövlətinin indiki siyasi-coğrafi sərhədləri ilə məhdudlaşmır və daha geniş məkanı əhatə edir. Dünyanın istənilən guşəsində azərbaycanlılar beynəlxalq hüquqla müəyyən edilmiş normalar çərçivəsində Azərbaycan xalqının bir parçasıdırlar. Burada şübhəsiz ki, hüquqi, mənəvi, mədəni və ideoloji aspektlərin sintezi əsas şərtdir.

Bu maddədən avtomatik olaraq dövlət quruculuğunda "xalqın suverenliyi" anlayışı alınır. Həmin baxımdan Konstitusiyanın preambulasının aşağıdakı kimi başlaması çox əhəmiyyətli məqamdır. Orada yazılmışdır: "Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir..."

Yeni müstəqil Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan xalqının gücü, potensialı, dövlətçilik ənənəsi və müasir mərhələdə respublika qurmasının təməli, özülü, fəlsəfəsi, ideyası siyasi iradəsi, geosiyasi hədəfi, ən əsası başlıca subyekti və suverenlik kimliyidir! Başqa kimsə Azərbaycanda müstəqil dövlət quruculuğunun subyekti, onun suverenlik haqqı və hüququnun təmsilçisi ola bilməz! Tarixi müddəadır!



*Füzuli QURBANOV,*
*XQ-nin analitiki, fəlsəfə elmləri doktoru*

Konstitusiyanın ikinci maddəsində bu dövlətçilik fəlsəfəsi konkret hüquqi ifadədə dolğun əksini tapmışdır. Həmin maddədə yazılmışdır:

"I. Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur.

II. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir".

Bu maddədə xalq suverenliyindən dövlət suverenliyinə siyasi, hüquqi, fəlsəfi və ideya keçidinin başlıca məğzi ifadə olunmuşdur. Onun üzərində ayrıca dayanmaq zərurətdir.

### Dövlət suverenliyinin konstitusion əsası

Yuxarıda vurğuladığımız kimi, Konstitusiyanın 2-ci maddəsində yazılmışdır ki, "Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur". Dövlət suverenliyi anlayışının Azərbaycanda konstitusion əsası bu maddədən qaynaqlanır.

Birincisi, öz müqəddəratını həll etmək Azərbaycan xalqının təbii və suveren hüququdur.

İkincisi, eyni dərəcədə öz dövlətinin idarəetmə formasını müəyyən etmək də Azərbaycan xalqının təbii və suveren hüququdur.

Bu iki aspektin vəhdəti Azərbaycanda dövlət suverenliyinin birbaşa mənbəyinin xalq suverenliyi olduğunu göstərir. Deməli, burada əsas vəzifələrdən biri xalq suverenliyini rasional, tam məntiqi, xalqın tarixi-siyasi və mədəni təkamül özəlliklərini nəzərə almaqla müasir şərtlər daxilində dövlət suverenliyinin başlıca xüsusiyyətlərini müəyyən etməklə bağlıdır. Bu prosesdə dövlətçiliyin əsasının möhkəmlənməsi ilə ictimai münasibətlərin tənzimlənməsi siyasi və hüquqi aspektlərdə bir-birini tamamlamalıdır. Müstəqil dövlət quruculuğunda məsələnin incə tərəfi bununla bağlıdır. Çünki vurğulanan şərtin yerinə yetirilməsi faktiki olaraq xalq suverenliyini uğurlu formada dövlət suverenliyinə proyeksiya etməyi özündə ehtiva edir.

Əlbəttə, dövlət quruculuğu kontekstində bu, kompleks hüquqi prosedurların müəyyən edilməsini tələb edir. Onu Konstitusiyada reallaşdırmaq lazım gəlir. Bu baxımdan Azərbaycan Konstitusiyası mükəmməldir. Bu ali təsisedici sənədin qəbulundan sonra dövlət quruculuğunda alınan müsbət cəhətlər qarşıya heç bir hüquqi ziddiyyətin çıxmadığını göstərir. Hətta, ən mürəkkəb məsələlərdə belə Azərbaycan Konstitusiyası dövlətdaxili hüquqi şərtlərlə beynəlxalq hüququn şərtlərinin bir-birini tamamladığı aydınlaşdı. Bir neçə nümunədə buna əmin ola bilərik.

### Dövlətdaxili və beynəlxalq hüquq

Konstitusiyanın II maddəsinin II, III və IV bəndləri aşağıdakı kimidir:

2. "Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.

3. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;
- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

4. Bu Konstitusiyanın müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər".

Bu müddəalardan aydın görünür ki, Konstitusiya Azərbaycanın dövlət kimi fəaliyyətinin daxili və xarici istiqamətlərini hüquqi aspektdə vahid məntiqə gətirmişdir, yəni dövlət "daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla" fəaliyyət göstərməlidir.

### Dövlət başçısının konstitusion vəzifələri

Dövlətin başçısı isə vurğulanan hüquqi baza əsasında konkret vəzifələri yerinə yetirməlidir. Onların konstitusion çərçivəsi 8-ci maddədə aydın müəyyən edilmişdir. Yəni Azərbaycan dövlətinin başçısı kimi Azərbaycan Respublikasının Prezidenti 4 əsas istiqamətdə fəaliyyət göstərməlidir:

1. Ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil etməlidir:
2. Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin etməlidir;
3. Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısı olmalıdır;
4. Məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısı olmalıdır.

Heydər Əliyev və İlham Əliyevin Prezident kimi fəaliyyətləri tam olaraq Konstitusiyanın vurğulanan maddəsinə uyğundur. Azərbaycan rəhbərliyinin ərazi bütövlüyünün bərpa olunması istiqamətində atdığı hər bir addım Konstitusiyanın maddələri ilə yanaşı, beynəlxalq hüququn bütün normalarına da uyğun olmuşdur. Prezident İlham Əliyevin II Qarabağ müharibəsinin nəticələri ilə bağlı ifadə etdiyi konkret fikirlər tezisimizin əsaslı olduğunu tam təsdiq edir. İlham Əliyev həmin kontekstdə demişdir ki, Azərbaycan tarixi ədaləti bərpa etmişdir, beynəlxalq hüququ təmin etmişdir və milli ləyaqəti bərpa etmişdir.

Azərbaycan Prezidenti Konstitusiyanın müddəalarına əsaslanaraq postmüharibə mərhələsində elə siyasət həyata keçirməkdədir ki, nə qədər etiraz etməyə çalışsalar da sonunda Azərbaycanın mövqeyini qəbul etməli olurlar. İki nümunəyə baxaq.

Onlardan biri Ermənistanla sülh müqaviləsinin baza prinsipləri ilə əlaqəlidir. Məhz Azərbaycan Prezidentinin həm Konstitusiyaya, həm də BMT-nin qəbul etdiyi hüquqi normalara tam uyğun olaraq müəyyənləşdirdiyi prinsiplər əsasında Vaşinqton sazişi reallaşmışdır. Həmin baza prinsipləri bir-birinin daxili işlərinə qarışmamağı, kommunikasiyaların açılmasını, bir-birinə qarşı təxribatçı fəaliyyət göstərməməyi, üçüncü qüvvələrin öz ərazisindən (yəni Azərbaycan və Ermənistanın) digərinə qarşı istifadə etməyə imkan verməməyi, sərhəd toxunulmazlığını təmin etməyi əhatə edir. Bu şərtlər BMT Nizamnaməsində xüsusi maddələrlə təsbit edilmişdir. Deməli, nə qədər müxtəlif tərəflərə çəkməyə çalışsalar da, sonunda dünyanın ən qüdrətli dövlətinin paytaxtında Azərbaycanın təklif etdiyi sülh modelinin baza prinsipləri qəbul edilmişdir.

Digər nümunə Zəngəzur dəhlizi ilə bağlı Azərbaycan Prezidentinin atdığı addımlardır. Bu məsələdə də başlanğıcda çox əngəllər törətməyə çalışdılar. Hətta bir müddət, ümumiyyətlə, Zəngəzurun siyasi gündəmdən çıxdığından bəhs etdilər. Lakin yenə də Azərbaycan tərəfinin Konstitusiyaya və beynəlxalq hüquqa söykənən mövqeyi qalib gəldi. İndi dünya Zəngəzur dəhlizini necə reallaşdırmağı müzakirə edir. Yəni onun həyata keçməsinə şübhə yeri qalmamışdır.

Bütün bunlar Azərbaycanda xalq suverenliyinin uğurla dövlət suverenliyinə proyeksiya olunduğunun əyani sübutlarıdır. Əslində, Prezident İlham Əliyevin Andiçmə mərasimlərində bu istiqamətdə çox gözəl fikirlər ifadə etmişdir. 2024-cü il fevralın 14-də olan Andiçmə mərasimində söylədiyi nitqindən bir fikrə baxaq.

Prezident İlham Əliyev demişdir: "İlk növbədə, prezident seçkilərində mənə yenidən böyük etimad və dəstək göstərən doğma Azərbaycan xalqına öz dərin təşəkkürümü bildirmək istəyirəm. Əziz xalqımı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm".

Fikirlərinə davam edərək dövlət başçısı xatırlatmışdır ki, 2003-cü ildə "əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam".

Və nəhayət, İlham Əliyev fikirlərini ümumiləşdirir: "2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik".

Bu fikirlər onu göstərir ki, Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyəti müddətində birmənalı olaraq xalqın suverenliyinə əsaslanmaqdadır və həmin baza üzərində dövlət suverenliyini təmin etməyi başlıca məqsədi hesab etməkdədir. Məhz buna görədir ki, Azərbaycan Prezidenti 2023-cü ilin sentyabrında Azərbaycanın tam suverenliyinin təmin edilməsinə nail olmağı tarixi uğur kimi qiymətləndirmişdir.

Bunlardan təbii bir maraq meydana gəlir: bəs dövlət suverenliyi nə deməkdir? Onun fəlsəfi-politoloji anlamı haqqında yığcam nə demək olar?

### Dövlət suverenliyi

Dövlət suverenliyi fəlsəfi və politoloji ədəbiyyatda müstəqil dövlətin atributu, yəni ayrılmaz xüsusiyyəti kimi təqdim edilir. Bu anlamda dövlət suverenliyi ölkə daxilində ali hakimiyyəti və siyasi-hüquqi müstəqilliyi ifadə edir (daxili suverenlik). Eyni zamanda, dövlət suverenliyi beynəlxalq arenada xarici qüvvələrdən və başqa dövlətlərdən tam müstəqil olmağı nəzərdə tutur (xarici suverenlik).

Müasir ədəbiyyatda dövlət suverenliyi hər bir müstəqil dövlətin müstəsna hüququ kimi qəbul edilir. Yəni dövlət öz ərazisində hökmranlığını təmin etməkdə müstəsna hüquqa və haqqa malikdir. Bununla yanaşı, daxili və xarici məsələlərlə bağlı müstəqil qərarlar qəbul etməkdə də müstəsna hüquqa malikdir.

**(ardı 9-cu səhifədə)**

# Konstitusiya və suverenlik

(əvvəli 8-ci səhifədə)




Belə görünür ki, dövlət suverenliyi daxili miqyasda hakimiyyətin ərazisi üzərində tam hökmlü olmasını mütləq surətdə nəzərdə tutur. Xarici miqyasda da kimsənin dövlətin qərarlarına qarışmağa hüququnun olmadığını ifadə edir.

Əlbəttə, bunlar nəzəriyyədə gözəl səslənir. Lakin məsələ ondan ibarətdir ki, heç də hər bir müstəqil sayılan dövlət suverenliyini tam təmin edə bilmir. Bu prizmada yuxarıda vurğuladığımız ümumi müddəalar fonunda 1993-cü ilin iyunundan Azərbaycanın müstəqil dövlət kimi fəaliyyətinə baxsaq, bir sıra xarici qüvvələrlə mübarizədən ana xətt olaraq məhz dövlət suverenliyinin təmin edilməsinin keçdiyini görərik. Heydər Əliyevin prezidentliyi dövründə iki dəfə dövlət çevrilişinə cəhd oldu və hər ikisinin qarşısını Ulu öndərin siyasi qətiyyəti aldı.

Bunun fonunda Ümummilli liderin "Əsrin müqaviləsi"ni imzalaya bilməsi dövlət suverenliyinin təmin edilməsi baxımından möhtəşəm tarixi, siyasi, energetik və geosiyasi hadisədir. Sonra, bütün maneələrə baxmayaraq, Bakı-Tbilisi-Ceyhan neft ixrac marşrutunun işə salınması xüsusi qeyd edilməlidir. Bu kimi proseslər bütövlükdə Azərbaycanın yeni enerji strategiyası siyasəti çərçivəsində getmişdir ki, bu da dövlət suverenliyinin dəqiq düşünülmüş və müəyyən edilmiş xətt üzrə təmin edilməsi kursunun hazırlandığından xəbər verir.

Dövlət müstəqilliyi, ərazi bütövlüyü və xalqa ləyaqətlə xidmət Konstitusiyanın preambulasında dövlətin müstəqilliyi, ərazinin bütövlüyü və xalqa ləyaqətli xidməti özündə ehtiva edən 4 konstitusion niyyət əksini tapmışdır. Onlar aşağıdakılardır:

1. "Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
2. Vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;
3. Xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;
4. Ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək".

Sonuncu bənddə vurğulanan şərtlərdən beynəlxalq miqyasda dövlətin və cəmiyyətin identikliyinin əsas qayəsi ifadə edilmişdir: "ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək".

Bu məqamın fəlsəfi anlamı çox mühümdür. Çünki həmin hissədə Azərbaycanın daxili suverenliyi ilə xarici suverenliyini vahid məntiqi müstəviyə gətirən başlıca faktor yığcam vurğulanmışdır. Həmin faktor xalq suverenliyinin yalnız substantiv deyil, həm də funksiya aspektində dövlətin daxili və xarici suverenliyinin təməlini təşkil etməsi ideyası ilə bağlıdır. Konstitusiyada vurğulanan "vətəndaş cəmiyyəti", "xalqın iradəsi" və "ədalətli iqtisadi və sosial qaydalar" terminlərinin məzmunca qarşılıqlı münasibətlərinin başlıca siyasi, hüquqi və sosial mənasını bu məqam təşkil edir. Ümumi nəzəri səviyyədə bu, Konstitusiyada xalq suverenliyi, dövlət suverenliyi, ali təsisedici sənəd statusu və ictimai münasibətlərin tənzimlənməsi aspektlərinin vəhdəti kimi ifadə olunmuşdur.

Konstitusiyanın bu cür yüksək daxili məntiqi ziddiyyətsizliyi həm də onun praktiki səmərəsinin bazasını yaradır! Azərbaycan Respublikası dövlətinin fəaliyyət təcrübəsi bu qiymətli keyfiyyətin real mövcudluğunu əldə edilən qələbələr timsalında sübut etməkdədir.

Özlüyündə hər bir müstəqil dövlət üçün müstəqillik, suverenlik, ərazi bütövlüyü kimi məsələlərin xalqa (yəni cəmiyyətə, topluma) ləyaqətlə xidmət etməklə ziddiyyətsiz vəhdəti arxiaktualdır. Burada hüquqi "ölçülməsi" çox çətin olan "ləyaqətli xidmət" termininin hər bir nümunədə özəl məzmun alması kimi vacib məsələ də unudulmamalıdır. Çünki "ləyaqət" etik anlayışdır, ona siyasi-hüquqi anlam vermək ayrıca prosesdir. Burada cəmiyyətin təkamülünün tarixi ənənəsi ilə yanaşı, müasir siyasi-elmi kriteriyalara görə "ləyaqətli xidmət"in nə demək olduğu da müəyyən olunmalıdır. Azərbaycan Respublikasının 1993-cü ilin iyunundan başlayaraq keçdiyi yol göstərir ki, Ulu öndər bu vəzifənin də öhdəsindən yüksək səviyyədə gəlmişdir.

İndi hər kəsə aydındır ki, xalqa ləyaqətli xidmət hər bir Azərbaycan vətəndaşı üçün Azərbaycançı olmaq çərçivəsində multikultural dəyərlərə üstünlük vermək, milli adət-ənənələrə və müstəqil dövlətçiliyə istənilən şərtlər daxilində sədaqətli olmaq, Vətənsevər olmaq, ölkənin, dövlətin, cəmiyyətin müdafiəsinə həmişə hazır olmaq kimi əhəmiyyətli keyfiyyətləri özündə ehtiva edir. Dövlətin başçısı üçün bu məsələ xüsusi və dəqiq müddəalarla müəyyən edilmişdir. Azərbaycan dövlət başçısı və liderinin fəaliyyəti baxımından olduqca əhəmiyyətli olan bu məqamın Konstitusiyada vurğulanmış iki ümumi müddəası üzərində dayanaq.

## "And içirəm..."

Azərbaycan Respublikasının Prezidenti seçilən şəxsin andının birinci bəndi aşağıdakı məzmuna malikdir: "Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm".

Birincisi, Azərbaycan Respublikasının Konstitusiyasına əməl ediləcəyinə, ikincisi, dövlətin müstəqilliyi və ərazi bütövlüyünün qorunacağına, üçüncüsü, xalqa ləyaqətlə xidmət ediləcəyinə and içilir. Deməli, xalqa ləyaqətlə xidmətin dövlət müstəqilliyi və ərazi bütövlüyünün qorunması ilə vəhdətdə olması şərtinin ödənməsi təminatçısı Konstitusiyadır! Bu, elə təməl şərtdir ki, seçilən dövlət başçısı mütləq ona əməl etməlidir. Prezidentin Andının siyasi-hüquqi, sosial və mədəni-mənəvi "ağırlığı" bu şərtlə müəyyən olunur. Azərbaycan Prezidenti seçilən şəxsin birinci bəndlə bağlı məsuliyyəti əlini Konstitusiyaya basaraq həmin sözləri deməsində ifadə olunur. Bu, Andın siyasi, hüquqi və sosial aspektlərinin konstitusion şərtlər daxilində nəzərə alınması deməkdir. Yəni Azərbaycan Respublikası dünyəvi pinsipləri əsas tutan müstəqil dövlətdir!

Bu baxımdan Andın ikinci bəndi dövlətçilik və xalqa ləyaqətlə xidmətin qarşılıqlı münasibətlərinin məzmunu üçün başqa kontekstdə ciddi prinsipial əhəmiyyət daşıyır.

Andın ikinci bəndi belədir: "Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli–mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam". Bundan sonra Prezidentin "Qurani-Şərif"ə əl basması yalnız rəmzi məna kəsb etmir, həm də praktiki fəaliyyət üçün böyük məsuliyyəti qəbul etməyi ifadə edir.

Bu, Azərbaycan xalqının dövlətçilik həyatında mədəniyyət, mənəviyyat, əxlaq, törə, adət-ənənə, dil kimi faktorların yüksək səviyyədə rol oynadığının konkret nümunəsidir! Burada Prezident seçilən şəxsin məhz "Qurani-Şərif"ə əl basması İslamın, ümumiyyətlə, xalqın həyatında mental səviyyədə tutduğu yeri və oynadığı rolu təsbit edir.

Andiçmənin yekun mərhələsi çox əlamətdardır.

## "Gözümün qarası-ağı, Azərbaycan bayrağı"

Azərbaycan Prezidenti olan şəxs yalnız dövlət bayrağına təzim edir, onun qarşısında diz çökür! Bayraq hər bir Azərbaycan vətəndaşı kimi dövlətin başçısının da "gözünün qarası-ağıdır"! Bayraq elə bir müqqədəslik rəmzimizdir ki, ruhu qəlbimizdə, ideyası beynimizdə və məsuliyyəti çiynimizdədir. Bu mənada dövlətin başçısı bayrağı öpüb gözünün üstünə qoyur!

Onun üç ideyası – türkçülük, müasirlik və İslam, bizim üçün üç müqəddəs dəyərin, fikrin, dövlət və mədəniyyət fenomeninin pozulmaz vəhdətini ifadə edir. Türkçü olmağın mühüm aspektlərindən biri milli ilə bəşəriliyin yüksək sintezinin daşıyıcısı olmaq deməkdir, irqi ayrı-seçkilikdən uzaq Vətən, yurd, xalq, millət sevər olmaq deməkdir. Türkçü olmaq Azərbaycanda hər bir insana hörmət, sayğıyla, dürüstlüklə və qardaş kimi baxmaq deməkdir. Türkçü olmaq Vətən uğrunda hər bir anlamda Şəhid olmağa hazırlıq səviyyəsinə yüksəlmək deməkdir!

Türkçü irqçi deyil, Vətənçidir, Bəşəridir, ailə, törə, yurd sevəndir! Türkçü əsl Azərbaycançıdır! Azərbaycanı sevməyən azərbaycanlı türkçü deyildir, əksinə, türkçülüyün düşmənidir. Əsl türkçü bəşəriliyi, mədəniyyəti, çalışqanlığı, dürüstlüyü və vətənsevərliyi milli ruhunda yaşatmağı bacarandır.

Müasirlik həmişə inkişafa hazır olmağı ifadə edir. Elə bir inkişafa ki, sivilliyə, dünyada meydana gələn yeni dəyərlərə, müxtəlif mədəniyyətlərə milliliyi gözləməklə açıq olmağı nəzərdə tutur. Müasirləşmək dünyanın inkişaf və yeniləşmə fəlsəfəsinin ruhunu özündə daşımaq anlamını verir.

İslam isə Azərbaycan insanının həmişə mədəniyyət, mənəviyyat, əxlaq, ailə kimi faktorlara üstünlük verməsinin ifadəsidir. Bayraqda Azərbaycan dövlətinin din amilinə yüksək qiymət verdiyi əks olunmuşdur. Azərbaycan xalqı və dövləti əbədi olaraq İslamı ən yüksəkdə tutacaqdır!

Vurğulanan məqamlar bizi özlüyündə Konstitusiyanın ictimai münasibətləri tənzimləyən güc kimi konseptual dərki məsələsi üzərində geniş dayanmağa gətirib çıxarır. Bunun bir tərəfi Konstitusiyanın özünün mahiyyəti ilə əlaqəlidirsə, digər cəhəti Azərbaycan dövlətçilik ənənəsinin özəlliyinə bağlıdır. Bu tezisin mənasını açmağa çalışaq.

## Dövlət və cəmiyyət: münasibətlərin Azərbaycan təcrübəsi

Bütövlükdə Azərbaycanda dövlətlə cəmiyyət arasında münasibətlərin üç hüquqla (qanunla) tənzimləndiyi haqqında mənbələr mövcuddur. Məsələyə Konstitusiya və suverenlik kontekstində qısa nəzər salmaq istəyirik.

Vurğulanan tənzimləyici və təsisedici hüquqlar - hökmdar hüququ, parlament (və ya Divan) hüququ və Yosun (və ya mamır) hüququdur. Türklər hüququ əsas olaraq ontoloji anlamda dərk etdiklərinə görə, vurğulanan hüquq sistemlərini (Əgər belə demək elmi cəhətdən korrektdirsə. Hərçənd bu prinsipial tezisi konseptual olaraq əsaslandırmaq gərəkdir, çünki dünya tədqiqatçıları adətən Roma hüquq sistemindən bəhs edirlər və Konstitusiya kontekstində türk hüquq sisteminin özəllikləri aydınlaşdırılmalıdır) həm də fərdi və kollektiv səviyyələrdə real mövcudolmanın təbii şərtləri kimi qəbul edirlər.

Hökmdar hüququ dövlət başçısının yaratdığı hüquqi dəyərləri əhatə edir. Bu, özünün təcəssümünü fərmanlarda, sərəncamlarda, əmrlərdə və başqa uyğun sənədlərdə tapır. Parlament hüququnun əsasında birgəyaşam formasından asılı olmayaraq kollektivin təmsilçilərinin yaratdıqları qanunları əhatə edir. Yosun (mamır) hüququ isə xalqın (tayfanın, qövmün, cəmiyyətin, millətin) özünüyaratmasının ümumi qəbul edilən qanunlarını və bu anlamda xalqın hüququnu əks etdirir.

Azərbaycan dövlətçilik ənənəsində xalqın özünü yaratması qanunu (və ya hüququ) təməl rol oynamışdır. Yəni son məqamda Yosun hüququ hökmdar və parlament hüququnu müəyyən etmişdir. Cəmiyyətə verilən bu yüksək imtiyaz tarix boyu Azərbaycanın siyasi, sosial, mədəni və iqtisadi həyatında özəl dəyərlər formalaşdırmışdır. O cümlədən dövlət qurmaq anlayışına xüsusi çalar vermişdir. Onun hüquqi aspektdə ümumi mənası müasir mərhələdə "xalq suverenliyi" və "dövlət suverenliyi" anlayışlarında ehtiva olunmuşdur. Dövlətçiliyin geniş təsbiti kontekstində isə Konstitusiyada xüsusi anlamda işlədilməkdədir.

Beləliklə, tarixin hər bir dönəmində özəl məna çalarlarının meydana gəlməsi istisna olunmaqla, bütövlükdə xalqın hüququ, qanunu və özünütəşkiletmə fəlsəfəsi sosial-mədəni səviyyə ilə yanaşı, dövlət quruculuğu konteksti üçün də aparıcı olmuşdur.

## Azərbaycan dövlətinin ali məqsədi

İctimai münasibətləri tənzimləyən təsisedici güc kimi Konstitusiyada dövlətin ali məqsədi də dəqiq ifadə edilməlidir. Bu məsələnin tarixi, siyasi, geosiyasi və dövlətçilik ənənəsinin gözlənilməsi baxımından əhəmiyyəti vardır. Çünki müasir dövlətin hansı anlamda ali məqsədi qarşısına qoymasından onun identikliyi ilə bağlı konkret təsəvvür yaranır.

Bununla yanaşı, ictimai münasibətlərdə dövlətin yeri və rolu məsələsinə də konstitusion aydınlıq gətirilir. Dövlətçiliyin hazırkı mərhələsində onun daxili və xarici suverenliyin məzmunu üçün vacibliyini dərk etməyimiz gərəkdir. Çünki indi demək olar ki, hər bir müstəqil dövlətin Konstitusiyasında ali məqsəd gəlişigözəl terminlərlə ifadə edilir. Ancaq onun hansı səviyyədə reallaşdığı artıq praktiki fəaliyyətdə müəyyən olunur.

Qısa bir müqayisə aparmaq istərdik. Ermənistan konstitusiyasında "dövlətin ali məqsədi" maddəsinə rast gəlmədik. Ancaq onu dolayısı ilə ifadə edə bilən maddələr mövcuddur. Məsələn, üçüncü maddə belə adlanır: "İnsan, onun ləyaqəti, əsas hüquqları və azadlığı ali dəyərdir". 9-cu maddədə isə yazılmışdır ki, "Ermənistan Respublikasının xarici siyasəti bütün dövlətlərlə mehriban qonşuluq və qarşılıqlı faydalı münasibətlər qurmaq məqsədi ilə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq həyata keçirilir".

9-cu maddədə bütün dövlətləri "mehriban qonşuluq" kateqoriyasında birləşdirmək cəhdinin real və məntiqi sağlamlığını bir kənara qoyaraq, praktikada rəsmi İrəvanın Ermənsitan konstitusiyasının nə 3-cü, nə də 9-cu maddələrinə qətiyyən əməl etmədiyinin fakt olduğunu deməliyik.

Birincisi, Ermənistan indi ərazisi sayılan Qərbi Azərbaycandan 1989-1993-cü ilin ikinci yarısına qədər olan müddətdə həmin ərazinin aborigen qövmü olan azərbaycanlıları zülm verə-verə qovanda hansı insan hüququ və ləyaqətinə əməl edirdi?

İkincisi, bunu etməklə qonşusu olan Azərbaycana qarşı hansı mənada "mehriban qonşuluq" mövqeyi tutmuşdu?

Ermənistan müstəqillik əldə etdiyini bəyan etməklə öz konstitusiyasına tam zidd şəkildə olaraq vətəndaşları olmalı olan azərbaycanlıları vəhşicəsinə deportasiya edir, həm də Azərbaycan Respublikasının ərazisinə havadarlarının ciddi dəstəyi ilə təcavüz həyata keçirirdi. Bu kimi reallıqların fonunda isə utanmadan konstitusiyasına "insan haqları", "mehriban qonşuluq" kimi ibarəli terminlər daxil edirdi.

Bu ziddiyyətin fonunda əminliklə deyə bilərik ki, Ermənistanın konstitusiyasında yazılanlarla vurğulanan faktları müqayisə edəndə erməni rəsmi dairələri "konstitusion riyakarlıq" etmişdir.

Bu əlamət indi də qalmaqdadır. Amma söz veriblər ki, həmin rəzillikləri aradan qaldıracaqlar. Əslində, bu etiraf da bizim haqlı olduğumuzun sübutlarından biridir.

Lakin belə nümunələr onu göstərir ki, müstəqil dövlətin Konstitusiyasında qəbul etdiyi maddələrə əməl etməsi dünya miqyasında prinsipial məsələdir.

Bütün bunların fonunda Azərbaycan Konstitusiyasının hər bir maddəsinə tam əməl etməsi region üçün çox dəyərli nümunədir. Faktlarımız kifayət qədərdir. Onların işığında ictimai münasibətlərin konstitusion tənzimlənmələrinə baxaq.

## Konstitusiyamızın 12-ci maddəsi

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində yazılmışdır: "I. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.

II. Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir".

Cəmiyyətin maraqları kontekstində bu maddədə güclü ideya əksini tapmışdır.

Birincisi, insan və vətəndaşların hüquqları və azadlıqlarının təmin edilməsi konstitusion öhdəlikdir. Burada "insan" və "vətəndaş" sözləri təsadüfən yanaşı verilməmişdir. Yəni Azərbaycan Respublikası bir dövlət olaraq həm, ümumiyyətlə, insana (onun hansı ölkənin vətəndaşı olmasından asılı olmayaraq), həm də ayrıca Azərbaycan vətəndaşna yüksək sayğı ilə yanaşır. Onun hüquq və azadlıqlarının təmin edilməsinin konstitusion təminatçısıdır. Ölkə vətəndaşının hüquq və azadlıqları daxili suverenlik kontekstində hüquqla dövləti münasibətin vəhdətindən qaynaqlanır. Azərbaycan öz vətəndaşlarına hüquqi cəhətdən yüksək qiymət verməklə yanaşı, həm də bir dövlət olaraq onun yüksək dəyərə malik olduğunu Konstitusiyada təsbit edir.

Bununla yanaşı, Konstitusiyada, ümumiyyətlə, insan hüququ və azadlığına təminat vermək xarici suverenliyin mühüm elementidir. Çünki bununla Azərbaycan Respublikası həm beynəlxalq hüququn normalarına əməl etdiyini, həm də bütövlükdə humanitarlığı yüksək qiymətləndirdiyini vurğulayır.

Məlumdur ki, humanitarlıq müasir geosiyasi və siyasi təlimlərdə əsas tədqiqat mövzularından və dövlətin kimliyini ifadə edən faktorlardan biri kimi qəbul edilir. Bu prizmadan baxanda Azərbaycan Respublikasının erməni əhaliyə qarşı da kifayət qədər hüquqi və humanitar münasibət göstərdiyi aydın olur. İndiki mərhələdə də Azərbaycan dövlət kimi Ermənistana qarşı yüksək hüquqi yanaşma və həm də humanitarlıq nümayiş etdirir.

Dünya miqyasında isə neokolonializmə, İslamofobiyaya və antihumanitarlığa qarşı davamlı mübarizə aparmaqla Azərbaycan xarici suverenliyini Konstitusiyada müəyyənləşdirdiyi kriteriyalar üzrə təmin edir.

12-ci maddənin I bəndinin ikinci hissəsi çox mühüm bir sosial məqamı əks etdirir. Azərbaycan Respublikası vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsinin ön plana çıxarılması dövlətçilik aspektində əsas məqamlardan biridir. Əgər dövlətin strateji hədəflərindən biri kimi insanların həyat səviyyəsinin layiqli olması göstərilirsə, bu, bütövlükdə identikliyin əsas məqamını ifadə etmək deməkdir.

## Vətəndaşın layiqli həyat səviyyəsi

Bu məsələ insan fəaliyyətinin bütün sferalarını özündə ehtiva edir. Sosial, mədəni, siyasi, iqtisadi, hüquqi, mənəvi-əxlaqi və digər aspektlər həmin termində sintez edilmişdir. Çünki insanın layiqli həyat səviyyəsinə nail olması, bütövlükdə, sosial-mədəni mühitdə formalaşdırılan münasibətlər sistemi ilə, yaradılan mühitlə müəyyən edilir. Bu mənada daxili suverenlikdə insan kapitalı mərkəzi yer tutur. Onun xarici suverenlik kontekstində təmini 12-ci maddənin II hissəsində dəqiq ifadə edilmişdir – "Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir".

Bu müddəalardan maraqlı fəlsəfi qənaət əldə etmək mümkündür. Belə alınır ki, Azərbaycan Respublikasının Konstitusiyası ali təsisedici güc kimi ictimai münasibətləri elə tənzimləyir ki, səmərəsi insanın ləyaqətli həyat səviyyəsinə nail olmaqla "ölçülür". Dövlət sosialyönümlüdür və insanın rifahının yüksəldilməsi əsas hədəflərindən biridir. Buna görədir ki, 2030-cu il üçün strateji məqsəd kimi "qüdrətli dövlət və yüksək rifah cəmiyyəti" nəzərdə tutulmuşdur.

Konstitusiyanın 24-cü maddəsi məsələnin hüquqi prinsipi tərəfini aydınlaşdırır. Həmin maddədə vurğulanır:

"I. İnsan ləyaqəti qorunur və ona hörmət edilir.

II. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır.

III. Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir. Hüquqlardan sui-istifadəyə yol verilmir".

Burada vətəndaşın təbii hüquqlarının təsbiti ilə onun cəmiyyət qaşısında daşıdığı məsuliyyət vahid məntiqi çərçivədə verilir. Yəni insanın hüquqları və azadlıqları nə dərəcədə qəbul ediləndirsə, onun vətəndaş olaraq toplum qarşısında məsuliyyəti də bir o qədər əhəmiyyətli və zəruridir. Burada konstitusion əsasda fərdi səviyyədən toplumsal miqyasa keçid vardır. Hər bir fərd ayrıca mövcud ola bilmədiyi kimi, onun kollektiv birgəyaşam çərçivəsində qarşılıqlı öhdəliklər götürməsi və onlara əməl etməsi də tam real sosial hadisədir.

Həmin prosesdə Azərbaycan Konstitusiyası çox vacib bir şərti də xüsusi vurğulayır. Azərbaycan vətəndaşları qanun qarşısında bərabərdirlər. Bu şərt ictimai münasibətlərin sosial, siyasi, hüquqi və mədəni aspektlərinin təməlidir.

25-ci maddədə yazılır: "III. Dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır".

Beləliklə, sonuncu konstitusion şərt ümumilikdə Azərbaycan Respublikasında ictimai münasibətlərin tənzimlənməsinin siyasi, sosial, mədəni və hüquqi sərhədlərini müəyyən edir.

## Dövlətçilik və ictimai münasibətlər

Konstitusiyanın dövlətçiliyin əsaslarını möhkəmlədən və ictimai münasibətləri tənzimləyən ali təsisedici güc kimi qısa təhlili göstərir ki, müasir tələblərə cavab verən Ana Yasa hazırlanmışdır. Əlbəttə, XXI əsrin çağırışları və dəyişmə dinamikası elə xarakterlidir ki, hər bir dövləti faktorun yeniləşməsi və dəyişməsi zərurəti daim gündəmdədir. Ancaq Ulu öndər Azərbaycan Respublikasının Konstitusiyasının formalaşdırıcı kriteriyalarını elə müəyyən etmişdir ki, dövrün tələbinə uyğun yeniliklər etmək olur və onlar milli maraqlara, dövlətçiliyə, ümumilikdə güclü Azərbaycanın daha da inkişaf etməsinə xidmət edirlər.

Nümunə kimi, Prezident İlham Əliyevin yeni tarixi mərhələni müəyyən etməsi əsasında Azərbaycanda müşahidə edilən kütləvi yeniləşmə prosesinin bütün səviyyələrdə müstəqil dövlətçiliyin əsaslarını daha da möhkəmləndirdiyi, ictimai münasibətləri yeni keyfiyyət səviyyəsinə yüksəltdiyi və bütün bunların insan kapitalının inkişafına xidmət etdiyini göstərə bilərik.

Ayrıca, Prezident İlham Əliyevin ölkənin strateji inkişafı üçün müəyyən etdiyi kursun əsas hədəfinin qüdrətli dövlət və yüksək rifah cəmiyyəti olması bütün məqamlara aydınlıq gətirir. Bu yolda Azərbaycan Konstitusiyasının ali təsisedici güc kimi funksiyasını tam yerinə yetirməkdə davam edəcəyinə əminik. Bununla bərabər Azərbaycan Respublikasının həm daxili, həm də xarici suverenliyinin yeni mükəmməl səviyyəyə yüksələcəyi şübhə doğurmur!

Azərbaycan müstəqil dövlət və vətəndaş cəmiyyəti kimi Ümummilli lider Heydər Əliyevin Konstitusiyamızla bağlı ifadə etdiyi aşağıdakı tövsiyələrini heç zaman unutmayacaq. Ulu öndər öyrədirdi: "Azərbaycanın tarixi keçmişi, bugünkü reallıqlarını və gələcək perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir. Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda, ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi naliyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik"!

**20 sentyabr Azərbaycan xalqı üçün ilahi ədalətin tam bərpa edildiyi bir tarixdir. Məhz bu tarixdə 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən Müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və dövlət suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir. 28 dekabr 2024-cü il tarixində isə Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən sərəncam imzalanmışdır.**

***Gün gələcək Azərbaycan dünyaya Günəş kimi doğacaq.***

**Ümummilli lider Heydər ƏLİYEV**

# Müstəqil, suveren və xoşbəxt Azərbaycan



Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və 1918-ci il 28 may tarixində müsəlman Şərqində ilk demokratik respublikanın əsasını qoymuşdur. Mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurası Azərbaycanın müstəqilliyi haqqında “İstiqlal bəyannaməsi”ni qəbul etdi. Milli Şuranın 24 səslə qəbul etdiyi qərar və altı bənddən ibarət “İstiqlal bəyannaməsi”, yaxud “Müstəqillik” (əqdnamə) Azərbaycan millətinin varlığını bütün dünyaya bəyan etdi. Beləliklə, Azərbaycan dövlətçiliyi tarixində ilk Konstitusiya aktı – “İstiqlal bəyannaməsi”nin qəbulu ilə Azərbaycan dövlətçiliyi Xalq Cümhuriyyəti formasında elan olundu. Bu hüquqi və siyasi sənəddə müstəqil Azərbaycan dövlətinin yaranıb bəyan edilməsi, onun hakimiyyətinin şamil olunduğu ərazinin hüdudları müəyyənləşdirilmiş, həmçinin dövlətin əsas fəaliyyət prinsipləri öz əksini tapmışdır. “İstiqlal bəyannaməsi”ndə demokratik dövlətə məxsus atributların – hakimiyyətin xalqa mənsubluğu, vətəndaşların mülki və siyasi hüquqlarının təmin edilməsi, bütün xalqların və hər bir kəsin milli, dini, sinfi, silki və cinsi mənsubiyyətindən asılı olmayaraq azad inkişafı üçün şərait yaradılması, ən nəhayət, hakimiyyətin bölünməsi kimi prinsiplərin dövlət fəaliyyətinin əsası kimi bəyan edilməsi Azərbaycan xalqının suveren, demokratik, hüquqi dövlət yaratmağa qətiyyətlə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi. “İstiqlal bəyannaməsi” Azərbaycan millətinin siyasi-hüquqi və mənəvi-psixoloji statusa – millət-dövlət statusuna qədəm qoyduğunu göstərdi. Həmin bəyannamədə Azərbaycanın ərazi suverenliyi ilə bağlı belə qeyd edilirdi: “Bu gündən etibarən Azərbaycan xəlqi hakimiyyət həqqinə malik olduğu kibi Cənubi-Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan dəxi kamil-əl-hüquq müstəqil bir dövlətdir.” Cənubi-Şərqi Zaqafqaziya deyildikdə yalnız bugünkü müstəqil Azərbaycan Respublikasının ərazisi deyil, həm də tarixi Zəngəzur ərazisi, qədim İrəvan, Borçalı, Dərbənd elləri də nəzərdə tutulurdu. Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı, lakin bu qısa ömrünə baxmayaraq Azərbaycan dövlətçiliyi üçün müasir sərhədləri müəyyənləşdirmiş oldu. 1920-ci il Paris Sülh Konfransında isə ən yüksək şəkildə təmsil olunmaqla 11 yanvar tarixində Müttəfiq Dövlətlərin Ali Şurası tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin istiqlaliyyətinin de-fakto tanınması dövlətçilik tariximizdə mühüm bir dönüş nöqtəsi oldu. Həmin konfransda Azərbaycanı layiqincə təmsil etmiş Əlimərdan bəy Topçubaşov belə yazırdı: “Qafqazın gələcək taleyi ilə bağlı gürcülər bizimlə bütün məsələlərdə həmrəydirlər. Ancaq ermənilər bizdən və gürcülərdən qaçmaqla, az qala Qafqazda bir yerdə yaşamağımızı şübhə altına almaq istəyirlər. Ermənilər unudurlar ki, biz Parisə sülhə nail olmaq üçün gəlmişik.” Ermənilərin bu istəklərinin arxasında onları Qafqazda ilk dəfə kütləvi şəkildə məskunlaşdırmış çar Rusiyasının, daha sonra sovet Rusiyasının dəstəyi və baş verənlərə yön verməsi dayanırdı. Məhz bu amil 1920-1993-cü ildə Azərbaycanın ərazi suverenliyinin kobud şəkildə pozulması ilə nəticələndi.

1920-ci il 28 aprel tarixində Azərbaycanın sovet Rusiyası tərəfindən işğalı xalqımız üçün böyük bir fəlakətin əsasını qoydu. İşğalın ilk günündən Azərbaycanın ərazi bütövlüyünə qəsdlər oldu və Paris Sülh Konfransında tanınmış Azərbaycan hüdudları pozuldu. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Paris Sülh Konfransına təqdim etdiyi sənədlərə görə, Azərbaycan Xalq Cümhuriyyətinin həqiqi hakimiyyəti altında olan ərazi Qafqaz (Cənubi) ərazisinin 38 faizini, Azərbaycan hakimiyyətinin yayıldığı ərazilərlə birlikdə isə 60,7 faizini əhatə etdiyi bildirilirdi. Bu da 113,9 min kv.km. idi. Bu ərazinin 97,3 min kv.km-i mübahisəsiz, 16,6 min kv.km-i mübahisəli ərazilər sırasına daxil idi. 1920-ci il 28 aprel işğalından sonra Azərbaycan Sovet Sosialist Respublikası yaradıldı və dövlətin ərazisi hər hansı bir əsas olmadan 86,6 min kv.km. müəyyən edildi. Hələ Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının ikinci günü – 29 may tarixində müəyyən şərtlər daxilində 9 min kv.km İrəvan ərazisi Ararat Respublikasına güzəştə gedilmiş İrəvan ərazisinin taleyi isə heç müzakirə mövzusu olmadı. Halbuki həmin şərtlərin hamısı pozuldu. Belə ki, Ermənistan hökuməti İrəvanda və yeni yaradılan erməni dövlətinin digər ərazilərində müsəlmanların sərbəst dini ibadət, mədəniyyət, siyasi və ana dilində təhsil almaq hüquqlarını təmin etməyi öhdəsinə götürürdü, ermənilər Azərbaycana qarşı ərazi iddialarından imtina edirdi. Lakin ermənilərin öz üzərinə götürdükləri öhdəliklərin əksi baş verdi. 1920-ci il avqustun 10-da isə Rusiya və Ermənistan arasında bağlanmış sazişə əsasən Azərbaycanın Şərur-Dərələyəz bölgəsi Ermənistana verildi. Bundan sonra Zəngəzur, Naxçıvan və Qarabağın dağlıq hissəsi mübahisəli ərazi hesab edildi.

1920-ci ilin 30 noyabr tarixində “Ermənistanda İnqilab Komitəsinin Ermənistanda Sovet hakimiyyətinin elan olunması haqqında teleqramı” AK(b) P MK Siyasi və Təşkilati bürolarının iclasında müzakirəyə çıxarıldı. Həmin iclasın yekununda qəbul edilmiş qərarın “v” bəndinə görə “Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir” kimi absurd qərar qəbul edildi. Bu da azmış kimi, qərarın “q” bəndində Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi, “d” bəndində Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verilirdi. “j” və “i” bəndlərində isə N.Nərimanova yuxarıda qeyd edilənlərlə bağlı xüsusi bəyanat hazırlamaq və onu Bakı Sovetinin plenumunda bəyan etmək tapşırıldı. Qərarın ədalətsizliyini heç müzakirə etməyə dəyməz. Əgər ərazi məsələlərinə “Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir” kimi



*Anar İSGƏNDƏROV,*
*Milli Məclisin Elm və təhsil komitəsinin sədri, tarix elmləri doktoru, professor*

beynəlmiləlçi bir kontekstdən yanaşılırdısa onda qərarın “q” və “d” maddələrinə nə ehtiyac var idi? Tarixi və hüquqi baxımdan Azərbaycana məxsus bu torpaqlar Azərbaycanda da qala bilərdi. Onsuz da sərhəd anlayışı bu iki dövlət arasında yox sayılırsa, bəs onda niyə həmin ərazilərin məhz Ermənistana verilməsi lazım bilinirdi? Axı bunun üçün heç yetərli iqtisadi səbəblər də yox idi. Deməli, bu beynəlmiləlçi bənd sadəcə əsil niyyəti ifadə edən “q” və “d” maddələrinə “yumşaldıcı” bir giriş idi. Ermənistanda həm daşnak hökuməti dövründə, həm də sovet hakimiyyəti qurulduqdan sonra Naxçıvanın Azərbaycandan qoparılaraq Ermənistana ilhaq edilməsi üçün çoxsaylı cəhdlər edilsə də, Naxçıvan əhalisinin qətiyyətli mövqeyi bu işin baş tutmasına imkan vermədi. Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında Ulu öndər Heydər Əliyevin 1999-cu il 4 fevral tarixli fərmanında da qeyd olunduğu kimi, “Naxçıvan əhalisinin 90 faizdən çoxu 1921-ci ilin əvvəlində Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilmiş rəy sorğusunda Naxçıvan mahalının muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs vermişdir”. Təbii ki, bu məsələdə Türkiyənin Azərbaycana verdiyi dəstəyi xüsusi qeyd etmək lazımdır. Belə ki, türk nümayəndə heyətinin rəhbəri Yusif Kamal bəy Moskvaya yola düşmək ərəfəsində, 1920-ci il dekabrın 13-də Mustafa Kamal paşa ilə görüşərkən “Paşam, ruslar Naxçıvan üzərində israr edərlərsə, nə edək?” deyə soruşduqda M.Kamal paşa: “Naxçıvan türk qapısıdır. Bu xüsusu nəzərə alaraq əlinizdən gələni edin” cavabını vermişdi. Naxçıvanın taleyinə də məhz Türkiyə ilə Rusiya Federasiyası arasında 1921-ci ildə baş tutan Moskva və Qars danışıqları ilə aydınlıq gətirilmiş oldu. Nəticədə isə 1922-ci ilin dekabrında I Zaqafqaziya Sovetlər qurultayı Naxçıvan məsələsi üzrə qəbul etdiyi xüsusi qərarında Naxçıvanı muxtariyyət statusunda Azərbaycan SSR-in ayrılmaz və tərkib hissəsi olduğunu təsdiq etdi. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan muxtar diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi təsdiq edildi. Nəticədə ermənilərin Naxçıvanın Azərbaycandan qoparılmasına yönəlmiş düşmənçilik fəaliyyətləri boşa çıxdı və Naxçıvanın Azərbaycan dövlətçiliyindəki yeri öz hüquqi həllini tapmış oldu. Naxçıvan MSSR yaradıldığı vaxt ərazisi Qars müqaviləsinin III əlavəsi əsasında 5988 kv.km müəyyən edilmişdi. 1929-cu il fevralın 18-də Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Naxçıvana məxsus ərazilərin bir hissəsi, o cümlədən Qorçevan, Qurdqulaq, Horadiz, Ağxəç, Oğbin, Almalı, İtqıran, Sultanbəy kəndləri, həmçinin Kilit kəndi torpaqlarının bir hissəsi əkin sahəsi, otlağı, biçənəyi ilə birlikdə Ermənistana verildi. Beləliklə, 1929-30-cu illərdə Ermənistan SSR-yə verilən ərazilər hesabına Naxçıvan MSSR-in ərazisi azalaraq 5,5 min kv.km oldu. 1930-cu ildə isə Naxçıvan MSSR-in Əldərə, Lehvaz, Astazur, Nüvədi və s. yaşayış məntəqələri Ermənistana verilmiş və həmin ərazidə Mehri rayonu yaradılmışdır.

1921-ci ildə Borçalı qəzasının mərkəzi hissəsi Gürcüstana verildi. 1922-ci ildə Azərbaycanın Qarayazı torpağı iki yerə bölündü. Yuxarı Qarayazı Gürcüstana verildi. Aşağı Qarayazı Azərbaycanın tərkibində qaldı. 1921-ci il iyulun 4-də Rusiya K(b)P Qafqaz Bürosunun iclasında Qarabağın dağlıq hissəsinin Ermənistana verilməsi haqqında qərar qəbul edildi. N.Nərimanovun etirazı ilə iyulun 5-də Qafqaz Bürosu Qarabağın dağlıq hissəsinin Azərbaycan SSR-nin tərkibində, paytaxtı Şuşa olmaqla vilayət muxtariyyəti statusu olan qərar qəbul etdi. 1923-cü il iyulun 7-də Moskvanın təzyiqi ilə Azərbaycan SSR MİK-i Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) yaradılması haqqında qərar qəbul etdi. DQMV-nin inzibati mərkəzi Xankəndi seçildi. İki ay sonra isə ermənilər Xankəndinin adını dəyişərək Stepanakert adlandırdılar. 4.161 kv. km. sahəsi olan vilayətin “Əsasnamə”sinə görə Şuşa şəhəri və Xankəndindən 115 kənd, Cavanşir qəzasından 52 kənd, Qaryagin qəzasından 32 kənd, Qubadlı qəzasından Qaladərəsi DQMV-yə verildi. Beləliklə, inzibati-ərazi bölgüsündə aparılan dəyişikliklər nəticəsində 85968 kv. km. ərazisi olan Azərbaycan SSR-nin tabeliyində bir Respublika (Naxçıvan SSR ərazisi 5.988 kv. km), bir muxtar vilayət (DQMV-nin ərazisi 4.161 kv. km.) və 13 qəza (Ağdam, Bakı, Gəncə, Göyçay, Cəbrayıl, Qazax, Zaqatala, Quba, Laçın, Lənkəran, Nuxa, Salyan, Şamaxı) yaradıldı.

Azərbaycan ərazilərinə qarşı ermənilərin yeni iddiaları İkinci Dünya müharibəsindən sonra yenidən baş qaldırdı. 1945-ci ilin payızında Ermənistan hakimiyyəti A.Mikoyanın rəhbərliyi ilə Ermənistanda gizli “Qarabağ komitəsi”ni yaratdı, Dağlıq Qarabağın Ermənistana verilməsi tələbi irəli sürüldü, lakin həmin dövr Azərbaycana rəhbərlik etmiş Mircəfər Bağırovun qətiyyəti sayəsində bu tələb rədd edildi. Azərbaycana qarşı əsassız ərazi iddialarından əl çəkməyən Ermənistan rəsmi dairələri 1952-1953-cü illərdə Gədəbəy rayonunun Tağlar kəndinin Ermənistan SSR-nin Şəmşəddin rayonuna birləşdirilməsi haqqında məsələ qaldırdılar. Lakin erməni iddiaları SSRİ Kənd Təsərrüfatı Nazirliyi tərəfindən rədd edildi. Nazirlik məsələni araşdırdıqdan sonra kəndi Gədəbəy rayonunun tərkibində saxladı. Azərbaycan KP MK Bürosunun 1969-cu il 21 may tarixində keçirilən iclasında iki respublika arasında sərhədin coğrafi təsvirinin təsdiqinə dair Azərbaycan Ali Sovetinin qərar layihəsi bəyənildi. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin təqdim etdiyi Azərbaycan SSR və Ermənistan SSR arasında sərhədin topoqrafik xəritəsi təsdiq edildi. Erməni dairələri XX əsrin 70-ci illərində “Dağlıq Qarabağ məsələsi”ni yenidən gündəliyə gətirsələr də, həmin niyyətin qarşısı alındı. 1977-ci ildə SSRİ, 1978-ci ildə isə Azərbaycan SSR konstitusiyalarının layihələri müzakirə olunarkən bəzi ermənilər mərkəzi orqanlara müraciət edərək “Dağlıq Qarabağ məsələsi”ni qaldırdılar. Lakin Sov İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın 1-ci katibi Heydər Əliyev bu zaman Krımda istirahət edən Sov İKP MK-nın baş katibi L.İ.Brejnev ilə görüşərək erməni avantüristlərinin əsassız iddialarını puça çıxardı.

XX əsrin 80-ci illərində keçmiş SSRİ-də başlayan “yenidənqurma” və “aşkarlıq” Azərbaycanın DQMV-də milli münaqişə ocağının yenidən alovlanmasına gətirib çıxardı. 1987-ci ilin noyabrında Parisdə Qorbaçovun əlaltılarından olan Aqanbekyanın Dağlıq Qarabağın Ermənistana verilməsinin məqsədəuyğunluğu barədəki bəyanatı ilə başlanmış bu proses Azərbaycan üçün mənfi nəticələr verdi. Əvvəlcə, soydaşlarımız Ermənistan SSR ərazisindən deportasiyaya məruz qaldılar. 1988-ci ilin yanvarında Qafan və Mehri rayonlarında başlayan etnik təmizləmə tədricən Qarabağın dağlıq hissəsində də həyata keçirilməyə başlandı. 1988-1991-ci illərdən indiki Ermənistan ərazisindən 300 minə yaxın soydaşımız deportasiya olundu. 1991-ci il avqustun 8-də Ermənistan SSR-də sonuncu Azərbaycanlı kəndi-Nüvədi boşaldıldı. Ermənistan Respublikası 1990-cı illərin əvvəllərindən başlayaraq Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasəti həyata keçirmiş və hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etmişdir. Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər nəticəsində şəhər və kəndlərimiz viran edilmiş, ölkəmizin təbii resursları talan olunmuş, dövrümüzün ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı törədilmişdir. Xüsusilə də 1990-ci ildə törədilmiş qanlı 20 yanvar faciəsi Azərbaycan xalqının ərazi suverenliyi uğrunda mübarizəsinin qarşısını almaq məqsədi daşıyırdı, lakin xalqımızın ortaya qoyduğu möhkəm iradə və 1990-cı il yanvarın 21-də Ulu öndər Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqla birlikdə olduğunu bildirməsi bir il sonra xalqımızın müstəqilliyini bərpa etməsi ilə nəticələndi.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991–1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır.

*(ardı 11-ci səhifədə)*

# Müstəqil, suveren və xoşbəxt Azərbaycan

*(əvvəli 10-cu səhifədə)*

Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra da 1978-ci il Konstitusiyası qüvvədə qalmaqda davam edirdi. “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktının 4-cü maddəsinə görə həmin Konstitusiya yalnız Aktın müddəalarına zidd olmayan hissələr üzrə tətbiq olunurdu. 1991-ci il fevralın 9-da Ali Sovetin qərarı ilə Konstitusiya Komissiyası yaradıldı, lakin nə iclas keçirdi, nə də yeni Konstitusiya layihəsi hazırladı. 1993-cü il dekabrın 6-da formalaşdırılan yeni Konstitusiya Komissiyası isə yalnız 1994-cü ildən fəaliyyətə başladı. Konstitusiya Komissiyasına Prezident Heydər Əliyev rəhbərlik edirdi. Ümummilli lider Heydər Əliyev komissiyanın iclasındakı tarixi çıxışında demişdir: “Biz müstəqil Azərbaycan Respublikasının, demək olar, ilk Konstitusiyasını yaradırıq. Çünki 1991-ci ildə qəbul olunmuş müstəqillik haqqında Akt, – biz onu konstitusiya xarakterli bir sənəd kimi qəbul edirik, – konstitusiya olmayıbdır. Bizim yeni Konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir.”

Müstəqil Azərbaycanın yeni Konstitusiya layihəsinin hazırlanmasına təşəbbüs göstərən Prezident Heydər Əliyev prosesin sürətləndirilməsi üçün layihənin xüsusi komissiyada müzakirəyə çıxarılmasına dair göstəriş verdi. Prezidentin sədrlik etdiyi bu komissiyaya məhkəmə, icra və qanunvericilik orqanlarının nümayəndələri ilə yanaşı, hüquqşünaslar, fəlsəfə və siyasi elmlər üzrə mütəxəssislər də daxil edilmişdi. Komissiya daxil olan təkliflərin araşdırılması üçün işçi qrup formalaşdırdı. Layihənin ümumxalq müzakirəsini təmin etmək məqsədilə Konstitusiya mətni 1995-ci il oktyabrın 15-də mətbuatda dərc edildi. Toplanan 2450 təklifdən bir hissəsi son variantda nəzərə alınaraq, sənəd 12 noyabrda keçirilən ümumxalq səsverməsi ilə qəbul olundu. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

Konstitusiyanın 7-ci maddəsində deyilir: “Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar, suveren respublikadır”. Bu gün həmin maddə demək olar ki, hər bir vətəndaşa yaxşı məlumdur. Lakin orada qeyd olunan hər bir ifadənin arxasında necə möhtəşəm quruculuq proseslərinin dayandığını hər kəsin tam şəkildə təsəvvür etməsi asan deyil. Çünki Azərbaycan dövləti müstəqilliyini əldə etməklə yanaşı, ilk dəfə olaraq milli dövlətçilik, müstəqil, demokratik və hüquqi dövlət quruculuğunu qısa müddətdə və eyni vaxtda həyata keçirmək kimi məsuliyyətli bir vəzifə ilə üz-üzə qalmışdı. Tarixi təcrübəyə baxdıqda isə görünür ki, digər ölkələr bu mərhələləri uzun zaman ərzində, tədrici şəkildə və ardıcıl inkişaf yolu ilə keçmişlər. Lakin Ümummilli lider Heydər Əliyev buna qısa zamanda nail oldu və onun vəfatı belə bu işi yarıda qoymadı. Çünki 2003-cü ildən Azərbaycana Heydər Əliyev yolunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev rəhbərlik etməyə başladı.

2003-cü ilin payızında Ulu öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət etdi və çıxışı zamanı Qarabağı düşməndən azad etmək və Azərbaycanın ərazi suverenliyini təmin etmək üçün xalqımızı qalib xalqlar sırasına çıxara biləcək Ali Baş Komandanı təqdim etdi. “Mən ona öz varlığım kimi inanıram” deyən Ümummilli lideri Xalq eşitdi və onun vəsiyyətinə əməl etdi. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan Respublikası addım-addım öz ərazi suverenliyini bərpa etməyə başladı. Aprel döyüşləri, Günnüt əməliyyatı, Tovuz döyüşlərində qazanılan qələbə bunun ilk işartıları idi. Öz cəsarəti, qətiyyəti və təcrübəsi ilə Ali Baş Komandan sübut etdi ki, heç bir dövlətin təhdidi və hədəsi onu yolundan döndərə bilməz. Bu haqq işində o, öz xalqına və yetişdirdiyi əsgərlərinə inanır və etibar edir. Belə də oldu.

Aprel döyüşləri və ya Dördgünlük müharibə 2016-cı ilin aprelin 1-dən 2-nə keçən gecə başlayaraq Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında baş vermişdir. Bu döyüşlər zamanı, Azərbaycan Silahlı Qüvvələrinin birləşmələri Goranboy rayonuna və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəklikləri, eləcə də Seysulan məntəqəsini azad edib, Füzuli rayonu istiqamətində yerləşən “Lələ təpə” adlandırılan yüksəkliyə nəzarəti ələ keçirmişdir. Döyüşlər nəticəsində, Azərbaycan Silahlı qüvvələri Ağdərə-Madagiz (Suqovuşan) istiqamətində yolların nəzarətdə saxlanılmasını təmin etmişdir. 31 mart 2017-ci ildə cənab İlham Əliyev Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçilərlə keçirdiyi görüşdəki çıxışında da bu məqama diqqəti yönəldərək demişdi: “Aprel döyüşləri zamanı onlar beynəlxalq təşkilatlara, ayrı-ayrı ölkələrə müraciət etmişlər ki, döyüşlər tezliklə dayandırılsın. Halbuki Dağlıq Qarabağ məsələsi bizim daxili məsələmizdir. Dağlıq Qarabağ bütün dünya tərəfindən, Minsk qrupunun həmsədr ölkələri tərəfindən Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınır.” Aprel döyüşlərindən iki il sonra – 2018-ci ilin mayında Günnüt zəfəri qazanıldı. Əlahiddə Ümumqoşun Ordunun əks-həmləsi nəticəsində “Xunut” dağı və “Ağbulaq” yüksəkliyi, “Qızılqaya” dağı və “Mehridağ” işğaldan azad edildi. Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Beləliklə, Əlahiddə Ümumqoşun Ordunun müdafiə zolağının ön xəttinin dövlət sərhədi boyu əlverişli mövqelərə irəli çəkilməsi əməliyyatı uğurla nəticələndi, qarşıya qoyulan məqsədə nail olundu. Azad edilən və dəniz səviyyəsindən 1683 metr hündürlükdə yerləşən Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti ordumuza İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etmək imkanı verməsi idi. Həyata keçirilən əməliyyat nəticəsində paytaxt İrəvanı Ermənistanın cənubu və eləcə də işğal altındakı Qarabağ ərazisi ilə birləşdirən əsas magistral yolun mühüm bir hissəsinin Əlahiddə Ümumqoşun Ordu bölmələrinin bir neçə istiqamətdə tam vizual nəzarəti altına keçməsi mühüm hərbi üstünlük demək idi. Ermənistan bütün bu dərslərdən nəticə çıxarmadı. Vətən müharibəsindən əvvəl, iyul ayının 12-16-da Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində erməni tərəfi növbəti dəfə təcavüzkar hərəkətə yol verdi. Lakin görülən adekvat tədbirlər nəticəsində düşmənə ağır zərbə endirildi və işğalçı itki verərək geri oturduldu. Tovuz döyüşləri ölkəmizdə xalq və Prezident, xalq və ordu birliyinin yenidən təcəssümünə çevrildi.




Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etmiş və tarixi Zəfər qazanmışdır. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur.

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır. Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

**Azərbaycan dövlətinin konstitusiya hüququ olan ərazi bütövlüyünün bərqərar edilməsi, suverenliyinin tam təmin olunması şair və yazıçılarımızın da yaradıcılığından qırmızı xətlə keçir. Xalq şairi Sabir Rüstəmxanlı qələmə aldığı “Qarabağa dönüş” poeması da bu sırada öncül mövqe tutan nümunələrdəndir.**

Bir vaxt yazdığı “Ömür kitabı” ilə milli və dövləti mənlik şüurumuzu dirçəldən Sabir Rüstəmxanlı istiqlalımızın rövnəqləndirilməsinə ilk toxumu səpənlərdən olub. İndi isə, budur, şairin yeni parlaq əsəri ruhumuza ərməğan olub. Təkcə Zəfərin tərənnümü deyil, eyni zamanda, tarixə ibrətamiz səyahət səciyyəsi daşıyan “Qarabağa dönüş” həm də bütövlük salnaməmizin növbəti bədii pilləsi, müjdə rəmzi kimi dəyərlidir. Burada tarixin keşməkeşlərindən şərəflə keçən, hürr yaşamağa halal haqqı çatan türk toplumunun vəhdətindən bədii dillə söz açılır.

Sabir Rüstəmxanlı buna qədər “Gəncə qapısı”nı döyüb, “Qan yaddaşı”mızı oyadıb, “Zaman məndən keçir” deyərək mübarizəmizi ovxarlayıb, dərdimizi “Ölüm zirvəsi”nə qaldırıb, fədailərə “Dərdə əyilmə”, “Sunami”lərdən çəkinmə xəbərdarlığı edib. İndi də “Qarabağa dönüş”ü müzəffər hərbi və bədii marş sədalarının müşayiəti ilə pardaqlandırıb.

“Qarabağa dönüş”lə bağlı fikirlərini bildirən qələmdaşlarının da vurğuladıqları kimi, Sabir Rüstəmxanlı yaşının və yaradıcılığının müdriklik çağında ədəbiyyatımıza bəxş etdiyi bu poema ilə bir daha vətəndaş şair olaraq hər zaman azərbaycançılıq məfkurəsinə sıx bağlılığını göstərib.

# “Qarabağa dönüş”

**(poemadan parçalar)**



***...Savaş deyən sərkərdə milləti oyandırdı,***
***Hər ürəkdə ümiddən çilçıraqlar yandırdı.***
***Yol gözləyən yurdların harayı hər gün təzə,***
***On milyonun tək səsi yol açdı üzümüzə.***
***Qalxdı igid oğullar, oğul düşmən çəpəri,***
***Qalxdı əmrə müntəzir Azərbaycan əsgəri!***
***Nəfəsi yaz nəfəsi, səsi ildırım səsi,***
***Yurdun coşan ilhamı, qisas almaq həvəsi.***

***

***Murovun, Dəlidağın üstündən çəkilir çən,***
***Qəddini yavaş-yavaş dikəldir yorğun Vətən.***
***İntizarı dağılır yad olmuş sahillərin***
***Süsləndikcə üçrəngli bayraqla Xudafərin.***
***Otuz il ümid verib bizi susduran susur,***
***Ümidini qırdıqca Azərbaycan ordusu.***
***Bayram havası gəzir şəhərləri, kəndləri***
***Paylandıqca hər axşam qələbə tvitləri.***

***Ax dünya, qəddar dünya, əsiridir yalanın,***
***Başını əzib keçmir bu zəhərli ilanın,***
***Köhnə Səlib havası dolaşdıqca başında***
***Neçə ölkə səf tutur yenə din savaşında.***
***Tanrı da əsir düşüb siyasətə, sirr deyil,***
***O özü bir olsa da elçiləri bir deyil.***
***Şükür, yıxıb dağıdır bu çürüyən bütləri***
***Qanımdan qanad taxan qələbə tvitləri.***

***Şeytan üskük oynadır erməni kilsəsində,***
***Nə Allah sevgisi var, nə inanc hiyləsində.***
***Hər keçənə əl açır, hər tərəfdən pay umur,***
***Dosta xəyanət edib kənardan haray umur.***
***İnsanlıqdan danışır, ancaq xəyalında qan,***
***Nə keşişdən əl çəkir, nə ayrılır molladan.***
***Pozur bu oyunları yurdumun igidləri***
***Yayıldıqca dünyaya qələbə tvitləri.***

***Qartal kimi açılır Şuşanın qanadları,***
***Yorur Cıdır düzünü Qarabağın atları.***
***Haqq tutur öz yerini, kökü kəsilir şərin,***
***Dağıdır matəmini səsimiz Kəlbəcərin.***
***Açır öz qollarını Kirs yolu, Laçın yolu,***
***Düzlənir ayağımda dağların qırçın yolu.***
***Aşıb keçir əsgərim divarları, sədləri***
***Dilində nəğmə kimi qələbə tvitləri!***

***

***Bir vaxt Nuru paşa da gəldi qardaş hayına,***
***Dirək oldu yurdumda min könül sarayına,***
***Ocağımız küllənib, ümidimiz sönəndə,***
***Bakı, Şuşa, Zəngəzur qan gölünə dönəndə.***
***Tiflisdən, Qarabağdan, Naxçıvandan keçmişdi.***
***Neçə gizli tələdən, neçə qandan keçmişdi.***
***Osmanlı zor durumda, qardaşın halı da pis,***
***Bir yanda rus daşnakla, bir tərəfdə ingilis.***
***Bütün oyunlar bitib, bütün yollar tutulmuş,***
***Bakı bunların olub, millətim unudulmuş.***
***Onda da öyünürdü düşmən silah-sursatla,***
***Bakı dəmir zirehdə, paşam tələsir atla,***
***Ancaq atı uçuran belindəki qeyrətdi,***
***Düşməni diz çökdürən gənc paşaya heyrətdi...***
***Aradan yüz il keçib, dünya köhnə dəyirman,***
***Üyüdülmək növbəsi - sırada biz, müsəlman!***
***Sırada biz - Ədalət! Haqq deyib, haqq istəyən,***
***Öz halal torpağına sahib çıxmaq istəyən!***
***Zaman deyir dağının, daşının qədrini bil,***
***Oköməyə tələsən Paşanın qədrini bil!***
***Kökün, gövdən bir olub, budağın da bir olsun,***
***Qaldır bu sərhədləri, torpağın da bir olsun!***
***Mən bu yolun ağıyam,***
***Ağıyam, çırağıyam,***
***Sür gözünə nur gəlsin***
***Türküstan torpağıyam!***
***Torpağın bir olanda gözünə nur gələcək!***
***Sənin ədalətində millətlər dincələcək!***




***Bu bizim haqq işimiz, ədalət savaşımız,***
***İntiqam ala-ala dikələcək başımız.***
***Vur, əsgərim, vur! - deyə əmr eləyir Komandan***
***Qoy bir də yurdumuzda tokülməsin nahaq qan.***
***Qayıtsın Qarabağa yenə xoşbəxt çağımız,***
***Başımızın üstündə üçrəngli bayrağımız!..***
***Qovur öz yuvasına quduzlaşan itləri***
***Ali Baş Komandanın qələbə tvitləri!..***

***

***Gözün aydın, Millətim, qurtardın sıxıntıdan,***
***Daha hədyan maşını üstünə gələ bilmir.***
***Ancaq erməni pulu dolaşdıqca ortada***
***Dini, irqi pul olan yatıb dincələ bilmir...***

***Dünya boynunu büküb böyük güclər önündə***
***Çarəsiz, əli bağlı sonunu gözləyərkən.***
***Ayılara güvənən tülkünü boğmağınla***
***Məzlumların könlünə sən oldun ümid əkən.***

***O əllər ki, uzandı sənə çətin günündə***
***Qardaşların əlidir qızıla tutulmalı.***
***Üzdə bəradər deyib, düşmənə dayaq olan***
***Dinimə ləkə olan şeytandan qurtulmalı.***

***Turan deyib qorxurlar, sən də böyü Turan ol!***
***Bu nifrət əkənlərin ümidini qıran ol!..***

***

***… Dağlara ruh gələcək Şikəstədən, Muğamdan***
***Düşmənlərin əlini üzəcəyəm yaxamdan.***
***Millətim dikələcək qırx milyon, əlli milyon.***
***Bu birlik mahnısını qitələr eşidəcək,***
***Gəncədən Naxçıvana, Naxçıvandan Qəzvinə***
***Əngəlsiz, maneəsiz yollarım çəkiləcək!***
***Sümüyə dirənibsə əsarət bıçaqları***
***Qapımın ağzındadır, demək xoşbəxt çağlarım.***
***Tarix qatarlarını saxlamaz öz yolundan***
***Kiminsə hədələri, kiminsə öləcəyi.***
***Azərbaycan içindən doğulur, diqqətlə bax,***
***Xalqın ruhu bütövsə, bütövdür gələcəyi!***

***

***Bu sözlər yazılanda hələ keçən əsrdi,***
***Hələ Qarabağımız erməniyə əsirdi.***
***Ölkə zəif, imkansız, halı pisdir millətin,***
***Arxalı köpəkləri silahla yenmək çətin...***
***İşğalçı göz yaşıyla əl atırdı hər yana,***
***Dünya bizi eşitmir, dünya ona inanan.***
***Ancaq türkün şərəfi taxtından enməmişdi.***
***İçimdəki ümidlər sozalıb sönməmişdi...***

**Noyabr, 2020**

**1991-ci ilin 18 oktyabrında 71 il itirilmiş dövlət müstəqilliyinin bərpa edilməsi Azərbaycan xalqının tarixində yeni eraya bərabər ən yeni tarixin başlanğıcını qoydu. Doğrudur, bu epoxaya gələn yol Qərbi Azərbaycanda soydaşlarımızın son nəslinin də kütləvi deportasiya və soyqırımından, Qanlı Yanvar faciəsindən, Qarabağın çoxillik işğalından, yüz minlərlə insanın öz ölkəsində məcburi köçkünə çevrilməsindən keçdi. Lakin qarşıya çıxan fəlakətli sınaqlar, amansız məhrumiyyətlər, Azərbaycanın müstəqillik savaşına düşmən kəsilmiş qüvvələrin təxribat və xəyanətləri xalqımızı tutduğu yoldan çəkindirə bilmədi.**

Vaxtaşırı döyüş şəraitinə yaxınlaşdırılmış təlimlərin keçirilməsi, beynəlxalq döyüş təcrübəsinin öyrənilməsi və əldə edilən biliklərin ən müasir hərbi texnikanın imkanları ilə əlaqələndirilməsi Azərbaycan Ordusunu keyfiyyətcə yeni bir səviyyəyə qaldırdı. Güclü ordunun yaradılması İlham Əliyevin ölkə Prezidenti kimi izlədiyi siyasətin prioritet istiqamətlərindən birinə çevrildi: "ordumuz üçün nə lazımsa, biz edirik və edəcəyik". Çünki cənab Prezident özü də təkrar-təkrar bəyan edirdi ki, Azərbaycanın müstəqilliyinə qarşı yönəlmiş çağırışların qarşısının alınmasının və keçmiş Dağlıq Qarabağ münaqişəsinin həll edilməsinin etibarlı yollarından biri məhz Azərbaycan Ordusunun daha da gücləndirilməsi idi.



# Böyük Zəfərin bütövləşdirdiyi suverenlik



Nəhayət, Azərbaycan xalqı öz taleyinə sahib çıxdı, suverenliyinin bərpasını bütün dünyaya elan etdi. Müstəqilliyin bərpa edilməsi Azərbaycan xalqının iradəsinin ifadəsi, qanlı-qadalı mübarizəsinin nəticəsi idi. Çünki Azərbaycanın, təxminən, 70 il tərkibində olduğu böyük imperiya bu müstəqilliyin elan edilməsini birmənalı şəkildə qəbul edə bilmirdi. Azərbaycan xalqının tutduğu yoldan döndərilməsi, onun iradəsinin sındırılması üçün bu imperiya ən müxtəlif yollara əl atmaqdan da çəkinmirdi. Elə bunun nəticəsi idi ki, müstəqilliyini elan edəndə Azərbaycanın ərazilərinin işğalına, azərbaycanlıların kütləvi şəkildə öz yurdundan qovulmasına başlandı.

Azərbaycan ərazilərinin 20 faizi imperiya qüvvələrinin və bölgədə təcavüzkar maraqları kəsişən böyük güclərin birbaşa himayədarlıq etdiyi Ermənistan ordusu tərəfindən işğal edildi. Respublikanın ərazi bütövlüyü və işğal edilmiş ərazilərdə Azərbaycanın suveren hüquqları pozuldu. Bununla kifayətlənməyən imperiya gücləri respublikanı vətəndaş müharibəsi həddinə çatdırdılar, şantaj və təzyiqlər yolu ilə Azərbaycanı işğal və suverenliyin itirilməsi reallığı ilə barışmağa məcbur etmək istədilər.

Lakin Azərbaycan xalqı öz dövlətinin rəhbərliyi altında addım-addım bu böhranlı vəziyyətdən uzaqlaşdı və son nəhayətdə Azərbaycan xalqı öz müstəqillik tarixinin zirvəsinə ucaldı – öz ərazi bütövlüyünü və suverenliyini bütünlüklə bərpa etdi. Yalnız Azərbaycan xalqı üçün deyil, Azərbaycanın müstəqilliyinə düşmən olan və onun perspektivinə şübhə ilə yanaşan qüvvələr üçün də möcüzə kimi görünən bu hadisənin baş verməsinin bir mühüm səbəbi var idi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin də dediyi kimi, göstərilən bütün təzyiqlərə və şantajlara baxmayaraq Azərbaycan xalqı işğal faktı ilə barışmadı, öz qətiyyəti və ardıcıllığı ilə bütün dünyaya müstəqillik istəklərinin həyata keçirilməsinin nümunəsini ortaya qoydu.

İşğal faktı ilə barışmamaq qətiyyəti Prezident İlham Əliyevin Vətən müharibəsinin başlanmasına qədər izlədiyi dövlət siyasətinin əsasını təşkil edirdi. 2003-cü ildə ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonra andiçmə mərasimində də İlham Əliyev bu siyasəti əsas tutacağını bildirmişdi. O deyirdi: "Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını, nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Bu siyasət, əslində, İlham Əliyevin miras aldığı siyasətin davamı idi. Prezident seçildiyi gündən 44 günlük Vətən müharibəsinin başlanmasına qədər ötən 17 il ərzində Azərbaycan ərazilərinin işğalına həsr edilmiş elə bir respublika və beynəlxalq tədbir olmamışdı ki, İlham Əliyev bu qətiyyətini orada ifadə etməsin. İşğalla barışmamaq məsələsi, sadəcə, bir mövqe olaraq bəyan edilmədi. Eyni zamanda bu mövqenin əməli şəkildə həyata keçirilməsi üçün konkret addımların atılmasına başlandı.

Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi, nəqliyyat-rabitə infrastrukturunun inkişafı, xarici siyasətin səmərəliliyinin artırılması, milli dəyərlərin qorunması sahəsində köklü dönüşə yol açan işlər görüldü və onlar bu gün də davam etməkdədir. Toxunulan məsələnin hərbi-siyasi həllinə gəlincə isə, bu istiqamətdə daha uğurlu nəticələr əldə edildi.

İlk növbədə, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təmin etməyə qadir olan bir ordusu yaradıldı. Bunun üçün dövlətin gücü, potensialı və bu amilləri ordu quruculuğuna səfərbər etməyi bacaran dövlət rəhbərliyi var idi. İlham Əliyevin izlədiyi uğurlu ordu quruculuğu siyasəti nəticəsində Azərbaycan Ordusunun infrastrukturunda ciddi dəyişikliklər baş verdi, döyüş hazırlığına yeni tələblər irəli sürüldü, bunun üçün yetərli sayda poliqonlar, döyüş hazırlığı meydanları yaradıldı.

Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini qorumağa qadir olacaq güclü ordunu isə yalnız güclü dövlət və güclü mərkəzləşdirilmiş rəhbərlik olan yerdə yaratmaq mümkün idi. Belə güclü dövlətin və mərkəzləşdirilmiş rəhbərliyin təmsilçisi isə Ali Baş Komandandır. Onun rəhbərliyi altında doğru-düzgün və real hədəflərin müəyyənləşdirilməsi və ölkə potensialının planlı şəkildə bu hədəflərin icrasına yönləndirilməsi indi Azərbaycan Ordusunu dünyanın ən güclü orduları sırasına yüksəltmişdir.

Bu ordu artıq Vətən müharibəsindən öncə də dünyanın ən müasir silah və hərbi texnikası ilə təchiz edilmişdi, infrastruktur tamamilə dəyişmişdi, döyüş hazırlığı ən yüksək tələblər səviyyəsinə qaldırılmışdı. Azərbaycan Ordusunun sürətlə inkişaf etdiyini və Vətənin müdafiəsi üçün veriləcək bütün tapşırıqların icrasına qadir olduğunu İlham Əliyev öz çıxışlarında dönə-dönə qeyd edirdi və Ali Baş Komandan kimi onun hazırlıq səviyyəsini yüksək qiymətləndirirdi.

Məhz bu yüksək hazırlıq səviyyəsi ona imkan verdi ki, 44 günlük Vətən müharibəsi günlərində Azərbaycan Ordusunun malik olduğu yüksək peşəkarlıq qarşıya qoyulan vəzifələrin məzmunu ilə düzgün əlaqələndirilsin, zaman və məkan amillərindən səmərəli istifadə edilsin, müəyyən edilmiş tapşırıqlar əsasında əsas zərbə istiqamətini vaxtında və dəqiqliklə müəyyənləşdirilməklə zərbə üstünlüyü yaradılsın və böyük zəfəri addım-addım yaxınlaşdırmaq mümkün olsun.

Bu da öz nəticəsini verdi. Hər gün yeni bir uğur qazanıldı və Ali Baş Komandan İlham Əliyevin də fəxrlə qeyd etdiyi kimi, respublikanın ərazi bütövlüyünü təmin edilməsinə yönəlmiş Vətən müharibəsinin gedişində Azərbaycan Ordusu bir dəfə də olsun tutduğu mövqelərdən geri çəkilmədi, yalnız və yalnız irəli hərəkət etdi. Nəticədə, 2020-ci il sentyabr ayının 27-də Ağdərə və Murovdağ istiqamətində bəzi strateji yüksəkliklər ələ keçirildi. Oktyabr ayının 3-də isə Ağdərə rayonunun Talış kəndi ilə Suqovuşan qəsəbəsi erməni işğalından azad edildi.

Bundan sonra əsas qələbələr cəbhənin cənub hissəsində əldə edildi. Bu da təsadüfi deyildi və döyüşlərin əsas ağırlığının respublikanın cənubuna keçirilməsi ölkənin Ali Baş Komandanının təsdiq etdiyi əməliyyat planına uyğun edilmişdi. Belə bir seçimin edilməsinin səbəbini isə işğaldan azad edilmiş Ağdam rayonuna səfəri zamanı Ali Baş Komandan İlham Əliyev özü açıqlayırdı. Əldə edilmiş operativ məlumatların təhlili əsasında o bəyan edirdi ki, düşmənin hərbi komandanlığı Azərbaycan Ordusunun əsas hücum istiqamətinin Ağdam istiqaməti olacağını gözləyirdi. Ona görə həmin istiqamətin möhkəmləndirilməsinə xüsusi diqqət yetirilmiş və təkcə Ağdam istiqamətində beş xətdə eşelonlaşdırılmış müdafiə yaradılmışdı.

Bütün müdafiə xətləri mühəndis-istehkam qurğuları ilə möhkəmləndirilmiş, hərbi texnika və canlı qüvvə ilə təchiz edilmişdi. Bu istiqamətdən hücumun davam etdirilməsi çoxsaylı canlı qüvvənin itirilməsinə və Azərbaycan Ordusunun irəliləməsinin dayandırılmasına gətirib çıxara bilərdi. Ona görə də Ağdam istiqamətindəki düşmən qüvvələrinin yayınmasına imkan vermədən Azərbaycan Ordusunun dəmir yumruğu cəbhənin cənubuna istiqamətləndirildi. Döyüşlərin elə ilk günü bu istiqamətdə altı yaşayış məntəqəsi işğaldan azad edildi. Sonra isə bu uğur günbəgün daha da artdı.

2020-ci il oktyabr ayının 4-də Cəbrayıl şəhəri, oktyabrın 9-da Hadrut qəsəbəsi, oktyabrın 17-də Füzuli şəhəri, oktyabrın 18-də Araz çayı üzərindəki tarixi Xudafərin körpüsü, oktyabrın 21-də Zəngilan şəhəri, oktyabrın 22-də Zəngilan rayonunun Ağbənd qəsəbəsi erməni işğalından azad edildilər. Oktyabr ayının 26-da Qubadlı şəhəri və nəhayət, noyabr ayının 8-də Şuşa şəhəri işğaldan azad edildi. Bu zəfərlərin hər biri şəxsən Ali Baş Komandan İlham Əliyev tərəfindən böyük sevinclə onun qələbə xəbərlərini gözləyən Azərbaycan xalqına çatdırıldı.

Prezident İlham Əliyev çıxışlarının birində Böyük zəfərin əldə edilməsində Azərbaycan Ordusunun xidmətlərini belə qiymətləndirirdi: "Biz bir daha gücümüzü göstərdik, xalqımızın birliyini göstərdik. Göstərdik ki, heç bir qüvvə bizim qabağımızda dura bilməz, heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz. Bu tarixi missiyanı siz icra etmisiniz - Azərbaycan əsgəri, Azərbaycan giziri, Azərbaycan zabiti icra edib. Əlbəttə ki, bizim güclü ordumuz var". Atəşkəs dövründə Azərbaycan dövlətinin rəhbərliyi altında xalqın mübarizə iradəsinin və işğala qarşı barışmazlığının saxlanmasında görülən mühüm işlərdən biri heş şübhəsiz ki, gənc nəslin milli-vətənpərvərlik ruhunda formalaşdırılması idi.

Məhz bu ruhda tərbiyələnmiş və böyümüş olan gənclər Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsinin aparıcı qüvvəsi oldular. Respublika Prezidenti İlham Əliyev də bu amili çox yüksək qiymətləndirirdi və Azərbaycan gəncliyinin respublikanın ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsindəki rolunu məmnunluqla qeyd edirdi: "Biz hazırlaşırdıq, ölkəmizi gücləndirirdik, iqtisadiyyatımızı gücləndirirdik, güclü ordu potensialı yaradırdıq. Ən önəmlisi gənc nəsli, - bu gün bizim qürur mənbəyimiz olan Şuşanı və o vaxt işğal altında olan digər torpaqları öz canı-qanı bahasına azad edən, – yetişdirirdik və yetişdirdik. Savadlı, bilikli, vətənpərvər, fiziki cəhətdən güclü, mənəvi cəhətdən sağlam, saf gənc nəsil yetişdirdik və onlar mənim əmrimlə 44 gün ərzində öz sinələrini qabağa verərək torpaqları azad etdilər".

Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təmin edilməsi uğrunda aparılan mübarizənin başlıca qəhrəmanlarından biri də sözsüz ki, Azərbaycan xalqı, torpağının yad tapdağından azad olunması istəyinin bütün qayğılarını üstələyən Azərbaycan vətəndaşları idi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev də öz çıxışlarında bunu böyük məmnunluq və minnətdarlıqla qeyd edirdi: "Bu Qələbənin səbəbkarı Azərbaycan xalqıdır. Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır. İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir".

Vətən müharibəsinin başlanması ilə Azərbaycan xalqı dövlət rəhbərliyinə qarşı dünyanı heyrətə gətirəcək bir həmrəylik nümayiş etdirdi. Bütün xalq yaşından və harada yaşamasından asılı olmayaraq Vətən torpaqlarının müdafiəsi üçün nəinki Ali Baş Komandanının yanında olmağa, hətta onun bir əmri ilə cəbhəyə yollanmağa hazır olduğunu ortaya qoydu. Bununla Vətənin müdafiəsi məsələsində Ali Baş Komandan – Ordu – Xalq vəhdətinin əyaniliyinə Azərbaycanın dostları da, düşmənləri də şahid oldular. Dünya təcrübəsi də göstərir ki, Vətənin müdafiəsi baxımından iqtidar-xalq birliyi son dərəcə vacibdir. Çünki xalq təkcə müharibə ehtiyaclarını ödəyə biləcək bir qüvvə deyil, həm də Vətənin müdafiəsini öz üzərinə götürmüş ordunun ilham mənbəyidir.

Xalqın mübariz iradəsinin üzə çıxarılması və onun məqsədyönlü şəkildə yönləndirilməsi isə Ali Baş Komandanın təşkilatçılıq fəaliyyətinin mühüm istiqamətlərindən biridir. Dövlət rəhbərinin, Ali Baş Komandanın təşkilatçılıq məharəti ilə xalqın mübariz əhval-ruhiyyəsini coşduraraq onu Vətənin müdafiəsinə yönləndirmək də olar, düzgün qurulmayan təşkilatçılıq işi ilə xalqın mübariz əhval-ruhiyyəsini məhv etmək də olar. Müzəffər sərkərdə İlham Əliyevin rəhbərliyi altında isə Azərbaycan xalqının gücünə meydan açıldı, bu güc vahid yumruqda birləşdi və düşmənin aşınmış təfəkkürünü, qana susamış zehniyyatını qara günə qoydu.

Vətən müharibəsinin başlaması ilə Azərbaycanın yaşayış məntəqələrinin, xüsusilə döyüş bölgəsinə yaxın olan yaşayış məntəqələrinin hər bir evi bir səngərə çevrildi, erməni faşizminin dinc əhaliyə qarşı apardığı vəhşiliyin qarşısında təpərli bir müqavimət ocağı oldu. Kimsə erməni vəhşiliyinə boyun əyib ev-eşiyini tərk etmədi, yersiz təşvişə və həyacanlara yer vermədi. Əksinə, xalq öz təpəri ilə mübarizə meydanında, əsgərlərin yanında, dövlətin ətrafında olduğunu göstərdi. Erməni vəhşiliyinin qurbanı olan günahsız insanların faciəsi isə bütün xalqın faciəsinə çevrildi.

Bu birlik, ümumi əzmkarlıq, cəbhəyə bağlı olan həmrəylik isə Azərbaycan Ordusuna güc-qüvvət verdi, tarixi qələbəyə aparan yola işıq tutdu. Xalqın Ali Baş Komandan ətrafında səfərbər olması tarixi günlərə yol açdı: "Biz gücümüzü səfərbər edərək bax, bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də tarixi günlərdir. Bəlkə də, çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Biz bunu birliyimiz sayəsində qazanmışıq, gücümüz sayəsində qazanmışıq. Heç kim bizə kömək etməyib. Əksinə, ancaq maneçilik törədib".

Cəmi ay yarım davam edən Vətən müharibəsinin gedişində Ermənistana, faşist mahiyyətli dünya erməniliyinə və onların havadarlarına elə bir dərs verildi ki, bölgədə tamamilə yeni bir reallıq yarandı. 30 il ərzində davam edən işğala susqunluqla yanaşan çox böyük qüvvələr Azərbaycan xalqının iradəsi qarşısında diz çökməyə məcbur oldu və bu qüvvələrin heç yuxularında belə təsəvvür edə bilməyəcəkləri bir tarixi mənzərə ortaya çıxdı: Azərbaycan xalqı və onun iradəsini ifadə edən Azərbaycan dövləti gücünü və qətiyyətini toplayaraq öz ərazilərini erməni işğalından azad etdi, fərqli bir dünya düzəni yaratmaqla yeni bir tarix yazdı.

Azərbaycan xalqı sübut etdi ki, haqsızlığa dayaqlanan şər və təcavüzlə onun iradəsini qırmaq, Azərbaycan xalqı ilə zor və təzyiqlə danışmaq, Azərbaycan xalqının səbri və dözümü ilə siyasi alver etmək olmaz. Kimsənin torpağına göz dikməyən Azərbaycan dövləti torpaqlarının yad tapdağı altında qalması ilə barışmadı və bu torpaqlarda əbədi kök salacaqlarına şübhə etməyən erməniliyə layiq olduğu yerini göstərdi, müstəqil Azərbaycanın ərazi bütövlüyü bərpa edildi.

Lakin Vətən müharibəsinin başa çatması və onun nəticələri Ermənistanınm hərbi-siyasi rəhbərliyinə, Qarabağda qalmaqda olan separatçı qüvvələrə dərs olmadı, onları Azərbaycan reallıqları ilə barışmağa sövq etmədi. Azərbaycan rəhbərliyi Qarabağın dağlıq hissəsində qalmış ermənilərə barışıq, sülh, birgə yaşayış, daha firavan gələcək təklif etsə də, erməni millətçi qüvvələri tarixin geri döndərilməsi xəyalları ilə açıq təcavüzkarlıqdan əl çəkmədilər. Azərbaycanın dövlət qanunlarına, suverenliyinə hörmətlə yanaşmaq çağırışları ermənilər tərəfindən açıq kobudluqla rədd edildi və onlar yenidən Azərbaycan xalqının iradəsi ilə oynamaq yolunu tutdular.

Çox təəssüf ki, Vətən müharibəsinin başa çatmasından keçən 3 ilə yaxın bir müddətdə Ermənistandakı revanşist qüvvələr Azərbaycanın müstəqilliyinə və suverenliyinə qarşı çıxdılar və hansısa qüvvələrə arxalanaraq Azərbaycanın suverenliyini parçalamaq siyasətinin icrası yolunu tutdular. Ermənistanın hərbi-siyasi rəhbərliyi, bu rəhbərlik tərəfindən Qarabağda yaradılmış xunta rejimi yeni iddialara düşməklə bir tərəfdən Qarabağın dağlıq hissəsində mövcud olan təbii sərvətləri talan edib Ermənistana daşıyır, digər tərəfdən də Rusiya sülhyaratma kontingentinin müvəqqəti nəzarəti altında olan ərazilərə silah-sursat daşıyırdılar. Azərbaycan tərəfi davamlı şəkildə bu cinayətlərə qarşı öz etiraz səsini qaldırsa da, ermənilər ona ciddi yanaşmadılar.

Bundan əlavə, ermənilər dəfələrlə təcavüzkar təxribatlara əl atdılar, günahsız insanların qətlinə rəvac verdilər. Respublika Prezidenti İlham Əliyev Qarabağın dağlıq hissəsində qalmış ermənilərin bu təcavüzkar əməllərini belə qiymətləndirirdi: "Əfsuslar olsun, onlar bu günə qədər kiməsə arxalanırlar ki, kimsə gələcək onları xilas edəcək, kimsə gələcək Azərbaycanla müharibə aparacaq. Bunlar hamısı cəfəngiyyatdır. İkinci Qarabağ müharibəsi zamanı biz güclü iradə göstərmişik və əgər o vaxt heç kim bizə qarşı kənardan müdaxiləyə cürət etmədisə, bu gün bütün bu torpaqlara yenə də sahib olandan sonra kim gəlib ermənilərin yerinə bizimlə vuruşacaq".

Azərbaycan rəhbəri daha sonra qeyd etdi ki, biz öz doğma torpağımızdayıq və bu gün ermənilərin yaşadıqları Qarabağ bölgəsi bizim əzəli, hüquqi torpağımızdır: "Sadəcə olaraq, biz hesab edirik ki, onlar özləri başa düşəcəklər, özləri gəlib Azərbaycan Bayrağı altında yaşamağa addım atacaqlar. Biz bunu gözləyirik. Ona görə hər hansı bir başqa addım atmırıq və hesab edirəm ki, iki il yarım ərzində baş vermiş hadisələr artıq onları da oyatmalıdır, bu yuxudan, bu xülyadan ayıltmalıdır". Lakin ermənilər də, onların havadarları da xam xülyalardan, Azərbaycanı nəyə isə məcbur etmək düşüncələrindən əl çəkmədilər.

Baş verənlər onu göstərdi ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycana qarşı öz iddialarından əl çəkmədiyi kimi, qondarma qurumun qondarma rəhbərliyi də Qarabağın dağlıq hissəsində yaşayan erməni sakinlərin Azərbaycana inteqrasiya edilməsi təkliflərini qəbul etmək fikrində deyil. Vətən müharibəsindən sonra bölgədə cərəyan edən proseslər Azərbaycanın öz ərazilərində suverenliyini bütünlüklə təmin etmək üçün başqa seçim yolu qoymadı və dövlət rəhbərinin əmri ilə Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində lokal xarakterli antiterror tədbirinin keçirilməsinə qərar verildi.

Lokal xarakterli antiterror tədbiri 2023-cü il sentyabr ayının 19-da, təxminən saat 13-də başladı. Bu əməliyyat xüsusi olaraq planlaşdırılmış bir əməliyyat idi. Məqsəd də mülki əhaliyə və infrastruktura ziyan yetirmədən Müdafiə Naziliyinin məlumatında göstərilən məqsədə nail olmaq idi. Aparılan döyüşlərin gedişində yalnız legitim hərbi obyektlər və hərbi infrastruktur dəqiq silahlarla hədəfə alınır və sıradan çıxarılırdı. Yaşayış məntəqələri yaxınlığında erməni atəş vasitələrinin yerləşdirilməsini nəzərə alaraq ərazidə olan mülki əhalini hərbi obyektlərdən kənar durmasına və Ermənistan silahlı qüvvələrinin birləşmələrinə dəstək verməməsinə çağırış edilmişdi.

Bu döyüşlərin gedişində Ermənistan Silahı Qüvvələrinin Qarabağın dağlıq hidssəsində yerləşən hərbi qüvvələrinə ağır zərbə vuruldu, onların döyüş potensialı məhv edildi. Sentyabrın 20-də günorta saatlarına qədər Ermənistan silahlı qüvvələri birləşmələrinin tərtibləndiyi 90-dan artıq döyüş mövqeyi, eləcə də bir neçə strateji əhəmiyyətli yüksəklik Silahlı Qüvvələrimizin nəzarətinə keçirildi.

Ermənistanın hərbi-siyasi rəhbərliyi də sentyabrın 20-də Qarabağın dağlıq ərazisində yerləşdirilmiş erməni hərbi qüvvələrinə ağır zərbə vurulmasını etiraf etmək məcburiyyətində qaldı. Saat 13:00 radələrində Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış olan xunta rejiminin rəhbərliyi Azərbaycanın şərtlərini qəbul etməyə və silahı yerə qoymağa hazır olduğunu bildirdi.

Əməliyyat bitəndən sonra Prezident İlham Əliyev Azərbaycan Ordusunun yeni bir tarixi uğuru ilə sona çatan lokal xarakterli antiterror əməliyyatının nəticələrini belə dəyərləndirirdi: "Beləliklə, biz tarixi ədaləti bərpa etdik. 20 sentyabr 2023-cü il bizim tariximizdə qalacaq, necə ki, 8 Noyabr. Noyabrın 8-də Şuşa əməliyyatından sonra düşmən ordusunun beli qırıldı və bir gün sonra kapitulyasiya aktına imza atdı. Bu il aprelin 23-də biz Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədini nəzarətə alaraq ərazi bütövlüyümüzü tam bərpa etdik və sentyabrın 20-də dövlət suverenliyini tam bərpa etdik. Bununla separatçıların kitabı bağlandı. Artıq Azərbaycanda separatçılığa yer olmayacaq. Azərbaycan dövləti bu gün bütün əraziyə nəzarət edir".

Bir sözlə, Azərbaycan ərazisində separatizmə son qoyuldu, respublikanın ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsi ilə bölgədə tamamilə yeni bir reallıq ortaya qoyuldu. Bu reallıq haqq mübarizəsi ilə Azərbaycanın yaratdığı və dünyanın hesablaşmalı olduğu reallıqdır. İndi Azərbaycan olmadığı qədər güclü, azad, müstəqil, suveren və Konstitusiyasının respublikanın bütün ərazisində qüvvədə olduğu bir dövlətdir.

***Mehman SÜLEYMANOV,***
***ehtiyatda olan polkovnik,***
***tarix elmləri doktoru, professor***



# Azərbaycanda hüquqi dövlət quruculuğu

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli sərəncamı ilə 2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan olunması dövlətçilik tariximizin dərindən öyrənilməsi və gələcək nəsillərə ötürülməsi, eyni zamanda qalib və qüdrətli dövlətimizin dünya ölkələri sırasında özünə layiqli yer tutması və müstəqilliyimizin dönməz və əbədi olmasının təmin olunması istiqamətində son dərəcə mühüm siyasi-hüquqi əhəmiyyətə malik hadisədir. Təsadüfi deyil ki, 2025-ci il Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30-cu, eyni zamanda, Vətən müharibəsində qazanılmış parlaq zəfərin 5-ci ildönümüdür.**

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanaraq otuz il bundan əvvəl qəbul edilmiş Konstitusiyamız dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı hüquq islahatlarının əsası kimi çıxış etmişdir.

Bu gün fəxr hissi ilə deyə bilərik ki, ölkəmizi müstəqil dövlət quruculuğuna aparan keşməkeşli və şərəfli yol Ulu öndərin 1993-cü ilin iyunun ayının 15-də xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra başlamışdır. Tarixə Milli Qurtuluş Günü kimi düşmüş bu əlamətdar hadisə təkcə Heydər Əliyev ömrünün deyil, həm də bütün tariximizin xüsusi mərhələsi, əsaslı dönüş nöqtəsi olmuşdur.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ölkəmizin gələcəyi üçün böyük perspektivlər açmış, onun öz sözləri ilə desək “şah əsəri olan müstəqil Azərbaycanın qorunmasına, yaşamasına və dünya birliyinin bərabərhüquqlu üzvünə çevrilməsinə imkan vermişdir”.

Hər bir dövlətin müstəqilliyini şərtləndirən başlıca amillərdən biri onun xalqın iradəsinə əsaslanan, dövlət quruluşunu, əsas insan və vətəndaş hüquqlarını, qanunvericilik, icra və məhkəmə hakimiyyətini və dövlət həyatının digər fundamental məsələlərini özündə əks etdirən Əsas Qanunun - Konstitusiyasının mövcud olmasıdır. Təsadüfi deyil ki, Azərbaycan xalqının əbədiyaşar xilaskarı Heydər Əliyevin öz qətiyyəti, dərin zəkası və zəngin dövlətçilik təcrübəsi sayəsində 1994-cü ilin iyun ayında Azərbaycan Respublikası Milli Məclisinin iclasında onun birbaşa sədrliyi ilə ölkəmizdə Konstitusiya layihəsinin hazırlanmasına məsul olan xüsusi komissiyanın yaradılması və fəaliyyətə başlaması barədə taleyüklü qərar qəbul olunmuşdur.

Qeyd edək ki, bu ali sənədin müasir dəyərləri özündə ehtiva edən mükəmməl formada qəbul olunmasını reallaşdırmaq üçün Ulu öndər layihənin hazırlanması zamanı onun hər bir müddəasını şəxsən nəzərdən keçirmiş, dövlətin gələcək taleyi, demokratik imici baxımından bu işə son dərəcə həssaslıqla yanaşmışdı. “Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasında demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü, – ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır”, deyən Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının hazırlanmasında həm ölkəmizin tarixi keçmişinin milli dəyərlərindən, həm də ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin təcrübəsindən istifadə edilməsini mühüm vəzifə kimi irəli sürmüşdür. Konstitusiya layihəsi hazırlandıqdan sonra cəmiyyətin müxtəlif təbəqələrinin iştirakı ilə onun açıq müzakirələrinin keçirilməsi bu ümumxalq əhəmiyyətli sənədin ən təkmil formada ərsəyə gətirilməsinə şərait yaratmışdır. Bütün müzakirələrin nəticəsi olaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul olunmuşdur.

Heydər Əliyevin memarı olduğu Konstitusiyanın qəbul edilməsi xalqımızın dövlət müstəqilliyi tarixində konstitusionalizm məfkurəsinin qəti qələbəsini əks etdirən hadisə idi. Bununla ölkəmizin və xalqımızın dövlətçilik tarixinə yeni bir şanlı səhifə yazıldı, dahi rəhbər Heydər Əliyevin uzunmüddətli gərgin əməyinin məhsulu olan Konstitusiya öz demokratikliyi, humanistliyi və dolğunluğu ilə seçilərək ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi və müstəqil dövlətçiliyimizin tərəqqisi üçün hərtərəfli zəmin yaratdı, xalqımızın demokratik dövlət qurmaq və dünya arenasında layiqli yer tutmaq istəyini nümayiş etdirdi. Məhz bu tarixi hadisədən sonra Azərbaycanda hüquqi islahatlara başlanıldı. Ümummilli liderin dediyi kimi, “yeni Konstitusiya Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün əsaslar yaratmış, bütün təminatları vermişdir. Bizim borcumuz bu təminatlardan, konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir”.

Qeyd edək ki, Azərbaycan Respublikasının Konstitusiyasında müasir sivil cəmiyyətin inkişaf istiqamətlərini müəyyənləşdirən, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna imkan verən mütərəqqi ideya və dəyərlər geniş şəkildə öz əksini tapmış, insan hüquqlarının və azadlıqlarının təminatları müəyyən edilmişdir.

Demokratiya yolu ilə gedən Azərbaycan Respublikasında hakimiyyətin yeganə mənbəyinin Azərbaycan xalqı olması, sərbəst və müstəqil öz müqəddəratını və öz idarəetmə formasını müəyyən etməyin xalqın suveren hüququ kimi təsbit edilməsi, Azərbaycan xalqının Azərbaycan dövlətinə və onun qanunlarına tabe olan Azərbaycan Respublikasının vətəndaşlarından ibarət olması milli Konstitusiyamızda öz əksini tapmışdır. Konstitusiyamızda ilk dəfə olaraq Azərbaycanın demokratik, hüquqi, dünyəvi, unitar respublika olması təsbit edilmiş, dövlət hakimiyyətinin hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkili müəyyən olunmuş, qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyət göstərməsi və öz səlahiyyətləri çərçivəsində müstəqil olmalarına dair ayrıca müddəalar nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Konstitusiyası dövlətin hər hansı maraqlara deyil, məhz vətəndaşların mənafelərinə, azad cəmiyyətin aparıcısı olan şəxsiyyətin maraqlarına xidmət etdiyini ən yüksək səviyyədə bəyan etmişdir. Bu baxımdan, Konstitusiyamızın üçdəbir hissəsi əsas insan və vətəndaş hüquqlarına və azadlıqlarına həsr edilmiş, Əsas Qanunun ən böyük fəsli olan üçüncü fəsildə insan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi, onların reallaşdırılması mexanizmləri, habelə ayrı-ayrı hüquqların beynəlxalq standartlara müvafiq olaraq qanuni məhdudlaşdırılmasının yol verilən hədləri əks olunmuşdur.

> ***Bu gün biz Azərbaycanın bu günü, gələcəyi üçün çox mühüm bir sənəd – siyasi, hüquqi sənəd yaratmışıq. Bizim Konstitusiya layihəsinin ən mühüm əhəmiyyəti ondan ibarətdir ki, xalqımızın, respublikamızın tarixində bu, ilk, tamamilə sərbəst, müstəqil şəkildə yaranmış konstitusiyadır. Konstitusiya layihəsi indiyə qədər olan bütün konstitusiyaların, qanunların hamısından fərqlənir. Ona görə fərqlənir ki, bu, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır.***
>
> ***Heydər ƏLİYEV,***
> ***Ümummilli lider***

Azərbaycan Respublikası Konstitusiyasının qəbulu nəticəsində ölkəmizdə genişmiqyaslı qanunvericilik və məhkəmə-hüquq islahatları aparılmış, həmin islahatlar nəticəsində müstəqil məhkəmə hakimiyyətinin yaradılması üçün zəruri qanunvericilik bazası formalaşdırılmış, yeni üçpilləli məhkəmə sistemi təsis edilmişdir ki, bu da vətəndaşların qanuni maraq və mənafelərinin ədalət mühakiməsi yolu ilə birinci instansiya, apellyasiya və kassasiya instansiyası məhkəmələri tərəfindən daha etibarlı şəkildə müdafiə olunmasına öz müsbət təsirini göstərmişdir.

Ötən dövr ərzində qanunvericilik sahəsində həyata keçirilən islahatların məntiqi davamı kimi Azərbaycan Respublikasının Konstitusiyasından qaynaqlanan bir sıra məcəllələr - cinayət, cinayət-prosessual, cəzaların icrası, mülki, mülki-prosessual, inzibati xətalar, ailə, əmək, vergi, inzibati prosessual və digər məcəllələr, həmçinin “Konstitusiya Məhkəməsi haqqında”, “Məhkəmələr və hakimlər haqqında”, “Prokurorluq haqqında”, “Vəkillər və vəkillik fəaliyyəti haqqında”, “Polis haqqında”, “Əməliyyat-axtarış fəaliyyəti haqqında”, “Notariat haqqında” və bir sıra digər qanunlar qəbul edilmişdir.

Konstitusiyanın gətirdiyi əhəmiyyətli yeniliklərdən biri həmin dövrə qədər dövlətçilik tariximiz üçün səciyyəvi olmayan yeni bir institutun – konstitusiya nəzarəti təsisatının yaradılması olmuşdur. Qeyd edilməlidir ki, konstitusiya nəzarətinin əsas məqsədi konstitusiyanın aliliyinin təmin edilməsi və konstitusiya ilə təsbit olunmuş insan hüquq və azadlıqlarının müdafiəsidir. Bu baxımdan, ali konstitusiya ədalət mühakiməsi orqanı olan Konstitusiya Məhkəməsi normativ-hüquqi aktların Konstitusiyaya və hüquqi iyerarxiyada özündən üstün qüvvəyə malik aktlara uyğunluğunun müəyyənləşdirilməsi, insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı konstitusiyanın və qanunların şərh edilməsi, hakimiyyətlər arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrin həll edilməsi, seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsi kimi mühüm səlahiyyətlərə malikdir.

Konstitusiyamızın gətirdiyi digər transformasiyalardan biri də ilk dəfə yerli özünüidarəetmə orqanları olan bələdiyyələrin statusunun konstitusion səviyyədə təsbit edilməsi olmuşdur. Məhz milli konstitusiyamızın qəbulundan sonra Azərbaycanda ilk dəfə yerli özünüidarəetmə orqanı - bələdiyyələr yaradılmış və fəaliyyətə başlamışdır.

Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbul edilməsi Azərbaycan Respublikasının tərkibində muxtar dövlət kimi Naxçıvan Muxtar Respublikası üçün də yeni Konstitusiyanın qəbulu zərurətini ortaya çıxarmışdır. Əsas Qanunumuzda Naxçıvan Muxtar Respublikasının konstitusion hüquqi statusuna həsr olunmuş xüsusi fəslin olması Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının qəbul edilməsi üçün əsas olmuşdur. Azərbaycan Respublikasının Konstitusiyasının 8-ci fəslində əks olunmuş müddəalar əsas götürülərək Naxçıvan Muxtar Respublikası Konstitusiyasının layihəsi hazırlanıb Azərbaycan Respublikasının Milli Məclisində iki dəfə səsə qoyulmuş, 29 dekabr 1998-ci ildə Konstitusiya Qanunu ilə təsdiq edildikdən sonra 8 yanvar 1999-cu ildə qüvvəyə minmişdir.

Tarixə Heydər Əliyev Konstitusiyası kimi daxil olan Əsas Qanunumuz demokratik, dünyəvi, hüquqi və unitar Azərbaycan dövlətinin əsaslarını təsbit edən mühüm və bitkin normativ sənəddir. Lakin qlobal miqyaslı sosial-siyasi və hüquqi yeniliklərin baş verdiyi, təhlükəsizlik məsələlərinin ön plana çıxdığı, dövlət idarəçiliyinin modern və daha səmərəli üsullarının tətbiq edildiyi, qanunvericilik prosesinin daima inkişaf etdiyi, dinamik olduğu və dövrün tələblərinə uyğunlaşdığı zaman Konstitusiyaya əlavələr və dəyişikliklər edilməsi xüsusi əhəmiyyətə malik olur. Bu baxımdan, Azərbaycan Respublikasının beynəlxalq arenaya inteqrasiyasının gücləndiyi və hüququn müasir inkişafı şəraitində konstitusiya islahatlarının aparılması zərurətə çevrilmişdir. Məhz bu zərurətdən qaynaqlanaraq 2002, 2009 və 2016-cı illərdə referendum keçirilməklə Konstitusiyamıza əlavələr və dəyişikliklər edilmişdir.

Bu əlavə və dəyişikliklər, həmçinin seçki sisteminin təkmilləşdirilməsi, məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi, ölkəmizin “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Avropa Konvensiyasına qoşulması, insan hüquqlarının daha səmərəli müdafiə edilməsi və dövlət hakimiyyəti orqanları arasında fəaliyyətin və qarşılıqlı əlaqələrin təkmilləşdirilməsi zərurətindən irəli gəlmişdir. Məhz həmin reallıqların nəticəsi kimi, 2002-ci il avqustun 24-də ölkəmizdə ümumxalq səsverməsi – referendum keçirilmiş, ilk dəfə Konstitusiyanın ümumilikdə 24 maddəsinə 31 əlavə və dəyişikliklər edilmişdir. Xalqın siyasi iradəsinin ifadəsi olan həmin referendum nəticəsində proporsional seçki sistemi ləğv olunmuş, müstəsna hallarda Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin Milli Məclisin sədrinə deyil, Baş nazirə keçməsi proseduru müəyyən edilmiş, prezident seçkilərinin nəticələrinin sadə səs çoxluğu ilə hesablanması qaydası müəyyənləşmiş, habelə, hökumətin Milli Məclis qarşısında illik hesabatla çıxış etməsi nəzərdə tutulmuş, vətəndaşlara Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək imkanı yaradılmış və digər prinsipial məsələlər öz hüquqi həllini tapmışdır.

Ulu öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrində əldə edilən uğurlar, sosial-iqtisadi islahatların dərinləşməsi, vətəndaş cəmiyyəti institutlarının dövlət dəstəyi ilə əhatə olunması, məhkəmə-hüquq sistemində həyata keçirilən köklü dəyişikliklər, bütövlükdə respublikanın həyatında baş verən fundamental yeniliklər Əsas Qanunumuzda yenidən bir sıra əlavə və dəyişikliklər edilməsini obyektiv tələbata çevirmişdi. Bu məqsədlə 2009-cu il martın 18-də ölkəmizdə yenidən ümumxalq səsverməsi – referendum keçirilmiş, ikinci dəfə Konstitusiyaya 29 maddə üzrə 41 əlavə və dəyişikliklər edilmişdir. 12, 15 və 17-ci maddələrə edilən əlavələr Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsini də dövlətin ali məqsədi kimi təsbit etmiş, ölkədə həyata keçirilən sosialyönümlü iqtisadi siyasətə, habelə uşaq hüquqlarının daha etibarlı qorunmasına təminatı gücləndirməklə bir sıra yeni normalara konstitusion status vermişdir. 32-ci və 50-ci maddələrə edilmiş dəyişikliklər hər bir vətəndaşın şəxsi və ailə toxunulmazlığının daha etibarlı təminatına yönəlmişdir. 96-cı maddəyə qanunvericilik təşəbbüsü hüququ olan subyektlər sırasına Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşı daxil edilmişdir. 67, 125, 129 və 131-ci maddələrə edilmiş əlavələrə gəlincə, onlar məhkəmə təcrübəsi ilə bağlı bəzi hüquqi normalara konstitusion statusun verilməsi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

2009-cu ildə gerçəkləşən konstitusiya islahatından sonra ölkənin ictimai-siyasi həyatında baş vermiş əsaslı dəyişikliklər – hüquq sisteminin müasirləşdirilməsi, demokratikləşmə prosesinin dərinləşməsi, qanunvericilik aktlarının təkmilləşməsi, təhlükəsizliyə dair məsələlərin yeni məzmun kəsb etməsi, dövlət təsisatlarının yenilənməsi, yerli özünüidarəetmə orqanlarının məsuliyyətinin artırılması və digər çoxsaylı mühüm proseslər Konstitusiyaya bir daha nəzər salınmasını, Əsas Qanuna müəyyən əlavə və dəyişikliklərin edilməsini obyektiv zərurətə çevirmişdir.

“Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə ümumxalq səsverməsi (referendum) keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 26 iyul 2016-cı il tarixli sərəncamı ilə ümumxalq səsverməsi (referendum) 2016-cı il sentyabrın 26-na təyin edilmiş, həmin gün keçirilmiş ümumxalq səsverməsində (referendum) xalqımız tərəfindən Konstitusiyamıza təklif edilən dəyişiklik və əlavələr (23 maddəyə (9, 24, 25, 29, 32, 36, 47, 49, 53, 56, 57, 58, 59, 60, 68, 71, 85, 89, 100, 101, 105, 121, 126) əlavə və dəyişikliklərin edilməsi, eləcə də yeni 6 maddənin (981, 1031, 1061, 1081, 1101, 1461) əlavə edilməsi) qəbul edilmişdir.

Qeyd edək ki, sözügedən konstitusion əlavə və dəyişikliklər cəmiyyət həyatının müxtəlif sahələri – təhlükəsizlik və müdafiə, insan hüquq və azadlıqlarına dair normaların təkmilləşdirilməsi, xüsusi mülkiyyət ilə bağlı sosial öhdəliklərin nəzərdə tutulması, vətəndaşın informasiya təhlükəsizliyinin etibarlı mühafizə edilməsi, Milli Məclisin deputatlarının mandatından məhrum edilmə hallarına əlavələr edilməsi, MM-in buraxılması institutunun və vitse-prezident vəzifəsinin təsis edilməsi, yaş senzinin ləğvi nəticəsində vətəndaşların seçmək və seçilmək hüquqlarının tətbiq dairəsinin genişləndirilməsi, bələdiyyələrin məsuliyyətinin artırılması və digər mühüm məsələlər ilə bağlıdır.

Hazırda ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları, qanunvericilik sahəsində əldə olunan nailiyyətlər mənbəyini Azərbaycan Konstitusiyasından alan möhkəm hüquqi bazaya malikdir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ötən dövrdə qanunçuluğun təkmilləşdirilməsi işində qazanılan uğurları çıxışlarının birində belə ifadə etmişdir: “Keçən illər ərzində konstitusiya humanist, dinamik və realist bir sənəd olduğunu sübut etmişdir. Onun əhatə etdiyi bütün sahələrdə - hüquqi dövlət quruculuğu, bazar iqtisadiyyatı prinsiplərinin tətbiqi, siyasi həyatın demokratikləşdirilməsi, insan haqlarının və azadlıqlarının təmin olunması və sair ilə bağlı mühüm irəliləyişlər baş verir. Ölkəmizdə demokratik prinsiplər və dəyərlər, insan hüquq və azadlıqları getdikcə daha dolğun və real məzmun kəsb edir, vətəndaşların milli mexanizmləri təkmilləşdirilir, bu sahədə beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq həyata keçirilir”.

Bu gün böyük qürur hissi ilə söyləyə bilərik ki, möhkəm hüquqi bazaya malik olan Azərbaycan Respublikasının Konstitusiyası hələ uzun illər Azərbaycan Respublikasının sabitlik şəraitində davamlı inkişafını təmin etməyə, müstəqil dövlətimizin demokratik inkişaf hədəflərini müəyyənləşdirməyə, müstəqilliyimizi yaşatmağa qadir olacaq və Azərbaycan xalqına xidmət edəcəkdir.

***Yunis XƏLİLOV,***
***Naxçıvan Dövlət Universitetinin ümumi hüquq kafedrasının müəllimi***

Bizim müsahiblər

# Azərbaycanın suverenliyi əbədidir

**2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan olunub. Bu qərar təsadüfi deyil. Çünki məhz bu il dövlətimizin əsas qanununun qəbulunun 30 ili tamam olur. Eyni zamanda xalqımızın taleyində dönüş nöqtəsi olan Vətən müharibəsində əldə etdiyimiz Qələbənin də 5-ci ildönümünü yaşayırıq. Ölkəmizin ərazi bütövlüyü və suverenliyi Konstitusiyamızın ən ali prinsiplərindən biridir və artıq bu prinsiplər tam reallığa çevrilib. Dövlət müstəqilliyimizin möhkəmlənməsi, hüquqi dövlət quruculuğu prosesində Azərbaycan Konstitusiyası bünövrə rolunu oynayıb. "Konstitusiya və Suverenlik İli"nin elan olunması həm də hər bir vətəndaşın dövlətçilik prinsiplərinə bağlılığının möhkəmlənməsinə, hüquqi şüurun yüksəlməsinə xidmət edir. Bu münasibətlə "Konstitusiya" Araşdırmaları Fondunun prezidenti Əliməmməd Nuriyevlə həm ölkənin əsas qanununun mahiyyəti, həm də əlamətdar ilin hüquqi-siyasi əhəmiyyəti barədə söhbətləşdik.**



**– Əliməmməd bəy, Azərbaycanda 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması ölkəmizin dövlətçilik tarixində mühüm hadisədir. Bu təşəbbüs hansı əsas hədəflərə hesablanıb?**

– 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması təkcə siyasi-hüquqi qərar deyil, həm də milli dövlətçilik fəlsəfəsinin inkişafında mühüm dönüş nöqtəsidir. Bu təşəbbüsün arxasında dayanan əsas hədəfləri yalnız gündəlik siyasi məqsədlərlə deyil, həm də konstitusionalizm nəzəriyyəsinin və hüquq fəlsəfəsinin prizmasından dəyərləndirmək lazımdır. Konstitusiyanın qəbul edilməsinin 30 illiyi sadəcə, hüquqi sənədin yaşı deyil. O, dövlətin özünüdərki, hüquqi iradəsi və tarixi seçiminin təqdimatıdır. Fəlsəfi baxımdan Konstitusiya yalnız normativ qaydaların toplusu deyil. Həm də siyasi icmanın, xalqın kollektiv özünü ifadəsidir. O sənəd xalqın tarixi iradəsini "mətnə çevirməklə" dövlətin legitimliyini təmin edən əsas müqavilə rolunu oynayır. Bu səbəbdən yubileyin qeyd olunması Konstitusiyanın üstün hüquqi qüvvəsini vurğulamaqla yanaşı, həm də dövlətçilik fəlsəfəsinin canlılığını təsdiqləyir.

Suverenlik tarixi etimadla ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və daxili işlərə müdaxiləsizlik kimi prinsiplərlə izah olunurdu. Lakin XXI əsrdə suverenlik daha mürəkkəb anlayışa çevrildi. Burada həm rəqəmsal məkanın mühafizəsi, informasiya təhlükəsizliyi, milli iqtisadi maraqların qorunması, ekoloji məsuliyyət və mədəni irsin davamlılığı da suverenliyin ayrılmaz tərkib hissəsinə çevrilib. "Konstitusiya və Suverenlik İli"nin məqsədi məhz bu genişlənmiş anlayışı dövlətçilik təcrübəmizə gətirmək, Azərbaycan dövlətçiliyini yeni qlobal düzənin fəlsəfi-hüquqi şərtlərinə uyğunlaşdırmaqdır.

Vətən müharibəsində əldə olunmuş qələbə Azərbaycanın dövlət suverenliyini yalnız hərbi-siyasi fakt kimi deyil, həm də hüquqi reallıq kimi təsdiqlədi. Konstitusiyanın 11-ci maddəsində təsbit olunmuş ərazi bütövlüyü prinsipi 2020-ci ildən etibarən praktik müstəvidə bərpa olundu. Bu gün həmin reallığın üzərində "Konstitusiya və Suverenlik İli" elan olunması dövlətin hüquqi və siyasi sabitliyinin uzunmüddətli davamlılığını təmin edən addım kimi qiymətləndirilə bilər.

Müasir konstitusionalizm yalnız hüquqi mətnin sabitliyi deyil, həm də onun dəyişən ictimai münasibətlərə uyğunluğunu tələb edir. Burada iki prinsip daim müqayisədə, rəqabətdə, hətta gərginlikdədir. Bu prinsiplərdən biri hüquqi sabitlik, digəri məqsədəmüvafiqlikdir. Əgər Konstitusiya tez-tez dəyişirsə, o, hüquqi sabitliyi sarsıdır. Lakin dəyişikliklər olmursa, mətn ictimai reallıqlardan, ictimai münasibətlərdən uzaq düşə və ictimai münasibətləri tənzimlənmə içərisində əyləcləşmə baş verə bilər. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il dekabrın 28-də imzaladığı sərəncamla 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi bu balans üzərində düşünmək üçün ideal müzakirə müstəvisi yaradır. Azərbaycan həm sabit hüquqi sistemini qorumaq, həm də yeni çağırışlara cavab verə bilmək imkanlarını nəzərdən keçirir. Fəlsəfi mənada Konstitusiya xalqla dövlət arasında ictimai müqavilədir. Bu müqavilə yalnız bir dəfə bağlanmır. Hər dövrdə yenidən təsdiqlənir və ictimai legitimlik qazanır. Cənab Prezident tərəfindən irəli sürülən bu təşəbbüs, əslində, həmin müqavilənin yenilənməsi, xalqın dövlətlə münasibətinin yeni mərhələyə qədəm qoyması deməkdir. Bu, vətəndaş hüquqlarının genişləndirilməsi, cəmiyyətin dövlət idarəçiliyində daha fəal iştirak etməsi, şəffaflıq, hesabatlılıq və hüquqi zəminin möhkəmləndirilməsi üçün mühüm fürsətdir.

Bu il təkcə yubiley tədbirləri deyil, həm də intellektual müzakirələrə, hüquqi-fəlsəfi diskussiyalara açıq olmuşdur. Konstitusionalizm nəzəriyyəsinin klassik problemləri, hakimiyyət bölgüsü, hüquqi dövlət və insan hüquqları, suverenliyin beynəlxalq hüquqla münasibəti milli kontekstdə yeni təhlillər tələb edir. "Konstitusiya və Suverenlik İli" Azərbaycan hüquq elminin inkişafı, özünəməxsus Konstitusiya fəlsəfəsinin formalaşması üçün də bir laboratoriya rolunu oynaya bilər. Beləliklə, bu təşəbbüsün əsas hədəfi yalnız tarixi yubileyi qeyd etmək deyil, həm də Azərbaycan dövlətçiliyini yeni dövrün fəlsəfi, hüquqi və siyasi çağırışlarına hazırlamaqdır. Bu, bir tərəfdən Konstitusiyanın milli varlığımızdakı simvolik dəyərini möhkəmlədir, digər tərəfdən isə gələcək nəsillərə sabit, çevik və fəlsəfi əsaslı hüquqi dövlət mirası buraxmağı hədəfləyir.

**– Bu il həm Konstitusiyamızın qəbulunun 30 illiyini, həm də Vətən müharibəsində Zəfərin 5-ci ildönümünü qeyd edirik. Bu iki tarixi hadisənin bir-biri ilə və dövlətçilik fəlsəfəmizlə bağlılığı barədə nə deyərdiniz?**

– Bu iki tarixi hadisə, yəni Konstitusiyamızın qəbulunun 30 illiyi və Vətən müharibəsində Zəfərimizin 5-ci ildönümü, əslində, bir-birini tamamlayan və dövlətçilik fəlsəfəmizin mahiyyətini aydın şəkildə ifadə edən mərhələlərdir. 1995-ci ildə qəbul edilmiş Konstitusiya müstəqil dövlətçiliyimizin hüquqi bünövrəsini yaratdı. Bu sənəd yalnız dövlətin strukturunu deyil, həm də cəmiyyətin əsas prinsiplərini, hüququn aliliyini, suverenliyi, insan hüquqlarının müdafiəsini və qorunmasını təsbit etdi. Yəni Konstitusiya dövlətin varlığının hüquqi formasıdır. Dövlətin özünü idarə etməsinin və xalqla münasibətlərinin hüquqi-fəlsəfi çərçivəsidir. 2020-ci ildə qazanılan Qələbə isə dövlətçilik fəlsəfəsinin digər tərəfini – milli iradəni, ərazi bütövlüyünün qorunmasını və dövlətin real gücünü nümayiş etdirdi. Bu Qələbə göstərdi ki, Konstitusiyada təsbit edilmiş ən ali prinsiplər – suverenlik və ərazi bütövlüyü yalnız hüquqi ifadə ilə məhdudlaşmır, həm də siyasi, hərbi və mənəvi qüdrət hesabına reallığa çevrilir. Əslində, Konstitusiya ilə Zəfər bir-birindən ayrı hadisələr deyil. Birincisi hüquqi-fəlsəfi əsasları, ikincisi isə həmin əsasların praktik nəticəsini ifadə edir. Konstitusiyada təsbit edilmiş dövlətin müstəqilliyi və sərhədlərinin toxunulmazlığı, xalqın azad iradəsi, vətəndaşın hüquq və vəzifələri Zəfərlə təsdiqini tapdı. Yəni hüquqi mətnlə gerçək tarixi təcrübə vəhdət təşkil etdi.

Dövlətçilik fəlsəfəsi həm normativ, həm də mənəvi dayaqlara əsaslanır. Normativ dayaqlar Konstitusiya ilə müəyyən edilir, mənəvi dayaqlar isə Zəfər kimi tarixi hadisələrlə möhkəmlənir. Bu baxımdan, 2025-ci il bizə göstərir ki, hüquqi sənəd və milli iradə bir araya gəldikdə dövlətçilik tam və bütöv olur. Beləliklə, Konstitusiyamızın 30 illiyi ilə Zəfərin 5-ci ildönümü dövlətçilik fəlsəfəmizin iki sütunu – hüquqi sabitlik və milli iradənin gücünü vəhdətdə təqdim edir. Bu həm də Azərbaycan dövlətçiliyinin gələcək nəsillərə verdiyi ən böyük dərsdir: hüquqla qüvvənin, azadlıqla məsuliyyətin və milli birliklə dövlət quruculuğunun birləşməsi.

**– Sizcə, bu ilin "Konstitusiya və Suverenlik İli" kimi qeyd olunması vətəndaşların hüquqi maariflənməsinə, dövlətçilik prinsiplərinə bağlılığının güclənməsinə hansı formada təsir göstərir?**

– Şübhəsiz ki, "Konstitusiya və Suverenlik İli"nin elan olunması vətəndaşların hüquqi maarifləndirilməsi və dövlətçilik prinsiplərinə bağlılığının güclənməsi üçün mühüm tarixi fürsətdir. Konstitusiya yalnız hüquqi mətn deyil, həm də dövlətin "bədənini və ruhunu" ifadə edən bir sənəddir. Onun qəbul olunmasının 30 illiyi ilə Vətən müharibəsində əldə edilmiş Zəfərin 5-ci ildönümünün eyni ildə qeyd olunması hüquqi normativliklə siyasi legitimliyin, dövlətin suverenliyinin və milli birliyin bir-biri ilə üzvi bağlılığını göstərir. Bu təşəbbüs təsadüfi deyil. Az öncə qeyd etdiyimiz kimi, Prezident İlham Əliyevin 2024-cü il dekabrın 28-də imzaladığı Sərəncamla 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilib. sərəncamın ikinci hissəsində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb dövlətimizin başçısına təqdim etmək tapşırılıb. 2025-ci il fevralın 11-də isə Prezidentin sərəncamı ilə "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq olunub. Bu əhatəli tədbirlər planına əsasən, Konstitusiyanın qəbul olunmasının 30 illiyinə və Dövlət Suverenliyi Gününə həsr edilmiş silsilə tədbirlər, elmi-praktik konfranslar, müsabiqələr, forumlar, xarici ölkələrdəki diaspor təşkilatlarımız və diplomatik nümayəndəliklərimiz tərəfindən fəaliyyətlər icra olunur, həmçinin mədəniyyət və idman layihələri həyata keçirilir. Əlavə olaraq sərəncamda Prezidentin Administrasiyasına və Milli Məclisə il ərzində "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi" yubiley medalının təsis edilməsi tövsiyə edilib. Bundan əlavə, "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş poçt markalarının buraxılması, ağacəkmə aksiyalarının və geniş maarifləndirmə kampaniyalarının keçirilməsi də tədbirlər planının tərkib hissəsidir. Bütün bunlar vətəndaşlarda konstitusional mədəniyyətin dərinləşməsinə, dövlət-vətəndaş münasibətlərində qarşılıqlı etimadın güclənməsinə, suverenliyin isə yalnız siyasi anlayış kimi deyil, həm də gündəlik həyatda hüquq və mənəvi dayaqlar kimi dərk edilməsinə xidmət edir. Beləliklə, "Konstitusiya və Suverenlik İli" həm hüquqi savadlılıq, həm də milli dövlətçilik şüuru baxımından uzunmüddətli təsir göstərəcək mühüm dövlətçilik təşəbbüsüdür.

**– Məlumdur ki, indiyədək Azərbaycan Konstitusiyasına 3 dəfə əlavə və dəyişikliklər edilib. Bu əlavə və dəyişikliklər əsasən hansı zərurətdən irəli gəlib və onların ümumi hüquq sistemimizə verdiyi ən böyük töhfə nədən ibarətdir?**

– Konstitusiya sadəcə hüquqi sənəd deyil, dövlətin "bədəni"nin və "ruhu"nun birlikdə formalaşdırdığı canlı orqanizmdir. Bədənin sağlam qalması üçün qan dövranı, hüceyrələrin yenilənməsi, bəzən isə cərrahi müdaxilələr lazımdır. Eyni ilə Konstitusiyanın da zaman-zaman dəyişikliklərə ehtiyacı olur. 2002-ci il dəyişiklikləri canlı orqanizmin "tənəffüs yollarını" genişləndirdi. Çünki xalqın azad nəfəs alması, yəni hüquq və azadlıqların beynəlxalq standartlarla təmin olunması əsas məqsəd idi. 2009-cu il dəyişiklikləri "ürəyin ritminə" müdaxilə idi. Dövlətin "qan dövranı"nda sabit ritm saxlamaq üçün xalqın seçki iradəsinə daha bir yol açıldı. Bu, həm də siyasi varlığın davamlılığına yönəlmiş addım idi. 2016-cı il dəyişiklikləri isə yeni "sinir sistemi"nin qurulmasına bənzəyir. Vitse-prezidentlik institutu və idarəetmədə çevik mexanizmlər dövlət orqanizminin qərarvermə sürətini, reaksiya qabiliyyətini artırdı. Buradan çıxan nəticə budur ki, Konstitusiya dəyişiklikləri heç vaxt siyasi maraqların məhsulu olmayıb. Onlar xalqın tarixi yaddaşı, dövlətin gələcək vizyonu və özünüdərk prosesinin təzahürüdür. Hüquqi baxımdan bu dəyişikliklər normativ sabitlik və dinamik çevikliyin sintezini göstərdi. Fəlsəfi baxımdan isə sübut etdi ki, dövlətin rolu hər zaman zamanın çağırışlarına cavab verməlidir, əks halda "bədənlə ruh" arasında uyğunsuzluq yaranar. Deməli, Azərbaycan Konstitusiyasına edilən 3 dəyişiklik faktiki bizə göstərdi ki, Konstitusiya daş kitabə deyil. O, xalqın iradəsi ilə nəfəs alan və gələcəyə doğru addımlayan canlı orqanizmdir. Ən böyük töhfə isə budur: Konstitusiyamız xalqın tarixi varlığını və dövlətçiliyimizin gələcək yolunu birləşdirərək hüquqi normativliklə siyasi legitimliyi hər dəfə yenidən uzlaşdırmağı bacardı.

**– Azərbaycan Konstitusiyası ölkəmizin müstəqilliyinin, dövlət suverenliyinin möhkəmlənməsində təminat rolunu oynayır...**

– Azərbaycan Konstitusiyası ölkəmizin müstəqilliyi və dövlət suverenliyi üçün sadəcə, hüquqi sənəd deyil, bütöv bir təminat mexanizmidir. Burada əsas təminat ondan ibarətdir ki, dövlət quruluşu hakimiyyət bölgüsü və idarəçilik prinsipləri normativ şəkildə təsbit olunub. Bu, sabitlik, əslində, suverenliyin daxili zəmanətidir. Hakimiyyət balansı qorunduqca dövlət müstəqilliyi də möhkəmlənir. Konstitusiyanın mühüm tərəfi odur ki, o, dövlət suverenliyini yalnız siyasi gücün atributu kimi deyil, xalqın iradəsinin nəticəsi kimi təqdim edir. Yəni müstəqilliyimiz legitimlik qazanır, hüquqi mətndə xalqın iradəsinin təsdiqi kimi qorunur. Bu, konstitusionalizmin ən əsas prinsipi, hüquqi normativliyin siyasi legitimliklə birləşməsi deməkdir. Eyni zamanda, Konstitusiya Azərbaycanın beynəlxalq hüquq sistemində mövqeyini gücləndirir, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, dövlətlərin bərabərhüquqluluğu prinsipləri daxili hüquqi mətnimizdə təsbit olunmaqla müstəqilliyimizi qlobal hüquq reallığının ayrılmaz hissəsinə çevirir. Bu baxımdan, Konstitusiya həm daxili hüquqi sabitlik, həm də beynəlxalq tanıtmanın təməlidir. Nəhayət, Konstitusiyamız tarixi-milli legitimlik daşıyır. O, 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti irsini və müstəqillik ənənəsini müasir hüquqi kontekstə gətirərək göstərir ki, azadlıq və suverenlik təsadüfi bir hadisə deyil, xalqımızın tarixdən gələn strateji seçimi və zərurətdir.

**– Dünya təcrübəsinə nəzər salsaq, Azərbaycan Konstitusiyasının hansı özəllikləri və üstünlükləri onu digər ölkələrin əsas qanunlarından fərqləndirir?**

– Qeyd etməliyəm ki, Azərbaycan Konstitusiyası dünya təcrübəsi fonunda bir sıra özünəməxsus xüsusiyyətləri ilə seçilir. 1995-ci ildə qəbul edilmiş Konstitusiya Azərbaycanın dövlət müstəqilliyini təsbit edən əsas hüquqi sənəddir. Onun fərqləndirici cəhəti odur ki, burada yalnız siyasi-hüquqi mexanizmlər deyil, həm də xalqın milli iradəsi, tarixi ənənələri və dövlətçilik fəlsəfəsi aydın ifadə olunur. Azərbaycan Konstitusiyası Avropa hüquq ənənələri və milli dəyərlərin vəhdətini yaradır. Burada hüquq və azadlıqların birbaşa tətbiq edilə bilməsi, məhkəməyə müraciət hüququnun geniş tanınması və beynəlxalq hüquqa açıq istinadlar onun mühüm üstünlüklərindəndir. Konstitusiya prezident respublikası modelini təsbit edir. Bu, müstəqilliyin ilk illərində siyasi sabitlik zərurətindən irəli gəlib. Lakin eyni zamanda Milli Məclisin qanunvericilik səlahiyyətləri, Konstitusiya Məhkəməsinin hüquqi nəzarəti və yerli özünüidarəetmə institutlarının yaradılması, hakimiyyət bölgüsü və balansı prinsipini təmin edir. Konstitusiyaya referendum yolu ilə 3 dəfə dəyişikliklər edilib. Bu da ictimai-siyasi inkişafdan, ictimai münasibətlərin inkişafından irəli gəlib və onun tələblərinə uyğunlaşdırılmışdır. Bu dəyişikliklər nəticəsində bələdiyyələr, Ombudsman institutu, yeni məhkəmə-hüquq mexanizmləri təsbit olunmuşdur. Bu, Azərbaycan Konstitusiyasını "donmuş" konstitusiyalardan fərqləndirən əsas üstünlüklərdəndir.

Konstitusiyanın mühüm özəlliklərindən biri də beynəlxalq hüququn norma və prinsiplərinin milli hüquq sistemi ilə sintezidir. Bu, Azərbaycanın beynəlxalq təşkilatlara inteqrasiyasına hüquqi zəmin yaradır. Beləliklə, Azərbaycan Konstitusiyası yalnız idarəetmə mexanizmi deyil, həm də milli kimliyi, müstəqilliyi və hüquqi dövlət prinsiplərini qoruyan fəlsəfi-hüquqi sənəd kimi fərqlənir.

*Söhbəti yazdı:*
***Səxavət HƏMİD***
***XQ***

*Bizim müsahiblər*

# Suveren Azərbaycan – azad Qarabağ!

## *Konstitusiyamızın hüquqi qüvvəsi işğaldan azad edilən bütün ərazilərimizdə təmin olunub*

***Prezident İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamına əsasən, 2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilib. Azərbaycanın Əsas Qanununun tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, strateji inkişaf hədəflərinə doğru keçdiyi qətiyyətli yol, həmçinin işğaldan azad edilmiş ərazilərdə hüquqi dövlət və konstitusion prinsiplərin bərqərar olunması fəaliyyətində Sərəncamın əhəmiyyəti haqqında fikirlərini öyrənmək üçün Qarabağ Universitetinin Humanitar və sosial elmlər fakültəsinin müəllimi, tarix üzrə fəlsəfə doktoru, dosent Bilal Dədəyevlə həmsöhbət olduq:***

**– Bilal müəllim, "Konstitusiya və Suverenlik İli"ndə yaşayırıq. Bu sərəncamın xüsusilə işğaldan azad edilmiş ərazilərimiz üçün əhəmiyyətini necə dəyərləndirirsiniz?**

– Azərbaycanın Ermənistanın hərbi təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində qazandığı tarixi qələbə, eləcə də Qarabağda erməni separatizminə son qoyulması məqsədilə 2023-cü il sentyabrın 19–20-də həyata keçirdiyi uğurlu antiterror tədbirləri ərazi bütövlüyümüzün və dövlət suverenliyimizin tam şəkildə bərpa olunması ilə nəticələndi, ölkə Konstitusiyasının hüquqi qüvvəsi işğaldan azad edilən bütün ərazilərdə təmin olundu.

Prezident İlham Əliyevin 2024-cü il 19 sentyabr tarixli Sərəncamına əsasən, 20 sentyabr Dövlət Suverenliyi Günü elan edilib. Azərbaycan Respublikasının Əsas Qanununun qəbul edilməsindən ötən müddət ərzində tarixi reallıqlar da dəyişib. Həmçinin 2025-ci ildə həm müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsinin 30 illiyi, həm də xalqımızı tam suverenliyə aparan Vətən müharibəsində qələbənin 5-ci ildönümü qeyd olunacaq. Bu mühüm tarixi faktlar nəzərə alınaraq, Prezident İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli sərəncamı ilə 2025-ci ili ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilib. Sərəncam xüsusilə işğaldan azad edilmiş ərazilərdə hüquqi dövlət və konstitusion prinsiplərin bərqərar olunması istiqamətində görülən işlərin yekunlaşdırılması baxımından müstəsna əhəmiyyətə malikdir.

**– Mümkünsə, Konstitusiyamızın tarixinə bir daha nəzər salardıq.**

– Azərbaycanın 1995-ci ildə qəbul olunmuş Konstitusiyası müstəqil dövlətimizin ilk Əsas Qanunu olmaqla respublika tarixində ümumilikdə dördüncü Konstitusiya aktıdır. Məlum olduğu kimi, 1918–1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövlətin əsas qanunverici sənədini qəbul etməyə macal tapa bilməmişdi. Bununla əlaqədar, Azərbaycanın konstitusiya tarixinin böyük bir hissəsi SSRİ dövrünə təsadüf edir. Belə ki, Azərbaycan SSR-in ilk Konstitusiyası 1921-ci il 19 mayda keçirilən I Ümumazərbaycan Sovetlər Qurultayında qəbul edilib. Daha sonra SSRİ Konstitusiyasına uyğunlaşdırılmış şəkildə 1937-ci il martın 14-də ikinci, 1978-ci il aprelin 21-də isə üçüncü Konstitusiya təsdiqlənib. 1980-ci illərin ikinci yarısından başlayaraq həmin sənədə çoxsaylı dəyişikliklər edildi və bu Konstitusiya 1995-ci ildə müstəqil Azərbaycanın Əsas Qanunu qəbul edilənədək qüvvədə qaldı.

Sovet dövrünün konstitusiya mətnlərindən fərqli olaraq, 1995-ci ildə qəbul olunmuş Konstitusiya "Xalqın Konstitusiyası" adlandırıldı. Bu sənəd Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ilk dəfə müstəqil Azərbaycan Respublikasının vətəndaşları tərəfindən ümumxalq səsverməsi – referendum yolu ilə qəbul edilib. Konstitusiyanın hazırlanması Ümummilli liderin siyasi iradəsinin və dövlətçilik təfəkkürünün təcəssümü idi. Heydər Əliyev sənədin yalnız dövrün tarixi-siyasi reallıqlarını deyil, həm də xalqın milli-mənəvi dəyərlərini özündə əks etdirməsinə xüsusi önəm vermişdir. Onun dediyi kimi, "Konstitusiya xalqın Konstitusiyasıdır, hər bir vətəndaşın Konstitusiyasıdır".

Konstitusiyaya əsasən, Azərbaycan Respublikasının ərazisi vahid, toxunulmaz və bölünməzdir. Lakin sənədin qəbul olunduğu dövrdə dövlətimizin təqribən 20 faiz torpaqları işğal altında idi. Bu vəziyyət 1988–1993-cü illərdə hakimiyyətdə olmuş qüvvələrin yarıtmaz fəaliyyəti və yanlış siyasi addımları nəticəsində yaranmışdı. Ümummilli liderin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışından sonra onun qarşısında duran əsas vəzifə də məhz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq idi.




1994-cü il 12 may tarixində imzalanmış "Bişkek protokolu" ilə atəşkəs əldə edildikdən sonra Heydər Əliyev məsələnin beynəlxalq müstəvidə ədalətli həlli üçün ciddi diplomatik təşəbbüslər göstərmişdir. Bu baxımdan, ATƏT-in 1996-cı il 2–4 dekabr tarixlərində keçirilmiş Lissabon Sammiti xüsusi əhəmiyyətə malikdir. Sammitdə Ermənistan istisna olmaqla, iştirakçı 53 dövlət Azərbaycanın ərazi bütövlüyünü açıq şəkildə tanımış və dəstəkləmişdir. Bu, Azərbaycanın beynəlxalq aləmdə diplomatik uğuru idi və gələcək qələbələrimizin ideya-siyasi bazasını təşkil etdi. Ermənistanın o zamankı prezidenti Levon Ter-Petrosyanın etiraf etdiyi kimi, "erməni diplomatiyasının uğursuzluqlarının təməli məhz Lissabon sammitində qoyuldu".

**– Proseslərin inkişafındakı dönüş nöqtəsini şərtləndirən əsas amillər hansılar oldu?**

– Heydər Əliyevin vəfatından sonra onun siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev münaqişənin həlli üçün güclü iqtisadiyyat, güclü ordu və praqmatik xarici siyasət modelini əsas strateji istiqamətlər kimi müəyyənləşdirdi. Ölkədə hərbi potensialın artırılması, regionların sosial-iqtisadi inkişafı, beynəlxalq layihələrin uğurla reallaşdırılması nəticəsində Azərbaycan öz qüdrətini daha da artırdı, siyasi nüfuzunu və mövqeyini möhkəmləndirdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın apardığı uğurlu xarici siyasətin əlamətlərindən biri də "müdafiə konsepsiyasından" "hücum konsepsiyasına" keçilməsi idi. Bu konsepsiyaya keçməyin əsas səbəbləri kimi aşağıdakı beynəlxalq siyasi vəziyyət göstərilə bilər:

– Ermənistan ərazilərimizi talayıb, yandırıb, dağıdaraq xarabalıqlara çevirib;

– ATƏT-in Minsk qrupu mənasız və nəticəsiz səfərlər və görüşlər keçirir;

– Beynəlxalq hüquq iflic vəziyyətdə yatır;

– Dünya ictimaiyyəti, başqa vaxt insan haqlarından, demokratiyadan, qanunlardan bəhs edən qurum və təşkilatlar isə ən yaxşı halda müəyyən bəyanat və açıqlamalarla kifayətlənir...

**– Ancaq bu hal uzun müddət davam edə bilməzdi...**

– Bəli. Dövlətimizin başçısı 2006-cı ilin avqustunda xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və diplomatik nümayəndəliklərimizin rəhbərləri ilə görüşdə Azərbaycanın rəqibləri və düşmənlərinə qarşı diplomatik hücum tezisi ilə çıxış etdi. Ölkənin yeni vəziyyəti isə daha fəal xarici siyasət yürütməyi mümkün edirdi və bu xətt siyasi gündəliyə "hücum diplomatiyası" kimi daxil oldu. "Hücum diplomatiyası" ilk növbədə Ermənistanın işğalçı xarici siyasətini ifşa etmək üçün bütün qüvvələri səfərbərliyə almağı və şəraiti diktə etməyi nəzərdə tuturdu. Bu konsepsiya sonradan "hücum taktikasına" çevrildi və Azərbaycan Ordusu 2016-cı ilin Aprel döyüşlərində mühüm hərbi uğurlar qazandı. Ardınca 2018-ci ilin mayında "Günnüt əməliyyatı" həyata keçirildi və strateji yüksəkliklər üzərində nəzarət bərpa edildi.

Azərbaycanın həm beynəlxalq müstəvidə qazandığı uğurlar, həm də döyüş meydanındakı qələbələri Ermənistanda müxtəlif reaksiyalarla qarşılandı, nəticə etibarilə ölkənin daxili ictimai-siyasi vəziyyətində gərginliklərə səbəb oldu. Ermənistan siyasi arenasında uzun müddət iqtidarda olan və "Qarabağ klanı" kimi tanınan siyasi qüvvələr hakimiyyətdən kənarlaşdırıldı, onların yerinə isə peşəcə jurnalist Nikol Paşinyan gətirildi. Lakin siyasi təcrübəsi məhdud və dövlət idarəçiliyində səriştəsiz olan Paşinyanın Qarabağa qanunsuz səfəri zamanı sərxoş vəziyyətdə səsləndirdiyi "Qarabağ Ermənistandır və nöqtə işarəsi" kimi populist, məsuliyyətsiz bəyanatı Azərbaycan-Ermənistan münaqişəsinin gərginləşməsinə və yeni müharibə təhlükəsinin yaranmasına gətirib çıxardı. Bu siyasi səhv beynəlxalq tribunalarda da ifşa edildi. 2019-cu il oktyabrın 3-də Soçidə keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında Azərbaycan Prezidenti Paşinyanın bəyanatını tutarlı arqumentlərlə təkzib edərək, MDB ölkələrinin dövlət başçıları qarşısında Ermənistan rəhbərini çətin vəziyyətdə qoydu. Dövlətimizin başçısının həmin müzakirədə səsləndirdiyi "Qarabağ Azərbaycandır və nida işarəsi!" ifadəsi həm siyasi, həm də tarixi baxımdan mühüm bir dönüş nöqtəsi oldu, Azərbaycanın mövqeyini dünya ictimaiyyəti qarşısında qətiyyətlə bəyan edən şüara çevrildi.

**– Nəticələr isə, təbii ki, özünü çox gözlətmədi. Bilal müəllim, "Konstitusiya və Suverenlik İli" prizmasından yeni reallıqlara baxışla söhbətimizi yekunlaşdıraq...**

– Prezident İlham Əliyevin prinsipial mövqeyi və qətiyyətli rəhbərliyi nəticəsində Azərbaycan Ordusu 2020-ci ilin Vətən müharibəsində tarixi Qələbə əldə edib, 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror tədbirləri ilə ölkənin ərazi bütövlüyü tam bərpa olunub və Konstitusiyanın hüquqi qüvvəsi bütün ərazilərimizdə təmin edilib. Bunun ardınca, Azərbaycan tarixində ilk dəfə olaraq bütün əraziləri və bütün vətəndaşları əhatə edən ümummilli seçki prosesi – 7 fevral 2024-cü ildə keçirilmiş növbədənkənar Prezident seçkiləri baş tutdu ki, bu da Azərbaycanın tam suveren dövlət kimi tarixində yeni mərhələ açmış oldu.



Nəhayət, çoxsaylı uğurların məntiqi davamı kimi, 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ arasında imzalanmış üçtərəfli sülh Bəyannaməsinin paraflanması mühüm tarixi hadisədir. Bu sənəd yalnız Azərbaycan-Ermənistan münasibətlərində yeni siyasi mərhələnin başlanğıcı deyil, həm də regionda uzunmüddətli sülhün və təhlükəsizliyin təmin olunması baxımından əhəmiyyətli bir addım kimi dəyərləndirilir. Azərbaycanın beynəlxalq aləmdə qazandığı diplomatik nailiyyətlər, döyüş meydanında əldə etdiyi qələbələr və ardınca reallaşdırılan dövlətçilik islahatları ölkəmizin suverenliyinin möhkəmlənməsi, regional liderliyinin təsdiqlənməsi və beynəlxalq hüququn aliliyinin təmin olunması baxımından fundamental əhəmiyyət kəsb edir.

Beləliklə, "Konstitusiya və Suverenlik İli"ndə əldə edilən uğurlar müstəqil Azərbaycanın dövlətçilik tarixində mühüm mərhələ olmaqla yanaşı, xalqımızın suverenlik uğrunda əzmkar mübarizəsinin yekun simvolu kimi xüsusi elmi-siyasi və ictimai önəm daşıyır.

***Söhbəti qələmə aldı:***
***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

***Xankəndi***

# Konstitusiya xalqın azadlığının müqəddəs kitabıdır

**Prezident İlham Əliyevin 2024-cü il dekabrın 28-də imzaladığı sərəncam ilə 2025-ci il Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Məqsəd xalqımızın milli-mənəvi dəyərlərinə, azadlıq, istiqlal arzularına, humanizm və bəşəri ədalət prinsiplərinə əsaslanan sivil, demokratik, hüquqi dövlət quruculuğu prosesini daha da gücləndirməkdir. Mövzu ətrafında Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının baş müəllimi, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Məhsəti Əliyeva ilə söhbət etmişik.**



**– Məhsəti xanım, sizcə, hər birimizin haqlı olaraq qürur mənbəyi olan Konstitusiyamız ölkəmizdə sivil, demokratik proseslərin hərəkətverici qüvvəsinə çevrilə bilibmi?**

– Bilirsinizmi, Azərbaycan adlı müstəqil ölkənin vətəndaşı olaraq mənim həyatımın tam yarısı Konstitusiyamızın qəbulundan sonrakı illərə təsadüf edir. Demək istəyirəm ki, bu mühüm sənədin cəmiyyətə verdiyi danılmaz töhfələri şəxsən öz həyatımda və cəmiyyətin inkişafında izləmək və bununla fəxarət duymaq fürsətlərim olub. Ona görə də sizin ilk sualınıza birmənalı olaraq yalnız "bəli" cavabı vermək olar.

ABŞ-ın ən nüfuzlu prezidentlərindən olan Linkolnun belə bir fikri var: "Konstitusiya xalqın azadlığının müqəddəs kitabıdır". Düşünürəm ki, Əsas Qanunumuzun cəmiyyətimizin son üç onillikdə həyatın bütün sahələrində əldə etdiyi parlaq uğurlarda böyük payı var.

Zaman həyatın güzgüsüdür. Azərbaycan vətəndaşları Konstitusiyamıza dərin hörmət və rəğbət hissi ilə yanaşırlar. Bu, son dərəcə mühüm amildir. Vətəndaş üzvü olduğu cəmiyyətin inkişafında özünün rolunu və vəzifələrini görür və adekvat olaraq yüksək məsuliyyət hissi daşıdığını dərk edir.

Milli dövlətçiliyimizin əsas atributlarından biri olan Konstitusiyamız 1995-ci ilin 12 noyabrında dahi siyasətçi Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə qəbul edilmizdir. Ümummilli lider dəfələrlə demişdir ki, müstəqilliyi qorumaq onu əldə etməkdən daha çətindir. Azərbaycanın milli dövlətçilik quruculuğunun möhkəmlənməsində Əsas Qanunumuzun rolu son dərəcə böyükdür və bundan sonrakı onilliklər ərzində də Konstitusiyamız xalqımızın və ölkəmizin hərtərəfli tərəqqisinə xidmət edəcək.

Fəxrlə deyə bilərik ki, Azərbaycan Konstitusiyası dünyanın ən sivil, ən mükəmməl ali qanunlarından biridir! Mən bu fikri gəlişi gözəl söz xatirinə demirəm. Həyat bu həqiqəti təsdiq etmişdir. Konstitusiyamız haqlı olaraq bugünkü siyasi, ideoloji, humanitar uğurlarımızın etibarlı bünövrəsi hesab olunur. Azərbaycan bütün dünyada sivil, ədalətli, hüquqi dövlət quruculuğu sahəsində yüksək nailiyyətlər qazanmış ölkələrdən sayılır.

**– "Konstitusiya və Suverenlik İli"nin cəmiyyətə ötürdüyü mesajın qayəsi nədən ibarətdir?**

– Möhtərəm Prezidentimiz İlham Əliyevin 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməsinin dərin rəmzi mənası var. Belə ki, bu qərar, əslində, həm hüquqi, həm də siyasi yaddaşımızın möhkəmlənməsinə xidmət edir. Eyni zamanda bu, gələcək nəsillərə istiqlalımızın əbədi olacağı ilə bağlı verilən tarixi mesajdır.

Tam əminliklə deyə bilərəm ki, cənab Prezidentin imzaladığı haqqında bəhs etdiyimiz Sərəncam adi sənəd deyil. Fikrimcə, bu tarixi qərar, eyni zamanda xalqımızı yüksək hüquqi düşüncəyə daha da yaxınlaşdırır və milli dövlətçilik ənənələrini gələcək nəsillərə ötürmək baxımından mühüm strateji əhəmiyyət daşıyır.

Azərbaycanın dövlətçilik tarixi bu böyük həqiqəti artıq parlaq şəkildə nümayiş etdirir: müstəqillik, milli istiqlalımız xalqımız üçün ən ali dəyərdir. Tarixin bütün dövrlərində xalqımız öz milli azadlığını, suveren hüquqlarını qorumaq uğrunda mübarizə aparmış və bu yoldan heç vaxt geri dönməmişdir.

Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin siyasi, hüquqi və mənəvi dayağıdır. Ulu öndər Heydər Əliyevin sözləri isə bu həqiqəti təsdiqləyir: "Konstitusiya xalqın iradəsini ifadə edən ali qanundur. Onun əhəmiyyəti ondan ibarətdir ki, dövlətin müstəqilliyini və gələcəyini təmin edir".

**– Konstitusiyamız vətəndaşların fundamental hüquq və azadlıqlarının qorunması üçün qarant rolunu oynayır. Azərbaycan vətəndaşları bundan hansı səviyyədə bəhrələnə bilirlər?**

– Bəşər tarixi göstərir ki, həqiqi azadlıq hüququn qorunması ilə mümkündür. Azərbaycan vətəndaşı siyasi cəhətdən yetkindir, öz konstitusion hüquq və vəzifələrini yaxşı bilir və onlara əməl edir.

Sualınıza birmənalı olaraq cavab verirəm ki, bəli, Azərbaycan Respublikasının Konstitusiyası tam funksionaldır və ölkə vətəndaşları tərəfindən ona bəslənilən ümidlərin tamamilə yerinə yetirilməsi üçün şərait yaradır. Bu fikri ona görə vurğulayıram ki, Əsas Qanunumuzda qeyd edildiyi kimi, Azərbaycan dövlətinin mənbəyi xalqdır, onun arzu və istəkləri, ideya və prinsipləridir. Ölkəmizdə xalq və iqtidar arasında sarsılmaz birlik və harmoniya təşəkkül tapmışdır. Şəxsi müşahidələrim əsasında deyə bilərəm ki. Azərbaycan vətəndaşı həm özünün hüquqlarının, həm də Vətəninin ərazi bütövlüyünün qorunduğunu görəndə qəlbi qürur hissilə döyünür. Azərbaycan xalqı öz istiqlalını göz bəbəyi kimi qorumaq əzmindədir, heç bir qüvvə ölkəmizin suverenliyinə qarşı çıxa bilməz.

**– Bu gün Əsas Qanunumuz müstəqil ölkəmizin bütün suveren ərazisində işləyir, fəaliyyət göstərir və məmləkətin inkişaf və tərəqqisinə xidmət göstərir. Bu barədə də fikirlərinizi bilmək istərdik?**

– 2020-ci ilin payızında xalqımız düşməni torpaqlarımızdan qovdu. 2023-cü ilin 19-20 sentyabrında isə ərazilərimiz tam təmizləndi. Bununla da Konstitusiyamız bütün ərazilərimizdə fəaliyyət göstərməyə başladı.

44 günlük Vətən müharibəsində əldə olunan Zəfər həm siyasi, həm də mənəvi baxımdan Azərbaycan tarixində dönüş nöqtəsi oldu. Qeyd etmək lazımdır ki, siyasi aspektdən Azərbaycan beynəlxalq hüququn təminatçısı kimi öz torpaqlarını azad etdi. Bu Qələbə bizim ərazi bütövlüyümüzün bərpası deməkdir. Azərbaycanın beynəlxalq hüquqla tanınmış torpaqları azad olundu, BMT qətnamələri faktiki olaraq icra edildi. Bu yüksək missiyanı Azərbaycan xalqı həyata keçirib, özü də müdrik, qətiyyətli, müzəffər Ali Baş Komandanın liderliyi ilə!

Bu Tarixi Zəfər müstəqil Azərbaycanın dövlət suverenliyinin möhkəmlənməsi deməkdir. Müharibədə əldə olunan hərbi-siyasi uğur Azərbaycanın regionda söz sahibinə çevrilməsinə, Cənubi Qafqazda yeni geosiyasi reallıqların formalaşmasına gətirib çıxardı. Qarabağ münaqişəsi dünya ictimaiyyətinə göstərdi ki, Azərbaycan öz haqqını həm siyasi, həm də hərbi yolla qorumaq gücündədir.

Xalqı birləşdirən əsl güc mənəvi ruhdur. Bizim Zəfərimiz həm də yeni Azərbaycan reallıqlarını – Qalib Dövlət, Qalib Xalq obrazını yaratdı.

**– Siz ölkəmizin nüfuzlu ali təhsil müəssisələrindən birində çalışırsınız. Tələbələrinizi Konstitusiyamızın məğzi və mahiyyəti barədə kifayət qədər maarifləndirə bilirsinizmi?**

– Fəxrlə vurğulamaq istərdim ki, bu gün Azərbaycanda milli dəyərlərə qəlbən bağlı olan, yüksək intellektli gənclər yetişir. Pedaqoji fəaliyyətimlə əlaqədar olaraq onlarla, demək olar ki, hər gün ünsiyyətdə oluram. 44 günlük şanlı savaşın bugünkü gənclərin vətənpərvər ruhda formalaşmasında rolu böyükdür. Tarixi Zəfərimiz, ilk növbədə milli qəhrəmanlıq nümunəsidir. Onların həyat yolu gənclərə göstərir ki, torpaq, bayraq və dövlət hər şeydən üstün tutulmalıdır.

Gənclər üçün şəhidlərin xatirəsi müqəddəs bir borc anlayışıdır. Bu, onların məsuliyyət hissini artırır, dövlətinə və millətinə xidmət etmək istəyini gücləndirir. Şəhidlərimizin qəhrəmanlığı gənclərin milli kimliyini formalaşdırır, onların həmrəyliyini möhkəmləndirir.

***Söhbəti qələmə aldı:***
***Məsaim ABDULLAYEV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
20 sentyabr 2025-ci il, şənbə

# “Zəfər yolunun davamçıları”



**“Konstitusiya və Suverenlik İli” çərçivəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının birgə təşkilatçılığı ilə Ağbulaq İstirahət Mərkəzində xüsusi kateqoriyadan olan uşaqlar üçün “Zəfər yolunun davamçıları” adlı yay düşərgəsi təşkil edilib.**

Bu günlərdə düşərgə iştirakçıları ilə görüş keçirilib. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli söhbət zamanı qeyd edib ki, gələcəyimiz olan uşaqlara xüsusi qayğı Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva da bu istiqamətdə siyasəti uğurla davam etdirir, uşaqlara göstərilən diqqət və qayğının miqyası ildən-ilə



artır. Bu gün təşkil olunan “Zəfər yolunun davamçıları” yay düşərgəsi də dövlət-uşaq siyasətinin tərkib hissəsi kimi mühüm əhəmiyyət daşıyır.

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” barədə məlumat verən səlahiyyətli nümayəndənin müavini deyib ki, Dövlət Proqramında ölkəmizin sabahı olan uşaqların təhsili, sağlamlığı və layiqli vətəndaş kimi böyüməsi üçün tədbirlərin görülməsi əhatəli əksini tapıb.

Samir Seyidəhmədli düşərgənin yeni dostluqlar qazanılması, birlik və vətənpərvərlik duyğularının yüksəldilməsi baxımından yaxşı fürsət olduğunu bildirib, uşaqlara yaradılan şəraitdən səmərəli istifadə etməyi tövsiyə edib, onlara xoş və mənalı istirahət arzulayıb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova qeyd edib ki, Naxçıvanda daimi monitorinqlər aparılır, sosial qayğıya ehtiyacı olan, o cümlədən valideyn himayəsindən məhrum olan uşaqların təhsili, sağlamlığı, reabilitasiyası və cəmiyyətə inteqrasiyası təmin edilir. O cümlədən yeni tədris ili ərəfəsində məktəbli ləvazimatları, dərs vəsaitləri, eləcə də xüsusi və bayram günlərində müxtəlif hədiyyələr təqdim olunur.

Azərbaycan Respublikası Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev Naxçıvanda xüsusi kateqoriyadan olan uşaqların iştirakı ilə düşərgə və digər tədbirlərin keçirilməsinin davamlı xarakter aldığını vurğulayıb, yay və qış düşərgələrinin bundan sonra da davam etdiriləcəyini bildirib. Uşaqlar düşərgənin təşkilinə görə minnətdarlıq ediblər.

***XQ***

# Milli qürurumuzun poetik təcəssümü

**Tanınmış şair Ramiz Qusarçaylı vətənpərvərlik ruhunda yazdığı şeir və poemaları ilə millətin bütövlük “nəbz”ini tutan, mübarizə əzmini gücləndirən istedadlı qələm sahiblərindəndir. Təsadüfi deyil ki, şairin “Azərbaycan bayrağı” şeiri elm və təhsil nazirinin əmrinə əsasən, ali məktəblərin bütün ixtisasları üçün təsdiqlənib nəşr olunmuş “Azərbaycan dili və nitq mədəniyyəti” adlı dərslik kitabında, Dövlət İmtahan Mərkəzinin 9-cu siniflər üçün Azərbaycan dilinin test kitabında və 8-ci siniflər üçün “Azərbaycan dili” dərslik kitabında yer alıb. Müəllifin “Şuşalı vətən” və “Gözün aydın, Qarabağ” adlı şeirləri isə 6-cı və 7-ci siniflər üçün “Ədəbiyyat” dərsliklərinə salınaraq tədris edilir. Onu da xatırladaq ki, şanlı ordumuzun möhtəşəm Qarabağ qələbəsinə həsr edilmiş “Zəfər Paradı”ndan Azərbaycan Televiziyasının çəkdiyi canlı yayım da məhz “Azərbaycan bayrağı” şeiri ilə açılmışdı.**

Qəzetimizin “Konstitusiya və Suverenlik İli”nə həsr edilən xüsusi buraxılışını hazırlayarkən çağdaş poeziyamızın öncüllərindən olan şair Ramiz Qusarçaylı ilə görüşüb duyğu və düşüncələrini dinlədik. Onun dediklərini oxucularımıza təqdim edirik:

– Mən özümü əbədi və ədəbi Vətən taleyi olan şairlərdən sayıram.



Şanlı dövlətçilik tariximizin mühüm əhəmiyyətə malik olan “Konstitusiya və Suverenlik İli” kimi əlamətdar hadisəni yaşamaq mənim üçün çox qürurvericidir. Bu şərəfli yaşantı mənə və bütövlükdə xalqımıza Ordumun Zəfər yolu, yurdumun hünər yolu nəticəsində nəsib oldu.

Rəşadətli ordumuz öz mətin sərkərdəsinin mahir döyüş taktikası ilə “Dəmir yumruq” əməliyyatına rəvac verdi, döyüş meydanlarında ölkə tarixinə, vətən adına ilahi anlar həkk etdi, cavanlı-qocalı bu səfərbərliyə, oğullu-qızlı bu saf birliyə zəmin yaratdı, barmağı silahın tətiyi üstə, üçrəngli bayrağı ürəyi üstə yürüyən əsgərlərimizin dağları titrədən nərə səsləri, buzları əridən od nəfəsləri zəfər hayqırtılarına yol açdı.

Möhtəşəm 44 günlük Zəfər yolunun tarixi uğuru kimi 200 ildən çox bir dövrdə davam edən ermənilərin düşmənçilik siyasətinin darmadağın olunması, Ağdamın, Kəlbəcərin, Laçının və digər yaşayış məskənlərimizin çevik antiterror əməliyyatları nəticəsində azad edilməsi, “qonduğu yerə pir dediyim, kölgəsi düşən torpağı gözümə çəkdiyim” üçrəngli bayrağımızın Qarabağın döyünən ürəyində – Şuşada dalğalanması hər birimizin qürur yerimiz oldu.

Bizi xaraba şəhərlərin, viran kəndlərin, dağıdılmış gorgahların, üstünü ot basan cığırların, daşları daşınan hasarların, sınıq şüşələri divar dibinə səpələnən pəncərələrin, qarğalar dənləyən boş gizlizlərin, sacında nənələrin ruhu qovrulan ocaqların qınağından qurtaran Zəfər salnaməmiz olan İkinci Qarabağ müharibəsi – Vətənin üzüağ mübarizəsi xalqımızın milli-siyasi maraqlarını təmin etməsi ilə yanaşı, ölkəmizin regionda beynəlxalq nüfuzunun güclənməsinə gətirib çıxardı.

*44 günlük Zəfər mənzərələri,*
*Qalibiyyət, hünər mənzərələri,*
*Bu, film deyildi,*
*Bu, Qarabağda*
*Vətən qovğasıydı,*
*Vətən qalıydı,*
*Şanlı müharibə ssenarisi –*
*Möhtəşəm Qələbə serialıydı!*

Strateji üstünlüyü və Qələbəni təmin etmiş dövlətimizin məqsədyönlü siyasəti, xalqın güc və birlik rəmzinə çevrilmiş əzm və iradə birliyi, ölkə rəhbərinə etibarı və ehtiramı düşmənə sarsıdıcı zərbələr endirilməsinə zəmin yaratdı. Azərbaycanın artan iqtisadi qüdrəti və siyasi nüfuzu sayəsində ölkəmiz bir daha beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirdi, öz haqq savaşında zəfər çaldı.

*Ali Baş Komandan,*
*ali sərkərdə,*
*Həm canlı efirdə,*
*həm də səngərdə,*
*Ölkənin mətbuat fədaisiydi.*
*Təmkini, məntiqi, fəhmi yerində,*
*Mövqeyi, baxışı, zəhmi yerində,-*
*Qarabağ bizimdir!*
*Azərbaycandır!-*
*Hayqırıb kükrəyən “Nida” səsiydi!*

Bu ilahi qələbə serialını və məğrur “Nida” səsini doğulub boya-başa çatdığım, qədim tarixə, bənzərsiz coğrafiyaya malik xanlıq mərkəzlərindən biri olan, 30-a yaxın millətin, xalqın nümayəndələrinin əsrlər boyu mehriban qonşuluq, vəfalı dostluq və qardaşlıq zəminində yaşadığı və Rusiyanın burnunun ucunda yerləşən doğma Qubada yaşamağımın bir ayrı önəmi var. Ona görə ki, Vətənin şimal səngəri adlanan bu bölgənin şimala bu qədər ərazi yaxınlığı bizi həmişə ayıq-sayıq olmağa, ssenarisi o tayda yazılan oyunlara vaxtında və yerində cavab verməyə sövq edir. Çünki konstitusiyamız və suverenliyimiz kimi müqəddəs dəyərlərimizin hər birimiz tərəfindən göz bəbəyi kimi qorunması, ölkənin gələcək inkişafı üçün mühüm rol oynaması və ictimai şüurda möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyyət daşıyır.

*

## Vətən

**(poemadan parça)**

*...İnsanlar axışdı səfərbərliyə,*
*Tanrı da ruh verdi bu saf birliyə,*
*Cavanlar can atdı müharibəyə,*
*Qocalar can atdı müharibəyə,*
*Qardaşlar can atdı müharibəyə,*
*Bacılar can atdı müharibəyə,*
*Pozulan növbələr,*
*itən sıralar,*
*Yaraşığı idi səfərbərliyin,*
*Yaraşığı idi dəmir birliyin,*
*Hamı nəfər-nəfər səfərbər oldu,*
*Həm əsgər,*
*həm zabit,*
*həm rəhbər oldu,*
*Cəbhə səngər-səngər kükrədi, daşdı,*
*Səngər əsgər-əsgər izdihamlaşdı...*
*Əsgərə qardaşım deyən general,*
*Yeməyi bir qabda yeyən general,*
*Güllə yağmurunda komandirinə, –*
*Siz evlisiniz,*
*mənsə subayam,*
*Deyib alov kimi çatılan əsgər,*
*Güllə qabağına atılan əsgər...*
*İntiqam hissiylə alışan əsgər*
*Yatıb yuxuda da “Şuşam” deyirdi.*
*Üz-gözü qanına bulaşan əsgər*
*Kamera önündə gülümsəyirdi.*
*Əl qoyub göynəyən qəlpə yerinə*
*Vətənə can qurban deyən əsgərim,*
*Şığıyıb erməni səngərlərinə*
*Dişiylə dəmiri əyən əsgərim.*
*Oğul varıydı ki, qardaşı ilə*
*Bir yürüyürdülər, bir qoşurdular.*
*Oğul da varıydı atası ilə*
*Elə bir səngərdə vuruşurdular.*
*Dörd uşaq atası qırx dörd gündə*
*Dörd dəfə getmişdi komissarlığa,*
*Adını könüllü yazdırmaq üçün.*
*Deyirdi, qoy gedim cəbhəyə mən də,*
*Qoy alım oğlumun intiqamını,*
*Qoy gedim yağını susdurmaq üçün.*
*Gedirdi gözlərdən yurd acıları, –*
*Gəlirdi birliyə təhkimlərimiz.*
*Könüllü gəlirdi tibb bacıları,*
*Könüllü gəlirdi həkimlərimiz.*
*Orduya yazdırıb təqaüdünü,*
*Qürurla yeriyən qoca varıydı.*
*Evdəki cehizlik yorğan-döşəyi*
*Səngərə göndərən qızın əlində*
*Bəy yolu gözləyən xonça varıydı.*
*Tabutu xonçayla qarşılayırdı,*
*Xonçaya qırmızı bağlayan ana.*
*Qucub tabutunu şəhid oğlunun*
*Oynaya-oynaya ağlayan ana.*
*Dinləyirdi hər gün telefonunda,–*
*Səsindən savaşı yaşayan qadın.*
*Həyat yoldaşının cənazəsini,*
*Qürurla çiynində daşıyan qadın.*
*Ərən vadiləri,*
*ər vadiləri,*
*Araz vadiləri,*
*Kür vadiləri,*
*Coşurdu ordumun hər zəfərindən,*
*Kükrəyirdi döyüş səhnələrindən,*
*O taylı, bu taylı qardaş duası,*
*Və əlli milyonluq soydaş duası...*
*Haqq qazandıranlar olsa da hələ,*
*Sərhədsiz erməni vandalizminə,*
*Qafqazın tarixi coğrafiyası*
*Sığınıb ordumun döyüş əzminə,*
*Yenə sərhəd-sərhəd bərpa olurdu,*
*Tarixi ədalət bərpa olurdu,*
*Pozub masalarda yazılanları*
*Döyüş meydanında yazırdı ordum.*
*Söküb quyu-quyu qazılanları*
*Üstə bayrağımı asırdı ordum.*
*Bayraq ən ucaya –*
*Şuşaya qondu,*
*Dərddən yuxalandı, incəldi Vətən!*
*Bayrağın kölgəsi hara toxundu*
*Ay-ay, ulduz-ulduz dincəldi Vətən!*
*Hər yürüş tarixin yeni erası,*
*Hər savaş qələbə əfsanələri.*
*Döyüş meydanında yazılan yazı, –*
*Vətənin Qələbə salnamələri.*

*

*Ali Baş Komandan,*
*ali sərkərdə,*
*Həm canlı efirdə,*
*həm də səngərdə,*
*Ölkənin mətbuat fədaisiydi.*
*Təmkini, məntiqi, fəhmi yerində,*
*Mövqeyi, baxışı, zəhmi yerində,-*
*Qarabağ bizimdir!*
*Azərbaycandır! –*
*Hayqırıb kükrəyən “Nida” səsiydi,*
*Ölkənin mətbuat fədaisiydi!*
*Hər gün bir mərəkə,*
*bir görüş idi,*
*Hər görüş efirdə bir döyüş idi,*
*Fransız gəlirdi gözlərində kin,*
*İsveçli gəlirdi gözündə hiylə.*
*Gələn hər hollandın, hər ingilisin*
*Önünə çıxırdı qətiyyətiylə.*
*Ölkələr gəlirdi Azərbaycana,*
*Hikkələr gəlirdi Azərbaycana,*
*Tələblər gəlirdi Azərbaycana,*
*Qəzəblər gəlirdi Azərbaycana,*
*Sual yağdırırdı Baş Komandana,*
*Düzülürdü qara sapa suallar,*
*Naqolay suallar, qaba suallar,*
*Hər söz mühakimə, hər söz iddia,*
*Hər sözün içində saxta müddəa,*
*Hər gün izah işi, hər gün hesabat,*
*Hər gün təzə səfir, təzə diplomat,*
*Köhnə yanaşmalar, köhnə adətlər,*
*İkili standart, ikili şərtlər...*
*İttiham yağırdı Azərbaycana,*
*Yağırdı əsassız mühakimələr, –*
*Kilsə belə gəldi,*
*xaç belə getdi,*
*Keşişin başında tac belə getdi...*
*“Bayraqdar! kimindi,*
*“Harop” kimindi,-*
*Kimindi sizdəki “F-16”lar,*
*Sizdə döyüşürmü türk əsgərləri,*
*Niyə qayıtmadı,*
*niyə qaldılar...*
*Dünyada Qarabağ adına sanki,*
*Qarabağdan kənar döyüş gedirdi,*
*Gedirdi Avropa ölkələrində,*
*Gedirdi Asiya ölkələrində,*
*ATƏT-in mövqesiz fəaliyyəti*
*Donunca bölgənin qaynar yerində,*
*Gedirdi...*
*media müharibəsi,*
*Bir informasiya müharibəsi...*
*Qərəzli Fransa mediasına,*
*Norveç, Hollandiya mediasına,*
*Ali Baş Komandan çıxıb təkbətək*
*Səbirlə, təmkinlə cavab verirdi,*
*Dünyanın önündə*
*şax dururdu o.*
*Bütün təzyiqlərə sinə gərirdi,*
*Siyasi gücləri susdururdu o.*
*Sual yağmurundan çökürdü efir,*
*Hər sualdan əzab çəkirdi efir,*
*Dünyanın diqqəti Bakıda idi,*
*Gözü özgə gözdə tir gəzənlərin,*
*Bir gözü xəlvəti Bakıda idi,*
*Əli özgə cibdə yer gəzənlərin*
*Məkrli niyyəti Bakıda idi...*
*Bilsə də xisləti şərdi, böhtandı,*
*Hay yenə öz murdar məkrinə uydu.*
*Kürsüdən “Qarabağ Ermənistandır”, –*
*Deyib öz fikrinə,*
*nöqtə də qoydu.*
*Hay hardan biləydi,*
*nədən biləydi,*
*Bu cılız “nöqtənin”,*
*bu cır “nöqtənin”*
*Başına yumruqlu “Nida” gələcək.*
*Hayın uydurduğu hər xəritənin*
*Hər saxta rənginə vida gələcək...*

*

*Güman keçməz dağları,*
*Aşa-aşa qayıtdıq,*
*Yumruq kimi birləşib*
*Coşa-coşa qayıtdıq,*
*Biz Kəlbəcər-Kəlbəcər*
*Şuşa-Şuşa qayıtdıq,*
*Başın uca, üzün ağ,*
*Gözün aydın, Qarabağ!*
*Hər döyüşün başında*
*“Yurd yeri” var, “Cəngi” var,*
*Hər həmlədə ordumun*
*Nərəsi var, cəngi var,*
*Cəngavər oğulların*
*Şanlı zəfər rəngi var,*
*Gör nə deyir Lələdağ, –*
*Gözün aydın, Qarabağ!*
*Hər qazi bir qaladı, –*
*Bir qələbə örnəyi,*
*Şəhid-şəhid ovundu*
*Bu torpağın göynəyi,*
*Göydə mələklər öpdü*
*Neçə qanlı köynəyi,*
*Bu müqəddəs nura bax,*
*Gözün aydın, Qarabağ!*
*Vətəndi bu savaşın*
*Hər sirri, hər sehri də,*
*Bir atanın öyüdü,*
*Bir ananın mehri də,*
*Uçundu Göyçə-Göyçə*
*Zəngəzur da, Mehri də,*
*Silkələndi Ağrıdağ*
*Gözün aydın, Qarabağ!*
*Bir fırtına kükrədi*
*Qisas adlı limandan,*
*Yer əsdi, göy titrədi*
*Bu anddan, bu imandan,*
*Xalqın güvənc yeridi*
*Ta Ali Baş Komandan,*
*Dalğalan bayraq-bayraq,*
*Gözün aydın, Qarabağ!*

*Təqdim etdi:*
***Əli NƏCƏFXANLI***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3560
SİFARİŞ 1931
QİYMƏTİ 60 qəpik

Məsul redaktorlar
Tahir AYDINOĞLU,
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00